

# Məmməd İSMAYIL

Roman

**Məmməd İsmayıl. İz.**
**Bakı: TEAS Press Nəşriyyat evi, 2015. – 236 s.**

**ISBN 978-9952-494-56-3**

www.teaspress.az

**© TEAS Press Nəşriyyat evi, 2015**

Bütün hüquqları qorunur.
Bu nəşrin heç bir hissəsi naşirin əvvəlcədən verilmiş yazılı icazəsi olmadan elektron, mexaniki, fotonüsxələrin çıxarılması, səsyazma və ya hər hansı məlumat bazası və axtarış sistemləri vasitəsilə təkrar nəşr edilə və ya ötürülə bilməz.

# ATA ÖMRÜ MİF KİMİ

(M.İsmayılın "İz" romanı haqqında bir neçə söz)

Azərbaycanın böyük şairi Məmməd İsmayılın bu əsəri yazması labüd və qaçılmaz idi. Şeirlərindən və poemalarından gəldiyim qənaət budur.

Bu roman Məmməd İsmayılın tale kitabıdır. İnsanın yaşam və iç təcrübəsi memuar, xatirə, gündəlik formasında da ola bilərdi. Moris Blanşo deyirdi ki, istənilən iç təcrübəsi başqasına yönəlir.

Məmməd İsmayıl yaşam hekayəsinə bədii roman forması vermək üçün hadisələri, iç yaşantılarını mifoloji məkana keçirir.

Bu roman ruhun yasam hekayətidir. Bu hekayət Məmməd İsmayıl üçün o qədər sərt və gerçəkdir ki, ondan qurtulmağın bircə yolu vardı: Muradın ömrünü mif və metafora kimi yazmaq!

"İz" romanın adı və təhkiyədə sadəcə təkrarlanan bir sözcük deyil, fəlsəfi anlamdır. Bu dünyada hər kəsin, hər nəsnənin izi var. Epiqraflarda "iz" sözü sıx-sıx keçir: "Dünyanın silinməz izi ya göz yaşı, ya da qan izidir", yaxud "Hər acı özündən sonra bir iz buraxır". Aşağıdakı dialoqda sözün poetik nüvəsini görmək olar:

"– O qum üstündə gördüyün izlərimi deyirsən? Onlar sənin yox, mənim izlərimdi.

– Bəs mənim izlərim haradadır?

– Sənin izlərin olmazdı.

– Niyə ki?!

– Çünki çətin anlarında sən mənim qucağımda idin..."

XX yüzil fransız filosofu E.Levinasın fikrincə, "İz" heç vaxt burda olmamış, artıq həmişəlik ötüb keçmiş nəsnənin mövcudluğudur".

Bu nəsnənin mövcudluğu müəllifin başqa əsərlərində də keçir. "Elçilər qayıtdı" poemasından bir bəndi xatırlayaq:

Qucağı yarpaqlı yollara çıxsaq,
Xəzan dünyasına aparar bizi;
Solan çiçəklərə, güllərə baxsaq,
Nəzəri cəlb edər dörd ayaq izi.

Romanda qəbiristanlıq səhnəsinin diqqətçəkən detalı səkkiz ayaq izidir: "...qarlı el yolu ilə səkkiz ayaq izi qəbiristana".

"İz" romanı, əslində, bir metaforik mətndir. Metaforik təfəkkür tipi müəllifin şairliyindən gəlirsə, digər tərəfdən, yaşam təcrübəsini, müdrikliyini alleqorik-aforistik dilə çevirməsi ilə əlaqədardır. Qaraçı qızın bazarda Murada dediklərini xatırlayın: "Unutma, həyatın bu gün bazarda satdığın çətənə ceviz kimidir, qırsan – qırılmaz, yesən – yeyilməz".

"İz" yalnız süjeti təşkil edən, mənalar çevrəsini yaradan əsas motiv deyil, həm də metaforadır. "İz" alın yazısı kimi bir şeydir, sonuna çıxana qədər səni haraya aparacağını bilmirsən".

Z.Freyd qeyd edir ki, metafora psixoterapevtik xarakterə malikdir. Yazıçı ömründə dərin iz buraxmış, şırım açmış uşaqlığı ixtiyar çağda yenidən yazmaqla içinə hüzur qazandırmış olur.

"İz" sözün çoxmənalı ifadə imkanlarını genişləndirir. Oğruların heyvan izlərini evin ətrafına dolandırmaları kiminsə boğazına dolanan kələf, edam kəndiri kimi mənalandırılır.

Əsərin təhkiyəsi inanc enerjisi ilə yüklənibdir. Epiqraflardan tutmuş mətndaxili ricətlərə, haşiyələrə, bədii suallara qədər süjetin təşkili bu enerjinin təsiri altındadır.

Bu inanc elin hikmət xəzinəsi ilə, nəsildən-nəslə ötürülən əfsanə və rəvayətlərdən, mübarək hədislərdən, Aşıq Əsədin dastanlarından süzülüb müdriklik ilə birləşir. Bu müdriklik fəlsəfi-aforistik ümumiləşdirmələrdə, dialoqların nəsihət fonunda aydın görünür. Dünyaya müdrik baxış müəlliflə Şəmşəd kişinin obrazlarını eyniləşdirir.

Tanrı ilə əlaqə heç zaman kəsilmir. Molla Cabbar və Şəmşəd kişi arasında dialoq fikrimizin sübutu ola bilir.

Roman tale – qədər haqqında bir şairin dünyagörüşünün, sufiyanə qənaətlərinin ifadəsidir. Ona görə də ruhların yaşam hekayəsini hadis-lərin, pritçavari dialoqların dili ilə bildirir: "Ay Cabbar, sən gərək bunu məndən yaxşı biləsən – ən təmiz məbəd insan ürəyidir. Gözə görünən məscidlər o kəslər üçündür ki, Allahın həqiqi işığını görmək üçün hələ könül gözləri açılmayıb".

Doğrudan da əsl fəlakət kənddə yalnız məscidlərin uçurulması de-yil, "içimizdəki məbədlərin" tar-mar edilməsi üzündən talelər kor, qadın-lar dul, uşaqlar yetim qalıb.

Məhz Şəmşəd kişinin pirani-nurani statusu Camalı elin qınağından, dedi-qodulardan, uşağı isə ölümdən xilas edir.

Cənnət-cəhənnəm, savab-günah, halal-haram, haqq-nahaq, doğru-yalan kimi inanc qarşıdurmaları əsərin mənəvi mahiyyətini təşkil edir.

Əsərin içində bir folklor ruzigarı dolaşır ki, bu da şairin ədəbi dün-yagörüşünə, əsərin təhkiyə-üslub məntiqinə uyğundur.

Şəmşəd kişinin müdrik qoca kimi, Muradın xalq qəhrəmanı kimi verilməsi folklor poetikasından gələn məsələdir.

Şəmşəd kişi müdrik qoca arxetipinin daşıyıcısıdır. Nurani-pirani bir köy sufisidir: "Arzu və düşüncələrində nə pul vardır, nə var, nə şeytani aldatmacalar. Damarını dağıdan gözəgörünməz ilahi gücdən və bu gücə xidmətdən başqa onu fani dünyaya bağlayacaq heç nə yoxdur..." Daim Allahın gözəl adlarını zikr edir, dilindən dualar düşmür.

Gülüzənin təsviri ozan üslubuna, dastan təhkiyəsinə xas olan port-ret formuludur: "Ceyran dırnaqlı, bəyaz kəkilli, qızıl yallı, geniş sağrılı, demə-görmə Qırat misallı bir atdı Gülüzə. Yağ damlayan yalmanı günəş-də güzgülənən qıyaq ota bənzəyirdi".

Murad epik qəhrəmanlara aid olan atributlara – ata (Gülüzə) və si-laha malikdir.

Muradın adı və atı eyni assosiativ məna çevrəsinə daxildir (Müqa-yisə edin: "At muraddır").

Romanda islam inancı ilə şamançılığın birləşməsi maraqlı sinkretinlik yaratmışdır. Süjetin "şamançılıq qatında at, alma, Qara qoç obrazları mühüm yer alır və bu simvolik obrazların hər birinin də öz tarixçəsi, öz tale mətni" var. Bu talelər baş qəhrəmanların – Muradın taleyi ilə sıx bağlıdır. Muradın ömrünü mifoloji mətnə çevirmək üçün bu simvolik obrazların mövcudluğu zəruri idi:

"Əvvəl-əvvəl çöpüklü dayça olan Gülüzəni Murad bir payız günü evlərinin üst tərəfindəki kalafalıqda görmüşdü. Yorulub yolda qaldığı hər halından bəlli idi – soyuqdan tükləri biz-biz olmuş, tir-tir titrəmişdi". Atın romanda tərcümeyi-halı belə başlayır.

Yanıl almanın öz "soy-nəcabəti" var: caladığı (Şəmşəd kişinin – R.K.) bir alma ağacı vardı ki, Murad onun üstündə əsərdi. "Ay qağa", deyərdi, "heç bilirsən bu, necə almadı, biz dənəsi bir kilo gəlir..."

"Qara qoç Gəlin qoyunun balasıydı. Belə olmasaydı, Şəmşəd kişi heç onu qardaşına qurban deyərdimi?"

Bu obrazlar romanın simvolik şəbəkəsini yaradır.

Yazıçı Muradı qurbanlıq kimi verməklə onu qutsallaşdırır. Onunla bağlı obrazlar da qutsaldır – qurbanlıq və nəzir üçündür. Qurbanlıq Qara qoç qurda yem olur, alma quruyur, beçə balı isə zəhərə dönür, Gülüzə gülləyə tuş gəlir.

Personajların fiziki qüsurları günahların və qarğışların nəticəsidir. Kamış şikəstdir, sol ayağını müharibədə mərmi aparıb.

Havalı Camal dəyirmanda zorlanaraq, dünyaya bic və şikəst uşaq gətirir. Uşaq pəltək olduğu üçün adını "Kınkı" qoyurlar.

Tanrı Çobana qarğıyır, "çoxdan evlənsələr də, Gövhərlə Çobanın uşağı olmurdu".

Öloğlu bədnəzərdir, hamı onun yaşıl, ilan gözündən qorxur.

Kənd evlərinin formasını bildirən epitetlər sanki bu "şikəstlik sindromu"nu daha da qabardır. Məsələn: "Yastı-yapalaq qozbel kənd evləri...", "Günün günortası donqarbel daxmalarda..."

Bu kənddə marjinal varlıqlar məskunlaşıbdır: onlar iki dünyanın arasındadırlar. Kaftar yuxuları ilə, poçtalyonluğu ilə ölülər dirilər dünyası arasında vasitəçilik edir.

Qaraçı qız da bu silsiləyə daxildir.

Romanın məkanı atasızlıq məkanıdır. Burda atalar, kişilər ölümlüdür. Bəzi hallarda diri olsalar da, uşaqlar yetim sayılır. Muradın həyatı ölüm zonalarında, əsgərlikdə və məhbəsdə keçir və axırda onun da ölüm xəbəri – qara kağızı gəlir. Güzar atasız qalır.

Məmməd İsmayılı arxasındakı adam maraqlandırıbdır. "Arxadakı adam" ruhdur, kabusdur, kölgədir, özdür.

"İstədi, ürəyindən keçənləri dilinə də gətirsin, qum üstündə yox olan iki izi soruşsun. Bu zaman yenə əvvəlki kimi su şırıltısına bənzər səslər eşitdi".

Romanda personajları ifadə sferasına görə iki yerə ayırmaq olar. Qadınlar səs, kişilər söz sferasına bağlıdırlar. Hətta qeybət də səslə ötürülür.

Ananın səsi, güllə səsi, qamçı səsi, ağlaşmalar, bağırtılar çığırtılar ölümün, dərdin, çarəsizliyin, ağrının, ayrılığın ifadəsidir. Müəllif bu səslərin tərcümanı olub, onları sözə, mənaya çevirir.

Kişilər, sanki səsdən məhrumdurlar. Onlar (Molla Cabbar, Şəmşəd kişi, Aşıq Əsəd, Qəni, Murad...) sözün daşıyıcılarıdırlar: ibrətli kəlamlar, inanc sözləri, şərləmələr, yalanlar kişilərin sözdə gerçəkləşdirdiyi ünsiyyət imkanlarıdır.

Qadınların səsi və kişilərin sözü əsərin bütövlüyünü tamamlayır. Ancaq səsin sözü üstələdiyi məqamlar da çox olur. Kişilər sözün, qadınlar səsin dalınca gedirlər: "Səs hərdənbir cənazənin arxasınca yetişir, hərdən də bulud arxasında gizlənən günəş şəfəqləri kimi əriyib yox olur. Laydır-cənazənin – qəmin altında belləri bükülən üç gəlin bu səsi tutub xısın-xısın ediləşir".

Əslində, Məmməd İsmayıl yaddaşındakı səsləri və izləri toplayıb taleqədər mətnini bərpa edir. Səs vasitəsi ilə zamanın axarından qopardığı ömür səhnələrini görümlü edir.

Səslər qaranlığın təzahür formalarından biridir. Səs qaranlığın, qara rəngin ayrılmaz elementidir. Camal hər axşam "qaratikan kollarının arasındakı qaranlığın içindən səs eşidir". Güllə və qamçı səsləri qaranlığı diksindirir. Qaranlıqda öskürək səsi yadın, özgənin yaxınlığı-

nı bildirir. Zəhra arvadın qaranlıqda ciy-ciy səsi Muradı fikirdən ayırır.

Qara rəngin qatılığı və tündlüyü əsərin mistik təsirini gücləndirir. Qara rəng mətndə ayrıca funksional mövqeyə malikdir.

Qarabulaq, Qaratel, Qara qoç, qaranlıq, qaraçı "qara" sözünün adlarda gerçəkləşdirdiyi variasiyalardır.

Romanın əvvəlində "qara" taleyin işarəti kimi çıxış edir. Hətta "qara" rəng "qar" sözünü öz məna məntiqinə tabe edir ("Ayağı üşüdən qar deyil, qəfil gələn qəmdir, qara gündür"), axırında isə qəhrəmanın qara kağızı gəlir.

Yalnız mifoloji-poetik təfəkkür "ağ-qara" antitezasını bir cümlədə verə bilər. "Qara qoç qara xəbər kimi Tor təpənin ağ dumanında qaralmağındaydı".

Boz-bulanıq – "qara"nın bir çalarıdır.

Qara rəng estetik funksiyadan başqa, obrazlarla məkana mistik məzmun gətirir. Bu kənd qarabəxt, qaragün qadınların məkanıdır. Burda insanın mutlu olması, murada çatması mümkünsüzdür.

Burada ölüm mütləq hadisədir, bu mürgülü kəndin "korafəhm ahəngini kiminsə qırılan ömrü pozur".

Qəribədir. Süjet dəfn-ölüm mərasimi ilə başlanır ("Bir ölü kənd qəbiristanına qadınların çiynində gedir"), kaftarın yuxusunda ölüm simvolikasının təsviri ilə tamamlanır.

Beləliklə, qara çevrə qapanır.

Bu roman Məmməd İsmayılın içindəki ağrını söyləmək imkanıdır. Axı ağrı heç zaman yalan söyləmir. Ağrının səsi faciənin musiqisidir. Katarsis bundan sonra başlayır.

Katarsis insana keçmişin qara yükündən qurtulmaq macalı, içinə şükranlıq və hüzur işığı gətirir.

*Rüstəm Kamal*

*“Mən sizdən dünyadan imtina etmənizi istəmirəm. Sizdən tək istəyim, nə iş görürsünüz-görün, amma heç zaman Allahı unutmayın”.*

Sant Kripal Sinqx

*İnsan torpağa saldığı izlə yazdı ilk yazını...*

# BİR CƏNAZƏ YOL GEDİR VAXTIN BİTƏCƏYİNDƏ...

*"Bu dünya gecəyə, o biri dünya gündüzə bənzəyir, birisi qış kimidir, o birisi bahar. Səhər həqiqətin nə olduğunu bildinizsə, axşam ölmək dərd deyil".*

Ayağı üşüdən qar deyil, qəfil gələn qəmdir, qara gündür. Nə yazdan yaz, nə qışdan qış, beləcə, boz-bulanıq bir havadır. Günəş də ürəkbulandıran bu mənzərəyə hərdənbir gözünün ucuyla baxır, könlü sıxılır, özünü yenidən buludların arxasına verir. Ala-tala buludların "aşsüzənindən" keçən qış günəşinin çəpəki şəfəqlərinin kövrək hənirindən sırsıra bağlamış kol-kosdan xəfif buğ qalxır. Heç bu buğ da boz-bulanıq havanın "kefini" aça bilmir. Ruzigar özüylə bərabər sazaq gətirir, yol boyu qarlı yamacların qış bəyazlığından boy göstərən qurumuş çör-çöpə toxunub heçlik kamançasını çalır. Bu çör-çöpdən qopan qar dənələri ruzigarın arxasınca qaçsa da, çata bilmir, kol-kosun arasına tökülüb qalır. Qar içində qurumuş qara çöplər ölümün yerüstü nişanəsi kimi ağlıqda qaralır, yoldan keçən cənazə karvanına züy tutur. Yastı-yapalaq qozbel kənd evlərinin arxasından keçən qarlı el yolu ilə səkkiz ayaq izi qəbiristana doğru irəliləyir. Dumanlı-günlü havada kənd daxmalarından üzü qəbiristanlığa doğru dərd, fəryad qanadlanır. Bilmək olmur ağlaşma səsi hayandan gəlir, qar içində toyuq eşənəyi kimi qaralan yastı-yapalaq kənd evlərindən, yoxsa boz ayın boz-bulanıq qış havasından. Səs hərdən cənazənin arxasınca yetişir, hərdən də bulud arxasında gizlənən günəş şəfəqləri kimi əriyib yox olur. Laydır-cənazənin qəmin altında belləri bükülən üç gəlin bu səsi tutub xısın-xısın ediləşir: ilk dəfədir ki, bir ölü kənd qəbiristanına qadınların çiynində gedir. Bunu bildiyindənmi, yoxsa nədənsə üzərinə qara kəlağayı örtülmüş cənazə elə bil qanadlarını açıb uçur, ölümün həyata uzandığı bu yolu bircə anda bitirmək istəyir.

Laydırdan bərk yapışan dördüncü əlin sahibi kişiliyinə salıb, axsaq ayağını güclə sürüyə-sürüyə aparsa da, nəhayət, onun da dilinə açar düşür. Pıçıltıyla söylədiyi sözlərinin onsuz da özündən başqa kimsənin eşidə bilməyəcəyinə əmindir, içinin içindən illər boyu saxladığı sirlər sonunda dilinə də gəlir. Bilmək olmur kiminlə danışır – öz-özü ilə, yoxsa artıq bir heçliyə dönmüş, çiyinlərini sındırıb, bellərini qıran yoxluqla. “Haradan bildin, ay rəhmətlik, səndən gizlədiyimi hamıdan, elə özümdən də gizlətmişdim, bəs sən bu sirri hardan bildin?..”

# AXŞAM HARDA YATDIĞINI SƏN BİLİRSƏN...

*"...Sizi ilk dəfə Allah yaradıb... O zaman niyə düşünmürsünüz ki, sizi bir dəfə yaradan Allah ikinci dəfə də yarada bilər".*

Quran, əl-Vaqiə surəsi,
62-ci ayə

Axşam harada yatdığını yaxşı xatırlayırdı, sabah harada oyanmışdı, anşıra bilmirdi. Əslinə baxsan, düşdüyü yerin "axşam-sabah" deyə bir bölgüsü də yoxdur. Zamansızlıq içinə düşmüşdü. Oyandığı yer heç yatdığı yerə də bənzəmirdi. Yoxsa, bütün bu gördüklərinin hamısı "o dünya" deyilənin özüdür. Sarımtıl torpaq içində, məzar qaranlığında atılıb qalan onunmu bədənidir?! Yəni, doğrudanmı, ölən odur? Bədənindən ayrılan ruhu dünəndən başına gətirilənləri qarabaqara izləyir. Bəlkə gördükləri yuxudur, əllərini gözlərinə aparıb ovxalamaq istəyir, əlləri qalxmır. Gözləri də, əlləri də yoxa çıxıb. İçini anlaşılmaz bir qorxu sarır: Aman Allahım, bəs mənim əllərim, gözlərim hanı? Əgər gözlərim yoxdursa, bəs yuxudakı kimi yollar boyu olub-bitənləri necə, nəylə izləmişəm?

Cənazəsinin altına girən, əyinləri-başları yaman gündə olan qadınlara və şikəst ayağını arxasınca zorla sürüyən Kamışa yazığı gəlir: amma o boyda gözgörəsi xəbəri gizlədiyinə görə Kamışa heç yazıq gələsi də deyil. Kamış hardan biləydi ki, xəbər verən, "o xəbəri" mənə çoxdan çatdırıb.

Yol boyu neçə dəfə səs çıxarıb "burdayam" demək istəsə də, bacarmamışdı. Yaxşı ki belə olmuşdu: səsi çıxsa cənazəsini aparan qadınların yerindəcə ürəyi partlamazdımı? Sabah bütün kəndə beynamaz olub "xortladığı" xəbəri yayılmazdımı? Düşdüyü cənnətlə cəhənnəm arası bir yerdir. Cənnətə yol cəhənnəmdən keçir. Başını yerüstü qayğıların qat-

masındanmı, ruhun bədən deyilən torpaq qınına uyğunlaşmasındanmı, ya nədənsə, sağlığında ömrün dərin bir nəfəs olduğunun fərqinə bir elə də varmamışdı. Amma indi – varlıqdan yoxluğa, yoxluqdan varlığa keçid anında görünməz bir əl gözlərinin önündəki pərdəni çəkib atır. Hiss edir ki, üçüncü gözü açılsa da, görəcəyi bir şeyi yoxdur, ona qalan içidir, çölünü isə çöldə qoyub gəlib. O dünyadan bu dünyaya gələn bir şeyi varsa, o da ruhdur – keçmişini, gələcəyini daşıyan ruh! Ruhu bədənini tərk edərkən qorxub eləməmişdi. Bilirdi ki, o an nəyi düşünsə, düşünə bilsə, gedəcəyi yerdə düşündüklərini görəcək! Bunu bildiyindən son ölüm anında dodağının altında dili tutar-tutmaz "ya Əhəd, ya Səməd, ya Mədəd" sözlərini zikr etmişdi. Ruhun "qollarının" fani dünyanın naz-neməti ilə bağlanmasının da xeyri olmadığını yaxşı bilirdi. Gizli, ya aşkar – insanın bir düşməni varsa, o da nəfsidir. Nəfsini bilən Tanrısını da bilir və ruhunda tanrılıq olmayan Tanrıya inanmaz. Çox şükür ki, çətin olsa da, Allah yolunda nəfsini yenməyi bacarmışdı. "Can dənizdir, bədən gəmi!" Haçansa eşitdiyi bu sözlər durna qatarı kimi fikrinin üfüqlərində yenidən səf bağlayır, sanki görünməz bir əl qapalı zehnini qurcalayır və o dünyada unudulan, ya da yaxşı-yaxşı unutdurulan elə şeyləri xatırladır ki?! Bəlkə də hiss etmişdi, indi ona hiss etməmiş kimi gəlirdi: "Yəqin könül gözünün açılması buna deyirlər..."

Bir tərəfdə insanın ağlına belə gətirə bilmədiyi cəhənnəm əzabının yaşanmamış qorxusu, o biri tərəfdə həyatı boyu bəlkə milyon kərə arzuladığı kölgəliklərindən gursulu çaylar axan cənnət bağçaları. Yolu bunların hansına düşəcəkdi? Canını cəhənnəm qorxusu sarmışdı: insan görmədiyi, dərk etmədiyi qorxunu necə yaşaya bilir? Yoxsa, qorxu dərkolunmazlığın özüdür. Bəlkə haçansa cəhənnəm alovundan canını qurtarıb işıqlı dünyaya qayıda bilənlər olub, cəhənnəm qorxusu da onların dediklərindən yaranıb? Yox, bütün bunlar heç vaxt görmədiyin, amma haçansa görə biləcəyin qorxunun öncədən içinə doluşudur. Görünür, elə hisslər var ki, zaman, məsafə tanımadan, gələcəkdən xəbər gətirir. Gətirir ki, insan yalançı dünyada yaşadığı müddətdə oturuşuna-duruşuna fikir versin. Bir də, ağıla gələnlər (bəlkə "gətirilənlər" demək daha doğru

olardı!), ağızdan çıxanlar boşuna deyil ki? Ürəyə damanları bir damızdıran var. İnsan unudanı Allah unutmur. El-obanın minillik yaddaşı yerdən ha çıxmayıb? Və ən qəribəsi də o idi ki, indiyə qədər fikirləşmədiyi və dünya qayğısından baş açıb fikirləşməyə macal tapmadığı düşüncələr indi ağlına gəlirdi. Əzəl gündən hər şey buna hesablanıb: qovulduğu yerə can atmaq, çıxdığı yerə dönmək üçün eynən qum saatında olduğu kimi öyünmək lazım gəlir. O dünyadan bu dünyaya bircə yol var – ölüm yolu! Bunları düşünə-düşünə özü öz fikirlərinə heyrət edir: "Aman Allahım, bu nə fikirlərdir darmacalda ağlıma gəlir?"

## SEÇİLƏN BƏNDƏDİR, SEÇƏN ALLAHDIR...

*"Cəhənnəmdən qurtarmaq istəyən xidmət etməli, cənnəti istəyən niyyət etməlidir. Allah, harada olursunuz-olun, sizinlədir. O sizə şah damarınızdan daha yaxındır. Nə zaman öz bədəninizi tərk edəcəksiniz, özünüzü Tanrının ayaqları altında bulacaqsınız. İstədiyiniz bu deyildimi?"*

Ağlına gələnlər başına da gəlməyə başlayır. Bir azdan üzünə kiminsə nəfəsi toxunacaq, qulağına kiminsə səsi dəyəcək. Bax, indicə hər şey təkrarlanacaq, hər şey. İşıqlı dünyadan "qaranlıq" dünyaya "gətirilən" hər adamın yadına ilk əvvəl eyni şeylər düşür: Adəm ata günah işləyib cənnətdən qovulmasaydı heç birimiz cəhənnəm əzabı çəkməzdik.

Səsinin çıxıb-çıxmadığını, gözünə görünən adama – Adəmə çatıb-çatmadığını bilmir. Və ona elə gəlir ki, özü deyib, özü eşidir. Amma gələn cavab bunun heç də belə olmadığını deyir:

– Oğlum, içindən keçənləri dilinə gətirməsən də olar, nə deyəcəyini bilirəm.

Qəfil səsdən diksinən kimi olur. Amma cavabı da gecikmir.

– Haradan bilirsən?

– Mən də bilməyib kim biləcək, mənim balam, dədəniz deyiləmmi? Siz əzab çəkəndə, sizinlə birlikdə mən də əzab çəkirəm.

– ...

– Mən ömrüm boyu bir günah işləyib cənnətdən qovuldum, bir gör o dünyada siz nə qədər günah işləyirsiniz, amma yenə də içinizdən cənnətə düşmək keçir...

– Öz günahınla bizim günahımızı birmi sayırsan, dədə? Hər şey o günahdan başlamadımı?

– Canı olan nəyə layiqdirsə, onu da alır, mənim balam, günahsız ölü yoxdur, bunu yaxşı bil. Günah ölüm üçün bir bəhanədir. Uca Tanrı,

öz sifətini göstərmək üçün məni yaratdı, sonra məndən də sizləri. Musa peyğəmbərin gözünə görünmüş o dağa and olsun ki, Allah hər adamın gözünə görünüb, hər adamla danışmaz... Yaradılanların hamısı yaradana qayıdır amma. Hətta yarpaq belə onun izni olmadan tərpənməz. Harada olsan səninlə olur. O səni unudan deyil. Torpağa düşən toxum buğdadırsa buğda, arpadırsa arpa, darıdırsa darı da çıxacaq. İnsanlar da beləcə, öldülərmi, hər şeyləri ortaya çıxar. Can ağaca bənzər, ölümsə yarpağına.

Adam Adəmin bu sözləri qarşısında çaşqına dönür. Sağlığında Allaha, onun əmrlərinə canı-könüldən inanan o deyildimi? Sağlığında ağlından keçirmədiyi fikirlər indi cəhənnəm qapısında niyə keçməlidir? Keçirdi ki, yaşadığı ömrün, işlədiyi günahların hamısının bircə-bircə hesabını versin.

Öz düşüncələrindən özü də eymənməyə başlayır. Səsi dalğalanıb yayılır, haralarasa dəyib qayıdır, əks-səda verir. Adəm ata onun fikrindən keçənləri anında hiss edir:

– Ay oğul, Allah insana hər şeyi əməlinə görə verir. Verir ki, haqq yoluna uysun, ondan çıxmasın. “Bizi Allah yaradıbsa, niyə bizə kömək etmir”, deyə, fəryad etmək ağılsızlıqdır. Toxumu sən səpirsən, çıxıb-çıxmamağı toxumun və torpağın işidir.

– Toxumu da, torpağı da yaradan bir olan Allahdırsa, niyə bitib-bitməmək toxumun işi olmalıdır?

– Cavab özlüyündə aydındır, mənim balam, Allah canlılara bu imkanı verməsəydi, onları sorğu-suala da çəkməzdi. Ruhun olduğu yer çox yüksəkdədir, amma hissin yeri haradadır, bunu sən də bilməmiş deyilsən. İşlətdiyin günahların qarşılayacaq səni.

* * *

Daş-divarları sirli kölgələr yalayır... Hənirtilərin, sirli xışıltıların var olduğu, hər şeyin ayağı ucunda gəzdiyi bir yerdir. Adəm ata çəkilib getmişdisə, bəs bu hənirti, bu səs hayandan gəlir, ruhunu qanadlandıran bu nəfəs kimin nəfəsidir? Sağlığında bu səsin də, bu nəfəsin də hər zaman

içində var olduğunu düşünür. Adına fəda olduğumuz Allah özü gözə görünməsə də, eləcə səsi eşidilir, hər yanı dolduran onun nəfəsidir. Və onun özünü, mübarək üzünü görmək üçün səbirsizləşir. Bilmək olmur, öz-özü ilə danışır, yoxsa içini dolduran anlaşılması mümkün olmayan həzlə. Özünü ucsuz-bucaqsız dəniz sahilində hiss edir. Gözə görünməsə də, hənirtisindən lap yaxınında ilahi bir gücün olduğuna əmindir. Yaddaşının hansı qapalı qapısısa açılır. Dinməz-söyləməz bu nəhayətsiz dənizin sahili ilə addımlayır. Niyə gəlib çıxmışdı bu qızıl qumlu dəniz sahilinə?! Ruh, bədəninin öldüyünü bilmək üçün özü öz izinə baxmalıdır fikri düşür yadına. İzi tərsinədirsə, ölən başqasının yox, onun bədənidir.

Qumlu sahillə dörd ayaq izi uzanıb gedir, dənizdə isə, həyatının bütün keçid nöqtələri canlanır. Baxır, baxır, nəyisə xatırlamaq istəyir, amma düz-əməlli anşıra bilmir. Bunları düşünə-düşünə qum üstdəki ayaq izlərinin dənizin kənarına qədər getdiyini və sonra yox olduğunu görür. Dənizin içərilərinə doğru uzanıb gedən mənzərələr fikrini daha çox məşğul edir. Bütün bu işarətlər ona nəyisə xatırladır. Amma nəyi?! Birdən qeybdən gələn səs qulağına çatır:

– Özün öz ömrünü tanımadınmı, mənim balam?

Qanrılıb səs gələn tərəfə baxır, gözünə heç nə görünmür. Yox, bu, Adəm atanın səsi deyil. İnsan səsi belə olmaz, ola bilməz. Masmavi dənizin sahilində qızıl qumlar üzərində yenidən dörd ayaq izi gözünə dəyir. Dəniz dalğaları üzərində isə ömrünün bütün keçidləri sırasıyla canlanmağa başlayır. Bir həyatını canlandıran masmavi dənizə, bir də çevrilib dörd ayaq izinə baxır. Qumlar üzərində dörd ayaq izi uzansa da, yanında kimsə yoxdur: yaxşı deyək ki, bu iki ayaq izi mənimdir. Bəs o biri izlər kimindir? Bəlkə heç nə dəniz var, nə onu sınağa çəkən səs. Sadəcə, qorxudan, ya nədənsə gözü alacalanıb, qulağı səsə düşüb. Amma elə bil yenə kiminsə sehrli əli yaddaşının harasınasa işıq salır və bu işıq bütün varlığına hakim kəsilir. Yavaş-yavaş corab ilməsi kimi həyat hekayəsi çözülməyə başlayır. Yenidən başının üstündə dərki çətin bir hənirti duyur, ins-cins, səs-küy olmasa da, ruhuna hopan səs onu yerindən oynadır. Bu səsdən hər şey donub yerində qalır. Dağı, qayası

olmayan bu məkanda gurlayan səs haraya, nəyəsə dəyib, əks-səda verir. Bunları düşünə-düşünə özü öz fikirlərindən eymənir. Elə bil Allahla bir vücudda birləşib. Yoxsa, içindən keçənləri içindən keçməmişdən öncə kim hiss edə bilərdi ki?

– Nə tərəddüdə düşmüsən, mənim balam, özün öz həyatını tanımadınmı? Sevdiyim qulumun gözü, mənimlə görər, könlü mənimlə vurar, qulağı mənimlə eşidər, dili məndən söylər – iki aləmdə də ondan uzaq olmam.

Adəm atanın dediyi kimi olurdu. Gözünə görünməsə də, Allahın özü idi onunla danışan, buna şübhəsi qalmamışdı. Sözlər eşitdiyi, duyduğu, bildiyi sözlərdi, amma sehri başqaydı, hər kəlmə içindən qönçə kimi açılırdı. Gözüylə bir nam-nişan sorağıyla masmavi dənizə, bir də dönüb qızıl qumlar üzərində yanaşı düşüb qalan ayaq izlərinə baxdı, sahildə cəmi iki ayaq izi vardı. Haçansa ona Allahla görüşə biləcəyini desəydilər, bəlkə də vəhmindən bağrı yarılar, sevincindən başını itirərdi. Amma indi qorxub-eləmir, özünü az qala çoxdan unutduğu ana qucağında olduğu kimi hiss edir, bəlkə də yanında eşidilən heç onun güman etdiyi kimi Allahın səsi yox, elə öz dost-doğmaca anasının səsidir və o da uşaq fəhmi ilə anasına ərk edir. İstədi, ürəyindən keçənləri dilinə də gətirsin, qum üstündə yox olan iki izi soruşsun. Bu zaman yenə əvvəlki kimi su şırıltısına, yarpaq xışıltısına bənzər səslər eşitdi:

– O qum üstündə gördüyün izlərimi deyirsən? Onlar sənin yox, mənim izlərimdi…

– Bəs mənim izlərim haradadır?

– Sənin izlərin olmazdı.

– Niyə ki?!

– Çünki çətin anlarında sən mənim qucağımda idin...

Yaddaşının qorxudanmı, sevgidənmi korşaldığı bu darmacalda birdən Adəmin sözlərini xatırladı: Allahın harada olsan, səninlə olur, suya da düşsən, odda da yansan, sənə bir şey olan deyil, çünki o səninlədir...

Bu sözlərdən içinə bir əmin-arxayınlıq çöksə də, gözü yenidən masmavi dənizdə canlanan səhnələrə sataşır. Birini yaxşı tanıyır – gününü,

həftəsini itirsə də, sanki bir az əvvəl soyunub gəldiyi ömrü idi dənizin sahili boyunca axıb gedən. Baxırdı, baxırdı, nəsə yadına gəlirdi, amma düz-əməlli anşıra bilmirdi... Bir ruhun yaşam hekayəsi yavaş-yavaş yaddaşında canlanmağa başlamışdı... İstədi ürək eləyib döyüşlərə, odun, alovun içinə yola saldığı qardaşının sağ-salamat geri qayıtması üçün nəzir dediyi Şah beçənin, Qara qoçun, Yanıl almanın başına gələnləri soruşsun uca Tanrıdan, amma ürək eləyib soruşmadı... Qardaşı da yəqin cəhənnəmdəmi, cənnətdəmi, haradasa buralardaydı. Qalırdı onu axtarıb tapmaq!

## İNSANIN ƏMƏLİ ÖZÜNDƏN ÖNCƏ

*"Allaha gedən birinci yol boyun əymək, ikinci yol boyun əymək və üçüncü yol da boyun əyməkdir. Tikana güldən paltar geydirən Tanrı insanı öz nəfsinin dar ağacından asdırmağı da sevir".*

Dağların qaya ovcunda mürgüləyən, ayaqları yerə pərçimlənmiş bu kəndin arasından çay keçir. Sanki hansısa görünməz bir əl qaya ovuclarını qoşalayıb su içmək istədiyi yerdə donub qalıb və bu kənd yaranıb. Bu mürgülü, korafəhm ahəngi hərdən kiminsə qırılan ömrü pozur. Qəfil, qəfil olduğu qədər də gözlənilən ölüm bir anlığa, bir günlüyə də olsa, insanları əbədiyyət axarına qoşur. Önündən keçən, uzaqları yaxınlara, yaxınları uzaqlara daşıyan səhra qatarlarına baxıb özünü onun, o qatarın içində hiss etmək kimi bir şeydir bu. Çobanaldadan bu hiss qatar ötüb keçənə qədər davam edir. Keçdimi, son vaqonun son işıqları uzaq dağ yamacının sərt döngəsində son kərə göz vurub uzaqlaşdımı, hər şey yerinə – əvvəlki axarına qayıdır. Yox, bəlkə o şütüyüb keçən qatarın da insanın qəlbində baş qaldıran hissdən bir balaca xəbəri var. Tikanlı pıtırğanlıqdan keçib gedən qoyunun yununa nələrsə ilişdiyi kimi, o qatara da insan baxışlarından, hiss və həsədlərindən nəsə ilişir və bəlkə bu "nə isə"lərdir qarşı dağ yoxuşlarında bu güclü qatarın təbii gedişinə əngəl olan. Bu yerlərin insanları başlarının üstündən uçub gedən durna səfi ilə, dağı arana daşıyan çayla hansısa fikir alış-verişində bulunur, bir-birindən nəsə alırlar, bəlkə, bu mənada hər insan əbədiyyət qatarının bir daşıyıcısıdır, o da bu qatarın həm içindədir, həm də çöləndə...

Kəndi dörd tərəfdən bərk-bərk qucaqlayan dağların qaya qollarından qurtarmaq üçün cəmi iki yol var: çay və el yolu. Amma kolxoz qurulalı bu yollar da bağlanıb: çay yolunu aran kolxozlarının pambıq tarlalarına su axıdan Ərəbzəngi cuvarlar, dağ yolunu isə kimsənin kənddən

icazəsiz çıxmasına imkan verməyən "şlaqbaumlar", kənd rəhbərliyinin qolubəyləri kəsib.

Yayı cəhənnəm istisinə qucaq açan bu kəndin qışı da Sibir soyuqlarına "gəl-gəl" deyir. Sovet hökumətinə baxanda, xaçpərəst olanda nə olar, Nikolayın atasına yüz rəhmət. Məscidlər yerlə bir edildikdən, mollaların çoxu Sibirə sürüldükdən sonra bu qəfil tufandan canını qurtaran din adamları da yol ayrıcında çaşıb qalıblar, nə edəcəklərini bilmirlər: cəmiyyətin soyuğu təbiətin soyuğunu daha da çəkilməz edib.

Sibirə sürülən Allahyar bəyin evi kənd məktəbinə çevrilib. Kənddə əli qələm tutan var ki müəllimlik eləyəni də ola? Əlac Sibirə getməkdən canını qul payı qurtaran Molla Cabbara qalıb. Ürəyində "bu işə el-oba nə deyəcək" tərəddüdü olsa da, dildə "bacara bilərəmmi?" deyib, bir-iki gün möhlət istəmiş. Şəmşəd kişinin yanına gəlməyi də buna görədi.

Məscid uçurulandan kəndin başbilənlərinin çənə söhbətlərinə yığışacaq yerləri də qalmamış. Axşamlar hər kəs işini-gücünü tamamlayıb daxmalarına çəkilir. Amma arabir Şəmşəd kişinin həyətindəki ağcaqayın ağacının axşam sərininə yığışmaları da var.

Molla Cabbar Şəmşəd kişi ilə tünlükdə yox, xəlvətdə görüşmək istəyirdi. Uzaqdan baxanda ağcaqayın ağacının altındakı kötükləri boş görüb ürəkləndi: yaxşı oldu, kişini tək tapıb dərdimi deyib, məsləhətini alaram. Həyətə çatar-çatmaz kənd qocalarının bir çoxunun çardağın altında qəlyan tüstülətdiklərini gördü. Cabbarı görən Şəmşəd kişi yerindən qalxıb "xoşgəldin" elədi. İçəridən Cabbar mollaya da oturması üçün kətil gətirdilər. Elə bil Molla Cabbarın nəyə gəldiyini əvvəlcədən bilirdi Şəmşəd kişi bilməsəydi, sükutu bu şəkildə pozmaz, söhbəti özü açıb, Cabbar kişinin işini yüngülləşdirməzdi:

– Ay Cabbar kişi, yaxşı adam sözünün üstünə gələr, elə bir az bundan əvvəl söz dönüb-dolanıb səndən düşmüşdü – məktəbdə müəllimlik məsələsini deyirəm. İndiki halda hökumətlə hökumətlik bizim işimiz deyil. Məscidi uçurdular, uçurdular, ruhumuzu ki uçurmuyuflar. Bir qazan südün bir qaşıq maya ilə qatığa necə döndüyünü bilirsən; südü

uyutmasan, qatıq olmaz. Məscid uçuruldu deyə, əlimizi əlimizin üstünə qoyub boş oturası ha döyülük. Fəda olduğum Allahı məsciddə, kitabda axtarmaq lazım deyil ki?! O kitabları da insan yazıb, o məscidləri də insanlar tikib. Öz tikdiyini uçurmaq insanın köhnə peşəsidir!

Cabbar kişi qulaqlarına inanmadı: bir bu qorxusuz sözləri deyən adama, bir də dönüb çardağın altında qəlyanlarını tüstülədən kənd ağsaqqallarına baxdı. İndi bunlardan biri sabah diliuzunluq edib burada olub-bitənləri sovet sədrinin ovcuna qoysa, Şəmşəd kişi özü bilər, bəs onun özünü dama basıb, Sibir yolu yollamazlarmı?! Onsuz da mollalığına görə əskisi tüstülüdür. Amma Şəmşəd kişinin – bu Allah adamının qızıl-qırmızı danışığı elə bil qəlyanını tüstülədənləri də ovsunlamışdı, yerlərindən qomzunub eləmirdilər. Şəmşəd kişi özü öz danışığından ilhama gəlib coşurdu:

– Sən ki bunları məndən yaxşı bilirsən. Allahın sübutu yerdəki məscidləri deyil ki, yerlə bir edib unutdurulsun. Sübutmu gəzirsən? Bircə başını qaldırıb göylərə bax. Bir gör Günəşin özü haradadır, işığı harada?

Molla Cabbar yaddaşının harasındasa nəyisə xatırlamış kimi başını tərpətdi. Səksəkə içində olduğu hər halından bəlli idi. Qorxulu-qorxulu yenə sağa, sola çevrilib dilləndi:

– Allah saa insaf versin, elə danışersan ki, elə bil mədrəsədə oxuyuf molla kimi başı sarınan mən yox, sən olufsan. Ay rəhmətliyin oğlu, diyəsən sən də elə bu ruslar kimi düşünürsən? Ağzında Allahın evi deyirsən, bu kaf... (qorxusundan kəlmənin dalını gətirmədi) başqa yeri yox ey, elə gərək Allahın evinimi yıxaydılar? İndi də mənə “gəl mollalığı burax, müəllimlik elə”, deyirlər. Bəs fəda olduğumu kitabda, məsciddə axtarmayıb, harda axtaraq, hay? Yermi qoydular axtarmağa?

Şəmşəd kişi söz altda qalmadı:

– İnsanın tikdiyi Allahın evi ola bilməz, ay Cabbar kişi. Və Allahı orda axtarmağın da xeyri yoxdur. Gedəcəyin hər yer Allahın evidir. Amma Allahı onun özünün tikdiyi evdə axtarmaq lazımdır.

Molla Cabbar:

– O hansı evdir elə?

Şəmşəd kişi tövrünü pozmadan, əlini köksünə qoydu:

– Bax, buradır Allahın evi!

Molla Cabbar başını silkələdi:

– Onu mən də bilirəm, amma...

Şəmşəd kişi:

– Amması-filanı yoxdur. Ay Cabbar, sən gərək bunu məndən yaxşı biləsən. Ən təmiz məbəd insan ürəyidir. İnsanın ürəyi Allahın evidir. Məscidlər tikildikdən sonra Allahın orda oturduğunu görən odlumu?

Şəmşəd kişi yenidən sinəsini göstərib, sözünə davam etdi:

– Amma fidah olduğum bu evi yapdıqdan sonra heç zaman ondan ayrılmamışdır. Gözə-görünən məscidlər o kəslər üçündür ki, Allahın həqiqi işığını görmək üçün hələ könül gözləri açılmıyıf. Yaxşı ki məscidləri darmadağın edən bədbəxtlərin içimizdəki məscidlərdən xəbərləri yoxdur. Hindistandan Məkkəyə Həcc ziyarətinə gedən hindlinin başına gələnləri eşitməmiş olmazsan?

Qəlyanını tüstülədən kənd ağsaqqalları Molla Cabbarla Şəmşəd kişinin söhbətlərinin qızışdığını görüb, üstündə oturduqları dağdağan ağacından kəsilmiş kötükləri bir az da qabağa çəkdilər. Sümürdüyü qəlyan çubuğundan dodaqları sallaqlaşan Ölüoğlu pəltək dilini dinc qoymadı:

– Zad... şey, hə, nə gəəlmişdi ki, Məkkəəyə geedən hiindlinin başına?

– Adam Məkkədə canamazını çınqıllı bəyaz torpağın üstünə sərib yenicə Allahla baş-başa namaz qılıb dualar etməyə başlayıbmış ki, din xidmətçiləri başının üstünü kəsdirirlər:

– Sən nə edirsən?

Adam əvvəlcə namazını yarımçıq kəsmək istəmir, dualarına davam edir.

Bu dəfə artıq səslə deyil, güclə adamın qolundan tutub bağırırlar:

– Axmaq adam, etdiyin qələtdən xəbərin varmı?

Adam narazı-narazı cavab verir:

– Məkkəyə gələn nə edər? Namaz qılıb, dualar etdiyimi görmürsünüzmü?

– Belə də namaz qılarlar? Yoxsa sən namaz qılmağın nə olduğunu bilmirsən? Harda görünüb arxası qibləyə namaz qılına. Hamı necə, sən də elə!

Adam bir yanındakı din xidmətçilərinə, bir də Həcərül-Əsvədi-Kəbə daşını çevrələyib günün qızmarında namaz qılan insan selinə baxır, nə edəcəyini bilmir. Axırda üzünü qibləyə tərəf çevirib, namazını davam etdirir.

Din xidmətçiləri adamın yanından ayrılmırlar: rahat namaz qılmağa qoymayıb beynamaz etdik, heç olmasa namazından, niyazından sonra qulluğunda dayanıb könlünü alaq!

Adam namazını tamamlayar-tamamlamaz ürəyin nə istəyir, de, yerinə yetirək, – deyirlər.

Adam yaxıb-yandıran Şərq günəşindən gözlərini qıyıb altdan-altdan qarşısındakı xidmətçilərə baxır:

– Mən elə bilirdim bizim Hindistan dünyanın ən isti yeridir, demə Ərəbistan bizim oralardan da istiymiş, susamışam, su olsa, pis olmazdı.

Din xidmətçiləri sevincək hay, hay – deyirlər – baş üstünə!

Təpədən-dırnağa bəyaza bürünmüş sifətində təbəssümlər oynayan xidmətçi su dolu qabı adama uzadanda heç gözləmədiyi bir xahişlə qarşılaşır:

– Bir təmənnam olacaq, ahbab, suyu mənə elə yerdə ver ki, orada Allah olmasın.

Az əvvəl savab qazanacağını düşünən din xidmətçisi cin atına minir:

– Heç nə danışdığını, nə dediyini bilirsənmi, əbləh adam? Arxanı Qibləyə çevirib namaz qılmağın yetmədi, yenə qələt qarışdırdın? Dünyada elə bir yer varmı, orada Allah olmasın?

Adam verdiyi sualın cavabını əvvəlcədən bilən bir ədayla təmkinini pozmadan deyir:

– Mən də buraya gələnə qədər elə sizin kimi düşünürdüm. Allah hər yanda, hər zaman varsa, namaz qılarkən yönümü hansı tərəfə çevirməyimin fərqi nəydi, adam kimi namazımı qılıb, duamı etməyə qoymadınız...

– Hə, Cabbar kişi, Allah, harada sidq-ürəklə anılırsa, oradadır. Quzey qarından əsib gələn ruzigar sərinlik, güney qızmarından əsən yel isə

istilik gətirir. Kimdə pislik və kin yoxdursa, o, Allahın yerdəki görüntüsüdür. Bə boşunamı deyirlər insanın könlünü qırma, çünki insanın könlü Allahın gələ biləcəyi ən müqəddəs yerdir. Dediyim odur ki, ürəyini buz kimi saxla, istədiyin yerdə namazını qıl, dualarını elə. Ha məscid olmuş, ha evinin kandarı fərq eləməz. Allahla qul arasına girilməz, girilincə də qiyamət qopar. O Hindistandan Həccə gedən adam bilirsənmi bir də nə deyif?

– Nə deyif?

– Deyif ki, bir zaman bəmbəyaz olan Məkkə daşı Həcərül-Əsvəd elə sizin kimi adamların ucbatından dönüb qapqara oldu. Allah indi sizin kimi cahil din adamlarına görə Günəşi simsiyah edib, günümüzü qara etməsə yaxşıdır…

Cabbar kişinin saqallı üzündə sərt bir işartı görünüb yox oldu:

– Doğru söylüyürsən, ay Şəmşəd kişi, amma indi elə zamana döyül axı, ara qarışıb, məzhəb itib.

Şəmşəd kişi bu dəfə də inadından dönmədi:

– Biz ki üzü suyuyla burdayıq, bə bilmirsənmi yeri gələndə səbəbə yox, nəticəyə baxırlar. İnsanın başına nə gəlirsə, hamısı bir şəkildə iz buraxıb gedir, bulaqdan təmiz çıxan su sonra öz-özünə bulanmır ki... Onu da bir bulandıran var. Yetər ki, bir su başdan bulanmasın. Unutma ki, bir adam az deyil, milyon adam da çox.

Molla Cabbar daşın hardan-hara atıldığını göydə tutub dodaqaltı mızıldandı:

– Deyirsən, onların təklifini qəbul edib kənd uşaqlarına oxumağı, yazmağı öyrədim, hə?

– Eynən elə. Kənddə gör nə qədər adını belə yazmağı bacarmayan kişi var. Bu uşaqlar da böyüyüb onların bir tayı olacaq. Sən də bu işə qol qoymasan, o uçurulan məscid bir yana, bir gör neçə məbədimiz yox olacaq.

Bayaqdan bu danışıqlara qulaq kəsilən, tüstüləri təpələrindən çıxan ağsaqqallar matdım-matdım bir Şəmşəd kişiyə, bir də dönüb Molla Cabbara baxırdılar – yəni, bizlik deyil. Amma Molla Cabbar istədiyi cavabı aldığından içinin rahatlığı təbəssüm olub tükbasmış üzünə yayılırdı.

# ÇƏTƏNƏ CEVİZ – DOLAŞIQ TALE

*“Sədəqə əbədi hədiyyənin toxumudur,*
*İnsan verdiyi sədəqənin kölgəsinə sığınır”.*

Muradla Qəni bu dəfə də apardıqları cevizi bazarda satıb özlərini küçələrə vermişdilər. Qəninin kətan köynək cevizi yaxşı pula getmişdi. Dəyərinə-dəyməzinə satılan Muradın çətənə ceviziydi. Bunu görən Murad Qəni ilə zarafat etməyi də unutmadı:

– İndi sən evə cibidolu gedəcəksən, mən isə əli ətəyindən uzun. Gəl belə bir iş görək. Qazancımızı bir yerə qoyub qardaş malı kimi ortadan bölək?

Qəni nəm-nüm elədi:

– Yox, aşna, hərifəm-nəyəm? Mən boğazımı yırtıb ceviz satanda sən özünçün bazar dükanlarında veyllənirdin, cevizinin yanında qalıb sataydın. Bir də mənim cevizim kətan köynəkdi, səninki kimi çətənə ha deyildi. Hələ Allahına şükür elə ki, sən olmayanda özümünkünün gözünə qatıb sənin çətənəni də işə verdim, yoxsa heç o satılan da satılmazdı.

Murad Qənini yola gətirməyin çəmini bilirdi. Qağasının (Murad böyük qardaşı Şəmşəd kişiyə “qağa” deyirdi. Həm də bu “qağa” sözünü elə şirin-şirin deyirdi ki, tay-tuşları da onun dililə Şəmşəd kişini “qağa” deyə çağırardılar) saz çalmağı ona keçməsə də, hərdən-hərdən söz qoşmağı vardı. Eləmədi tənbəllik, “Divani” üstündə yavaş-yavaş mızıldanmağa başladı:

Oğlunu lüt qoyubdu tacir olub, ana, Qəni.
Yaraşır, yaza bilsəm, bir gözəl dastana Qəni...

Qəni əvvəl-əvvəl özünü karlığa vurmaq istədi: “Mənə nə, qoy nə söyləyir söyləsin, boş ağızdır danqıldadır, deyib-deyib yorulacaq”.

Murada da bu lazımdı. Bu dəfə lap Qəninin eşidə biləcəyi bir səslə baltanı kökündən vurdu:

Kəndlərindən gecə çıxıb hamını yuxuya verib,
Bazara ceviz aparıb sonra gönü suya verib,
Olub qopan qazancını kababnan yuxuya verib
Kişi oğlu kişi kimi qulaq asıb cana Qəni.
Ac qarınlar doyuzduruf, batıbdı ehsana Qəni...

Qəni, Murad belə davam etsə, sabah, o biri gün bu dediyi pis-pis sözlər dilə-ağıza düşsə, Güvəndiyin ağzını tutsan, qulağı danışacaq, yaxşısı budur, Muradın ağzını vaxtında yumum, deyə fikirləşdi. Bir loğalaq pulu köhnə sırıqlısının qoltuq cibindən çıxarmağı ilə yolun ortasına səpələməyi bir oldu:

– Ə, a Murad, sən nə Allahsız adamsan, ə? Di ha, rahatlandınmı? Di yığışdır bu zəhrimarları, qoy hamısı sənin olsun, yetər ki, sus, məni itin-qurdun dilinə salma.

Murad etdiyi zarafatın əndazədən çıxacağını heç düşünməmişdi, ona görə də pulları yerdən yığıb, Qəninin döş cibinə soxdu:

– Ə, evi yıxılan, sən nə axmaq adamsan. Ə, heç zarafat-zad qanmırsan, sənin pulun mənim nəyimə lazımdır? Zarafatdı eliyirik də, özüm səni cırnadırdım.

Muradın bu tövrü Qəninin ürəyincə oldu, amma bunu dilinə gətirmədi, dilucu gileyləndi:

– Bu boyda da zarafat olar?

Rayon mərkəzinin bu gəliş-gedişli küçəsi elə gəliş-gedişilə də onlara bir az əvvəlki, qanqaraldıcı zarafatı unutduracaqdı.

Əyin-başları qaydasında olmasa da, gözləri bərli-bəzəkli şəhər qızlarındaydı. Heç özləri də bilmirdilər nəyə baxırdılar, baxsalar belə, bundan nə çıxacaqdı. Yeniyetməlikdən oğlan çağına keçidin böhranlı dövrü başladığından, içlərini dağıdan mübhəm güclə bacara bilmirdilər. Sanki rayon mərkəzi kəndlərindən 15-20 km aralıdakı bir yer deyil, Aşıq Əsədin

söylədiyi nağıllardan qalma bir şəhərdi. Hərdənbir, təkəmseyrək küçələri tozudan maşınlar və ən vacibi də arabir dəmir yolundan fit verə-verə keçib gedən yük qatarları olmasaydı, elə doğrudan da, burası hazırca bir nağıl məkanı ola bilərdi. Əslində, bu gözdən uzaq, könüldən iraq rayon mərkəzində nağıllıq bir şey də yoxdu. Bura hara, Aşıq Əsədin danışdığı qapalı Şərq bazarları hara? Bu uzaq rayon mərkəzini, sadəcə, onların arzu və xəyalları haylı-küylü Şərq şəhərinə çevirirdi. Bu şəhər onların gözlərinin qabağında deyil, xəyallarının içindəydi. Heç gözləmədikləri halda bir qaraçı qızı sanki xəyal qurduqları nağıldan çıxıb, qabaqlarını kəsdi:

– Ay oğlanlar, ay oğlanlar, siz o Qərib Seyidin cəddi, mənə bir nəzir verin.

Bu qəfil yalvarışdan karıxıb qaldılar. Sanki qaraçı da onların kənd uşaqları olduqlarını üst-başlarından oxumuşdu. "Rayon mərkəzindəki ürəyidaşlılara oxşamır bunlar, bir az da dil töksəm, məni əliboş qaytarmazlar":

– Siz o qolukəsik Həzrət Abbas, məni naümid qaytarmayın.

Murad:

– Bircə dilənçimiz əskik idi, o da böyürdən çıxdı. Ayə, a Qəni, cevizin pulundan bir-iki manat ver ona, yaxamızdan əl çəksin, – dedi.

Qəni:

– Ə, qoy rədd olsun cəhənnəmə, elə mən özüm də dilənçi kimi bir şeyəm, mənim özümə nəzir verən lazımdı, – deyib, qaraçının üstünə çımxırdı:

– Azzz, sürük burdan, elə cəhənnəm ol ki, gözüm səni görməsin!

Qaraçı qız geyim-kecimindən heç buraların adamına oxşamırdı. Cındırından cin ürksə də, ölmüşün əsmər yanaqları çiçək kimi açılmışdı. Başına örtdüyü nimdaş yaylığı sürüşüb çiyninə düşdüyündən qulaqlarından asılan qızıl tanaları aydınca görünürdü. Yaylıqla üstünü örtməyə çalışsa da, boynuna bağladığı qızıl zəncir əsmər əndamının rəngindən rəng alıb parıldayırdı. Nimdaş qofta və tumanı bədən gözəlliyini örtbasdır edə bilmirdi. Bu yoxsulluq içindəki ilahi gözəllik – dərkiçətin təzad Muradın gözündən yayınmadı. Kəraminə şükür, Allahım!

Qaraçı qız onlardan bir şey qopara bilməyəcəyini görüb, ortası bulana-bulana yanlarından uzaqlaşdı. Yenicə özlərinə gəlib yollarını dəyişmişdilər ki, bu dəfə də dəmir yol tərəfdən qarşılarını kəsdi. Murada üz tutub mızıldandı:

– Görürəm, mərd oğlansan, mənə bir yaxşılıq elə, əvəzində falına baxaram. Heç bilirsən, necə bilməyin gərəkən sirlər var?

Qəni:

– Azz, yenəmi sənsən, azz, rədd ol get burdan dedim, bizim saa veriləcək pulumuz yoxdu, azz, pulumuz olsaydı, bu küçələrdə nə itimiz azmışdı, hay, niyə palçıq ayaqlayırdıq, elə gedib restoranda kef çəkərdik dana.

Murad:

– Ə, bir qoy görək nə deyir.

Üzünü qaraçıya tutub:

– De görək yenə nə istəyirsən?

Qaraçı:

– Mənə dükandan çörək ala bilərsənmi? – deyib, əldən-ələ keçməkdən əzik-üzük olan birmanatlığı Murada uzatdı.

Qaraçının kömür qarası ovcunun içində bir aləm abbası və qəpiklər dura-dura ona kağız manatı uzatması qağasının haçansa söylədiyi sözləri xatırlatdı Murada: elə ki axşam oldu, siçovul yuvasına daşıdığı cevizi sayan kimi dilənçi də başlayır diləndiyi pulları saymağa. Hər insan da o yoxsul dilənçiyə bənzəməli, hər gün Allaha etdiyi dualarının sayını bir az da artırmalıdır. Çünki bir gün gələcək o duaların Allah qarşısında hesabını verəcək. Bəlkə indi qaraçı qız ona dəmir pul yerinə kağız pulu uzatmasaydı, heç yüz il yüz ilə qalsa da qağasının bu kəlamını ağlına gətirməyəcək, mənasını bilməyəcəkdi. Bu qaraçı qız da elə o kəlamın mütləq bir gün gərək olacağını Murada xatırlatmaq üçün qarşısına çıxmışdı bəlkə?! Bu çörək aldırmaq məsələsi də bir bəhanədir:

– Ay qız, pulun varsa, çörəyi özün niyə almırsan?

Nədənsə, heç özü də bilmədən qaraçı qızla daha məhrəm bir dillə danışmağa başlamışdı.

Qaraçı:

– Sən get al, gələndə niyə özüm almadığımı deyərəm.

Bu işə Qəni də çaşıb qalmışdı:

– Ay Allahın qaraçısı, bir parça quru çörəyə görə dilənərlərmi?

Qaraçı qız günəşdən yanıb qaralmış sifətindən bir cüt ulduz kimi yanıb şöləlırnən ümidli gözlərini qıyıb altdan-altdan Qəniyə baxdı:

– Sən heç o bir parça çörəyin nə olduğunu bilirsənmi? Yolda görəndə onu niyə öpüb göz üstə qoyurlar? Toxluq Tanrıdandır – çörək bəhanədir.

Qaraçı qızın, əyninə-başına yaraşmayan bu gözlənilməz sözlərindən Qəninin ağzı açıla qaldı. Ürəyindən keçən, "canıyanmışın bir üstünə-başına, bir də ağzından çıxan sözünə bax", kəlmələrini dilinə gətirmədi.

Murad:

– Yaxşı, pulun özünə qalsın, mən gedib sənə çörək alaram.

Qəni bilmirdi Murad niyə belə edir, qaraçı qızının hisli-paslı əlindən iyrənir, yoxsa "falına baxaram" deməyinə suyulub.

Qaraçı:

– Yox, olmaz, mənim pulumnan almağını istəyirəm.

Murad qaraçının bu inadında nəsə gizli bir şey olduğunu düşünüb, kirli manatlığı əti çimçəşə-çimçəşə aldı. Çörək dükanı uzaqda deyildi, az keçmədi ki, əlində təzə, isti çörək Qəni ilə qaraçının dayandıqları yerə qayıtdı. Qaraçı qız, sanki elə onun gəlişini gözləyirdi, başladı zəvzəməyə:

– Ay qardaş, ay qardaş, sən o Həzrət Abbasın kəsik qolları, əlindəki çörəkdən mənə də ver. Yalvarıram, məni əliboş qaytarma.

Bu dəfə də Murad çaşıb qaldı. Canım, bu qaraçı qızın, görünür, başına hava gəlib. Pul onun, çörək onun, niyə dilənsin axı? Fikrindən keçəni dilinə də gətirdi:

– Ay qız, pul sənin, çörək sənin, daha niyə dilənib zəvzəyirsən? Bu çörəyi özün alammazdınmı?

Qaraçı qız:

– Ala bilməzdim, çünki verdiyim pul da mənim deyildi, onu da dilənib almışdım. Bizim həyatımız belədi. Dilənmədən aldığımız çörək canımıza sinməz. Sən heç dərviş-filan görmədinmi? Bunun nə demək olduğunu bil-

məzsən, amma bax, burda deyirəm, bir zaman gələcək ki, dərvişlərin niyə qapı-qapı gəzib, Allah rizasına çörək istədiklərinin fərqinə varacaqsan.

Qaraçı qız nəsə fikirləşib, qarşısındakının içindən keçənləri olduğu kimi oxuya bilən bir adam arxayınlığıyla dilləndi:

– Görürəm rəhmdil oğlansan, verəcəyin sədəqəni hər vaxt bir Tanrı quluna ver. Tanrı quluna verilən sədəqə elə Tanrının özünə verilən kimidir. Fağırın əlinə düşən ondan əvvəl Tanrının əlinə düşər.

Murad qaraçı qızın dediyi sözləri eşidəndə quruyub qaldı. Ağzıyanmış elə bil qağamın dizinin dibində oturub, on ildir dediklərini çinədanına yığıb. Sən bunun cırığından cin ürkən geyim-keciminə, bir də ağzından çıxan sözünə bax.

Qaraçı qız elə bil içindən keçənləri üzünə söyləməklə Muradı heyrətləndirməyi qarşısına məqsəd qoymuşdu:

– İnsanın ruzisi insandan qaçmaz. Çünki tədbir insandan, təqdir Allahdandır. Tamah edənə izzət, qənaət edənə zillət yoxdur. Dediklərim ağlına batdısa, indi aç əlini, falına baxım.

Əyilib əlini tutmaq istədi. Murad diksinib geri çəkildi. Qəribəsi bu idi ki, bu dəfə də Murad qaraçı qızın içindən keçənləri başa düşmüşdü. Və başa düşdüyünə görə də çaş-baş qalmışdı. Bəlkə heç özü də hiss etmədən sirrə toxunmuşdu. Görünür Allah dünya və yaşam sirrini hər insana ömründə çox yox, heç olmasa bircə dəfə açır. Bu sirraçımına hazır olub-olmamaq isə ayrı bir işdir. İndi qaraçı qızla üzbəsurət söhbətin də davamı məchula uzanan bir sirr deyildimi?

Qaraçı, Muradın tərəddüd içində fikrə daldığını görüb dilləndi:

– İstəmirsən, istəmə. Amma lap nahaq yerə. Bilməyin gərəkən o qədər şey vardı ki... Yoxsa, söyləyəcəklərimdən qorxursan? Qorxma, mən sənə dünənindən yox, sabahından deyəcəyəm.

Qəniyə işarət edib:

– Bəlkə, bunun sirrini bilməyini istəmirsən, doğru da eləyirsən. Sirr başqasının yanında açılanda heydən düşür, həm də o başqasının ki, açılan sirrin birbaşa onunla da əlaqəsi var. Bəri dur, bu ağacın altına, sənə həyatının ən sirli yönlərini söyləyim. Sirrini gizləyən işinə hakim olar.

Adının xeyirliyə çəkilmədiyini görən Qəni dişinin dibindən çıxanları hüdülüyüb tökməyə gecikmədi:

– Ə, görmürsənmi, bunun başı çatmır, sənin də başın çatmır? Sənnən mənim aramda nə sirr ola bilər, qoy rədd olsun, bəri gəl, gedək. Sirr bilən olsaydı, dilənərdimi?

Muradın da bu öz puluna alınan çörəyi belə dilənən qaraçıdan ağlı bir şey kəsmədi, ya nədisə, üzünü qaraçı qıza tutub:

– Yox, lazım deyil, bir başqa vaxt, – dedi.

– Özün bil, amma gün gələcək, falına baxdırmadığına, başına gələcəkləri öyrənmədiyinə görə peşman olacaqsan. Mən ki falına baxmaq üçün səndən bir şey istəmirəm?! Bu dünyada gözünə görünən nə varsa, hamısı bir-biri ilə əlaqəlidir, o bunsuz yaşaya bilməz, bu onsuz. Verdiyim pulla aldığın çörək, sən istəməsən də, bizi bir-birimizə bağladı. Tale bir gün səni mənim yolumun üstünə çıxarmalıydı, çıxardı da. Çıxarmalıydı ki, mənə çörək alasan. Əslində, həyatda hərə bir cür dilənçidir – biri çörək pulunu dilənir, o biri arzusunun başa varması üçün Tanrıya əl açır. Diqqətlə baxsan, ikisi də eyni şeydi. Sənə çörək almaq üçün verdiyim pulu kimdən dilənmişəm, yadımda deyil. O beş quruş neçə əl dəyişdirib mənə çatana qədər. Unutma, həyatın bu gün bazarda satdığın çətənə ceviz kimidir, qırsan-qırılmaz, yesən, yeyilməz.

Çətənə ceviz söhbətinə gələndə Muradın heyrəti birə-beş artdı. Bu zalımın qızı bazarda ceviz satdığımı, həm də çətənə ceviz satdığımı hardan bildi? Qağası demirdimi hər kəlamda və hərəkətdə bir hikmət gizlənir. Yol getdiyin zaman bir də görürsən yanından bir-biri ilə nə haqqındasa danışan iki adam keçir. Qulaq verirsən və birdən ucundan-qulağından eşitdiyin sözlərdən hiss edirsən ki, o adamlar özləri də bilmədən (bilmədənmi?) sənin dərdinin çarəsindən danışırlar. Sanki Allah içindəki tərəddüdləri yox etmək üçün başqa birisinin dili ilə “qızım, sənə deyirəm, gəlinim, sən eşit”, – deyir. Bəlkə elə bu qaraçı qız, qağamın dediyi adamlar kimi, başıma gələcəkləri xəbər vermək üçün qarşıma çıxdı.

Qaraçını birinci dəfə deyildi ki, görürdü. Kəndə bir qablama arpa və ya qarğıdalıya fala baxan o qədər suyumsuz qaraçı gələrdi ki... Ki-

şilər tüstü verib porsuqları yuvasından çıxarmaqla əlləşəndə, qaraçı arvadları günün qızmarını fürsət bilib, fala baxmaq adına həyətləri dolaşar, ara xəlvət oldumu, qarğıdalı dəninə sap keçirib toyuğa, cücəyə cidar atardılar. Yox, bu qaraçı o qaraçılara bənzəmirdi, sanki ağıllı bir adama dəli paltarı geydirmişdilər. Qağası demirdimi "ağıl yaşda deyil, başdadır", "bəzən heç oxuyub eləmədən də dünya" sirlərini bilənlər tapılır.

Fürsətlər bulud kimidir, dəyərləndirməsən, gəlib keçər. Sanki gələcək peşmançılığının ayaq səslərini aydınca eşidirdi. Amma indi bu an, həm də Qəninin yanında falına baxdırmaq ona ar gəldi. Ağzıyanmış qaraçı heç Qəniyə əhəmiyyət də vermirdi. Elə qır-saqqız olub onun falına baxmaq istəyirdi. Murad suyulsa, falına baxdırsa, onda Qəninin yanında hörmətdən düşəcəyini fikirləşirdi...

# CAMAL HAVALI İDİ...

*“Düşmənin sənin günahını səndən yaxşı bilir.*
*Günahla kirlənən ruh yatmış vəziyyətdədir”.*

Bir zamanlar yerişindən yer yarılan Camalın əvvəlki camallığından əsər-əlamət qalmamışdı, başına hava gəlmişdi. Gecə-gündüz əri haqqında eyni şeyi düşünürdü: “Nəyi vardısa könüllücə kolxoz deyilən ağzıyanmışa verməmişdimi, nəyi qolçomaqdı biçarə yetimin, nədi-nədi beş-on “qotur” qoyun-keçisi artıq çıxmışdı. Bədbəxtin qardaşı, bacısı da qalmadı ki, mənə qulaq həyanı olaydı. Rəhmətliyin oğluna yurd salmağa yer qəhətdimi? Burda qurd qurdluğuyla yaşamaz, mən başıdaşlı necə yaşayım?! Diliyanmışlar arxamla “dəlidir” deyirlər, bə mən də dəli olmayıb, kim dəli olsun?”

Hələ “o hadisədən” çox-çox əvvəl, cavanca yaşında dul qaldığındanmı, ya da bu dərələr dibində qozbel bir daxmada cavan ömrünü çürütdüyündənmi, ya nədənsə, qulaqları ağır eşitməyə başlamışdı. Elə ki axşam düşür, qarşı yamaclarda çaqqallar ulaşırdı, daxmanın arxa tərəfindəki qaratikan kollarının arasındakı qaranlığın içindən kimsə onu çağırır, onu səsləyirdi:

– Ca-mal, hey, ay Ca-mal!

O, bu səsləri aydın eşidirdi. Adı çağırılan kimi özünü bayıra atıb səs gələn tərəfə boylanırdı. Bəlkə elə Allah eləmiş əri Əlidi, günahsız olduğunu bilib, Sibirdən azadlığa buraxıblar. Gözümü alacalanardı, yoxsa doğrudanmı hər axşam daxmanın arxasındakı sirli qaranlıqdan ona başdan-ayağa ağ geyimli bir xəyal görünürdü. Əli arvad xeylağı ha deyildi, ağ geyinəydi? Dili tutar-tutmaz “Bismillah” desə, deyə bilsə, gördüyü xəyal, göründüyü kimi də yox olub gedirdi. Amma bəzən qorxudan dili söz tutmaz, kəkələyərdi. Belə hallarda daxmanın arxa tərəfindəki qaranlıqda ağaran xəyal üzə durub yerindən tərpənməzdi. Gecələri də

dözülməzdi. Elə ki gözünü yumub mürgülədi, yuxuda üstünə ağır bir şey çullanar, sabaha qədər nəfəsini kəsərdi. Nə olduğunu bilmədiyi bu ağırlığın da bir düşməni vardı, o da yenə "Bismillah" kəlməsiydi! Qorxulu-qorxulu yuxudan oyanıb, "Bismillah" dedimi, deyə bildimi, o ağırlıq da gəldiyi kimi, birdən-birəcə çəkilib gedərdi. Dərdini kimə açaydı, kimə danışaydı, nə qədər öz-özüylə danışsın?! Axırda içindən keçənləri uzaq qohumu Seyrana açmışdı. Seyranın da verdiyi təsəlli idi. Təsəlli vermək asandı, di gəl, dərənin dibində gecələri çevrəsində ac canavarlar, çaqqallar ulaşan dağılmış daxmanda təkbaşına, yapyalnız səhərə çıx, görüm necə çıxırsan? Allah möhlət versəydi, bu ağzıyanmış kolxoz bir az gec gəlsəydi, bəlkə kordan, şildən bir övlad doğardım, indi qu desən qulaqlar tutulan damın altında yalnız başına qalanda həyanım olardı...

Xalam bildi, aləm bildi. Seyranın bildiklərini çox keçmədən kəndin ayağından başına hamı bilirdi… Gecələr heç, Camalın başından keçənləri eşidib-bilən yaramaz kənd uşaqları gündüzləri də onu rahat buraxmırdılar – qavalaq yarpaqları altına gizlənib ətrafı inildədərdilər: "Uuu. Uuuu. Uuuuu..." Səslər aləmi başına götürərdi: "Yenə ac qalan çaqqallardı bəlkə", deyə düşünərdi. "Gör köpəkoğlunun heyvanları necə qudurublar ki, pəsinib eləmirlər də".

Camal havalı idi. Camalın bu halından kənd-kəsək halı idi...

Kəndin dəyirmanı da elə Camalın daxması kimi bir az uzaqda – çay kənarında, tənha bir çökəklikdəydi. Ərindən sonra ehtiyac ona çox şeyin yolunu öyrədəcəkdi. O yollardan biri də onu kənd dəyirmanına aparacaqdı. Növbə gözləyənlər az deyildi. Dəyirmançı Topal Allahverdi çox zaman dəyirmana özü gəlməzdi, yerinə bığ yeri yenicə tərləyən bacısı oğlu dəyirmançılıq edərdi. Camal növbə gözləyə-gözləyə axıra qalmışdı. Dənləri üyüdülən kənd adamları bir-bir evlərinin yolunu tutmuşdu, sonuncu adam da getməyə hazırlaşırdı ki, Camal eymənməyə başladı, indi gecənin bu vədəsində təkbaşına necə qalacaq? Yenə dəyirmanın arxa tərəfindən onu "Ca-mal, ay Ca-mal" deyib çağırsalar neyləyəcəkdi?! Axırıncı dən üyüdən adam Camala kömək edib bir dağarcıq qarğıdalını təknəyə töküb dəyirmanın dabanını bir az qaldırdıqdan sonra un torbasını

çiyninə aşırıb ayqaranlıq gecədə gözdən itdi... Camal un tozundan bəmbəyaz olan ağac taxtın üstündə oturub dənin üyüdülməsini gözləməyə başladı. Bayırda hava açıq olsa da, payız gecəsinin ayazı başlamışdı. Öz daxmasından bilirdi, çay kənarında hava hətta yaz aylarında da sərin olur, o ki qalsın payız ola. Qaranlıq və darısqal olsa da yaxşısı budur, elə içəridəcə oturub gözləsin. Üst daşı döyəcləyən çaxçaxın yeknəsəq səsi nə müddətdi ağnağaz növbəsində gözləyən Camalı yorğun salmışdı. Yuxu gözündən tökülsə də, un tozundan bəmbəyaz olan sınıq-salxaq taxtın üstündə uzanıb mürgü vurmaq istəmədi. Ağlından keçən bir fikirdən diksindi: "Dəyirman bildiyini tutur, çaxçax baş ağrıdır". Cana üşütmə salan buludlar arxasından batıb çıxan ayın solğun işığı pərdə kimi dəyirmanın açıq qapısından asılı qalıb içərinin qaranlığını az da olsa aydınladırdı.

Nə zaman yuxuya getmişdi, bilmədi. Bir də onu gördü ki, yenə üstünə ağır bir şey çökdü. Qorxulu-qorxulu "Bismillah" deməyə çalışdı, dedi də, amma bu dəfə gözlənilən olmadı, üstündəki daş kimi ağırlıq çəkilib getmədi, əksinə, enib-qalxmağa və Camalın içinə isti – ılıq bir şey axmağa başladı. Əri Sibirə sürüldükdən bu yana heç belə xoş təmas hiss etməmişdi. Nə sirr-bəla idisə, üstündəki ağırlıq əvvəlkilərə bənzəmirdi, ağzıyanmış heç "Bismillah" sözündən də pəsinib eləmədi. Qorxulu-qorxulu üstünə çullanmış ağırlığı gücü gəldiyincə atmağa çalışdı. İtələdiyi nəydisə yıxılıb-eləmədi, bircə anda alaqaranlıqda tüstü kimi özünü bayıra atdı və Camala elə gəldi ki, gedənin arxasınca dəyirmanın açıq qapısından asılı qalan Ayın pərdəsi qalxıb-endi, açılıb-örtüldü. Donub yerindəcə qaldı. Doğrudanmı üstündəki cin-filan deyildi, kimdisə tanrıtanımazın biriydi, ya da ona elə gəlmişdi? Dəli ağlı bir şey kəsmədi.

Sonralar qarnı qalxmağa, içində gözlənilməz tərpənişlər başlayanda adamlardan qaça bilərdi, özü-özündən necə qaçaydı?! Gecə-gündüz əl açıb Allaha yalvarırdı: "Bu nə işdi başıma gəldi, a şükür kəraminə?!"

Başına bu işin necə gəldiyini, harda gəldiyini düşünsə də, kələfin ucunu itirir, bir yana çıxara bilmirdi. Tək bir şübhəsi vardı, ona da əgər şübhə demək olardısa.

# EL İÇİNDƏ – ÖL İÇİNDƏ...

*"Hər insan iki insandır – biri qaranlıqda oyanıq, digəri işıqda".*

Dərənin dibindəki bulağa hamıdan xəlvət gedir – ya səhərin ala-toranında, ya günün yeri-göyü qarsıyan günortasında, ya da əl-ayaq yığışanın şərqarışımında. Nə üzlə el üzünə çıxaydı? Vadi boyunca güllü-çiçəkli çəmənlikdən eymənə-eymənə keçir. Sağda, solda sayrışan kəpənəklər cimciməli donunun gülləri kimi ot basmış cığırın hər iki tərəfini bürüyən yay çəmənliyinə toxunub rəngdən-rəngə düşür. Söyüdlü dərə təlqinedici bir duyğu ilə dolur, günün qıyqacı şəfəqləri altında kəpənəklərin zərif qanadları bərq vurub parıldaşır, xoş bir mənzərə yaradır. Camal bu mənzərəyə dalır – gözləri gün altında güllərin, çiçəklərin arasıyla bal kimi süzülən suda; fikirləri qayğılarının yanında qalır. Beləcə, bulağa gəldiyindən birmi, beşmi saat keçib, fərqinə varmır, çoxdan dolmuş sənək poqqur-poqqur poqquldasa da, onu xəyaldan ayıra bilmir. Yayın qızmarında yorğun alabaxtaların qanad çırpıntıları sükutu pozur, sonra hayandasa anadil quşunun hüznlü, tənha nəğməsi yanğılanır. Xəyallardan ayılıb poqquldayan sənəyinə baxınca ətrafa göz gəzdirib günün axşam olduğunu hiss edir. Bəzən qonşuların şıltaq qızları onu qarabaqara izləyir, bulağın sağ əlindəki böyürtkənli yamacın kölgəliyinə sinib, saatlarla bu heykələ dönən qadına baxır, gizli-gizli onunla məzələnir, sonra çoxsaatlı bu lal sükutdan bezib bulağın gözünə daş atıb qaçırlar. Camal da diksinir, bulaq da. Bulaqda əks olunan qorxu qəlbindən keçib dalğa-dalğa varlığını bürüyür. Bətnindəki ilk tanış tərpənişdən eymənir, bu qorxu o tərpənişi bir az da artırır: "Bulağa nə var ki. Dolur da, boşalır da. Vay mənim halıma. Allahım, sən özün yardımçım, pəriskərim ol..."

O da başqaları kimi bu sirrini saxlaya, ya da varlığından yavaş-yavaş boy göstərən bu bəlanı elə bətn halında məhv edə bilərdi. Amma

necə, nə təhər, kimin yanında? Axı necə olsa, bunu kimsə biləcək: "A şükür kəramınə, nə günahım var, sən bilirsən. Bu nə dərddi mənə verdin, əgər bu sənin təqdirindirsə mənə bir işarə ver, özümə gəlim, işimi bilim, başqa bir şeydirsə... Niyə mən?!"

…Günün lalıxlayan, nur içində üzən vaxtıdır, çinarlar işıq seli axıdır, yerlə göy sehrli bir yay ilğımında birləşib. Alabaxtalar, göy qarğalar dimdiklərində qarşı yarğanlara dən daşıyır. Orda – sarı torpağın nəmli, sərin ağuşunda ətcəbalalar ağızlarını açıb yol gözləyir. Dünənki axşam küləyindən sonra zədəli, kal meyvələr yerlə bir olub. Torpaq öz işini görür, nəmli otların arasına səpələnən zədəli meyvələr çürüməyə başlayıb. Çevrədə vız-vız vızıldaşan eşşək arılarının, güldən-gülə qonan, yayın ləzzətini çıxaran böcəklərin dünya vecinə də deyil – kim ölür, kim qalır, itən kimdi, çürüyən kim? Əbədi harmoniyanın diktəsi eynidir: "Biri ölməsə, biri dirilməz!" Camal aradabir əlini dəyirmilənən şişkin qarnına çəkir və sinəsini döyəcləyən şappıltıdan eymənir, nə edəcəyini bilmir. Hansını etməli, dən daşımalı, yoxsa torpağa tapşırmalı?..

Qeybətlər, dedi-qodular kəndi başına götürüb. Son ayların tək bir mövzusu var, o da Camaldı. Kənd bəzən illər boyu bir belə qeybət mövzusuna həsrət qalır. Həm də qeybət sahibi Camal kimi köməksizin, təcrübəsizin biridirsə.

"O hadisədən" sonra Camalı daha nə axşamlar daxmasının arxasından səsləyən vardı, nə də gecələr üzərinə çökən. Hələ desən kar qulaqları da açılmışdı. Artıq kəndi ağzına götürən qeybətlər onun "kar" qulağına da çatırdı. Uzaqdan kənd arvadlarını bir yerə yığılan gördümü, qeybətin ondan qırıldığını hiss edirdi. İçində öz-özünə verdiyi məcburi təsəllisi vardı: "Neylim, başıma gələnlər başlarına gəlsin, onda nə çəkdiyimi görüb dillərini dinməz yerlərinə qoyarlar..."

İşdən-gücdən baş açdılarmı, kənd arvadları səhərdən suata çıxar, qazan asıb Əsrik çayının suvadaq daşları boyu qatarlanar, qollarını çırmayıb həftə boyu yığılıb qalan əyin-başın kirini, pasını yuyub çay aşağı axıdarlar. Suatbaşı çaykənarı, gözdən iraq, hazırca qeybət qırmaq yeridi:

– Günün yağlı olsun!

Qarşı tərəfdən cavab gecikmir:

– Belə sənin də günün yağlı olsun!

– Ay qız, canıyanmış o bici görəsən kimdən qazanıb?

Seyrandı söhbətə başlayan, o Seyran ki, Camal dərdini ancaq ona açmışdı. Bu arada Kifayətin dili dinc durmur:

– Topal Allahverdinin yetimçəsi var ha, onun işi olacaq, vallah, görmürsən nə mamaxozu gəzir?

Seyran yenə Kifayətin sözünə qüvvət verir:

– Bə dəyirmanın çevrəsində sülənməsi, kal beçə kimi uşaqların üstünə xoruzlanması, qızların arxasınca imrənməsi boşunaydımı?

Bəsti söz altda qalan ha deyil:

– Allah bəlasını vermiş, qulağının kar tərəfinə salıb "hay" deyə-deyə heç özü də bilmer kimdən alıb. Mən ona vaxtında neçə dəfə dedim – ay üstünə qar yağsın, ək bunun başını, çıxsın getsin. Onun da canı qurtarsın, sənin də. Amma kimə deyirsən, əkmədi. "Allahdan qorxuram" dedi, onu mənmi yaratmışam, məndə öldürəm, o mənim övladım deyil ki, Allahındır. Gör ağzıyanmışın qızının danışdığı sözə bax – Allahı suçuna şərik çıxarır. Bıy, kül başına.

Zinyətin hikkəsi suatdakıların əlifini çaşdırır:

– Ey azz, dilini dinməz yerinə qoy, elə söz deyərəm, dəymişin dura-dura kalın tökülər. Qoyun qazan ağzıörtülü qaynasın. Ağzımı açdırmayın ha... Açsam... Nə xətir üçün xəstə düşmüsünüz, onun namusunu çəkmək sizəmi qalıf? Gedin özcə dərdinizi çəkin, bala. Qarnınıza daş bağlayıb yatdığınız nə tez yadınızdan çıxdı, hə? Yoxsa durum altlı-üstlü danışım?

Qeybətin, qarğışın biri bir qəpiyə çıxır, carlanmış patarlardan çıxan sabun, gil köpüyü kimi axıb Əsriyin boz-bulanıq sularına qarışır. Çay da bu qeybət və qarğışları üstünə düşən günəşin çəpəki şəfəqlərinə, göyün ala-tala ağ buludlarına qatıb axıdır, burula-burula içində əridir, arındırıb duruldur...

Bu zaman Tortəpənin yanından elə bir haray yüksəlir ki, çay kənarında paltar yuyan (qeybət qıran) qadınlar diksinib səs gələn tərəfə boy-

lanırlar. Pərpətöyün toxumu kimi qaçıb ətrafa dağılan kəndin bığ yeri təzəcə tərləməyə başlayan uşaqlarının arxasınca qışqıran Mələk qarıdı:

– Ay qancığın qarnından çıxanlar, ay itdən əmələ gələnlər, ayə, ananızı neyləyirsiniz?

Sahibinin tanış səsini eşidən eşşəyin gücü səsinə çatır. Anqırmağa başlayıb, Mələk arvada başına gələnləri xəbər verir. Mələk qarı da hər "şeyi" adınnan deyir, utanıb eləmir:

– Yaxşı, yaxşı a anasının qarnında atasının s.... dişləyən köpək uşağı, qaçmıyın bir, indi gəldim.

Mələk arvadın söyüşləri, eşşəyinin anqırtıları qadınların başını qeybətdən ayırıb. Quzuların kolxoz zəmisinə doluşduğunu görən Seyranın səsi Mələk qarının da, eşşəyinin də səsini batırır. Quzu otarmağa göndərdiyi qızının qarasına bağırmağa başlayır:

– Azz, ağız, a üzünə tuman bağı açılmasın, a səni ər üzünə həsrət qalasan, bə sənnən döyləmmi, savaxdan səni çağırmaqdan boğazım dağılmadımı, deməremmi quzuları qoruğa girməyə qoyma, hay?

(Qayınatasının, qayınanasının, qaynının yanında yaşmaq alıb, uvuqlu gəzib, yüz sözün birinə "hə"sini, "yox"unu başıyla verən... gəlinlər elə ki evdən bayıra çıxdılar, acıqları tutanda saçyolmasına başlar, söyüşlərinin biri bir qəpiyə çıxar).

Seyranın ciy-ciy səsi Mələk qarının eşşəyinin anqırtılarına qarışıb, Qızıl qayanın diliklərində əks-səda verir... Öz nağılını özü yaradan kənd qıfılbəndə bənzəyir – bəzən açılır, bəzən də qapanır. Amma elə qıfılbəndlər var ki, bir dəfə söylənmiş olsa da, çətənə ceviz kimi min illər boyu mənasını açan tapılmır...

## CAVABSIZ SUALLAR...

*"Əlləriniz, ayaqlarınız bulaşıbsa su ilə, paltarlarınız çirklənibsə, sabunla təmizləyə bilərsiniz. Kirlənən ağıl isə su ilə, sabunla yox, yalnız Sözlə təmizlənə bilər".*

Camalın qulaqlarını açan açmışdı, amma özünü elə aparırdı ki, guya qulağı yenə ağır eşidir. "Qoy nə söyləyirlər söyləsinlər, mən ki Allahın qoyduğu yoldan qırağa çıxmamışam, nə bəla veribsə, özü verib".

Vaxt papağını hərləməmiş gəlib keçəcək və Camal gecələrin birində elə daxmasının altındaca doğum sancıları çəkəcəkdi. Kimi vardı, kimi köməyə çağıraydı. Bir Seyrana ürək qızdırırdı, o da eşitdiklərini bircə-bircə o biri arvadların ovcuna qoymuşdu. Dərdini içinə salıb taleyinə boyun əymişdi: "Neylim, Allah verən paydı. Ölər ölər, qalar qalar. Ölənə oxşamır, üzü bərkdi, ölsəydi, bu qədər qarnıma daş bağladım, o zaman ölərdi".

Gecənin bir aləmində yükünü yerə qoymuşdu. Yenə yerə yastıqdan, döşəkdən salsaydı, bəlkə dünyaya gələn balasını qoruya bilərdi. Amma balası bəlası olmuşdu, bunu da etməmişdi. Körpə qanlar içində yerə dəymişdi. Dəyməyi ilə də aləmi başına götürən səsinə daxmanın qaranlıq küncündə mürgü vuran toyuq-cücələr hay vermişdi. Camal bir özünə, bir də qanlı bir bağla bağlı olduğu doğduğuna baxmışdı. Bu, göbək bağı yox, günah kəndiri idi, "o hadisədən" bu hadisəyə uzanmışdı. Bəlkə o, heç bic-filan da deyil, Allahın daş üstdə verdiyi paydı. Bəs nə idi illər uzunu axşamlar onu çağıran, gecələr belinə minib "Bismillah" deyənəcən canını sıxıb suya döndərən? Bütün bunları Allah edirdisə, bu tifil boynuma düşəndən sonra niyə etmədi?

Göbək bağı Camala ana olduğunu xatırlatmışdı. Canının ağrısına baxmadan körpəni yerdən götürüb əskiyə bükmüşdü. Üzünü-başını görməsən, elə bilərdin qucağındakı böyük bir qurbağadır – uşaq şikəst do-

ğulmuşdu. Camal çaşıb qalmışdı: "Bu nədir, Allah, qarnıma bağladığım daşdanmı bu günə düşüb, yoxsa bic olduğuna görə onu belə yaratdın?"

Qarşısıalınmaz bəlanın önünə çıxmaq Camalın əlində deyildi. Bəlkə də ağır taleyi ilə mübarizədə insan ağlının çata bilməyəcəyi bir gücün olduğunu dərk etmişdi. Dərk etdiyindən də qarşı durmaqdan yorulmuş, taleyini bu insanüstü gücün ixtiyarına buraxmışdı – başına hava gəlmişdi, duruşunu, oturuşunu bilmirdi.

Şəmşəd kişi olmasaydı, atasının kim olduğu bilinməyən oğlunu kişilər yox, kəndin sözbaz qadınları tumanbağıyla boğub öldürəcəkdilər. Şəmşəd kişi döşünü qabağa vermişdi:

– Onunla işiniz olmasın, Camalı deyirəm, günahsız onsuz da günahsızdır, günahkara əl-ətək verin ki, günahını yuya bilsin. Gəlmək qonaqdandır, qarşılamaq ev yiyəsindən! O tifillə də işiniz olmasın, dünyaya göndərilən hər uşaq, hansı anadan doğulmasından asılı olmayaraq, hamımızın qonağıdır. Allahınızı sevirsinizsə, Allah adına, onun övladlarını da sevin. Anasının ağlı üstündə olsaydı, başına bu bəla da gəlməzdi.

Şəmşəd kişinin bu sözlərindən sonra dili pəltək olduğundan adını Kınkı qoyduqları uşağa dəyib toxunmamışdılar. Hər uşağın bir ata-anası vardı, Kınkı bütün kəndin uşağı olmuşdu. Amma hamının olan kimsənin olmur: beli donqar, barmaqları şanapipik, ayaqları sürüngən, dili pəltək...

# YAŞIN BURULĞANINDA...

*“Müqəddəsin keçmişi var, günahkarın gələcəyi...”*

Qarşı Qızıl qayanın quzey səmtinin əlçatmaz yerlərində dəlik-deşiklər vardı, bu dəlik-deşiklərə kənd camaatı “hour” adı vermişdi. Murad yazbaşı Qızıl qayaya üz tutar və qayanın əlçatmaz yerlərində olan koğuşların ağzını yastı bir daşla qapadar, çevrəsini gətirdiyi külqarışıq mal peyini ilə suvayar, ağzına da arıların girə bilməsi üçün kiçik bir deşik qoyardı. Və yazbaşı beçə verən arılar günlərin birində sahibindən qaçıb, qanadlarında yaz günəşini parıldada-parıldada arzusunun saldığı qızıl izlə əvvəlcədən bələdlədiyi Qızıl qayanın koğuşlarındakı hourlara üz tutardı. Qağası bir dəfə etiraz edib: “Çox danışıq yalansız, çox pul-para haramsız olmur ay qardaş, halalımıza haram qatma”, deyəndə Muradın cavabı dodağının ucunda hazır olmuşdu:

– Ay qağa, bunun nəyi haramdı? Onsuz da kiminsə arısı beçə verir, biri tutur, beşi qaçırır, gedib qapılarından oğurlamıram ha? Bə özün demirsənmi, Allahdan istədiyinizi sidq-ürəknən istəyin, daşın üstündə də olsa, verəcək. Fəda olduğum sənin dediyin kimi elə qismətimi daş üstdəcə verir də...

Əldən itiliyi, çevikliyi ilə də kənddə ad çıxarmışdı Murad. Balaca boyu ilə diqqətləri özünə çəkməsə də, fərqli biri olmaq istəyirdi. Amma Muradın doğulub böyüdüyü bu dağ kəndində özünü təsdiqləməyə bir elə də meydan yoxdu. Harda təsdiqləyə bilərsən ki özünü? Dağılmış kolxoz işindəmi? Briqadir deyilən tanrıtanımazın sözünə boyun əyib, sabah naxıra, axşam axura gedib-gələnlərə baxıb məəttəl qalardı. İçindən başqa bir səs də inad edirdi: Allah eləməsin, məni də bu ağzıotlular kimi qoşqu atına döndərələr, başımı götürüb elə geniyəcəyəm ki, iz-tozumu da tapmasınlar, kolxozda işləyib ölənin dədəsinə lənət.

Murad başqa yol seçəcəkdi. Bu seçimdə, heç şübhəsiz, kənd toylarında aşıqların oxuduğu dastan və nağılların da ayrıca payı olacaqdı. Hələ tüfənginin gövdəsi boyundan uzun olan vaxtlarda atdığı hədəfi yayındırmazdı, quşu gözündən vururdu... Belə olduğuna görə də gözü götürməyənləri də artacaqdı. Bunlardan biri də öz doğmaca dayısı Çobandı. Oğurluğun, əyriliyin baş alıb getdiyi o qaranlıq zamanlarda Çoban arxadan ona şərik çıxacaq birinin gəlməsini istəməzdi.

# BƏD XƏBƏR ATLI OLUR...

*"Bilən söyləməz, söyləyən bilməz..."*

Evin başının üstünü birdən-birə rayondan gələn milislər kəsdi. Arvad-uşaq ora-bura tüyünüb çaxnaşmaya düşsə də, Şəmşəd kişinin tükü də tərpənmədi. Əmin olmasına, əmindi. Bilən kimin kim, nəyin nə olduğunu hamımızdan gözəl bilir. Yaxşı ki Murad evdə yoxdu, yoxsa əlindən bir xata çıxardı...

Milislər qara damın arxasındakı qaratikan fızıllığında gizlədilmiş baş-ayaqları elə bil əlləri ilə qoymuşdular. Milislərin qarnı burnunda olan böyüyü əlilə kolların arasına atılmış baş-ayaqları göstərib Şəmşəd kişinin üstünə çımxırdı:

– Özün də ağsaqqal kişisən, bayaqdan etdiyin and-aman nədir, bu haqqı-sübut nə?

Şəmşəd kişi gördüyündən diksinən kimi olsa da, tövrünü pozmadı:

– Bir Allah şahiddir ki, bu işdən mənim külfətimin xəbəri yoxdur.

Milislərin böyüyü balasının başı kimi sağ əli ilə əvvəlcə şişman qarnını oxşadı, sonra sol döşündəki ulduzlu nişanı sığallaya-sığallaya hikkə ilə çəmkirdi:

– Nə "Allah, Allah, xəbərim yoxdu" deyib durmusan. Qoy dediyin Allah varsa, gəlib səni qurtarsın əlimizdən görüm, necə qurtarır?!

– Ay oğul, – dedi Şəmşəd kişi, bizə dil uzadırsan uzat, amma Allahlıq işin olmasın. Bir gün sənin kimi bir adam Peyğəmbər həzrətlərinə (*Salam onun üzərinə olsun*) buyurdu ki, ya peyğəmbər, səni çox sevirəm. Peyğəmbər əleyhissalam o adama qayıdıb bilirsənmi nə dedi?!

– Mən nə bilem, nə dedi?

– Dedi ki, nə durmusan, get dəmir paltar geyinib üzərinə gələn bəlaları qarşıla, çünki bəla, məni sevənlərə verilən hədiyyədir. İndi, ay

oğul, Allahdan gələn nə var, quluna hədiyyədir, verdiyinə şükür. Yenə təkrar edirəm, bizim ailənin bu işdən xəbəri yoxdur.

Milislərin böyüyü dönüb yuxarıdan aşağı Şəmşəd kişini bir də tərs-tərs süzdü:

– Dediyin bəla qapına qədər gəlib, dur qarşıla görüm necə qarşılayırsan.

* * *

Bəd xəbər atlı olur, Güvəndik kəndinə gəlib çatması da çox sürmədi. Qəninin anası Qaratel arvad xəbəri eşidər-eşitməz çənəsini işə saldı:

– A bala, bu yenə Çobanın işi olacaq. Bir ağaca çıxıb min budağı silkələyən köpəkoğludur! Milisin hər dərədə bir qulağı var. Bizim dərəninki də elə o yolu yomrulmuş Çobandı. Əmiyə qalan dəmyə qalar, "əmimdi", "dayımdı" demə, kəmfürsətin biridi, bacıoğluna, qardaşoğluna baxan qurumsaq ha döy, naqislik canındadı. Belə o illəri bajım uşaxlarının başına da elə bu oyunu gətirmişdi. Malları özü oğurlayır, kəsib baş-ayağını isə ilişdirmək istədiyi adamın çəpərinə atır, sonra da işverənlik edib yerini milisə xavar verer. Çuğul ölmüyüf ha, heç beş gün keçməmiş işvuranın kim olduğunu öyrəndik. Nədi, nədi, bir dəfə kəndin ortasında sözləri çəp gəlifmiş, özünün dişi batmıyıf, qisasını milislə almaq istiyif. Həmən şeydi, bu işdə Çobanın barmağı var. Əlindən xata-zad çıxar ha, uşaqlıq eləmə, Mollaoğlu dürüst adamdı, Şəmşəd kişinin halal adam olduğunu bilmermi?

Murad başıalovlu Güvəndikdən Əsriyə qayıdırdı, Qarabulağın yanından keçirdi ki, bir az aşağıdan söyütlüyün dərəni limhəlim doldurduğu yerdən bir tüstünün göyə milləndiyini gördü. Gələn soyuqların xəbərçisi kimi burula-burula qalxan tüstülər tənbəl-tənbəl göyə millənməyində idi. Çobanın evi tüstü qalxan tərəflərdə olmalıydı. İçindən bir hiss Muradı söyütlükdən aşağı dağdağanların olduğu yerə çəkdi. Yavaş-yavaş aşağı endi, Çobanın arvadı Gövhərdi qaynar asan. Suatda paltar yuyurdu. Çoxdan evlənsələr də, Çobanla Gövhərin uşağı olmurdu. Bəlkə uşağı olmadığından da Gövhər ərlik qız kimi qalmışdı. Ətrafı bürüyən fızıllığamı, yoxsa Çobanın bu yerləri yağı qoruğuna çevirdiyinəmi arxayın

olmuşdu, bilinməz Gövhər tumanının ətəyinin bir ucunu dəstələyib belinə keçirdiyindən, şümşad kimi bəmbəyaz baldırları açıqda qalmışdı. Amma indi Murad baldıra-buxağa baxan halda deyildi. Ətrafda kimsə gözə dəymirdi, səssizlikdi. Gövhər altdan-yuxarı boylanıb kiminləsə danışırdı. Amma kiminlə? Çobanın qorxusundan kişilər yox, heç qadınlar da Gövhərin həndəvərinə yaxın düşməzdi. Elə isə Gövhərin söhbət yoldaşı kimdi axı? Qadının baxdığı səmtə boylananda gördüyü mənzərədən Muradın qanı damarında dondu. Dağdağan ağacının başındakı Çoban idi. Xəncərinin iti tiyəsi ilə dağdağanın meyvəli kiçik budaqlarını kəsir, yediyini yeyir, yemədiyini aşağı buraxırdı. Yəqin Çoban Xıdır-Əlləz qovutu üçün dağdağan toplayır – dağdağansız nə qovut?

Bol suyundanmı, yoxsa, meşə torpağının münbitliyindənmi, bulağın ətrafı söyüd, tut, dağdağan, ağcaqayın, ceviz ağacları ilə çevrələnmişdi. Ağacların bükrümündən günəş işığının düşmədiyi dərədə kölgəlikdənmi, nəmişlikdənmi, nədənsə, yarğan boyu bulaqlar fışqırırdı. Elə bir fızıllıq yaranmışdı ki, içində baş kəssən, xəbər tutan olmazdı...

Murad nə edəcəyini bilirdi, evə gəlməyinin məqsədi də bu idi. Qağasına oyun qurub, indi də heç nə olmamış kimi dağdağanın başında qış azuqəsini yığan Çoban ola-ola neylem, nejelemin yeri idimi? Bu darmacalda yadına qağasının belə hallarda verdiyi təsəlli düşdü: “A bala, Allahın barmaqları ha yoxdu günah işləyənin elə o saat basıb gözünü çıxartsın, nəyi nə zaman edəcək, özü bilir!”

– Eh, ay qağa, bə nə oldu, Allah bu Çobanın gözünü nə vaxt basıb çıxaracaq. Üstümüzə şər atıb, səni dama saldırandan sonramı?

İçindən keçən bu fikirlərin davamı da vardı: “Ağıllı tərpənənəcən, dəli vurub bələni aşır...” Yaxşı ki tüfəngini arvad-uşaq əl vurmasın deyə, gizlətmişdi, yoxsa milislər evi axtaranda onu da tapıb aparardılar. Evin yan tərəfindəki ilanyalı tayanın arxasına keçdi... İşi bir an öncə bitirməliydi, sonraya qalsa, ya özü qorxaqlıq edib tərəddüdə düşər, ya da ləngisə, Çobanı dağdağanın başında tapmazdı...

# ÇIXAN QAN BƏDƏNDƏ DURMAZ

*“Dünyanın silinməz izi ya göz yaşı, ya qan izidir...”*

Yuxarıdan aşağı baxanda çılpaq təpələrin arasıyla qıvrıla-qıvrıla bir yaşıllığın yamaclardan çaya doğru endiyini görmək çətin deyil. Elə bil ağaclar da istidən qaçan qoyun sürüsü idi, çılpaq yamacların yay qızmarından çibinnənib suyun başına yığışmışdı. Payızın orta ayı olsa da, dərə boyu ağacların yarpaqları hələ də yamyaşıldı. Söyüdlərin suya uzanan qızılı əmici kökləri və suya çəpəki düşən payızın axşam günəşi vaxt-vədənin son bahar olduğunu pıçıldayırdı. Fızıllıqda mığmığalar, milçəklər sanki yayın günəşli, isti, kefli günlərinin əldən çıxdığını hiss edib, vida nəğməsi oxuduqlarından səsləri dərəni başına götürmüşdü. Muradın gənc və təcrübəsiz ürəyinə daman qan isə qorxu rəngində idi. Ayağının ucunda yavaş-yavaş, xışıltı salmadan Gövhərin qazan asdığı çökəkliyə doğru irəlilədi. Axan sudan, yayda heyvanların çevrəsinə yığılan mığmığa kimi suyun başına yığışıb üzüaşağı enən kol-kosdan, ağaclardanmı, yoxsa bu suyun gedib-gedib töküldüyü çaydanmı, dərəyuxarı ağlı başdan aparan nəmqarışıq bir sərinlik yayılırdı. Çobanın dünya vecinə deyildi. Yenə əvvəlki kimi xəncərinin ülgüc tiyəsi ilə dağdağanın xırda budaqlarını budamaqda, Gövhərin əvəzsiz gözəlliyinin tək sahibi olmağın qürurundan doğan mahnısını oxumağında idi: “Odu keçən, gəl sinəmdən od apar”.

Tülkülərə, çaqqallara, qırqovul və kəkliklərə aman verməyən Murad ilk dəfə idi ki, insana silah qaldıracaqdı. Bu insan kəndin ən amansız, ən qansız və satqın, öz etdiyini özgəsinin boynuna yıxan biri olsa da, əli gəlmirdi. Nə də olsa, lülənin nişangahı bir başqası yox, dost-doğmaca dayısı idi: “Canım, nə dost-doğmaca dayıbazlığıdır. Dayı dayı olsaydı, bacısının ölümündən sonra heç olmasa, bircə dəfə onun yetim qalmış balalarına baş çəkərdi”.

İçindən keçən bu düşüncələr başını elə qatmışdı ki, az qala, fürsəti fövtə verəcəkdi. Ona həm ata, həm də qardaş olan, xətrini dünyalar qədər istədiyi qağası lüləsinin hədəfindəki bu şərəfsizin böhtanı hesabına indi milis qabağında türmədə idi. Bu şərəfsizi öldürəcək, kəndin canını qurtaracaq, sonra da tüfəngini götürüb özü öz ayağı ilə rayon mərkəzinə – milisə gedəcək, "Qağamın oğurlanan mallardan xəbəri yoxdur, onları mən oğurlamışam, hələ üstəlik, bir iti də gəbərtmişəm, qağamı buraxın, məni tutun", deyəcəkdi.

Sözünə inanacaqdılarmı, inanmayacaqdılarmı? Bu artıq onların işidi. Mənim işim elə indi, bu an, bu saniyə bu itin işini bitirməkdi. Sonra da fikirləşirdi ki, bunlar ancaq kənddə ad çıxarmaq üçün uydurduğu bəhanələrdi. Yalnız əyriliyin, oğruluğun şöhrət gətirdiyi Çobanı əfsanələşdirən bir kəndin dəliqanlıları özlərini kimə bənzətməli idilər ki? Həyat iki qatdan ibarətdi kənddə, biri ortada olanda o birisi yox olurdu. Nə qədər ki halallıq, dürüstlük dəbdə idi, dünyaya həyat və yaşamaq növbəsinə gələnlər o yolu tutub gedərdi. Amma bu günün kəndində oğruluq, əyrilik iş başında idi. Gözdən-könüldən uzaq dağ kəndi olduğundanmı, ya nədənsə, sovet hökumətinin əli çox zaman buralara vaxtında yetmirdi, yetə bilmirdi – dərəbəyliyin bir səbəbi də bu idi. Aşıq gördüyünü çağırar. Öz gənclikləri ilə görüşə yeniyetmələr, bir tərəfdən, Aşıq Əsədin oxuduğu Koroğlu qoçaqlamalarından, o biri tərəfdən, çobankimilərin təsiri ilə gəlirdilər. "Dərə yiyəsiz, tülkü bəy" deyib, başıpapaqlıların çoxu Nikolay zamanından qalma tüfəngləri küncdə-bucaqda gizləsələr də, yeri, məqamı gələndə işə salmaqdan da çəkinmirdilər. Çobanlıq isə əllə tutulan, gözlə görünəndi. Bəlkə buna görə də Murad, Koroğluluqla Çobanlıq arasında qalmışdı. Ona havayı yerə "qan çanağı" demirdilər ki? Dastan qəhrəmanlarında olduğu kimi, üzünün rəngi də tay-tuşlarından seçilirdi, qızılıya çalırdı. Gözlərinə sanki qan sağılmışdı, həmişə qan rəngində olurdu. Murad da elə ilk yeniyetməlik çağlarından elin dil-ağzında saqqıza dönmüşdü, dastanla həyat arasında gedib-gələn, yuxu ilə aşkarlıq arasında çapalayan birisi olmuşdu: "Yol kəsməyən, qan tökməyən adamdan nə qəhrəman?" Bu söyləntilər heç özü də hiss etmədən onun içində yuva

quracaq, günlərin birində doğrudan da qan çanağı olacaqdı. Hətta özü-özünə yüz dəfə fikirləşəcəkdi: "Qan tökmək pisdirsə, niyə Aşıq Əsəd Koroğludan oxuyanda elə baş kəsməkdən, qan tökməkdən danışar?" Beləcə, kənddə haqqında sabah qırılacaq qeybətləri, deyiləcək sözləri indidən eşitməyə başlamışdı. Bəlkə, bu sözlər onun yanında deyilməyəcəkdi, amma bilirdi ki, lap yerin deşiyində də olsa, bu sözlər hardansa gəlib onun qulağına çatacaq. Bu vaxtsız fikirlərlə başını qatdığını düşündü: "Çoban duyuq düşüb yuxarıdan aşağı atdığı xəncərlə səni yerlə-yeksan etsə, halın-günün necə olacaq? Kimi gözləyirsən?!"

Tüfəngi hərləməyi ilə Çobanı nişan almağı bir oldu. Amma çaxmağı çəkdisə də, güllə açılmadı. Bir "çak" səsi sanki yaxın qayalarda əks-səda verdi. Bəlkə də bu əks-səda heç qayalardan, daşlardan gəlmirdi, onun quş ürəyinin içindən pırr eləyib çıxırdı? Əvvəllər yüz dəfə çaxmaq çəkmiş olsa da, heç zaman belə bir səs çıxarmamışdı. İndi bu çıqqıltı nəydi belə? Qorxa-qorxa başını yuxarı qaldırdı. Çoban yəqin bu səsi duymuşdu, yoxsa döyükə-döyükə ətrafına boylanmazdı. Gələn şıqqıltıdan ağlı bir şey kəsmədiyindən, qayıdıb kiçik budaqları kəsməyə davam etdi: "Odu keçən, gəl sinəmdən od apar!"

Ürəyi gup-gup guppuldayır, sərrast nişan almağa imkan vermirdi: "Bu, sərçəyə tüfəng atmaq deyil, hədəfindəki Çobandı ey, evyıxan Çoban!" İçinə düşən tərəddüddən bədəni çim suya döndü. Burdan əliboş qayıtsa, qorxaqlığından heç vaxt kənd içində adam kimi gəzib dolana bilməyəcəyini düşündü. Halbuki içinin içində o, Çobanı aradan götürməklə kənddə ad çıxarıb, ikinci Çoban olmaq istəyirdi?

Tüfəngi hərləməyi ilə çaxmağı çəkməyi bir oldu. Boğazının altını nişan almışdı Çobanın. Açılan güllədənmi, yoxsa onun dağlara-daşlara yayılan əks-sədasındanmı, birdən-birə sanki qulaqları kar olub tutuldu. Güllə hədəfinə dəymişdi. İlk əvvəl Çobanın xəncəri budaqlara toxuna-toxuna bulaq suyundan mamır bağlamış suvadaq qayalara dəyib cingildədi, sonra Çobanın yöndəmsiz bədəni budaqdan-budağa dəyə-dəyə aşağı endi. Amma dodağındakı mahnı hələ də susmamışdı: "Odu keçən, gəl sinəmdən od apar".

Gövhərin səsi dərəni başına götürdü: "Vay, evim yıxıldı, vay, çırağım keçdi".

Muradın yeniyetmə bədəni bütün bu olanları sinirmək halında deyildi. Qaçmaq istədi, ayaqları, bağırmaq istədi, dodaqları tutuldu. Bir yandan da boyundan böyük olan tüfəngi yerlə sürünüb ona qaçmağa imkan vermirdi. Yıxıla-dura, kolun-kosun, otun-alafın içi ilə Qarabulağın axıb töküldüyü çaya doğru qaçmağa başladı. Dərənin fızıllığından çıxmaq istəsə də, çıxa bilmirdi. Qarabulağın suyu bir qara kəndir olub ayağına dolaşır, onu çəkib saxlamaq istəyirdi. Dərədən beyni çatladan qanqarışıq elə pis qoxu gəlirdi ki, sanki heç bir az əvvəlki gül qoxulu dərə deyildi. Kimdənsə eşitmişdi: "Qan izini itirmək üçün sudan keçmək lazımdı". Amma qorxudan nə edəcəyini çaşdırmışdı. Boğulurdu. Əlini atıb köynəyinin yaxasını sona qədər cırıb özünü suya verdi, üz-gözünə Qarabulağın sərin suyundan şappıldatmağa başladı. Sanki içindən nəsə pırıldayıb uçdu, az da olsa, rahatlandı. Burnunu doldurdu, beynini çatladan qoxu da sanki azalmış kimi oldu. Beynindən söz yerinə zəncir cingiltisinə bənzər səslər gəlirdi: "Bu nə işdi mən tutdum?!" Əlini-üzünü yusa da, tətiyi çəkən barmağının ucunda bir damla qan üz suyu ilə yerində idi. Öz-özünə çaşıb qaldı. O boyda uzaqlıqdan bu qan necə üstünə sıçramışdı? Qana bulaşan əlləri ömrü boyu gözünün önündə olacaq, yeməyə əl uzatsa, yeməklə, suya əl vursa, suyla qarşısına çıxacaqdı. Qandan gizlənə bilərdi bəlkə, amma qan tökən əlini harada gizlədəcəkdi?

Murad bu darmacalda üstünü alan düşüncələrdən sıyrılıb çıxmaq istədi. Bu düşüncələr ayağının altındakı Qarabulağın suyu kimi sısqa deyildi, çatmağa can atdığı Əsrik çayının özü qədər gurdu, az qalırdı onu süpürləyib qabağına qatıb aparsın. Bircə çaya çatsaydı, suları yarıb keçsəydi... Keçdimi, qan izini arxasında buraxacaq və bəlkə içinə dolub onu haldan-hala salan düşüncələrdən də qurtaracaqdı. Yenidən əyilib əlini yıxayıb, üzünə su vurmaq istədi. Suyun maviliyində qızarmış əllərinə baxdı, üzünün anadangəlmə qırmızımtıl, gözünün "qan çanağı" olduğunu bilirdi – qəribə idi, indi əlləri də qan rəngini almışdı. Lüləni

bu əllərləmi tuşlamışdı, tətiyi bu əllərləmi çəkmişdi? Öz tutduğuna özü inana bilmirdi. Heç neçə-neçə qırqovulu, kəkliyi, dovşanı, cüyürü can-dan edəndə bir bu qədər düşünməmişdi. Haçansa hər aldığı canın edam və suç kəndiri kimi arxasınca süründüyünü yaşlı bir ovçudan eşitmişdi. Amma indi heç bunları düşünməyəin yeri deyildi. Onun uşaqlığı har-dasa Qarabulağın qoxusu baş çatladan fızıllığının o tərəfində – Çobana tüfəng tuşladığı yerdə qalmışdı. Onunla “o tərəfin” arasından az qala yüz il keçmişdi. Artıq qayıtmaq istəsə də, “o tərəfə “ qayıda bilməzdi, bil-məyəcəkdi də. Aranı geriyə dönüşü mümkün olmayan ölüm kəsmişdi. Yaxşımı etmişdi, pismi? Bu tərəddüd içində parpılayır, özü də fərqinə varmadan, hərdənbir əyilib Əsriyin bulanmağa üz tutan sularından üzünə vurur, qorxuqarışıq fikirlərini canından çıxarmağa çalışırdı.

# QƏRİB YOLLAR HAÇALANIR, BİRİ ELƏ, BİRİ BELƏ...

*"... Diqqətiniz hardadırsa, özünüz də ordasınız..."*

Kalmanı çarığından canına isti yox, soyuq keçəndə dönüb adladığı çaya bir də baxdı. Dağ başlarına yağış yağmışdı, ya nəydi, onsuz da iti axıb suyunu bulandıran Əsrik qanıqara, boz-bulanıq axırdı. Boş-boşuna fikrə dalmaq zamanı deyildi. Cinayət yerindən qaça bilərsən, cəza təhlükəsindən yox. Amma o qorxub-eləmədən, qızıl-qırmızı cəza qorxusunun üstünə gedəcəkdi. Qağası demirdimi: "Qurbanam o qana ki, üzərindən bir gecə keçsin". Bir gecə keçdimi, öz ayağı ilə milisə gedəcək, qağasının yerinə türməyə girəcəkdi. Üzüyuxarı, evlərinə tərəf yox, aşağı – aran tərəfə üz tutdu. Bəlkə Çobanın Güvəndikdə düşmənlərinin çox olduğunu bildiyindən belə edirdi?! Axşam düşdüyündən, bacasından təzək qoxulu tüstüləri göyə millənən buxarılar nəfəsini yavaş-yavaş çəkməyə başlamışdı. Murad Qəni ilə dost olduğundan bu yana Güvəndiyə tez-tez gedib-gələrdi. Qədir kişi Muradı həyətdə görəndə çaşıb qaldı. Onun bu qəfil gəlişi, həm də Qənigilə yox, birbaşa onların doqqazına gəlişi kişini çaşbaş salmışdı:

– Əyə, Murad döyülsənmi, nə olub, a bala, nəfəsin kürəyindən çıxır, arxanca qovanmı var?

Qədir kişinin onlara qohumluğu çatdığını və Çobanla da aralarının saz olmadığını Murad yaxşı bilirdi. Ayaqları onu bu həyətə boşuna gətirib çıxarmamışdı, ona görə də iftixarqarışıq bir arxayınlıqla mızıldandı:

– Çobanı gəbərtdim...

Çatdırdığı gözlənilməz xəbərin Qədir kişiyə ləzzət verəcəyini bildiyindən qəsdən "öldürdüm" demədi.

– Sən nə deyirsən, ə? Ağzın deyəni qulağın eşidirmi?

– Eşitdiyin kimi. Dedim də, Çobanı öldürdüm.

– Ə, qoy görək, sən Allah, əyə, Çobanı Allah öldürə bilmir, o ki qaldı bir parça uşaq ola. Düzünü de görüm, nə olub, nə xəvərdi, bu axşam-axşam başı alovlu özünü üstümüzə salıfsan.

Qədir kişinin səsinə qozbel torpaq damın altından arvad-uşaq həyətə çıxdı.

– Daha nəyi deyəjəm, eşitdiyin kimi, inanmersan inanma.

Muradın ötkəmliyi yalan söyləmədiyinin işarəti idi. Ona qədər arvad-uşaq da ətraflarını dövrələmişdi. Qədirin arvadı Zəhra da çiynini çəkə-çəkə sözə qarışdı:

Nə olub, ay Qədir, axşam-axşam kimdi gələn?

– Sənnik döyül, ay arvad!

Zəhra arvad bir ərinə, bir də ala-toranda boyu əlindəki tüfəngdən seçilməyən adama baxdı:

– A kişi, bu belə bizim vəkillilərin uşağı Murad döyülmü, Şəmşəd kişinin balaca qardaşı?

– Yaxşı tapmısan, özüdür ki var.

Muradın Zəhra arvaddan əvvəldən xoşu gəlmirdi, indi ona uşaq kimi baxmasına da sinirləndi: "Mən o boyda adam öldürmüşəm, bu ləçər də məni uşaq yerinə qoyur. Dəli şeytan deyir, çək tüfəngi, qat qabağına, sürüm-sürüm süründür, Çoban yolu yolla, sonra da, gör uşaq kimdi, böyük kimdi de?"

Zəhra arvadın ciy-ciy səsi Muradı fikrindən ayırdı:

– Bə xeyirdimi belə axşam-axşam gəlməyində?! Niyə qavağını doqqazda kəsifsən, içəri təklif eləsənə!

Qədir ürkək-ürkək sağına, soluna göz gəzdirib dodağının altında mızıldandı:

– Bilersənmi nə deyir?

– Nə deyir?

Qədir qıypınıb bir də sağına, soluna devikdi, yanındakı uşaq-muşağa çəmkirdi:

– Nədi ə, nə marığa yatıfsınız, keçin içəri, gözüm sizi görməsin.

Qədir kişinin birdən-birə tövrünü dəyişməsinə çaşıb qalan uşaqlar yanlarını basa-basa qozbel daxmanın çardağına tərəf meylləndilər. Ərini

ovcunun içi kimi tanıyan Zəhra, kişinin bu səbəbsiz tövr dəyişməsinə bir anlam verə bilmədi. Sanki Qədir də bütün bunları gözləyirmiş kimi, arvadının eşidə biləcəyi qısıq səslə:

– Belə, deyir ki, Çobanı öldürmüşəm.

– Nəəə? Çobanı öldürüf? Ola bilməz!

– Elə deyir, vallah! Nə bilem, heç mənim də inanasım gəlmer.

Zəhra sınayıcı nəzərlərlə Muradı başdan – ayağa süzdü, bir boyuna, bir də boyundan böyük olan tüfənginə baxdı, hardansa eşitdiyi fikir gəldi ağlına: "Qatilə "Əzrailin oğlu" deyirlər". Əzrailin oğlu da qan tökməyib, kim tökəcək? Bu fikrin ağlına gəlməyi də elə-belə deyildi, Zəhra arvad vəkillləri yaxşı tanıyırdı. "Bir ağacdan bel sapı da çıxar, balta sapı da" misalı vəkillilərin boyuna biçilmişdi. Görünür, bu gədə də ikinci tərəfə çəkib:

– A kişi, uşağa niyə inanmersan, bəlkə doğrudan da o itin başını əzib, gecə-gündüz qarasına deyinən sən döydünmü, indi sevinmək yerinə, uşağın üstünə düşüfsən. İnanmersan, belə min atına, dəyirmana getmək mahnasınnan, ondəyqəlik yoldu, get, gör nə xəvərdi. Kimsədən bir şey soruşma, Gövhərin səsi bəsindi öldüsünü-qaldısını bilməyə. Ağrım ürəyinə Gövhərin, gəlsin bundan sonra hüröyün olsun, görüm necə olacaq, onun da qaltağı boşda qaldı.

Arvadının sözü Qədirin ağlına batmışdı. Göy ürgəni əlüstü yəhərləyib xurcuna bir az da dən atıb öyrənmək istədiyi xəbərin dalınca dəyirmana üz tutdu. Gedərkən arvadına him elədi:

– İçəri apar, görüb-eləyən olar. Kaş dediyi düz oleydı, – deyib göy ürgəni dəhmərlədi...

Dəyirmandan un yerinə şad xəbərlə qayıtmışdı. Amma başı ayazıyandan sonra özünü o yerə qoymasa da, canına üşütmə düşdü: "Nə qələt qarışdırıb, özü bilər, çox da ki Çobanla aramız yoxdu. Bu yolu yomrulmuş Murad gedib xatasını öz dağılmışlarına tökəmmirdimi, gəlib mənim qapıma tökür. Adam öldürəndə mənimləmi məsləhətləşmişdi? Eşidib-bilən olsa, bunun zırıltısının altından çıx, görüm necə çıxırsan".

Oturub Muradla dərdləşməyə qərar verdi:

– Ay oğul, bə bundan sonra fikrin nədi?

– Qağam milisin əlində ola-ola mənim nə fikrim olajaq?! Gedib öz ayağımla milisə təslim olajam.

Muradın cavabı Qədirin ürəyindən olsa da, “xala, xətrin qalmasın”:

– O “Çoban” deyilən qansızın canını almaqda çox yaxşı iş görüfsən, amma sənin nə yaşın var gedib türmələrdə çürüyəsən? – dedi.

Murad sualı cavabsız qoyub, kalmanı çarığının qarmaq ucuyla heyifini torpaq döşəmədən çıxartdı.

* * *

Səhərin gözü açılmamış rayonun yolunu tutmuşdu. Milis idarəsini beş barmağı kimi tanıyırdı. Qaraçı qız ilə elə burada – milis idarəsinin yanındakı meydanda qarşılaşmışdılar. Barmağını dişlədi: “Bəlkə ağzıyanmış qaraçı qız “falına baxım” deyəndə bu başıma gələnləri söyləyəcəkmiş?”

Milisdə əvvəlcə dediklərinə kimsə inanmadı. Amma o təkid etdi:

– Qağamı buraxın, onun heç bir günahı yoxdu, hazır öz ayağımla gəlib sizə deyirəm ki, camışları da mən oğurlamışam, Çobanı da mən öldürmüşəm.

Burnuna dəyən qarnı bədənindən ayrılıb yerə düşməsin deyə, belinə örkən uzunluğunda qayış bağlamış yekəpər milis növbətçisi yuxarıdan aşağı bir Muradın boyuna-buxununa, bir də əlindəki tüfəngə baxıb, atmacasından qalmadı:

– Ə, bu boy-buxunlamı adam öldürmüsən. Bax, getməsən, indicə süysünündən tutub, qağa deyirsən, nə deyersən, bilmerəm, onun yanınadonuzduğa soxacam səni, sürük burdan. Bir bunun boyuna-buxununa, əlindəki tüfənginə, bir də adam öldürmüşəm deməyinə bax. Ver görüm onu bura.

Ayrı vaxt olsaydı, heç qıypınıb eləmədən tüfəngi hərlədiyi ilə ona uşaq gözü ilə baxan milisi yerə sərərdi. Arada boy-buxundan söhbət getdimi, əsəbindən boyun damarlarının şişməsi vardı, balaca boyu yaralı yeri idi. Amma indi qağasına görə səbrini basmağa çalışdı. Çiynindən asılmış tüfəngi götürüb növbətçi masasının üstünə qoydu.

Şişman polis tüfəngi masanın üstündən götürüb sağa-sola çevirib diqqətlə baxdıqdan sonra stolun yanına söykədi, sonra Muradın qollarını qandallayıb yan qapıdan başqa bir otağa keçirdi.

Koğuş yoldaşları onun adam öldürməyinə heç cür inanmaq istəmirdilər. Olanları danışmaqla arası yoxdu, amma nə üstə tutulması xəbəri özündən əvvəl yatacağı koğuşa çatacaqdı. Yaşlı və təcrübəli dustaqlar hər sözü ondan kəlbətinlə çəkirdilər: "Olan olub, daha əllə etdiklərini sözlə təkrarlamağın nə mənası var?"

Koğuş yoldaşları ona məsləhətlər vermək istəsələr də, Murad bu məsləhətləri qulaqardına vururdu. Məhkəmədə olanı təsdiqləməkdən başqa nə deməli idi ki? Hələ bir durub bu barədə baş sındırıb yalanmı söyləməliydi?!

Malı oğurlanan Möylə oğlu Məhəmməd şikayətindən vaz keçmişdi. Vaz keçməyi ilə də qalmamış, çuğulun Çoban olduğunu da etiraf etmişdi: "Günah öləndədir!" İşin nə yerdə olduğu aydınlaşınca, Şəmşəd kişini buraxacaqdılar. Çəkilən əzablar, Allah tərəfindən verilmiş gizli xeyirdualardı Şəmşəd kişiyə görə. Əgər insana ağrı fayda gətirirsə, Allah ona ağrı göndərir, əgər ümid kömək edirsə, ümid. Belə deyildisə, bir-birinin arxasınca dabanbasaraq gələn bu bəlalar nəyin nəsiydi?

Murad koğuşda qaldığı bir ay müddətində sanki on il yaşlaşmışdı. Kənddə fikri ovda, quşda olanda heç ağlına gəlməyən, fikirləşmədiyi şeylər birdən-birə gəlib burda – bu yarıqaranlıq zirzəmidə qafasını qurcalayırdı. İçində baş verən bu dəyişmələrə özü də məəttəl qalmışdı.

Yaşının azlığına, həm də işlədiyi cinayətə əsaslı səbəb olduğuna görə, ona gözləniləndən də az iş veriləcəkdi. Möylə oğlu Məhəmmədin etirafları işə yaramışdı. Murada qalan quru təsəlli olacaqdı. Qağasını böhtandan, kəndin canını isə, bir tanrıtanımazdan qurtarmışdı! Bu təsəllinin ona hansı məhrumiyyətlərə başa gələcəyini, bir Allahı, bir özü biləcəkdi... Cəmi üç il yatdıqdan sonra azadlığa buraxılacaqdı. Gedəndə uşaq idi, qayıdanda bərkə-boşa düşmüş bir kişi kimi qayıdacaqdı...Tökdüyü qanmı çəkirdi, ya nəydisə, neçə dəfə Qarabulağın axıb-axıb Əsriyə qovuşmağa getdiyi o məşum – şahid dərəyə getmək istəmişdi. Qağası

demirdimi cani cinayət yerindən qaçsa da, haraya gedir-getsin, yenə bir gün dönüb-dolaşıb, cinayət yerinə qayıdır. Bəlkə o da bu yazılmamış qanunu özündən asılı olmayaraq təkrarlamaq istəyirdi?! Döndüyü kənd, üç il əvvəl qoyub getdiyi kənd deyildi. Bunu bilməyə, görməyə nə vardı ki?! Adamların uzaqdan çəkinə-çəkinə baxışları Muradı haldan çıxarırdı, ona ikinci Çobana baxan kimi baxırdılar. Yox, nəyi istəsə də, indi ikinci Çoban olmaq istəmirdi. Buna görə də boş qalan vaxtlarını Qızıl qayada hour qurub arı tutmaqla keçirirdi, tutduğu arılar məhv olub getməyəcəkdisə, deməli, Allah onun günahını az da olsa bağışlamışdı. Arılar haramlıq götürmür axı! Məhbəsdən gələndən sonra dönüb başqa adam olmuşdu, elə bil nəyisə itirmişdi, indi hər yerdə onu axtarırdı. Şəmşəd kişi ağsaqqal fəhmilə qardaşının dəyişən halını üzünə vurmur, deyəcəklərini balabanda qandırırdı. Qandırdıqları da qardaşının itiyinin tapılması üçündü.

# AT SAHİBİNƏ GÖRƏ KİŞNƏR

*"Yüksək təpələrdə qartal da olur, ilan da.*
*Biri oraya uça-uça qalxar, o biri sürünə-sürünə..."*

Qəni Muradın kim olduğunu, əlindən nələrin gəldiyini yaxşı bilirdi. Qonşu kəndlərdə yaşasalar da, aralarındakı dostluq buna görəydi... Amma vaxt keçib, Muradın adı-sanı kəndi başına götürdükcə, Qəninin içində ilan-qurbağalar oynaşmağa başlamışdı: "Bizim ondan nəyimiz əskikdir? Nədi-nədi, havaxtsa sinə-sinə gedib adam öldürüb, oğuluydu, mərdü-mərdana ortalığa çıxaydı, görəydim onda Çobanın əlindən necə salamat qurtarır. Bizim camaat da küyə bənddi, yox yerdən birini şişirib dağa döndərməyi var".

Muradın qonşu qızı Gülsənəmə sevgisi Qənigilə ayaq açandan sonra başlamışdı. Yoxsa Murada nə düşmüşdü ki, kənd basa-basa beş gündən bir Qəninin yanına gəlsin. Gülsənəm məsələsinə qədər, demək olar ki, Qəni Muradgilə gedərdi, əsas bəhanəsi də "qağamın sazına qulaq asmağa gəlmişəm"di. Bəs Muradın bəhanəsi nəydi? Adam öldürüb ad çıxaran Muradı Qəniyə nə bağlaya bilərdi ki? Yox, yəqin burda Qəninin bilmədiyi bir iş var, yoxsa Murad sevimli atı Gülüzəni Qəniyə elə-belə bağışlamazdı ki?!

– Bilirəm, Gülüzədən xoşun gəlir. Biz dostuq, nə fərqi var, bu atı ya sən mindin, ya mən, al apar, bir az da səndə qalsın.

Murad Qəninin könlündən keçənləri gözündən oxumuşdu. Əsrik dərəsində Gülüzəyə çatacaq at hardaydı?! Ceyran dırnaqlı, bəyaz kəkilli, qızıl yallı, geniş sağrılı, uzun ortalı, dizləri səkilli, məclislər yaraşığı, demə-görmə Qırat misallı bir atdı Gülüzə. Yağ damlayan yalmanı günəşdə güzgülənən qıyaq ota bənzəyirdi. Qəni Gülüzəyə görə Murada içində yüz kərə paxıllıq etmişdi, bundan peşmanlıq-filan da çəkmirdi. Özünü Murada bənzətməyə çalışırdı, o da bütün Əsrik dərəsində olmasa da, öz kəndlərində – Güvəndiyin Muradı olmaq istəyirdi. Amma özünü oda-

közə vursa da, bir şey alınmırdı. "Adını çıxart, dəyirmanda dur" buna deyirlər. İndi nə etməli, o da Murad kimi adammı öldürməliydi? Bütün mahalda Gülüzəyə bərabər bir at yoxdur, o da Muradın altında. "Kaş bir belə atım olaydı", – deyə bəlkə min dəfə fikrindən keçirmişdi. Qəninin heç zaman dilinə gətirmədiyi bu istəyi hardan hiss etmişdi Murad? Bu gözlənilməz təklifini eşidəndə qulaqlarına inanmamışdı. Bu qəfil təklif canına sarı yağ kimi yayılsa da, dilucu etiraz etmişdi:

– Gülüzə sənə yaraşır, qardaş, onu sən böyütdün, sən əhliləşdirdin, sən də min. At qəhətliyidirmi, istəsəm mən də birini tapıb alaram. Bir də Gülüzə səndən başqa kimsəni yaxınına buraxmır ki. İndi durub mənəmi cilov tutduracaq?

Murad qərarında israrlı idi:

– Vallah, sidq-ürəknən verirəm. "Bəy verən atın dişinə baxmazlar", nəm-nüm eləsən, fikrimdən dönərəm ha.

Gülüzə təkcə Qəninin iştahasını qabartmırdı ki? Ağaların, bəylərin kökünü qurudan sovet hökumətinin əllərinin üstdə əl olmayan kim vardısa, hamısının könlündən Gülüzə kimi bir ata sahib olmaq keçirdi. Bu Murad kimdir ki, kəndin ən yaxşı atı onun altında olsun. Nə olsun ki, adam öldürüb, türmədə yatıb? Dilə gəlməyən, gətirilməyən bu sözləri ucundan-qulağından Murad da eşidirdi: "Bir az Güvəndikdə qalar, gözdən-könüldən uzaq olar, söz-söhbət səngiyər. Onsuz da Qəniyə cilov tanıdan ha deyil Gülüzə".

Bəlkə ağlının ucunda bütün bunlar da vardı Muradın, amma özünü o yerə qoymurdu. Atdı da, bir müddət Gülüzəni Qəni minsə, minə bilsə, dünya dağılmayacaq ki?!

Qəni Muradın "Bəy verən atın dişinə baxmazlar" sözlərini içində tərəziyə qoyub çəkmişdi: "Özünü məndən bir baş üstün tutur. Qudurasan qurbağa, bir bunun yer mamması boyuna, bir də başından yekə elədiyi qələtinə bax". Amma içindən keçənlərin dilinə gətirsə, Qəni, Qəni olmazdı ki?!

Murad inadından dönməyəcəkdi. Allah onu da belə yaratmışdı, sonunu düşünüb-düşünmədiyindən asılı olmayaraq, bir söz ki dilindən çıxdı, sonra peşman olsa da, tüpürdüyünü yalamazdı.

At belindəkinin qırımından nə yuvanın quşu olduğunu bilir. Elə ki Murad Gülüzənin cilovunu Qəninin əlinə vermişdi və elə ki Gülüzə bu ayrılığın həmişəlik olduğunu at fəhmi ilə hiss etmişdi, dörd ayağını yerə dirəyib durmuş və göyə zəncir salan səsilə kişnəmişdi.

Bu səsin, fəryadın özü deyildi, qarşı dağlaramı, gələcək məchul illərəmi dəyib qayıdan sədası idi. Elə bir səda ki, həm eşidilmirdi, həm də bu eşidilməzliyi ilə də Muradın qulaqlarını çatladırdı. Bu səs Gülüzəninmi, yoxsa yatıb – yatıb sonradan ayılan öz içininmi səsi idi, bilmədi. İstədi atın cilovunu elə o iki yolun ayrıcındaca dartıb Qəninin əlindən alsın. Almadı. Ala bilmədi. Tüpürdüyünü yalamaq Muradın işi deyildi. Bəlkə bu peşkəşin altında özünün özünə belə etiraf etməyə çəkindiyi başqa bir mətləb də vardı.

Axşamların birində qağası Gülüzənin yoxluğunu görüb:

– Gülüzə gözümə dəymir, – deyə soruşdu.

Murad gördüyü işin yanlışlığını qağasının verdiyi qəfil sualdan sonra bir daha anladı. Dilini sürüdü:

– Vallah, ay qağa, gördüm Qəninin gözü Gülüzədədi, verdim ki, nəfsi qalmasın, bir az da o minib gözünün qurdunu öldürsün. Kənddə Gülüzədə gözü olmayan yoxdur, Qəniyə birdəfəlik verməmişəm ki... Verdim ki, söz-söhbət səngiyənə qədər bir müddət Güvəndikdə qalsın...

Bunu deyən dili idi, ağlı isə... “Bir az da” sözünü havanı yumşaltmaq üçün söylədi. Həmişəlik verdiyini söyləyib, qağasını incitmək istəmədi. “At kimindi, minənin” sözləri keçdi fikrinin harasındansa. İndiyə qədər qağasından xəlvət bir şey görmək istəməmişdi. İlk dəfə idi ki, qağasının yanında dilindən belə ağ yalan çıxırdı.

Şəmşəd kişi də deyəsən qardaşının “bir az da” sözündən şübhələnmişdi:

– A bala, adam canı qədər sevdiyi atını da altından bir başqasına verərmi? Bə bilmersənmi at sahibinə görə kişnər.

Murad başladığı yalanı davam etdirməkdən başqa çıxış yolu tapmadı:

– Qəni başqası ha deyil, ay qağa.

Şəmşəd kişi baltanı kökündən vurdu:

– Bir şeyi sevən ona qarşı kar və kor olur, yəni sevilənlərin əksik tərəfi görülməz və bilinməz deyiflər… Necə yəni başqası deyil, sevdiyin şeyi başqasına verirsənsə, deməli, ondan bir umacağın var.

Muradın içi burxuldu, yenə qağası fala baxan kimi onun içindən keçənləri üzünə oxuyurdu: "Bu kişidən heç nə gizləmək olmur. Mən Gülsənəmi sevdiyimi özümdən başqa kimsəyə söyləməmişəm, bə bu Allah köməyi olmuş haradan xəbər tutdu, gör, sən Allah, dediyi sözə bax. Necə yəni sevdiyin şeyi başqasına verirsənsə, əvəzində ondan bir umacağın da olmalıdır. Mənim Qənidən nə umacağım olacaq?" İçində hətta özündən də gizlətdiyi, səbəbi məchul şübhələr üzə çıxmağa fürsət gəzirdi... Elə, ya belə, amma qağası bu dəfə də qardaşının içindən keçənləri üzündən oxumuşdu. Son sözləri də elə bunu isbatlayırdı:

– Allah xeyir versin, bir işdi özbaşına tutmusan, yaşayıb nəticəsini görərik.

Bu, o vaxt idi ki, hələ araya Gülsənəm söhbəti girməmişdi. Nəticə nədir, nəyi, hansı nəticəni nəzərdə tutur görəsən?

# AT DA QADIN KİMİDİR...

*"Həyatınız arzularınızın getdiyi yerdir" .*

Əvvəl-əvvəl çöpüklü dayça olan Gülüzəni Murad bir payız günü evlərinin üst tərəfindəki kalafalıqda görmüşdü. Yorulub yolda qaldığı hər halından bəlli idi. Soyuqdan tükləri biz-biz olmuşdu, tir-tir titrəyirdi. Tövlənin heyvan hənirindən isinən havası yavaş-yavaş dayçanın yaş tüklərini təpitməyə başlamışdı, bədənindən isti buğ qalxdıqca, canlanırdı. Murad ona gözü kimi baxacaqdı. Çöpüklü dayça yavaş-yavaş böyüyəcək, uzun, şüvərək qılçaları, geniş sağrısı, uzun ortası onun gələcəkdə yorğa bir at olacağından xəbər verəcəkdi. Qaşqasının ortasında, dizlərinin kündəsində ağ səkilləri vardı. Adamın ağlına gələnlər başına gəlmirmi? Özünü hərdən Qoç Koroğluya, dayçasını da Qırata bənzədirdi. Qırat da, Dürat da çöpüklü dayça olmamışdımı?! Çox keçməyəcəkdi ki, hər şey düşündüyü kimi olacaqdı. Bir də görmüşdü dönüb ürgə olan çöpüklü dayçanı "Gülüzə" deyə çağırırlar. Canına sarı yağ kimi yayılan bu ad Muradın yuxusuna da girməzdi. Çöpüklü dayça gözdən-könüldən uzaqda, heç kəsin gözləmədiyi bir şəkildə elə su axışlı, ceyran yerişli, yüyrək bir at olmuşdu ki, görənləri hayıl-mayıl edirdi. Kənddə "mənəm" deyən ailələr gəlin gətirəndə, karvanın başını zurnaçı Tahirin qızqaytaran havaları altında oynaya-oynaya Gülüzənin getməsini istəyəndə Muradın tərsliyini bildiklərindən Şəmşəd kişiyə minnətçi düşərdilər. Bir Gülüzə olmasın, yüz Gülüzə olsun, Murad qağasının sözünü geri çevirəsi ha deyildi. Gəlin karvanlarının önündə Gülüzə süzdürə-süzdürə gedəndə yer-yerdən – ay Murad, gün o gün olsun, sənin də toyunu görək! – alxışları yüksəlirdi. Bəzən Gülüzənin də kefi olmurdu, karvanın önündə inadına süzmək istəmirdi. O zaman yer-yerdən Tahirə işarət edirdilər: – Gözünə dönüm, ay Tahir, elə çal ki, Gülüzənin sümüyünə düşsün, toyun yaraşığı Gülüzənin süzməyidir. O süzməyəndən sonra bu toyun nə ləzzəti? – Dəfçi dəf çubuqlarını hansı ritmlə vururdusa, Gülüzə də ayaqlarını elə endirib-qaldırırdı. İlhamı haqdan gələn bir ilahi varlıq-

dı. Zurnanın, dəfin vurduğu güllərdən cuşa gəlir, oyur-oyur oynayır, qayır-qayır qaynayır, gül üzürdü Gülüzə. Heç bir atda Gülüzənin kəkilinə bənzər kəkil yoxdu, şabalıdı tüklərlə çevrələnmiş, qar kimi bəmbəyaz bir dairə. Bir dəfə qağası ağzından qaçırmışdı. Batmamışın alnındakı kəkil deyil ki, mələklərin öpüş yeridi. Murad da yarışda qalib gəlməyin qüruru ilə önündə baş endirən Gülüzənin öncə alnındakı "mələklərin öpüş yeri"ndən öpərdi.

Bu kənddə adları ola-ola adamlara ad qoyur, ləqəb yapışdırırlar, o ki qaldı at ola?! Əsas olan odur ki, qoyulan ad Gülüzəyə qızların telinə taxılan bir cüt bənövşə kimi yaraşırdı, öz adı deyəsən elə Gülüzənin özünə də xoş gəlmişdi. Adı çəkilən kimi qulağını şəkləməyi vardı. Tərif sevməkdə at da qadın kimidir. Bəlkə Gülüzə adını ona heç kənd adamları-filan qoymamışdı. Çiçəklərə, güllərə, dağlara, daşlara ilk adı kim, hansı güc veribsə, Gülüzəyə də boyuna yaraşan adını elə həmin qüvvə vermişdi...

Muradın paxıllığını da çoxları özündən daha çox Gülüzəyə görə çəkirdilər. "Boyu bir qarış, saqqalı iki qarış". Belə bir at onun harasına yaraşır? Başqa birisini insafı yenirdi: "Sən onun boyuna-buxununa yox, cəsarətinə bax..."

Gülüzə Qənigilin həyətində qalmayacaqdı, çayyuxarı həftə səkkizmən doqquz, Muradın qoxusunun dalınca qaçacaqdı. Gülüzə qaçmağından, Qəni qovmağından bezmirdi. Hər dəfəsində də Qəni:

– Dinsizin öhdəsindən imansız gələr, vallah, ay Murad, bunun öhdəsindən gələ bilmirəm, qoy səndə qalsın – desə də, Murad Qəninin ovucuna eyni şeyi qoyurdu:

– Biz pay verib dərdindən ölənlərdən deyilik, bala. Adın nədir, Daşdəmir, yumşalısan, yumşalı. Başlanğıcda dəlilik elədiyinə baxma, yavaş-yavaş yumşalıb ipə-sapa yatacaq. At da qadın kimidir, tumarlanmağı sevir, qılığına gir, tumarla. Bu sözlərdən Qəninin dalağı sancardı. "Sən hardan bilirsən qadının sığal sevməyini? Yoxsa torbadakı pişiyi, Gülsənəm məsələsini Murad mənə balabanda qandırır".

Gülüzə qaçmağında, Qəni dalınca qovmağında, Murad onu ovutmağında idi. Zaman da yerində boş durmurdu, kəndin yazını yayına, yayını payızına, payızını qışına calayır, Əsrik çayına qoşulub, axdıqca axırdı.

# QONŞU ÇÖRƏYİ ŞİRİN OLUR...

*"...Səbəbi kökündən çıxarsan nəticə aradan qalxar..."*

Qəni əvvəllər qonşuda açan "çiçəyin" bir elə də fərqinə varmamışdı. Bəlkə buna görə də qızla hər rastlaşanda ona uşağa baxan kimi baxır, "qara kişmiş" deyib məzələnirdi. Gülsənəm Qəninin bu sözlərini eşidəndə anası Balaxanım arvadın hördüyü saçları kürəyində atlana-atlana qaçıb özünü çardağının altına verərdi. Səsə Balaxanım arvad çıxar və hər dəfəsində də Qəninin qarasına deyinərdi:

– Ay gədə, ey, dilini farağat qoy, sən onun qaralığına nə baxırsan, qoy bir qızlar bulağından su içsin, onda görərsən bu qara kişmiş nə qara kişmişdir.

Qəni də Balaxanım arvadın bu sözlərini qulaqardına vurmuş, kor olmuş, gözünün qabağındakı gözəlliyi görməmişdi, Murad isə, el basa-basa, yol kəsə-kəsə gəlib, onun görmədiyini görmüşdü. Əvvəl-əvvəl Qəni Muradın bu tez-tez gəlişlərinə əhəmiyyət verməmişdi: "Gülsənəm hələ uşaqdı, ağlı kəsmir, bəs anası atlı Balaxanım, gül kimi qızını başkəsənin birinə verərmi?"

Bu "başkəsən" kəlməsi ağlına gələndə boğazının dərisi zoqqur-zoqqur zoqquldamağa başlayanda, "sənə nə düşüb belə ağciyərlik edirsən, qoy ondan düşmənləri qorxsun, sənin niyə boğazın sızıldayır, biz ki dostuq", – deyə özünə təskinlik verərdi. Son zamanlar Muradın gözlərilə qonşu qızı "qara çiçəyə" baxmağa başlamışdı və birdən-birə görmüşdü ki, Balaxanım arvadın dedikləri yerini alır. Heç özü də fərq etmədən bir könüldən-min könülə Gülsənəmə vurulmuşdu. Günü-günə satıb qəlbini qıza açmamışdı. Murad bir dəfə söhbəti hərləyib-fırlayıb Gülsənəmin üstünə gətirmiş, Qəninin ağzını aramışdı, o da araya söz qatmış, Gülsənəmi tərifləməklə yetinmişdi, qəlbindən keçənləri deməmişdi, bəlkə deyə bilməmişdi, nə deyəydi axı?! Bir halda ki Murad içini açıb Gülsənəmdən

xoşu gəldiyini demir, o niyə qabağa düşməlidir ki? Çox da ki, Muradın dilindən "at da qadın kimidir, tumarlanmağı sevir", sözləri çıxmışdı, bunun Gülsənəmlə nə əlaqəsi?

Ağıllı fikirləşənəcən dəli vurub bələni aşır. Qəni gözünü yumub-açınca bir də Muradın elçilərinin atlı Balaxanımın qapısını döydüyünü eşitmişdi. Və eşitdiyi xəbərdən odla su arasında kəsilə-kəsilə qalmışdı. Əvvəl istədi Gülsənəmə aça bilmədiyi sirrini Murada aça: "Ayə, ay qardaş, o qızı səndən qabaq mən istəmişəm axı", deyə sonra fikrindən vaz keçmişdi: "Bir də, lap deyim, Murad söz altda qalandımı, yaxşı, deməzmi ki  qız ağacı, qoz ağacı, yüzü istəyər, biri götürər. Əlini-qolunu tutanmı vardı, istəyirdinsə, iki addımlıqda idin, qabağa düşəydin". Mən axı ağzını aradım, ürəyində bir şey olsa, açıb deməzdinmi? Yox, Muraddan mənə dost olmaz. Ona nə düşmüşdü ki, canı qədər sevdiyi atı – Gülüzəni mənə bağışlayırdı? Loxma boğma deyilmi? Loxmaya bax ha, Gülüzə səninçin nə balaca loxmadı?! Gözlə bir, Gülsənəmi Gülüzəyə dəyişən kimdi?"

Bəd xəbəri eşidəndən işi tərs gətirirdi. Gülüzəni yəhərləyib minmək istəyəndə at onu təpəsi üstə yerə vurmuşdu. Qəni atın bu hərəkətinə öyrəncəliydi. Amma bu dəfə yerə dəydiyini qonşu həyətdən Gülsənəm də görmüşdü. O zaman ürəyinin bir damarı qırılmışdı. Murad Gülüzəni süzdürə-süzdürə neçə dəfə Qənigilə gəlmişdi. Bu gəlişi, heç şübhəsiz, Gülsənəm də görmüşdü, at elə həmin atdı, minən həmin adam deyil. Qənini haldan çıxaran qızın gözündəki bu amansız fərqdi. Neçə dəfə istəmişdi ki, Gülsənəmi götürüb qaçsın. Amma ürək eləməmişdi. Bilirdi ki, qohumluq, qonşuluq bircə anda düşmənçiliyə çevrilə bilər. Qəni vəkilliləri, vəkillilər də Qənini yaxşı tanıyırdılar. Uzağa getmək lazım deyildi, elə bircə kölgəsini güllələdiyi gecəni xatırlamaq yetərli idi. Gecə dəyirmandan un üyütməkdən evlərinə qayıdanda o qarlı gecədə qorxub çiynindəki qoşalülə ilə Ay işığında özü öz ikiləşən kölgəsini güllələdiyini və heç nə alınmadığını görüb, Muradgilin həyətinə qaçdığını xatırladıqca, canını soyuq tər basırdı…

Bu hadisəni yadından çıxarmaq istəsə də, çıxarda bilmirdi. Qırsaqqız olub yaxasına yapışmışdı. Dünyada elə bir güc yox idi ki, bu ha-

disəni yenə, unutdura bilə. İstədi-istəmədi, bidəncə içinin içindən qaynayıb çıxır, əlfini çaşdırırdı.

Əsriyə – Muradgilin evələrinin yuxarısındakı qoşa dəyirmanlara ağnağaz eləməyə getmişdi. Bu su dəyirmanları, əslində, bütün aran kəndlərinin bərəkət təknəsi idi. Elə ki payız başladı, çöllərdən, tarlalardan məhsul anbarlara yığıldı, əməkgününə kolxoz arpa, buğda paylamağa başladı, dəyirmanların dabanları qaldırılır, gecəli-gündüzlü dən üyüdülürdü. Dəyirmanlarda dən üyütmək üçün növbələr uzanıb gedir, günlərlə sıra gözləmək lazım gəlirdi. Amma çuvalların arasına bir dağarcıq ağnağaz salmaq o qədər də çətin olmurdu. Dəyirmanda növbə tutanlar yenicə üyünən isti undan ocaq qalayıb, kömbə salıb, bölüşməyi də unutmazdılar. Nağılı, bayatısı, sevgisi, sevinci, nəsi, nəsilə qoşa dəyirmanların ayrıca bir həyatı vardı. Yuxarı dəhnədən dəyirman arxına qaldırılan su qıjov novdan aşağı şığıyıb, əvvəlcə birinci dəyirmanın pərlərini fırladır, sonra da köpüklənə-köpüklənə aşağıdakı dəyirmanın donuzluğuna cumurdu: "Dayan, dayan, indicə səni də fırfıraya döndərəcəyəm". Suyu bol olan bu iki dəyirmanarası yaşıl yamac yazları, yayları, payızları əsil seyrangaha çevirilərdi. Qışları isə dən daşıyan at və eşşəklərin fınxırtıları buz tutmağa başlayan yamacı başına götürərdi.

Qəni dəyirmana gələndə növbənin çox olduğunu görmüşdü, həm də araya salıb ağnağaz eləmək istəyənlər də çoxdu. Cavan və üzsüz olduğundan Qəniyə fikir verən yoxdu – qabağa düşürdü, ona növbə çatanda artıq gecə gecədən keçmişdi. Ayqaranlıqda bu qədər yolu Güvəndiyə qayıtmaq sənə asanmı gəlir?.. Canını qara qayğı almışdı. Deyək ki, itlərdən birtəhər ötüşdü, bəs dəyirmanın donuzluğundan betər qəbiristan yolu? O dar boğazdan necə keçəcəkdi? Sağolmuş yaşlı adamlar bu qəbiristanla, onun gecə goreşənləri ilə bağlı o qədər qorxulu əfsanələr söyləmişdilər ki?! Evdə – ata-anasının, bacı-qardaşlarının yanında canına titrətmə düşürdü, o qəbir daşlarının arasından qıvrılan el yolunu indi təkbaşına keç görüm, necə keçirsən?! Qalıb dəyirmandamı sabahlayaydı? Deməzlərmi, – xalasıgöycək, bayaqdan özünü yeyib tökürdün ki, təknəmizdə bir kıxım un qalmayıb, evdəkilər acdı. Gərək, necə olur-olsun, bu gecə

evə unu çatdıram. İndi nə oldu, ağnağaz elədin, niyə çıxıb getmirsən? qorxursan?

Qorxduğunu necə boynuna alsın? Alsa, biabır olmazmı? Yaxşısı budur canını dişinə tutub yola çıxsın, nə olar-olar. Atası dəyirmana gedəndə qoşalülə paslı tüfəngi "nə olar-nə olmaz" düşüncəsilə Qəniyə vermişdi:

– Yolçuluğun işini nə bilmək olar?! Yoldu, birdən gecəyə düşərsən, qarşına qurd-quş çıxar.

Qəni əvvəlcə tüfəngi götürmək istəməmişdi. Sonra nə ağıl etmişdisə, "qoy aparım tüfəngdi də mənə nə ağırlıq edəcək, yüz gün yaraq, bir gün gərək!" düşünmüşdü.

İndi yanında tüfəngi ola-ola qorxusundan dəyirmanda gecələsə, gendən baxan nə fikirləşərdi?

Doğrudur, Qəni Mürşüd kimi nişançı deyildi, amma tüfəng tutmağı pis bacarmırdı. Tüfəngin qayışını sağ çiyninə aşırdı, un dolu dağarcığı isə sol çiyninə aldı. Buğda unu yenicə daşların ağzından çıxdığından imisti idi. Hətta bayırdakı sazaq belə unun ilıq istisini azaltmamışdı... Qar hələ əlini ətəyinə dəstələməmişdi. Əriş-arğac torpaq yolun ortası araba təkərlərindən, ayaq izlərindən bir az təpimiş kimi görünürdü. Qışda günün günortası gediş-gəlişdənmi, yoxsa halı özünə gələn gün şəfəqlərindənmi torpağın canına keçən istidən yolların gecəki donu açılır, təpimiş torpaq palçığa dönürdü. Axşamlar isə yenə dərin dərələrin gətirdiyi qış ayazı palçıqlı yollara yenidən əlini çəkir, izlər yenidən donub dəyənəyə dönür, çəkiclə də vursan, qırılmaz olurdu. Bu, kiçik çillədi. Qışda ayın üzü boz, nəfəsi soyuq olur. Bugecəki ayın dünyanı süd gölünə döndərən şəfəqləri də yolların buz donunu aça bilməmişdi. Və tərs kimi, beləcə, qaratikanlı, yağtikanlı yamaclardakı kol-kosun, daş-qayanın beş özü boyda qapqara kölgəsi uzanırdı. Bu mənzərədən "mənəm" deyən adamın canına vəlvələ düşər, gör onda Qəni kimi quşürək nə gündə olar? Hər qaranlıq kölgə hansısa qaranlıq işə hamilədir. Qəninin lap uşaqlıqdan gecədən zəhləsi gedir. Hərdən-birdən uşaq vaxtı uzun qış gecələri subaşına getmək lazım gələndə anasının böyrünü dümsükləyər, ətəyindən dartışdırardı. Anası da:

– A yaradanın yanılsın, nədən qorxursan, sənin tay-tuşların qaz vurub qazan doldurur, bə sən nə vaxt böyüyüb adam olacaqsan hə? Yaşıyın ha zamanıdır ağciyərlik edəsən? Yekə kişisən, çölə çıxmaq istəyirsən çıx, daha məni niyə oyadırsan. Sabah iki baş, dörd ayaq olub evlənəndə, subaşına çıxanda arvadınlamı çölə çıxacaqsan?! Axır günün nə olacaq sənin?

Qəribə idi. Qəni böyüdükcə elə bil qorxusu da böyüyürdü. Həddibüluğa çatmışdı, daha bundan sonra atasının yerinə çöl-bayır işi görəcəkdi. Atası qocalıb əldən düşmüşdü. Son vaxtlar kişi dədə-babadanqalma tüfəngini də oğluna bağışlamışdı. Elə bil bununla Qənin içində çöküş verən qorxunu qovub çıxarmaq istəyirdi. Tüfəngin üzü bozdu, yanında varsa, sənə zaval yoxdur. Doğrudan da, atasının “Nikolaydan qalma” tüfəngini çiynində gəzdirəndən; kəkliyə, turaca, qırqovula güllə atmağa başlayandan bəri Qəni bir az ürəklənmişdi. Belə olmasaydı, Qəni gecənin bu aləmində öldürsən də dəyirmana dən üyütməyə getməzdi? Amma qorxu zəhrimar quş ha deyildi, gözünü açmağa macal verməyəydi, eləcə uçduğu yerdə qarasına tuşlayıb yerə sərəydi. “Qorxu” deyilən nəydisə, onun öz içərisində, gözəgörünməz yerində idi. Bir də lap deyək ki, gözəgörünəsi yerdə olaydı, Qəni köpəkoğlu öz-özünümü güllələyəsiydi?! Ay süysünün ardından düşüb, kölgəsini qarlı yollara sərməkdə idi. İndi bu aylı, qarlı yolların vahiməsi birdənbirəcə qaramat kimi üstünə çullanmışdı və birdəncə ağlına gəldi ki, kimsə qarabaqara arxasınca onu izləyir. Qorxulu-qorxulu təfərinc elədi, arxasından önünə düşən qaraltı gah bir olur, gah da ikiləşirdi. Bəlkə heç arxasınca gələn qaraltı da deyildi, özü qorxudan ikiyə ayrılmışdı:

– Bu nədi, ə? Məni qaramı basır? Yaxşı, bu qaraltının biri mənim kölgəmsə, bə o biri kimdi?

Qəfildən qorxulu-qorxulu geri çevrildi və ona elə gəldi ki, lap ikiaddımlığında qara kölgə kimi kimsə səssiz-səmirsiz onu izləyir. Qorxulu-qorxulu tüfəngini hərləməyi ilə onu izləyən qaraltıya güllə sıxmağı bir oldu. Amma elə bil güllə heç qaraltıya dəyib eləməmişdi. “Bunun canı it canıdır nədir, ə, iki addımda yazdırası ha deyildim, düz sinəsindən vurdum, sanki heç güllə buna dəyməyib, yenə də arxamca gəlir, bay adam yiyəsi evin yıxılsın?”

Qorxulu-qorxulu lülədəki ikinci gülləni də qarşısında çəkinmədən duran qaraltıya boşaltdı. Qəfil güllə səsi qarşı yaxadakı Qızıl qayanın diliklərində əks-səda verdi – tara-tarakta-rak... Qaraltı yenə tərpənib eləmədi. "Əyə, bu allahsız, nə olan şeydi, güllədən də pəsinib eləmir? Bu nədir ə? "

Ağlına gələn ilk fikirdən içi bir az rahatladı. Muradgilin evləri beş-on addımlığında idi, özünü qaçıb Muradgilə verəcəkdi. Özgə vaxt olsaydı qapıdakı itdən qorxardı, amma bu dəfə qəfil qorxu qarşısında gözünə it-mit görünmürdü? Qapıdakı qancığın başının üstü birdən-birə alındığındanmı, ya nədənsə heç "mırt" eləyib cınqırını da çıxara bilmədi. Qəni dili tutar-tutmaz:

– Ay Murad, ay Murad ayə qoyma məni öldürdülər, – deyə bağırmağa başladı.

Şəmşəd kişi güllə səsinə bayaqdan oyanmışdı, kənddə uzun qış gecələri güllə səsi birinci dəfə deyildi ki, eşidilirdi. Qara qış çöldə ac qalan canavarları, tülküləri qılınca gətirirdi. Qurdlar, tülkülər, çaqqallar yem arxasınca gecələr dağlardan, meşələrdən kəndə enirdi. Hətta tövləyə, hinə soxulanı da olurdu. Bu ziyanlığın qarşısını almaq üçün kənddə tüfəngi olanlar bir də görürüdün gecə bir səsə, bir şıqqıltıya qarasına bir qatar güllə boşaltdı. Kənd gecələri güllə səslərinə alışıq idi. Bəlkə bu dəfə də belə olmuşdu. Şəmşəd kişi yerinə çoxdan uzansa da hələ yatmamışdı, ürəyi Allahda, dodağı zikrdə idi. Atılan ikinci güllə səsininin evin arxa tərəfindən gəldiyini fərq etdi. Sırıqlısını çiyninə atıb çardağa çıxdı. Kəmər tərəfə əyilən ayın şəfəqləri hisli çardağın kölgəsini ağcaqayınlardan aşağılara uzatmışdı. Donqarbel hisli çardaqdan çıxıb yola tərəf boylananda ayın şəfəqləri gözlərini qamaşdırdı. Hər yeni doğan ayı görəndə salavat çevirib dua oxumağı vardı, Şəmşəd kişinin. Atılan güllə də, o güllənin yaratdığı içindəki nigarançılıq da bu adətini poza bilmədi. Bu dəfə də eyni şeyi təkrar elədi, qəlyan qarasından azacıq sarımtıla çalan dodaqları müqəddəs sözlərin təsirindənmi, ya nədənsə titrəməyə başladı, yenə dilinin hər zamankı duaları təkrar olundu:

– Ey ulu Tanrım! Sən əzəli, əbədi və qədimsən! Ey Rəhman və Rəhim və ey cəlal və ikram sahibi, rəhmətinlə dualarımı qəbul et.

Dilinin duası yenicə bitmişdi ki, el yolundan doqqaza enən çığırda tappıltı eşidib, qanrılıb səs gələn tərəfə təfərinc elədi. Gələnin düşmən olmadığı saldığı səs-küydən bəlli idi. Düşmənliyə, oğurluğa gələn gecənin bu vaxtı tappıltı salardımı? Bunu bildiyindən qarasına dilləndi:

– Ə kimsən, a bala, nə olub, niyə qaçırsan, dalından qovanmı var?

Nəfəsini boynundan alan Qəni:

– Mənəm, ay qağa, Qəniyəm.

O da Muradın dililə Şəmşəd kişiyə "qağa" deyirdi.

Ay arxadan düşdüyündən beli donqar çardağın altı zinrik qaranlıq idi, həyət isə süd gölünə dönmüşdü. Ay işığı qar işığına qarışıb yeri-göyü çıraqban etmişdi. Şəmşəd kişi həyətə göz gəzdirib:

– Nə olub, ay Qəni, xeyirdimi gecənin bu vədəsi? Hardan belə? Güllə atan kim idi? Qəni Şəmşəd kişini görüb ürəklənmişdi:

– Belə dəyirmana dən aparmışdım üyütməyə. Bir az ağnağaz edib qayıdırdım. Bir də gördüm nə? Kimsə qarabaqara məni izləyir.

Qəni qorxa-qorxa çardağın altından çıxıb, gəldiyi səmti göstərmək istədi. Birdən özü-öz kölgəsini görüb dik atıldı:

– Budur, bax, budur bax, ay qağa, bunu deyirəm.

Şəmşəd kişi əvvəlcə bir şey başa düşmədi. Qəni ayın şəfəqində uzanan öz kölgəsini göstərirdi. Kişi fikirləşdi ki, bəlkə doğrudan da Qənini kimsə izləyib, o da qorxduğundan kölgəsi ilə onu izləyən adamı dəyişik salıb?

Deyəsən, Qəninin də yavaş-yavaş ağlı başına gəlirdi. Toxtamışdı, özü öz kölgəsinə diqqətlə baxırdı:

– Yox, bunu demirəm, bu deyil. Vallah, ay qağa, zalım oğlu elə bil cin-şiətindi, qır-saqqız olub düşmüşdü arxama, mən də yazdırmadım, qoşalülənin iki gülləsinin ikisini də düz kəlləsinə sıxdım it oğlu itin. Amma yaradanı yanılmışa heç elə bil güllə-zad kar eləmədi, yenə arxamaca düşüb, məni təngnəfəs elədi...

Özünü tox tutsa da, Qəni bunları deyə-deyə uçum-uçum uçunur, əsim-əsim əsirdi. Şəmşəd kişi Qəninin köhnə sırıqlısının qolundan tutub çardağın altına tərəf çəkdi. Göydə ayın, ulduzların şəfəqləri min oyun

çıxarsa da, yerdə çat ayaz idi. Şəmşəd kişi güllə səsinə özünü tələsik bayıra atdığından alt tuman-köynəyində idi, sinəsinin bəmbəyaz tükləri adamı ülgüc kimi kəsən şaxtadanmı, yoxsa arandan yeni başlayan obaşdanın yelindənmi titim-titim titrəyirdi.

Çardağın zinirik qaraltısında üz-üzə dayanmışdılar. Qara damın altında yatan kül-külfətin çöldə olub-bitəndən xəbəri yoxdu. Şəmşəd kişi köhnə taxta qapıya tərəf yönəldi, qaranlıqda qara qapının cəftəsi cingildəyib etiraz etdi, sonra qapı cırıldayaraq açıldı və başını içəri salan Şəmşəd kişinin boğuq səsi eşidildi:

– Ay uşaq, qonağımız var, durun yerdən-yurddan hazırlayın. A qaroğul, sən də dur sənəkdən bir parç su gətir.

Qəni yataq məsələsini anlamışdı, amma gecənin bu vədəsində bu kişi niyə su istəyir? “Su içilən vaxtdımı?” – deyə düşündü.

Sonra qara qapının həncama yenidən səs çıxardı: “Cıy-cıy-cıy”, yəni, “qoymazlar yatdığımız yerdə yataq”. Arandan başlayan obaşdanın yelindənmi, ya da içəridə bütün gecəni qalıb darıxan bürkülü havanın bayıra çıxmaq istəyindənmi bu cırıltı hələ bir müddət də davam edəcəkdi...

Az keçmədi, qapı yenidən aralandı, arasından bir baş seçildi. Bu əlində parç tutan tuman-paça Şəmşəd kişinin “qaroğul” deyə çağırdığı böyük oğlu Şəmistandı.

Şəmşəd kişi su dolu parçı Qəniyə uzatdı:

– Al, iç, – dedi.

Görünür Şəmşəd kişinin bu gözlənilməz su təklifi Qəninin şəstinə dəymişdi:

– Yox, ay qağa, vallah, qorxub eləməmişəm. Əlimdə tüfəng ola-ola nədən qorxasıydım?

Bunu deyən dili idi, əlləri isə əsə-əsə parçı Şəmşəd kişinin əlindən aldı. Qəni höləki-höləki suyu elə içirdi ki, boğazının qurultusu gecənin qaranlığında aydınca eşidilirdi. Bunu görən Şəmşəd kişi bilmək olmurdu, içəridə olub-bitənlərdən xəbərsiz olan gələn vaxtsız qonağa yatacaq hazırlayan ev əhlinə vaxt qazandırır, yoxsa yeri gələndə içindən keçənləri dilinə gətirmək adətini yenə üzə çıxırdı:

– İç oğul, iç, qorxmasan da iç, suyun təskinlikdən başqa nə ziyanı var.

Qəni elə də axmaq deyildi. Şəmşəd kişinin "A qızım, sənə deyirəm, a gəlinim, sən eşit" misalının mənasını göydə almışdı. Amma özünü o yerə qoymurdu. Qoysa, nə edəsi idi ki? Hər şey ortada: "Kor-kor, gör-gör" idi, qorxmuşdu…

İkisi də qeyri-iradi dönüb, Qəninin bir az əvvəl güllə-boran elədiyi yola baxdılar. Qəninin ağciyərliliyinin də, Şəmşəd kişinin eyhamının da sirri elə o ay altda ağappaq ağaran yolda idi. Gündüzün günəşindən, axşamın sazağından təpiyən torpaq yol ay altında yoldan çox sakit axan çaya bənzəyirdi. Şəmşəd kişi başını qaldırıb ay səmtinə baxdı. Qışın çat ayazında göydəki tabaq-tabaq ulduzlar hər zamankından daha çox və parlaq idi. Kişinin arada-sırada ulduzlu göylərə boylanıb xəyala dalmağı vardı: "Biz kimik, hardan gəlmişik, haraya gedirik. Bu qədər ulduzlu göyləri tutub saxlayan hansı qüvvədir?!"

Min dəfə baxıb xəyala daldığı ulduzlu göylərə bir də dönüb baxdı. Qəni onun varlığını büsbütün unudub daha çox göylərə dalan Şəmşəd kişinin bu tövründən ağlı bir şey kəsmədi: "Mən nə hayda-huydayam, rəhmətliyin oğlu nə hayda-huyda. Heç ulduzlara baxmağın yeridir, elə bil yerdə itirdiyini göydə tapmaq istəyir".

Dümdüz, samsakit yol ay altına sərilib qış ömrünü sürdürməkdə idi. Yolların lal sükutunu bir az əvvəl Qəninin atdığı güllənin səsi pozmuşdu. Amma yollar, deyəsən, o güllə səsini unutmuşdu, sakit-sakit ay altında mürgüləməyində idi, nə gələn vardı, nə gedən.

Şəmşəd kişi Qəninin qırımından məsələni anlamışdı, istədi ürəyindən keçənləri Qəniyə də desin, amma desə də, Qəninin onun dediklərini anlayacaq durumda olmadığını görüb fikrindən vaz keçdi. Xəyalından keçənləri dilinə gətirmədi Şəmşəd kişi. Bir də Qəni başa düşən olsaydı, bu ulduzları dil deyib sayrışan göylərin yerlərə hikmət axıdan nurundan içinə bir şey qoymuş olardı. Qoymuş olsaydı, heç özü öz kölgəsinə güllə atardımı?

Səhər hardansa dağlar dalından getdiyi yerdən yavaş-yavaş geri dönməyə başlamışdı. Uzaqlardan aran tərəflərdən keçib-gedən gecə qa-

tarlarının kallaşmış səsi qarşı qayalara qədər gedib çatır, əks-səda verir, yanğılanırdı. Aran yeli başlamışdı, yılvaqcaq olan Şəmşəd kişinin sinəsindəki ay işığında gümüşü çalan tüklərinə əl gəzdirməyində idi. Kişi sanki canına düşən üşütməni indi-indi hiss etdi, çardaqdan ev qapısına tərəf yönəldi, səsi onsuz da təklif gözləyən Qənini irəşmə kimi arxasınca sürüklədi:

– Ay oğul, gecənin xeyirindən, sabahın şəri yaxşıdır. Dostun da arana meyvə aparıb satmağa, harda olsa günortaya qədər gəlib çıxacaq, yıxıl yat, sabah gedərsən...

Şəmşəd kişi lap Qəninin ürəyindən xəbər verirdi. Hətta Şəmşəd kişi deməsəydi də, Qəni üzünə salıb gecəni Muradgildə qalacaqdı. Onu qarabaqara izləyəni gördükdən sonra gecənin bu aləmində qəbiristandan keçən yola öldürsən də ayaq basmazdı…

O vaxtdan Burun Qəni bir ad da qazanmışdı: "Kölgəsindən qorxan Qəni".

Şəmşəd kişi hər dəfə bu sözləri eşidəndə matı-qutu quruyurdu: "Ay başına dönüm, mən ki bu bədbəxt Qəninin başına gələnləri kimsəyə deməmişəm, bə camaat hardan eşidib ona bu adı verdi?" Bax burda deyərlər, yer qulaqlıdır. Görünür elə hadisələr var ki, onları xəbər verməyə ehtiyac yoxdur, onlar öz-özlərini ələ verir".

Qəni indi fikirləşirdi ki, Murad məni elə o hadisədən sonra adam yerinə qoymur, düşünür ki, qorxağın biridir əlindən nə gələcək? Bir yana baxanda yalan da demir kölgəsindən qorxanın əlindən nə gələr ki?! Dostluqlarının davam etməsinə gəldikdə isə... Əslində, bu, Qəninin hesabına sürən dostluq (buna "dostluq" demək mümkündürsə) idi. Qəni Vəkilliləri yaxşı tanıyırdı. Təkcə özləri üçün deyil, bütün kənd üçün haqqı nahaqqa verməzdilər. Amma Murad aralarındakı dostluğa məhəl qoydumu? İşi qoluzorluluğa gətirdi. Beləsinin nəinki deyikli nişanlısını, hətta altından arvadını da alsan yeridir. Atını vermədi, arvadını da almayasan? Kaş Murad heç bu atı ona peşkəş çəkməyəydi. Çəkməsəydi nə vardı, Qəni daha ürəkli tərpənərdi. İndi o da öz pulu ilə özünə çörək aldırıb dilənən qaraçının günündə idi.

Nəyi yaddan çıxartsa da, Qəni o gecəni və gecələdiyi o donqarbel evi yaddan çıxartmayacaqdı. Ən azından ağciyərliliyinin şahidi olduğuna görə. Elə bil qorxaqlığına o donqarbel ev səbəb olmuşdu. Özünə söz vermişdi, haçansa qorxaqlığının şahidi olan bu donqarbel evdən qisasını alacaqdı. Necə alacaqdı, nə zaman alacaqdı, evdən də qisas alınarmı? Alınarsa, necə alınar? Bunu hələ heç özü də düz-əməlli bilmirdi.

# OĞLAN EVİNDƏ TOYDU...

*"İnsan həzzin qurbanıdır və yaşadığı bədən əzabın qaçış yeridir".*

Gözə bıçaq soxsan görünməyən bir gecə başlayır, payız sisi evlərdən, həyət-bacadan gələn onsuz da zəif çıraq işıqlarını bir az da boğub öləzidir. Amma kənd evlərindən birinin işığı, sanki bu qatı payız sisinə inad daha gur çıxar. Kənd Aşıq Əsədin sazının, sözünün başına yığışıb – Şəmşəd kişinin həyətində toydu. Kişi bu günü çoxdan gözləyirdi. Atası İsmayıl vəsiyyət eləyib, Muradı ona tapşırmışdı: "Murad özümə oxşayıb, ipə-sapa yatan döyül, ipini boş buraxsan, əlindən xata çıxar. Mən çatdırmadım, əcəl aman vermədi, sən ipini boş buraxma, vaxtında iki baş, dörd ayaq elə, elə ki, əli-ayağı bağlanıb cızığından çıxmasın".

Atasının dediyi kimi olmuşdu. Şəmşəd gözünü açanacan Muradın əlindən xata çıxmışdı, həm də necə xata!

Şişlik üçün şənbəyə-bazara getmək lazım deyildi, öz qapılarından çıxacaqdı. Payızın orta ayı girən kimi toy çalınacaqdı. Payızın orta ayı çoxdan girmişdi, amma qəfil başlayan yağışlar göz açmağa qoymurdu. Nəhayət ki, göyün könlü açılmış, buludları seyrəlmiş, həyət-baca bir-iki günəşli günə az da olsa təpimişdi.

Payız gününün nə ömrü var – axşam atından, qatırından yurd yerinə enən qaraçı köçü kimi birdən-birə düşmüşdü. Orda-burda közü yağış altda sönüb küllənən ocaq yerlərindən, xörəkbişirənlərin axşamüstü vur-çatlasından toy həyəti qurd eşənəyinə dönmüşdü. Kəndin adəti idi, bir evdə toy oldumu, hamı yığışar, əl-ayaq edər, hazıryaraq olar, hər əskiyi yoluna qoyar, sonra da elliklə yığışıb özləri təşkil etdikləri toyun sabaha qədər kefini çıxarardılar.

Məclisə gələnlər – ağır el yığnağı uzunluğu iyirmi metrə çatan kərənli damın altına toplaşmışdı. Aşıq Əsəd yalnız tanınan, sayılan adamların məclisini keçirməyə razılıq verərdi. Bəlkə buna görə də aşığın Əsrik dərəsinə

hər gəlişi toy-bayrama çevrilirdi. Hətta toya çağırılmayanlar da, üzlərinə üz bağlayıb, toy məclisində yer tutmağa çalışardı. Ağzında "Aşıq Əsəd" deyirsən, bir də Allah bilir, nə zaman bu dərəyə toya gələcək. Onacan da ya nəsib, kim ölü, kim qalı. Əsədin bircə otuzluq lampa keçirən "Koroğlu"su nəyə desən dəyərdi. Payız ayları adamların canı məcburi kolxoz işlərindən qurtulmuş olurdu. Heç olmasa, bir axşamlığına dərddən, əzabdan, yoxsul-luqdan sıyrılıb, hər şeyi unudub yaşamaq olardı...

Aşıq Əsəd sazının zilini zil, bəmini bəm edib, toya "Ustadnamə" ilə başlamışdı. Adəti idi, bu kəndə toya gəldimi, mütləq Şəmşəd kişinin sözlərindən də oxuyardı, indi hazırca öz məclisində oxumayacaqdımı?

Bir atlı qasid göndərin yuxarı Əsrikcırdaxana,
Orda mərd iyidlər çoxdu, bəlkə tez tapa yaylığı.

İtən yaylığı tapsa-tapsa, Əsrikcırdaxanlılar tapa bilərdi. Əsədin ca-nayatımlı səsi, sazın havacatı səhər mehi kimiydi, köhnəlib eləmirdi, bu dəfə də məclis əhlinin üstündən əsib qürurlarını oxşadı. Atalar deyib: "Hər kənddən bir dəli, Əsrikdən əlinə keçəni!" deyimi boşuna söylən-məyib ki?!

Aşıq havadan-havaya keçir, özü də coşur, məclis əhlini də coşdu-rurdu. Hələ "Misri" havası üstdə Əsədin Koroğlu nərəsi ilə damın orta dirəyindən asılmış otuzluq lampanı söndürməsinə çox qalırdı...

Qonşu Şeşənli obasından olan iki əmiuşağı – Qəmbərlə İslam göz-lərini bir an da olsun Aşıq Əsəddən ayırmırdılar, ətlərini kəssən xəbər-ləri olmazdı. "Şeşənlilər"in önünə aşıq çıxart, vurub çörəklərini əlindən al" deyimi də onlar üçün elə-belə yaranmamışdı. Kəndin başqa adamları kolxoz işilə, çalı-çəpəri, əkinilə-biçinilə uğraşanda şeşənlilər saz-söz so-rağına qoşulurdular. Eşidəndə ki, hansı kənddəsə aşıqmı, el şairimi yeni bir qoşma yazıb, o adamı tapıb qoşmanı sinədəftər etməmiş rahat ol-mazdılar. Bir də görürdün Borçalı aşıqlarından birini min at minnətinə Şeşənliyə dəvət etdilər. Aşığa axşamdan sabaha qədər yalnız bir hava çaldırardılar – "Ruhani!" Aşıq da işini bilirdi, gül vura-vura "Ruhani"ni

axşamdan sabaha qədər uzadardı. Aşıq çalır, şeşənlilərin oynayanı oynayar, oynamayanı da cezvə gəlib mələşərdi...

Məclisin baş ucunda bardaş qurub oturan Qəmbərlə İslamı görəndə Aşıq Əsədin dalağı sancdı, indi yenə məclis qızışmamış "Ruhani" sifariş verəcəklər. Aşağıdan yuxarı Əsədə matdım-matdım baxan İslam sanki aşığın ürəyindən keçənləri hiss etmişdi:

– Dərdin ürəyimə, ay Əsəd əmi, isti-isti bir bizim "Ruhani"ni aralığa sal. Atam-anam sənin o gül vuran barmaqlarına alxışçı olsun, həm də hekayəli, yerli-yataqlı elə.

Aşıq Əsəd diksinən kimi oldu. Məclisin başında heç "Ruhani"nin yeridir? Aşığın dilinə gəlməyən bu sözləri məclis əhli anında qapdı, yer-yerdən:

– Ayə, ay İslam, qoy bir məclis qızışsın, aşığın acı təri canından çıxsın, ondan sonra "Ruhani"nizi ortaya çıxarın dana. Heç "Ruhani"nin yeridi?

Nə də olsa, qan çəkirdi. Qəmbər yerində qurcalandı:

– Yeridi, yeri deyil, Əsəd əmi bilər, biz bilərik, sizə nə düşüb?!

Aşıq Əsəd arif adamdı, birinci dəfə deyildi ki, şəri xeyrə döndərirdi.

– A əsriklilər, məclisin başı-ayağı olmaz, çıraq aşağıda da olsa, yuxarıda da, işığı hər yana düşür. İslam oğlumuzun sözünü qəribliyə salmayın, dəyirman dəyirmandı ki, ağnağazsız keçmir, biz də ağnağaz etsək qiyamət qopmaz. Məclisimiz yeni başlayıb, sabaha da hələ bir sabah var. Qoy İslam deyən olsun.

Məclis yelləndi, oturub-qalxan, qurcalanıb yerini rahatlayan oldu.

Aşıq Əsəd simə bir təzanə çəkib boğazını arıtladı:

– Hə, əzizlərim, sizə hardan deyim, kimdən ərz eləyim, bax, bu Şeşənlilərin (Aşıq Əsəd əlinin işarəsi ilə Qəmbərlə İslamı göstərdi) dədəsi Haxverdi kişidən. Nur içində yatmış Haxverdi kişi bir axşam oğlu Qəribi yanına çağırer: "Ə, a bala, deyir, savah o düyəni bazara çıxart, üzülmüş bu il danalı qaldı, qısırdı, yeniyə nə olacaq, Allah biler, neçəyə istəsələr, sat getsin. Qərib də tənbəllik eləmer, səhər tezdənnən düyəni qabağına qatıb, düz mal bazarı sənsənmi?" Adətiydi, yola körpü salmaq üçün doqqazdan çıxar-çıxmaz bir "Ruhani" başlayır fışdırıqda qaynatma-

ğa. Yolu yarı eləmiyifmiş ki, havanın güllərindən birini yadından çıxarer. Ha başını çatdadır ki, yadına salsın, sala bilmer. "Bəlkə gedif doqqazımızdan əzəl başdan çala-çala gəlsəm yadıma düşər" deyif, düyəni yol qırağındakı kollardan birinə bağlayıf geri qayıder. Nə başınızı ağrıdem, doqqaza çatar-çatmaz yenidən fişdırıqda "Ruhani"ni yanqılandırmağa başlıyer. Gəlhagəl-gəlhagəl gəlif yolun bir yerində unutduğu "gülü" də xatırlıyer, elə ki gəlif düyəni kola bağladığı yerə çater, baxer ki, düyənin izi-tozu da qalmıyıf. Dərə xəlvət ola, bir də sahibsiz, yeyib-səmrimiş, qısır düyə ola, anası ölsün oğruların, nolojoydu, hay deməmiş, düyənin alığını aşırıflar. Düyədən əli boşa çıxan Qərib kor-peşiman geriyə qayıder: "Kişiyə nə cavab verəjəm?" Axşam düşüf, toyuq-cücə tara yığılanda Haxverdi kişi evə gəlif oğlundan düyəni satıb-satmadığını xəvər aler. Oğlu da çəkinib-eləmədən başına gələnləri bir-bir danışmağa başlıyer. Gül vurmaq yerinə çatanda kişinin səbri çatmer:

– Ə, a bala, bir əvvəl onu de görüm gülü tapıf vura bildin, ya yox?

Oğulun cavabı gecikmer:

– Bə nədi, ay dədə, vurdun da sözdü, vurdum, həm də nejə vurdum!

Haxverdi kişi:

– Vurdunsa, dərd eləmə, düyədi, itif-itif, belə canın sağ olsun, yetər ki, "Ruhani"nin gülünü unutmuyufsan, – deyir.

Aşıq Əsədin bu sözlərindən sonra məclisə şux bir gülüşmə düşdü. Çevrilib döyük-döyük, bir az da heyranlıqla İslamla Qənbərə baxdılar. Öz danışığından özü də ləzzət alan adamlar kimi, aşığın da dodaqları qaçdı:

– Hə, əzizlərim, Şeşənlilər belə Şeşənlilərdir. Bundan sonra onların sazlı-sözlü ürəyini sındırası ha döyülük?

Hekayə bitər-bitməz Aşıq Əsəd balabançıya him elədi. Bir andaca "Ruhani"nin ağır salğalı sədası kərənli damın hisli divarlarına dəyib geri qayıtmağa, məclisi hayıl-mayıl etməyə başladı.

"Ruhani"yə oynamazlar. Amma kimə deyirsən, Şeşənli olasan, "Ruhani" çalına, oynaya-oynaya göz yaşı tökməyəsən? İslamla Qənbər ortalığa çıxmağa minnət gözləmədilər. Bu yanğılı "Ruhani" arxasınca göz yaşı da gətirəcəkdi...

# OĞURLUQ DEDİN, BİR ƏPPƏK, QƏHBƏLİK DEDİN, BİR ÖPMƏK…

*"Bilmək olmur həsəd çəkənin özünə bir şey olub,*
*yoxsa kiminsə işi yaxşı gedir".*
*"Dostun sonrakı düşmanlığı yaman olur".*

Aşıq Əsəd "ağnağazları" bitirib dastan başlamışdı. Məmə deyəndən, pəpə yeyənə – məclis əhli nəfəsini çəkib saza-sözə qulaq kəsilmişdi, barmaqlarını kəssən xəbər tutan olmazdı. Çayboyu – üzü Qızıla baxan kənd komaları qoca-qaltağa, çolum-çocuğa qalmışdı. Qurd ağacı içindən yeyər. Oğrular da yad deyildi, bu elin özündəndi. Dərd qarın dərdi deyildi... Qızı yüzü istəyər, biri götürər. Amma o götürən sən deyilsənsə, onda necə? Biri xoşbəxt olub, doxsan doqquzu ürəyinə daşmı bağlasın? Qəni toyu düşünür, gözləri alacalanır, qulaqları cingildəyirdi. Toydan əvvəl Qəniyə xəbər göndərmişdi Murad. "Harda itib-batıb, niyə başı ötmür, bilmirmi ki, mənim sağdışımdı". Başqa vaxt olsaydı, Qəni bu çağırışa qaça-qaça gedərdi. Amma indi içi-içini yeyir. "Çoxmu böyüyüb, gəlib özü çağıra bilməzdimi?" Belə fikirləşsə də, Qəni Muradın ismarışına ismarışla cavab vermişdi: "Yenə dönəlgəm dönüb, xəstələnmişəm, qızdırma içində yanıram..."

Murad bu xəbərə inanacaqdımı? İnanacaqdı yəqin, çünki hərdən qızdırma tutması ilə yorğan-döşəyə düşməsi bir olurdu Qəninin. Ev adamları öyrəncəli idi, elə ki Qəni şaxta vurmuş dəvə kimi titrəməyə başlayar, qızdırmadan iri burnu qırmızı bibərə dönərdi, yükdəki yorğan-palaz nə var, üstünə tökərdilər. Beləcə, Qəni iki-üç gün qara qızdırması ilə əlləşər, ağzından su da keçməzdi. Elə ki tər dabanından çıxıb, özü demiş "çim su" olurdu, bax onda yavaş-yavaş özünə gəlirdi. Hamının adının üstünə şunduruq qoşan kənd adamları Qəniyə də buna görə "Burun Qəni" deyərdilər. Ləqəbi də təkcə xəstələnəndə qırmızı bibərə döndüyünə görə yox, bəlkə elə burnunu hər yerə soxduğuna görə qazanmışdı.

Yox, Qəninin qızdırmasının səbəbi bu dəfə başqaydı. Gülsənəmin ikiaddımlığındakı sifəti gözünün qabağında dayanır, onu üzüb əldən salırdı. Qar dağlara yağmışdı, həyətlərə enməmişdi, hələ ayazını ruzigarlar gətirirdi, bir azdan həyətə enib ayağı üşüdəcəkdi. Gülsənəm hələ qapıbir qonşudaykən belə dərdə giriftar olur, indi gör, başqa kəndə gəlin köçəndən sonra nə olacaq? Sonrası da, sənin sağlığın. “Murad Gülsənəmlə qonşu olduğuma görə mənimlə dostluq edirdi. Bağda ərik var idi, salaməleyk var idi”. “Sevilmək fani olmaq, sevmək daimi olmaqdı...” Hansı toyda söyləmişdi Aşıq Əsəd bu sözləri, harda? Yadında deyildi. Başına gələn başmaqçı olar. Bu sözlər son günlər Qəninin yadına tez-tez düşürdü. Bəlkə içindən sevginin sözü yox, yandıra-yandıra özü keçirdi, ona görə? Aşıq Əsəd gah Kərəmin, gah Qəribin dililə başa düşülməsi çətin olan elə şirin sözlər deyirdi ki, başa düşməsə də, Qəninin, təkcə Qəninin yox, bütün kənd cavanlarının da canına sarı yağ kimi yayılır, içlərinə hopub sızım-sızım sızlayır, sevgi vadilərindən axıb gedən mavi çaylar kimi çağlayıb axırdı.

Rayon mərkəzində qaraçı qızla görüşlərini xatırlaya-xatırlaya Qəninin canına qor dolurdu. “Mən də o qaraçının günündəyəm, öz əlimlə verdiyimi indi özüm dilənib almalıyam. Heyf Gülsənəmdən”. Gülsənəm məsələsi dilə-ağıza düşəndən sonra Gülüzə də düşmüşdü Qəninin gözündən. “Onsuz da at kimi atlıq eləmir, havayı bir aləm ot yeyir, qarnını otarmaqdan, mənə təpik atmaqdan başqa xeyri nədi, səni verənin var-yoxunu.., bir dəli şeytan deyir, apar verdiyini o yer mamasının təpəsinə vur, bu sən, bu da sənin Gülüzən de. Sonra içindən ağıllı şeytan baş qaldırırdı, Muraddan qisas almağın bir tək yolu qalır, o da elə Gülüzədir”. Bu axşam elə bir axşam idi ki...Tufanası dağılmış Aşıq Əsəd və Əsədin adamın ağlını başından alan sözləri olmasaydı, günah işləməyə nə vardı ki?! İkidə-bir təkrarladığı sözlər sonra qayalara dəyib qayıdan əks-səda kimi Qəninin də qulaqlarında cingildəyir, cingildəməyi ilə qalmır, əlifini də çaşdırırdı: “Özgə qadının dilindən bal tökülər, işvəli qadın, qadından çox tordur. Belə qadınların ürəyi qapan, əlləri zəncir olur. Amma oğul odur ki, bunları görə-görə nəfsinə tət

deməyi, əlinə, belinə, dilinə sahib olmağı bacarsın. "Zalım oğlu Əsədin söylədiyi sözə bax, sən Allah. Necə yəni "əlinə, belinə, dilinə sahib ol!" Dildə deməyə nə var, gəl Qəni köpək oğlunun yaşında ol və gözün baxa-baxa sevdiyin qızı adını dost qoyan adam çalıb aparsın, sən də baxa-baxa qal. Bu dərdi Allah götürərmi?!"

İndi Qəni beləşeləş oğlu bu sözləri yüz dəfə eşidə-eşidə Gülsənəmə necə pis gözlə baxacaqdı? Baxmamağa kişiliyi çatacaqdımı? Ətrafında bir ölüm burulğanı burulmaqda, havada bir səs dönüb dolaşmaqdaydı, kəsik başdan çıxan səs. Bu səs Qəninin özünün yox, ölümünün səsiydi.

Qəni Tofiqlə Paşanın da toya getməyəcəyini bilirdi. Uşaq göndərib, onları yanına çağırtdırdı. Əvvəl-əvvəl onlara qurduğu plandan bir söz deməyəcəkdi...

# “GECƏ QARA, CÜCƏ QARA...
# KİM ALA, KİM APARA”

*“İnsan ürəyi də torpaq kimidir. Ona xeyirxahlıq toxumu da düşə bilər, pislik toxumu da”.*

Məclisin sonlarına doğru aşığa “Göyçə gülü” oxutmaq Qasımın köhnə adətiydi. Niyə məclisin sonunda bunu istəyirdi, özündən başqa kimsə səbəbini bilməzdi. Balabançı Müseyibə göz vurub “Görüm, a bəy, toyun mübarək olsun” deyə bəy tərifinə başlayanda Aşıq Əsədin yadında Qasım da qalırdı:

– Deməyin unutdum, qarışdı başım,
Yenicə altmışdan addıyıf yaşım,
Bizə xələt versin Qasım qardaşım,
Görüm, a bəy, toyun mübarək olsun,
Sağdışına, solduşuna borc olsun.

Adı anıldığına görə Qasımın bir andaca qırışığı açılar, məclisdə tanınıb sayılmağın qüruru ilə nə müddətdi payız toyları üçün cibinin bir küncündə qırpıdıb saxladığı qırmızı onluğu aşığın sazının başına keçirər, sonra bir zorla isitdiyi yerinə oturub, dərdin o tərəfindəki şirin gələcəyin xəyalına dalardı...

Aşıq Əsəd sazı-sözü ilə kənd adamlarının hər birinin içində bəlkə onların özlərinin də fərqinə varmadıqları, vara bilmədikləri bir ümid işığı yandırırdı. Bəzilərində az, bəzilərində çox, amma yandırırdı. Söylənən dastanlardan, oxunan mahnılardan hərə öz payını götürürdü. Zaman, dövran karvanını “gələcək” deyilən mübhəm dünyalara sürüklədiyi kimi, Aşıq Əsəd də sazı və sözü ilə uzun gecələrdə nəsilləri bir az işıqlı, amma bir az da qəribə, anlaşılmaz sabahlara çəkib aparırdı. Əslinə baxsan, kənd

adamları çox zaman Əsədin oxuduqlarının mənasını düz-əməlli başa düşməsələr də, aşıq havalarını dinləyə-dinləyə oxumamış filosof olurdular. Arzu və xəyallardan bir məclisdə gələcəyin min bir məclisi qurulur, toyu çalınırdı. Bu müdriklik torpaqdanmı, sudanmı, yoxsa elə kənd payızlarını toya döndərən aşıqların söylədiyi nağıl, əfsanə, hədislərdənmi yaranırdı, bilinməz, beləcə, kənd öz hikmət dünyasını yaşamada, nəsildən-nəslə ötürmədəydi.

# QURD AĞACI İÇİNDƏN YEYƏR...

*“Oğru evdən olanda öküz bacadan çıxar...”*

Qasım evdə yoxdu, toydan nə vaxt dönəcəyi də Aşıq Əsədin otuzluq lampanı söndürəcəyinə qalırdı. Qurdbasanın kəramətinə bələddi, bələd olmasa, tövlənin önünə bağlayıb, mal-qoyunu ona əmanət edib, rahat toya gedərdimi? Amma Paşanın itlər üzərindəki zəhmi ağlına gəlməmişdi...

Paşanın Qurdbasanın süysününün üstünü almasıyla Tofiqin tövlənin qapı rəzəsini açıb içəri girməsi bir oldu. Kibrit yandırıb heyvanların yerini bələdlədi. Qəfil işığa tardakı toyuqlar narazı-narazı qaqqıldaşdı, altı bərəlmiş göz ani kibrit işığında qaranlığa boylandı. Tofiq əvvəlcə tuncu cöngənin çatısını açmaq istədi. Cöngə başına gələcəklərdən xəbərsiz, ağzındakı yoncanı yavaş-yavaş gəvələməyindəydi. Tofiq tənbəllik eləmədi, cöngə ilə birgə sümük saplı bıçağı ilə dananın da kəndirini kəsdi: “Onsuz da əlimizi oğurluğa bulamışıq, cöngəni tək aparsaq, yolda böyürüb başımıza iş açar”. Tofiq malları tövlədən bir xeyli uzaqlaşdırdıqdan sonra Paşa da başının üstünü kəsdirdiyi Qurdbasanı qarqaradan zəncirqarışıq açıb, arxasına salıb həyətdən xeyli uzaqlaşdırdı, sonra da boş böyrünə bir təpik ilişdirdi: “Sən saxlayanın anasını… Sürük, köçötürən köpəkoğlu!”

Qurdbasan təpikdən sonra ayılıb özünə gəldi, xəbərə gedirmiş kimi tez hürə-hürə gəldiyi həyətə tərəf götürüldü.

Oğrular mürğülü kənd daxmalarının arasından aşağı, çaya doğru yol aldılar. Cöngənin çatısı Tofiqin əlində idi, dana cöngənin arxasına düşüb gedirdi... Sükutu Qəni pozdu:

– Birinci dəfə deyil ki oğurluğa gedirik. Çayın o tayına keçdikmi, iş bitəcək, yetər ki, bizimkilərdən görən olmasın. Murad türmələrdə yatmağa öyrəncəlidir, gedib bu dəfə də bizim yerimizə yatsın.

– Necə? Heç nə dediyini bilirsən? Burada Muradlıq nə var?

– O var ki, heyvanların izini toy evinin başına dolandırmalıyıq. Qasımı da ki, Allaha şükür, siz məndən yaxşı tanıyırsız. Bu dərədə ondan yaxşı iz axtaran varmı? İndi özününküləri axtarmayacaqmı? Onunku izin ucunu tutana qədərdi.

Elə bil Burunun sözünə bənd idi, cöngənin dal ayağı lehməyə elə batdı ki, dartıb, özünü çamurdan güclə çıxara bildi.

– Sən ondan qorx ki, öz çəhlimimiz öz boğazımızda düyünlənsin.

Bu, Paşanın səsi idi.

Burunun zoğal çubuğu cöngənin belindən zol qaldırdı. Sanki oğurlanan heyvanlar da Burunun sözünü doğruya çıxarmaq üçün dartınır, ayaqlarını yerə dirəyir, qabaq dırnaqları keçdikləri yerlərdə silinməz iz buraxırdı...

Çayı keçib, itburnu kollarının arasıyla uzanan cığırla heyvanları qonşu kəndə tərəf haylamağa başladılar.

– İndi hamı damın altında Aşıq Əsədin dastanına qulaq kəsilif. Çətini izi toy evinin başına dolandırana qədərdi... Qasım sabah başlarının üstünü aldırajaq. Çıxarsınlar göröm bu izi o həyətdən nejə çıxaracaqlar? Tülkü tülkülüyünü sübut eləyənəcən, dərisini boğazından çıxarerlar.

Bunlar Qəninin dilinə gələnlərdi, ürəyində isə fikirləşirdi: "Qoy toyu vaya dönsün, tutub türməyə salsınlar, sonrası asandır, nə çoxdu Rusiyanın gözdən uzaq şəhərləri, götürüb Gülsənəmi oralara qaçaram".

Yol boyu dinib-danışmırdılar, arada sükutu cöngə ilə dananın oxrantıları[1] pozurdu. Ətrafda ins-cins yoxdu, hərdənbir yamac boyu səpələnən torpaq damlardan dumandan boğulan işıqlar közərib sönürdü. Dillərinə gətirməsələr də, yol uzandıqca Paşa ilə Tofiqin tərəddüdləri də artır, bu işə qol qoyduqlarına görə öz-özlərinin yeddi arxa dolananlarını qəbirdən çıxarırdılar: "Biz mal oğurladıq ki, xeyir görək, daha toy evinin başına çəhlim dolandırmaq hardan çıxdı?"

Çay yolundan sağa burulub yamac boyu dikdirdəki toy evinə doğru yönəlmişdilər. Obaşdanın toy yerindən üzüaşağı enən yeli təkcə ac mədəni qılınca gətirən bozartma ətrini yox, həm də Tofiqlə Paşanın davamını

[1] astadan böyürmə

anşıra bilməyəcəyi qara-qorxunu da bərabərində gətirirdi. Boz-bulanıq buludların arxasında işartısı güclə sezilən Ayın da başına elə bil qara bir kəndir salınmışdı. Kənardan baxanda Qəninin dünya-aləm vecinə deyildi. Başını qaldırıb kefi qaçmış göylərə baxdı...

Oğru çəhlimi edam kəndiri kimi toy evinin başına dolanmağa gedirdi...

# "İZ" DEDİYİN NƏDİR, İZLƏMƏDİYİN NƏ?..

*"Hər acı özündən sonra bir iz buraxır".*

Qasım gecənin gec vaxtında toydan geri qayıdanda həyətində nəyinsə dəyişdiyini hiss etdi. Qurdbasanın hərəkətləri də şübhəsini artırdı. Dalağı sancdı. "Yox, burda bir iş var, vallah", deyib, yatan arvad-uşaqdan bir şey soruşmadan özünü tövlənin qapısına atdı. Qapı açıqdı. Bacadan düşən bozumtul işıq tövlənin içini aydınlatmasa da, səhərin açılmaqda olduğundan xəbər verirdi. İçərinin ala-toranında sahibini görən inək mələməyə başladı, sanki başına gələnləri onunla bölüşmək istədi: "Balalarım əldən getdi". Cöngənin və dananın mıxları ipsiz qalmışdı. Bir an əvvəl özünü Qəmbərlə İslamın yanına çatdırmalıydı, yoxsa gec olardı. Kalmanı çarıq pambıq kimi yumşaq tozlu yolların üstündə əyri-üyrü iz sala-sala irəlilədi. Qasım olub-bitənləri ucundan-qulağından İslama danışdı. Sonra Qəmbəri də çağırdılar. Mal bir yana gedər, iman hər yana! Yavaş-yavaş oğru izinin kələfini dolamağa başladılar. Malların çəhlimi izləyənləri Əsrik çayına tərəf aparırdı. Orda-burda içlərinə dolan su izləri tamam itirməmişdi. Zənləri yanılmamışdı, izlər çayyuxarı – Əsrik tərəfə dönmüşdü. Oğrular iz itirmək fikrində olsaydılar, kol-kos qala-qala daha heyvanları açıq-aşkar çaykənarı palçıqlı cığırla niyə aparırdılar? Çəhlim gedib-gedib çayın Göyqaya döngəsində yenidən kəsilirdi. İz onları yoxuşa tərəf aparırdı.

Qonşu kəndin yastı-yapalaq evləri səhər sisindən sıyrılıb ağarmağa başladı. Üçü də gözlərinə inana bilmirdi. İz onları dörd-beş saat əvvəl yeyib-içdikləri, çalıb-oynadıqları toy evinə gətirib çıxarmışdı. Yastı-yapalaq evə yaxınlaşdıqca, Qasımın tükləri biz-biz oldu. Qasım Şəmşəd kişini yaxşı tanıyırdı, bəlkə Murad əlləm-qallamlıq eləyərdi, amma Şəmşəd kişi elin tərəzi gözü bir adamdı, o, belə işin olmasına imkan

verərdimi? Bu nə işdi mənim başıma gəldi?! İlk dəfə idi ki, kənddə yox, bütün mahalda iz axtarmaqda ad çıxaran bu adamlar kələfin ucunu tapıb, izi son nöqtəyə çatdırdıqlarına bir damcı da sevinmirdilər, sevinə bilmirdilər. Neçə vaxtdan bəri yağan payız yağışları bir az sərpilib ara versə də, cöngə ilə dananın ayaq izlərinin açdığı çəhlimin toy evinin ətrafına dolandığı aydınca seçilirdi. Evin doqqazı dura-dura bu zalım uşaqları heyvanları evin başına niyə dolandırıblar: "Belə də oğurluq olar? İndi nə üzlə Şəmşəd kişi kimi bir el ağsaqqalına – "ya izi qapından çıxart, ya da..." deyəsən?" Yaman yerdə axşamlamışdılar, it izinin at izinə qarışdığı yerdi...

Səhərin alaqaranlığında həyətdə adamlar qaynaşırdı. Havada şaxta vardı. Nəfəsin buxara dönüb gözlə görünən zamanı gəlmişdi. Soyuqluq təkcə havada deyildi ki, itiyi itən adamın da içində son baharın ruzigarları cövlan edirdi...

Qasım bir yana, İslamla Qənbər də dərd içində idilər. İzin hansı qapıya gətirəcəyini hardan biləydilər?! Bilsəydilər, heç əvvəldən bu işə qol qoymazdılar. Oğurluq iz də elə Şəmşəd kişinin ikidə-bir xatırladığı alın yazısı kimi bir şeydi, sonuna çıxana qədər səni haraya götürəcəyini bilmirsən. Amma bu dəfəki iz bir başqaydı, ondan özü boyda qan iyi gəlirdi. Əsrik dərəsinin acı təcrübəsi vardı, bir dəfə olan mütləq bir də olacaq. Bunu bilmək üçün falçı olmağa da gərək qalmır. Qurulan bu nə qurğudur? Kələf bu evin ətrafında dolanmışdı, gedib sonra kimin qapısından çıxacağı, boğazına edam kəndiri olub dolanacağı, torpağın alt qatlarından illər boyu üzə çıxmağa hazırlaşan sular kimi, gələcək naməlum zamanlara qalırdı...

# İSLANMIŞIN YAĞIŞDAN QORXACAĞI

*“Güllərin içində tikan bitdiyinə görə asi olma, tikanlar içində gül bitirdiyinə görə Allahına dualar et...”*

Oğurluq izinin toy evinə gəlib çıxdığını bilməyən yoxdu. İki gündən sonra Şəmşəd kişinin qapısını milislər döyəcəkdi. Kişi buna təəccüblənməyəcəkdi də, çünki gözlədiyi şeydi... Səbəb nəticəni qovur hər zaman, nəticəyə çatmadan yerində dura bilmir. Kişinin içini rahatladan Muradın evdə olmamasıydı. Olsaydı, özünü qabağa verib işləri dolaşdıracaq, ona Allahla baş-başa qalıb dərd bölüşməyə imkan verməyəcəkdi. Halbuki, belə gözlənilməz bəla anlarında Şəmşəd kişi özüylə, Allahıyla baş-başa qalmağa elə ehtiyac duyardı ki... Kimin ki öz içinə yolu var, o, çətinlik çəkmədən öz taleyini oxuya bilər. Halallığına, doğruluğuna inanırsansa, milis-filan boş şeydir, yetər ki, Allahla baş-başa qalmağa bircə anlıq fürsəti olsun. Bu fürsət əlinə keçdimi, özünü heç zaman tənha, köməksiz hiss etməzdi. Harada olur-olsun, yolda-izdəmi, asanlıqdamı, çətinlikdəmi, fərqi yoxdu, hər yerdə bu səsin əks-sədasını eşidirdi. Allahın səsi hər zaman ona dünyanın faniliyini, Haqqın həqiqi evini xatırladırdı. Bəs ürəyə damma nə deməkdir, kimdir ürəyə damızdıran? Allaha malik olan nədən məhrumdur, Allahdan məhrum olan nəyə malik? Su qumsalda batar. Bu, görüntüdə belədir, gedib haçansa, hardansa çıxmayacağını kim söyləyə bilər ki?!

Rayondan tökülüşüb gələn milis işçiləri əl damında kəsilmiş malların baş-ayağını bir çuvala yığışdırıb, Şəmşəd kişini də qabaqlarına qatıb, rayon mərkəzinə götürmüşdülər. Murad axşam evə gələndə xəbərdən xəbər tutub, özünü milis idarəsinə yetirmişdi. Tərəddüd-filan eləməmişdi. Əvvəlcə Qasımın üstünə getmək istəsə də, fikrindən dönmüşdü. Ruhunun harasındasa gizli-gizli özünə yer eləyən bir hiss də baş qaldırmışdı: “Adam öldürən çaqqıldaq yığan qoyun kimidir, birini öldürdünmü,

ondan gözəgörünməz nəsə sənə ilişir, lənət xaltası kimi boynuna keçir, ayağına dolaşır, fikrinə çidar olub, səni qarabaqara izləyir". Bəlkə bunu dərk elədiyindən, əlindən yeni bir xata çıxmasın deyə, "lənət şeytana", deyib, Qasım ilə qarşılaşmaqdan vaz keçmişdi.

Daşından, divarından da qorxu və vahimə yağan, işgəncə görmüş minlərlə insan bağırtılarından bağrı çatlayan bu milis binası döyüşlərə, söyüşlərə çoxdan öyrəncəlidir. Bu binanın "bağrının çatlamasını" Murad öz gözləri ilə görmüşdü. Saxlama kameralarının divarları əzab görmüş qarı sifəti kimi bürüş-bürüş, çat-çatdı. Üstünə böhtan atılmış, arzuları, istəkləri dörd divara salınmış, sonunun nə olacağını bilməyən, gecənin içində sorğu-suala çəkilən, istənilən cavabları verməyəndə bağırtısı kameranın qabırğasıqalın divarlarını keçib Allaha belə ulaşmayan insan fəryadlarından başqa, o çatları nə yarada bilərdi ki?! Zaman keçdikcə insan əynindəki paltara öyrəşdiyi kimi, dərdə də öyrəşə bildiyini öz həyatında sınamış, əynindəki paltar kimi dərdi də geyib-geyib az da olsa köhnəltməyin mümkün olduğunu öyrənmişdi. Amma "unutdum, qayğılar arasında it kimi azdırdım" dediyin vaxtda bir də görürsən hayandansa, içinin bir yerindən ilan kimi quyruğunun üstünə qalxıb boy göstərir. Ən zor şey adəti pozmaqdı. İnsan bunu bacarmır, o ki qalsın daş-divar ola. Hələ Çobanı o dünyaya vasil edib öz ayağı ilə bu binanın qapısını döyəndə içəridə başına nələrin gələcəyini ağlına belə gətirməmişdi. Öz ayağı ilə gəlməsinin, öz xoşuyla hər şeyi boynuna almasının da xeyri olmamışdı. Hələ "bir parça uşaq olan" Muradın ağzının-burnunun qanını bir-birinə qatmışdılar. O vurub buna, bu vurub ona salmışdı. Məhkəməsi olub "türməyə" düşənə qədər anasından əmdiyi südü burnundan gətirmişdilər. Və hələ içəridə olanda ozamankı kəm ağlı ilə bu binanın daşı-divarı haqqında düşünmüşdü. Və... məlum qaraçı qız! Bəlkə bu məşum binayla o qaraçı qızın deyəcəkləri arasında sirli bir bağ da varmış:

– Özün bil, amma falına baxdırmadığına, başına gələcəkləri öyrənmədiyinə görə peşman olacaqsan. Mən ki falına baxmaq üçün səndən bir şey istəmirəm. Unutma, həyatın bu gün bazarda satdığın çətənə ceviz kimidir, qırsan qırılmaz, yesən yeyilməz...

İliyinə qədər işləyən bu sözlərini elə bil dünən eşitmişdi, qulaqlarında yenidən cingildəyirdi. Amma qaraçı qızın fal sirri bununla bitəcəkdimi? Murad bunu bilmirdi, bəlkə bu barədə düşünmürdü də. Görəsən insan niyə belədir, öz başına gəlmədən, dərddən bir dadım dadmadan xəstəxananın, milis idarəsinin, ya da elə "türmənin" yanından ötərkən o binaların içindən necə ahlar-amanların göyə bülənd olduğunun fərqinə belə varmır. Bəlkə elə buna görə də Allah deyilənin özü, laqeydliyinə görə də insanı bu binaların çölündən içinə də atır. Atır ki, bu dünyada üzdən başqa görünən bir başqa dünyanın – astarın olduğunu da öyrənsin.

# BİR YANDAN BAĞLAYAN
# BİR YANDAN AÇAR

*"Əgər siz yaxşılığa doğru dəyişirsinizsə,*
*sizinlə birlikdə dünya da dəyişir..."*

Qasım, izləri toy evinə gətirib çıxartsa da, ya saz-söz sərrafı İslamla Qənbərin təkidindən, ya da üç-dörd saat əvvəl toyuna gəldiyi adamlara "ya izi həyətinizdən çıxarın, ya da malımı verin", – deməmiş, deyə bilməmiş, xəlvət gəldiyi kimi, xəlvət də geriyə qayıtmışdı. Amma çuğul ölməyib ki? Hələ heç yana şikayət etməmiş, sahə müvəkkili qapısını döymüşdü: "Malın oğurlanıb, izləri də dəstələyib vəkillilərin qapısına çıxarmısan, bu boyda hadisəni gizlədərlər? Hanı sənin şikayət ərizən?"

Elə qapıdaca meşin çantasından kağız çıxarıb bir ərizə qaralamış və Qasıma istəməyə-istəməyə qol çəkdirmişdi.

Qasım ağlı başında adamdı: "Mallarımın itdiyini, izini toy evinə qədər sürdüyümü Qənbərlə İslamdan başqa kimsə bilmir, onlara da özümə inanan kimi inanıram, o zaman bu hadisəni milisə kim şeytanlıq eləyib çatdırdı? Yox, burda nəsə başqa bir şey var. Oğrular bir daşla iki quş vurublar, həm mənim halalıma haram qatıblar, həm də mənim əlimlə Şəmşəd kişiyə işvuranlıq etmək istəyiblər". Bütün bu düşüncələrdən sonra şikayətindən vaz keçmişdi: "Halal malıma haram qatanın onsuz da bir gün anası ağlar qalacaq! Daşın mənə hardan dəydiyini bilmirəm. Biz bilməyəni o gözəgörünməz Allah bilir. Mənə yox yerdən iş vuranları Allaha tapşırdım..."

Şəmşəd kişinin milisdə çox qalmayacağını özü də bilirdi. Onu da bilirdi ki, bir yandan bağlayan bir yandan da açar. Hər kəsin əməli özündən öncə gedir. Və əgər insan çətinliyə düşürsə, düşürülürsə, deməli, belə lazımmış. O hansı müdrikdir ki demişdi, xamdım, yan-

dım, bişdim. Yetər ki, insan alın yazısına sonuna qədər can-dildən boyun əysin. Öz mühakiməndə özünü bağışlaya bildinmi, budur, əsas məsələ.

Qasımın şikayətini geri götürməsi Şəmşəd kişinin qapısını açacaqdı. Oğurluq izi milisi haraya aparcaqdı, aparacaqdımı, bu, sonra bilinəcəkdi, çox sonra...

# OLACAĞA ÇARƏ YOX

*"...Nə haqqında düşünürsünüzsə, o da olacaqdır".*

Bədbəxtlik bir qapını tanıdımı, alacağını almamış ondan əl çəkməz. Elə bil səssiz harayları ilə evin özü çöldən keçən, yaşamağa yer axtaran dərdi, qəmi özünə çəkir. Bu dəfə də belə olacaqdı. Kimsənin gözləmədiyi halda Murada rayon hərbi komissarlığından çağırış vərəqi gələcəkdi. Tay-tuşları çoxdan əsgərliyini çəkib qayıtmışdı. Murad əsgərə çağırılmadığını "türməyə" düşməyilə əlaqələndirmişdi. Əsgərliyə hara düşəcəyi də vecinə deyildi, daha Sibirdən də soyuq bir yerə düşməyəcəkdi ki? Amma indi – toydan on beş-iyirmi gün keçməmiş, iki daşın arasında çağırış vərəqəsi alması kefinə soğan doğramışdı. Dünən şeş, bu gün beş. Bəlkə kimsə işverənlik eləmişdi, əsgərə getmədiyini hərbi komissarlığa bildirmişdi. Kaş gedib əsgərliyimi çəkib gəldikdən sonra evlənəydim, fağır Gülsənəmin axırı nə olacaq? Kəsilə-kəsilə qalmışdı Murad. Qorxan gözə çöp düşər, onsuz da əzəl-axır bu iş baş verməli idi, verdi də. Yağışdan əvvəlki bulud kimi, bədbəxtlik də fikrin qanadlarında gəlir.

Ortada on beş günün gəlini Gülsənəm vardı, yoxsa əsgərliyi vecinə də almazdı. Özü öz fikrinin yoldaşı idi. Canı irəlidə yox, geridə – Gülsənəmin yanında qalmışdı: "Belə bilsəydim, heç xalxın qızını on beş günün gəlini etməzdim".

Muradın əsgərlikdə qaldığı üç ildə beynini qurcalayan əsas sualdan biri Qəni ilə bağlıydı: "Belə də dostluq olar? İsmarış göndərdim, – xəstəyəm – deyib, toya gəlmədi. Tutalım ki, onda xəstəliyi sağalmamışdı, əsgərliyə getdiyimi bilə-bilə, heç olmasa, sağollaşmağa niyə gəlmədi bəs?!"

Dostunun, düşməninin kim olduğunu araşdırmadan əsgərliyin yolunu tutmuşdu. Ötən qışlar, gələn yazlar da Muradın içini tərpətmirdi.

Sualdan sual doğurdu. Neçə zamandı içinin içində yatan suallar silkinib üzə çıxmaq üçün fürsəti Sibirin qarlı çöllərində tapmışdı. Kələflərini kim dolaşdırmış, evlərinin başına o oğru kəndirini kim dolamışdı? Məqsəd nə idi? Necə olmuşdu ki, gözünü açmamış başının üstünü çağırış vərəqi kəsmişdi? Yaxşı, bütün bunları kim etmişdi, niyə etmişdi? Çobanın elə bir qohumu-qardaşı qalmamışdı ki, Muraddan bu yolla qisas alaydı. Elə isə, kimdi bu naməlum düşmən? Fikrinə Qəninin də adı gəlməmiş deyildi. Dost-müsahibdən toyda iştirak etməyən yalnız Qəni idi. Amma bu fikri tez də milçək kimi ağlından qovmağa çalışmışdı: "Kölgəsinə güllə atanın biridir, Qənidə elə kəramət hardan?" Hərdən ağlına qağasının sözləri gəlirdi: "Ağılsızlarla ağıllılar arasında dostluq baş tutan deyil. Birincilərin ehtiyacları bitdiyi yerdə dostluqları da bitir, ikincilərin öz ağılları özlərinə yetir. Dostluq – iki bədəndə bir ruh deməkdir!" Qəni ilə iki bədəndə bir ruh ola bilmişdilərmi? Olsaydılar, heç bu tərəddüdlər, içini yeyib-tökmələr də baş göstərməzdi. Heç olmasa, Qənini görsəydi, görə bilsəydi, bəlkə ondan bir şey öyrənə bilərdi. Nə də olsa, Gülsənəmgillə qapıbir qonşudurlar. "Bəlkə elə Gülsənəmgilin düşmənləri varmış, mən bilməmişəm, iş vurmaq üçün məqam gözləyirmişlər. Hər halda, vaxt gələcək, hər şey yerinə oturacaq. Hansı sirr açılmamış qaldı ki, bu da açılmasın". Arxada daha kamına doyunca çatmadığı Gülsənəmi, onun yaslı gözləri qalmışdı. Gələn məktublardan onu da öyrənmişdi ki, Gülsənəm hamilədir, qanı bir az da qaralmışdı: "Heyf Gülsənəmin gəlin ömrünə, nə yatdıq ki, nə də yuxu görəydik, yazıq qız indi, Allah bilir, nə çəkir".

Ünvanına gələn bir imzasız məktub şübhə və tərəddüdünü birə on qat artırmışdı. Yazmışdılar ki, bes deməzsənmi Qasımın cöngəsilə danasını Güvəndikdən Tofiqlə Paşa oğurlayıb! Bircə anda beyninin harasındasa bu ikicə kəlmə sıralandı. Amma bu iki kəlmə üçüncü kəlmə olmadan bir şeyə yarayan deyildi. Buraya bir "Burun" kəlməsini də əlavə etmək lazımdı. Çünki onlar Qənisiz belə bir iş görməzdilər. Burada – Rusiyanın ucqar köşəsində içini dağıdan sualların cavabı yoxdu, olmazdı da, çünki onların cavabı məktubun gəldiyi yerdəydi. Bəlkə elə məktubu ya-

zanlar, ya da yazdıranlar izi azdırmaq üçün belə bir yola baş vurmuşlar? Yoxsa, doğrudan da onu istəyən adam olsaydılar, elə kənddə çək-çevirə düşürüldükləri zaman bu xəbəri verməzdilərmi? "Səbrini bas", deyirdi, "qardaş", öz-özünə, "yaman günün ömrü az olar, üç il nədir ki, papağını hərləyəcəksən keçib gedəcək". Bunları təsəlli üçün özün-özünə söyləyə bilərsən və bir an da olsa təsəlli taparsan, amma vətənlə sənin arana Çin səddi çəkən, altı aylarla gecə ilə gündüzü bir olan göyləri enib, enib başının üstünü alan, qara buludlarından qaramat yağan, günəşi qəhətə çəkilən bu Sibir çöllərində döz, görüm necə dözürsən? İşıqlı dünyadan bir parça kağıza bükülüb gələn qaranlıq xəbər Muradı durub-dincəlməyə qoymurdu.

* * *

Üç ilin yazı, yayı, payızı, qışı ümidin kölgəsində keçib getmişdi. Türməyə düşəndə geri yanından nigaranlığı yoxdu, əsgərlikdə isə belə deyildi. Gözünün ilk ovunun, ciyərparasının – qızının çoxdan bir yaşı tamam olmuşdu, ata üzü görməyən qızının. Yox, "bu ciyərpara" da onun ağzından çıxacaq söz deyildi. Kənd də adət-ənənələri ilə Qayıbın kəsdiyi qəlibdən çıxmış ayıbalası kərpiclərə bənzəyirdi. Doğulan qız uşağının yığvalıkəm, kəsik olduğunu da bu qəlib hazırlamışdı yəqin... "Qan içənin" qəlbində bu "ciyərpara" kəlimələrini oyandıran da elə kəndin Qayıb ənənə qəlibi olmalıydı. Bəlkə bu da bir qismətdir, Murad qonşu Güvəndik kəndində Qəni ilə dostluq etməsəydi və qonşuda böyüyən "qara çiçəyi" – Gülsənəmi görüb bəyənməzdi də. Elə bir yaz günündə görmüşdü Gülsənəmi, tənək zoğlarından gilənar, çinar pöhrələrinə qədər hər şey qızılı günəş rəngindəydi. Buna "sevgi rəngi" deyilsə, daha doğru olardı. Günəşin çəpəki şəfəqləri qızılı yarpaqlar arasından, hardan macal tapsa, ordan Gülsənəmin önünü kəsir, boynunda, boğazında yanğılanır, əsmər yanaqlarını minbir rəngə bürüyüb Murada qıjıt verib sevgi tonqalı kimi par-par yanırdı. Hər insanın bir günü var – günəş yalnız onun bəxtinə doğduğu gün. Görünür, Muradın ilk dəfə gördüyü gün Gülsənəmin günü idi, axtarsan, elə onun özünün də... "Uzaq mahallardan qız sevən oğlan, yaxın qonşusundan soruş halını" oxumurdumu Aşıq Əsəd?! Soruşmuş-

du da. Qəni də bir şey anlamadan "qara çiçəyi" tərifləmişdi: "Başıaşağı, evdar, işli-güclü qızdır". Hər nəsil öz ömründə sanki bir atalar sözünü sınaqdan çıxarmaq üçün yaşayır. "Anasına bax, qızını al" atalar sözü də lap Balaxanım arvadla qızı Gülsənəmin boyuna biçilmişdi. Adamlar onlara verilən adlara çəkir çox zaman. "Qara çiçəyin" qaralığında bəlkə elə bir qarabaxtlıq, bəduğurluq da gizlənibmiş?! Qəninin toya gəlməməsi və sonra da onu əsgərliyə yola salmamasıyla – "Qara çiçək" arasında bir əlaqə qurmağa çalışırdı. Çalışırdısa, deməli, həqiqətən də mütləq şübhələnəsi bir şey də olmalıydı. Sınamışdı. Heç nəyin heçinə qanı qaraldığında, səbəbini tapana qədər ürəyi narahatlıqdan sinəsini döyəcləyərdi. Elə ki, qanının qaralmasının səbəbini tapa bildi, o zaman nə olur-olsun, hətta ən çətin işdə belə bir rahatlıq duyardı. İndi Qəni və "Qara çiçək" məsələsində də xoşagəlməz bir şeyin olduğu içinə dammışdı. İçinə dammışdısa, deməli, nəsə vardı, ya da olacaqdı: "Yanmayan yerdən tüstü çıxmaz..."

# QÜVVƏT ƏLDƏ SİLAHDIR

*“Allah gücü, qüvvəti hər kəsə verməz, çünki güc, qüvvət əldə silahdır. Yetər ki o güc, qüvvət pis adamların əlinə keçməsin. Keçdimi...”*

Qəni hətta düşmənin belə tutmayacağı bir iş tutmuşdu. Murad əsgərliyə getdikdən sonra Gülüzənin gözünün odunu almağa başlamışdı. Təpik atıb Qənini üzəngisinə yaxın buraxmayanda qamçı şallağı belində zol qaldırmışdı. Bu işə Gülüzə də çaşbaş qalmışdı. At fəhmi ilə bir şey anşırmağa çalışsa da, heç nə alınmırdı. Hər şey o tanış qoxunun yoxluğundandı. Bəlkə heç o qoxu-filan da yoxmuş. Yoxmuşsa, o qoxu burnuna dəyən kimi niyə bütün vücudu əsim-əsim əsir?

Qəni yalmanından yağ daman və özü öz gözəlliyindən nazlanan yollar yaraşığı Gülüzəni elə həmin yollarda qoşqu atına döndərmişdi. Dağ meşələrindən odun qırıb aran kəndlərinə satmağa aparırdı. Qəniyə nə vardı, arı yeyib namusu da belinə qurşamışdı. Dərd Gülüzənin dərdi idi. Hər dəfə dağdan arana, arandan dağa gedərkən bir zamanlar oyur-oyur oynadığı, qayır-qayır qaynadığı, ərköyünlük, hüröyünlük etdiyi, toylardan, düyünlərdən nəmərlə qayıtdığı tanış evin yanından keçəndə gözü doğma qaraltını axtarır, burun pərələri açılıb-yumulur, başına düşüb onu dəli edən o tanış qoxunu daşdan-divardan, havadan, torpaqdan canına çəkmək, dəli həvəsini bir zərrə də olsa öldürmək istəyirdi. Amma o tanış qaraltı ilə birlikdə, o ilahi qoxu da birdən-birə qəhətə çəkilmişdi. Gülüzə hər dəfə, ən çox da aylı qış gecəsində Qəninin kölgəsini güllələdiyi yerə çatanda topuq çalıb büdrəyirdi. Qəni bunu hər dəfə eyni şeyə yozurdu: “Keçmiş dağılmışını özlüyür, ona görə belə edir”. Günlərin birində Gülüzə, köhnə həyatin doğmalığı başına vuranda odun arabasını Qəniqarışıq Muradgilin doqqazına aparmaq istəmişdi. Araba dikdirə ilişib aşmış, Gülüzənin şivərək ayaqları burxulub arabanın altında qalmışdı. Beli-başı əzilən

Qəni hayıfını yenə Gülüzədən çıxmışdı. Qamçılar atın hələ də nazlı ürpəyişlərini tərk etməmiş belində zol açmışdı. Allahdan, ev əhlindən bu tükürpərdici mənzərəni görən olmamışdı. Qəni əlüstü Gülüzənin cilovunu açıb, yoldan keçən adamların köməyilə arabanı yola düzəldəndə bu darmacalda ağlından keçənlərdən eymənmişdi. Qarlı qış gecəsində kölgəsini güllələdiyi və qaçıb özünü verdiyi həyət Gülüzənin can atdığı, dartındığı həyət deyildimi? Və o həyətdəki dağ yellərini özünə çəkib, çevrəsinə sərinlik yayan ağcaqayın ağacının altında açılan süfrədə özü ağırlığında duz-çörək kəsməmişdimi? İndi nə olmuşdu axı? Həyət elə həmin həyətdirsə, dəyişən nəydi? Elə o ağcaqayın ağacının kölgəsinin dağlardan çəkib gətirdiyi yel kimi bir şey idi düşüncələri, bircə anlığa əsib fikrini bulandırmışdı. Nə az, nə çox, o qədər. Qəninin o həyətə getməyə yox, baxmağa da üzü qalmamışdı. Səbəbini kim bilmirdisə də, Qəni hamıdan yaxşı bilirdi... Qəninin gözü Gülüzənin burun pərələrinin yanı aşağı axan göz yaşlarına sataşmışdı. Murad Gülüzənin bu vəziyyətini eşitsə nə deyərdi? Elə Qəni də bunu istəmirdimi? İstəmirdimi Murad bu xəbəri eşidib, qisas almaq üçün əsgərlikdən qaçıb kəndə gəlsin? Sibirdən kəndə gəlib çatana qədər hərbi hissədə çoxdan onun qaçdığından xəbər tutacaq, ya heç hərbi hissənin yerləşdiyi şəhəri çıxmamış, ya da elə qatarda nəzarətçilər başının üstünü aldırıb geriyə qaytaracaq, sonra da hərbi məhkəmə qaçdığına görə belinə əlavə neçə il kəsəcək, ya eşşək ölər, ya xan məsəli yanında toya getməli olacaq, ömrü türmələrdə cürüyəcəkdi. Ona qədər də Qəni bəlkə istəyinə çata bilərdi.

* * *

Murad, məktuba bükülüb gələn bəd xəbərə baş qaldıran öfkəsini, hirsini yatızdırmaq istədi: “Atı öz əlinlə Qəniyə özün bağışlamadınmı? Mal onun, məsləhət onun; özü bilər, nə edir-etsin”. Tez də özü öz fikrinə qarşı gəlirdi: “Necə yəni özü bilər, nə edir etsin?” Gülüzə kimi bir atı odun arabasına qoşan vicdansızın əlindən nə pislik desən gələr. Bəlkə də gəlib, sənə xəbər verməyiblər?! Adamın ya atına sataşdılar,

ya arvadına, fərqi nədir? O bunu mütləq səndən hayıf almaq üçün eləyir, kənddə olanda eləyə bilmirdi, indi əlinə fürsət düşüb. Amma nəyin hayıfını?"

Sonra rayon mərkəzində qarşılarına çıxan qaraçı qız yadına düşürdü: "Görünür, o qaraçı qız Qəniyə işarət edib: "Yoxsa, bunun sirrini bilməsini istəmirsən, doğru da eləyirsən", – deməsində haqlı imiş. Yox, burda nəsə var, olmasa, boşuna ürəyimə dammazdı, yağışdan əvvəl yeli gəlir.

# FİKRİN OLDUĞU YER...

*“Var olan yalnız Allahdır! Her şey o qədər yox ki, yalnız Allah var! Hər şey onunla var, hər şey ona nisbətdə yoxdur”.*

Üç əsgərlik ili kazarmalarının lap yaxınından axıb gedən çay suları kimi zaman dənizinə qarışıb keçmiş oldu. Sabahı gün, Allah qoysa, kəndlərinə doğru uzun bir yolçuluğa çıxacaqdı. Xəyala dalmağa öyrəncəli idi: “Tavarnı poyuzun” qulpunu tutub, on-on beş gün fişəkliyəcək, gedib-gedib axırda qoyub gəldiyi rayon mərkəzinə çatacaqdı. Qatardan Tovuza səhərin gözü açılmamış düşəcəkdi. Əgər Haprapolun iki at qoşulu faytonu təsadüfən rayon mərkəzindəydisə, ona minib bir an əvvəl kəndə çatmağa çalışacaqdı. İşdi, olmasa, yolun yüyənini əlinə alıb dağlara doğru üz tutacaqdı. Uzun yolu adlayıb Qaradaşın minillik qoşa çinarlarının yanından dikdirdəki Azaflı məzarlığına ulaşınca ayaq saxlayacaqdı. Qərib Seyidin məzarının üstə nəzir qoyacaqdı. Murad hələ Çobanı o dünyaya vasil edib illərlə türmələrdə zəncir çürütdüyü vaxtlarda Qərib Seyidə az nəzir deməmişdi. “Allah hər zaman sevdiyi qullarının yanında olur”. Qağasının bu hikmətli sözləri Qərib Seyidə nəzir deyəndən-deyənə yadına düşərdi. Türmədə olanda nəinki Qərib Seyidə nəzir demiş, hətta ömründə ilk dəfə onun ünvanına şeir də qoşmuşdu. Çətinə düşdümü, o bir bəndi beynində fırlamağı vardı:

Kimsəsiz etməsin Allah heç kimi,
Tuturlar hər yanda ayrı-seçkimi.
Yazığam, fağıram, mənim işimi,
Ya Qərib Seyidin cəddi, sən düzəlt!

Anası ölsün qürbətin – daşı dilləndirirsə, gör insanı neylər?! Yaxşı ki özündən başqa kimsə onun şeir yazdığını və çətinə düşəndə öz yazdığını

öz-özünə söylədiyini bilmir. Bilən olsaydı, üzünə olmasa da, arxasından lağ eləyib gülərdilər. Nə sehrdisə, çətinə düşdümü, o sözlər dilində dua kimi təkrarlanırdı. Qəribə idi, təkrar olduqca da, çətin işi yoluna düşürdü. Bəlkə bu sözləri heç özü də söyləməmişdi, sahibi bilinməyən qeybdən gələn sözlərdi, qeybdən gəldiyinə görə də bir bu qədər sirli və təsirli idi.

Murad Qərib Seyidin ağır cəddinin səbəblərini düşünə-düşünə yolun damarını qıracaqdı. Azaflını keçib Bayramlıya üz tutdumu, uzaqdan Kəmər və onun başındakı tək dağdağan göründümü, ürəyinə su səpiləcəkdi. Elə bircə Kəmərin zirvəsində ayağı daşda, başı savaşda olan o tək dağdağanın sirrini kənddə bir Allah bəndəsi aça bilməmişdi. Bəlkə o dağdağanın müqəddəsliyi qayada-qapcığada minbir əziyyətə dözüb "çörəyini" daşdan çıxartmağında idi, bəlkə müqəddəslik elə əziyyət və çillə çəkməkmiş?!

Beləcə, xəyallar içində gedib-gedib Dəlləklinin dikdirinə çıxacaqdı. Ordan baxanda kəndləri ovcunun içi kimi görünəcəkdi. Dikdirdən göz gəzdirəcəkdi, çayın sahil yamacları boyu səpələnən yastı-yapalaq daxmalar dəyişib-eləməmişdi, üzünün suyuyla qalmağındaydı. Bacalarından burula-burula boz-bulanıq tüstülər millənirdi. Ətləmi, dərdləmi – bilinməz, amma tüstülənən bu daxmaların altında qaynamağına, hər ocaqda bir qazan qaynayırdı.

Murad, fikrinin aynasında canlandırdığı kəndə xatirələrin girdabında qayıdırdı. Bu getdiyi bəlkə də heç əvvəlki el yolu deyildi; üç ildə fikir-xəyalında bəlkə min dəfə gedib-gəldiyi fikrinin saldığı izdi...

## BƏD XƏBƏR ATLI OLUR...

*Yayından çıxan ox kimidir bəd xəbər, yerdə düşüb qalmasına inanma:*
*– Mütləq hədəfə uçacaq – ünvanlandığı hədəfə…*

Gülsənəm Muraddan sonra cəmi üç ay Əsrikdə qalmışdı. Sonra nə olmuşdusa olmuşdu. Anası Atlı Balaxanım tumanının balağını əlinə dəstələyib Əsriyə gəlmiş və Gülsənəmi qabağına salıb ata evinə aparmaq istəmişdi: "Ayağı ağırdır uşağımın, yerikliyer, yenə burda yaxında olsoydum, dərd yarıydı, əl-ayaq edərdim, indi o burda, mən cəhənnəmin o başında, iraq canından, uşağımın başına bir iş gələr, sonra gərək mən baş götürüb bu dünyadan gedəm. Yükünü yerə qoyar, sonra siz durursunuz, gəlininiz durur, o zamanacan əri də gəlib çıxar".

Bəhanə bu idi. Və bunun bəhanə olduğunu Atlı Balaxanım bildiyi kimi, qudaları da bilirdi, amma elüzəri əsl səbəbi açıb-ağartmaq istəmirdilər. Eltiləri Gülsənəmi fikrindən döndərməyə çalışmışdılar:

– Sən ananın dediyinə baxma, qız, otur oturduğun yerdə, biz ölməmişik ha sənə bir şey ola. Həm də bu işə Murad nə deyər?

Atlı Balaxanımın nəyi yoxdusa da, uzunca dili vardı, ev adamlarının təkidini görüb buxarısı təpən ocaq kimi yenidən tüstüləndi:

"Murad nə deyər", sözə bax, belə nə deyir, desin! Nə qabağımıza durursunuz, mənim gül ağzımı açdırmayın. Oğurluq malla toy elədiniz, çıqqırımızı quda olduğumuza görə çıxarmadıq. Güvəndikdə adamların içində başımızı qaldırıb gəzə bilmirik. Qasımın arvad-uşağı hələ də sizdən çox mənim qızımı qarğıyer. Üzümüz qara, başımız aşağı, dilimiz gödəkdi. Nəydi mənim tifilimin suçu?

Üzünü Gülsənəmə tutub:

– Qabağıma düş görüm, aaz, sevməyə öz dağılmışımızda adammı tapmırdın, a günü qara gəlmiş, başkəsənin birini sevdin, özün də ortada qaldın, biz də. Yeri, baxtı açılan gününə qara bir daş yağaydı, yağdı da. Nə vaxt ərin

oğ... (Sözünün dalını yemişdi, bilmək olmurdu “oğru” demək istəyir, ya da “oğraş?”) gələr, onda baxarıq, bir də üzün bu səmtə düşər, ya yox?

Atlı Balaxanım sözün dalını gətirməyə aman verməmişdi. Gül kimi ləqəbi vardı – “Atlı”. “Alma budağından gen düşəsi ha deyil”. Gülsənəm də necə olsa, Atlı Balaxanımın qızı idi. Belə yerdə deyirlər ki, anası turşu yeyər, qızının dişi qamaşar. Gülsənəm də anasına qoşulub yola düzəlmişdi.

Vaxt keçib vədə dolandıqdan sonra Gülsənəm yükünü yerə qoyub, bir qız dünyaya gətirmişdi. Kürəkəninin əsgərlikdən qayıtdığını eşidən Atlı Balaxanım Gülsənəmi də qabağına qatıb ər evinə gətirmişdi.

* * *

Murad kimi sağ başı gora aparması müşkül olan birisinin Rusiyanın o başından – əsgərlikdən sağ-salamat qayıtması qonum-qonşuların, kənd adamlarının gözaydınlığına, get-gəlinə səbəb olmuşdu. Gələnlərin arasında aradığı biri vardı Muradın. Bu, Qənidən başqası deyildi. Gözü yolda-rizdə qalmışdı, əgər kişi kimi gəlsə, görüşsə, heç nə olmamış kimi, dostluğunu davam etdirəcəkdi, biləcəkdi ki, deyilənlər yalanmış, şübhələri boşuna imiş. Belə fikirləşməkdə haqqı da vardı, çünki dərd Qəninin toya və onu yola salmağa gəlməməsi, Gülüzəni qoşqu atına çevirməsi dərdi deyildi. Bir dərdi vardı ki, onu heç öz-özünə də etiraf etmək istəmirdi. Qəni gəlmirdi, gəlməməyi ilə şübhələrin rəngini bir az da tündləşdirirdi.

Murad, bir almanın yarısı kimi özünə oxşayan qızı günahsız Gülyaza görə Gülsənəmlə xoş davranmışdı: “Qoy hələ beş-on gün qalsın. Gülsənəm qaçmır, mən də burada. Haqq-hesabı sonra çəkərəm. Çuğul ölməyib ki, istədiyi xəbəri ünvanına çatdırmasa, bağrı çatlar. Çuğul da ki, evin içində idi. Kim deməsə də, yengəsi Xatın dilini dinc qoymayacaqdı”.

Qəni ilə Gülsənəm arasında bir şey olmuşdumu? Yoxsa bəzəyib-düzəyib birinin üstünə beşini qoyub çatdırmışdılar. Kənd adamlarının hər şeydən qabaq gözüylə sözü inkişaf edib, olmayanları da elə yerli-yataqlı düzüb-qoşub danışırlar ki, inanmaya bilmirsən. Bir söz el-obanın ağzına düşməsin, düşdümü, saqqız kimi çürüdənə qədər gəvələnir, gəvələndikcə də inandırıcı olur. Murad deyilənlərə əvvəlcə bir o qədər də inanmamış-

dı: “Qənilə özümüz ağırlığında duz-çörək kəsmişik, başına atmı təpmişdi bu boyda kənd-kəsəkdə qadın-qızmı qəhətdi gəlib dostunun arvadına sataşaydı? Amma bunları düşünə-düşünə də içində ilan kimi bir şübhə qıvrılıb qalxırdı: “Suçu yoxsa, niyə mənimlə görüşə gəlmir? ”Qara çiçək” Qəninin nahaqdan dil əzbəri deyilmiş. Od yanmasa, tüstü çıxmaz”.

Murad məsələni yaxından öyrənmək üçün yengəsini sıxma-boğmaya salacaqdı. Bilirdi ki, nə olmuşsa, sözün düzünü Xatın deyəcək. Xatın isə elə də böyük bir sirr açmamışdı. Başını aşağı salıb dilinin qıfılını açmışdı:

– Vallah, əslinə baxsan, mənim də bildiyim elə bir şey yoxdu. Bir dəfə Qəni yuxarı dağdan odun gətirəndə yağışa düşüb bizim evə burulmuşdu. Qağan da gecə gecədən keçdiyindən Qənini getməyə qoymadı, o axşamı bizdə yatası oldu. Öyümüz də özün bilersən, öy döyül ki, kolxoz bazarıdır. Axşam qağanla Qəniyə yuxarı başdan, uşaqlarla özümüzə də ayaq tərəfdə yer saldım. O gecə də tərs kimi çırağın piltəsi də öləzimişdi. Gecənin bir aləmində Qəni subaşına çıxanda qaranlıqda qapıya tərəf getməkdənsə, gəlib biz yatan tərəfə çıxıb, Gülsənəmin ayağını tafdalamışdı. Birinci dəfəsində hiss eləməmişdim, ikinci dəfə Qəni yenə çölə subaşına çıxanda duyuq düşdüm. Özün bilersən, Gülsənəm məndən sirr saxlıyan ha döydü, savağısı xəlvətə salıb soruşanda olurunu söylədi. Qəni ciyəriyanmış bunu qəsdən eliyif, yoxsa yox, nə Gülsənəm söylədi, nə də mən bildim. Ona görə də anası gəlib “qızımı aparım” deyəndə söz-söhbət, dedi-qodu yayılmasın deyə, “yox” demədik.

Xatının qeybətini dinləməyə artıq Muradın halı yoxdu, ona görə də yengəsini başından elədi:

– Yaxşı, – dedi, – bu sözləri nə sən mənə söyləmisən, nə də mən eşitmişəm.

Muradın içində atlı burulğanlar baş qaldırmışdı, bütün eşitdiklərinin ağ bir yalan olduğunu elə istərdi ki! Hirsli başda ağıl olmaz, bu dəfə səbirsizlik etməyəcəkdi, Gülsənəmin özü ilə yaxşı-yaxşı danışacaq, onun sözləri ilə Xatının söylədiklərini qarşılaşdıracaqdı...

# NƏFSİN SƏNİ YENMƏDƏN, SƏN NƏFSİNİ YEN

*"...Hər bir zövqün öz dəyəri və hər bir əzabın da öz mükafatı var... Atəş altunu, altun qadını, qadın kişini imtahan edər".*

Gülsənəm nəyi bilməsə də, ərinin xasiyyətini yaxşı bilirdi, ona görə də fikrində yalan uydurmağa da qalxmayacaqdı, nə var, olanı deyəcəkdi. İlk yorğanaltı söhbətində çox şey aydınlaşacaqdı. Söhbətin kökü uzaqdan gəlsə də, Murad sözü uzaqdan başlamağa ehtiyac görməmişdi. Üstündəki nəm torpağın altındakı suyun xəbərçisi olduğu kimi, elə şeylər var ki, varlığı bilinə-bilinə dilə gətirilməz. Dilə gətirilənlər, gətirilmək istənilməyənin əks-sədası olur. "Adın çıxanacan canın çıxaydı, ay gəlin, düzünü de görüm bu nə söz-söhbətdi, kəndi ağzına götürüb?"

Gülsənəm bu gecənin başqa bir gecə olmasını, ərinin qoynunda bir pişik misalı qıvrılıb yatmaq, uzun, sevdalı gecələr vəd edən erkək qoxusunu ciyərlərinə çəkməyi necə istəmişdi. Amma, deyəsən, bu gecə bunun heç biri olmayacaqdı. Dedi-qodu yıxmayan evi Allah da yıxmaz. Deyəsən, sıra onlara gəlmişdi. Gülsənəm Murad əsgərlikdən gələndən bəri ondan bu sualı eşidəcəyini bilirdi. Amma o, yenidən başını Muradın sinəsi üstə qoymaq, onun ürəyinin döyüntülərini eşitmək istəyirdi. Nə yatmışdılar, nə yuxu görəydilər, cəmi on beş gün. Amma bu on beş gündə də Gülsənəm görməli olanı görmüşdü. Yaxşı ki, aralarında körpü olan qızları Gülyaz vardı. Birgə olduqları on beş gecədə qulağını ərinin sinəsinə söykəyər, ürəyinin döyüntüsünü hiss edər və o ürəyin indi yalnız onun üçün – Gülsənəm üçün çarpdığını dərk etmək dünyanın bütün həzlərindən üstün olardı. Qoçaqlığı ilə ad çıxarmış bir adamın baş yoldaşı olmağın nə demək olduğunu qadın fəhmilə hiss edərdi. Gülsənəm Muradı boyuna-buxununa görə seçməmişdi ki. Onsuz da bir elə boyu-buxunu da yoxdu. Amma Gülsənəmə ər lazımdı, ağzında ər deyirsən, hələ ölümün-qanın əskik olmadığı bu kənddə

Murad kimi birisinin adını daşımaqdan gözəl nə ola bilərdi ki?! Amma gəlin olduğu ilk gecədəcə hiss eləmişdi ki, "qaniçən" adına baxmayaraq, əri də sevgiyə, sığala, qadın mehrinə möhtac birisidir. Elə ki başını köksünə qoyurdu, özündən asılı olmadan əli tellərinə uzanır və hörükdən açılan şəlalə saçları ərinin sinəsi boyu aşağı enirdi. Muradın işləməkdən codlaşmış əlləri başını pişik başı kimi sığalladıqca qadın bədəni yavaş-yavaş sustalır, əriyib ərinin bədəni ilə birləşirdi... Uzun ayrılıqdan və bu olub-bitənlərdən sonra yenə başını ərinin sinəsinə qoya bilsəydi, ürəyinin döyüntüsündən məsələnin nə yerdə olduğunu anlardı. Amma Murad oyanlıq deyildi. Gülsənəmin sinəsinə əyilən başını əli ilə geri itələsə də, Gülsənəmin yanaqlarından süzülən iki damla duzlu yaşın sinəsinə düşməsinə əngəl ola bilmədi. Sanki qaynar qaba yağ atdılar. Bu iki damla yaş köksünün başında "cızz" eləyib bir yanğı oyandırdı ki, üç ayrılıq ilinin bütün həsrət və həyəcanları birdən-birə canına elə doluşdu ki, az qala əlləri boşalacaq, gözünün ilk ovunu bağrına basıb həyatının kamını almaq istəyəcəkdi. Amma Murad Murad olmazdı belə etsəydi, edə bilsəydi. Anası ölsün şübhənin, bircə yol, tək bircə yol içinə yol tapdımı, bitdi, bir də Murad olma, lap Rüstəm-Zal ol, xeyri yoxdur, içinin içindən sənin "neylim, necə eləyimlərinlə" yeyib tökəcək. Bəlkə elə şeytan deyilənin özüdür şübhə? Gözə görünməsə də, gözə görünənlərdən on dəfə güclüdür. Bu sənə Çoban ha deyildi ki, Qarabulağın dərəsində kolun arxasına sinib bir atım barıtın "tın-bıyı" ilə vurub yerə sərəsən. Şübhə – bu üzlü qonaq icazəsiz-filansız könül qapını döymədən yarasa kimi içinə soxuldusa, vay halına. Dünənin-srağagünün işi deyildi ki, öhdəsindən gələ idi. Üç ildə içinə girib, onunla yatır, onunla oyanır, yol gəlirdi. Neçə dəfə haralardasa sahibi köpəyini azdıran kimi azdırmaq istəmişdi, alınmamış, onu "tfu" desən göydə donduran Sibir ayazı da içindən çıxarda bilməmişdi... Elə bil indi burda – üç ilin son görüş nöqtəsində Gülsənəmlə aralarında kimsə, nəsə vardı. Murad bunu bilirdi, onun hərəkətlərindən Gülsənəm də bilməmiş deyildi. Hər şey bu gecənin başında idi, hər şey. İçində iki hiss boğuşurdu – birisi şübhə, o birisi isə üç il qürbətdə zorla da olsa basdırdığı erkəkliyin qadın ehtiyacı idi. Sanki erkəkliyin qadın ehtiyacı şübhənin əlinə, ayağına düşüb dil çıxarmaq istə-

yirdi: "Heç olmazsa, beş-on dəqiqəyə də olsa çəkil yolumdan, qoy işimi görüm, sonra... sonra nə edərsən, özün bilərsən". Amma görünür, Muradın şübhə damarı güclü çıxmışdı.

Murad, gəncliyində – içində səbəbi məlum olmayan ilk sevgi qığılcımları tüğyan etməyə başlayanda qadın və qızlara tamam başqa bir gözlə baxardı. Sevməyinə sevirdi, həm də qarşısıalınmaz dəlicəsinə bir sevgi ilə. Amma bu eləcə təcrübəsiz, saf duyğuların gözəgörünməz tüğyanı idi, yaxıb-yandırırdı, nə istədiyini özü də bilmirdi. Sevginin ancaq öpüşdən ibarət olan çağları idi. Bir azdan istəməsə də, kəndin bicəltək, təcrübəli uşaqları onu öz günlərinə salacaqdılar... Və bu alışqanlıqlar onu yeniyetməliyin o bakirə və saf duyğularından elə uzaqlaşdıracaqdı ki, hətta əvvəlki düşüncələrinə hərdənbir özü də güləcəkdi. Qadın bədənilə sonrakı görüşlərin yaratdığı təmaslar erkək bədəninin harasınasa qoyulmuş, amma zamanı yetmədən gizli qalan vəhşi, şəhvani hissləri oyatmış, ilan yuvasından, cin şüşəsindən çıxmışdı. Bəlkə heç o vərdişlər olmasa, sonrakı alışqanlığın bu hiss toru, əsarəti də olmazdı. Hərdən öz-özünü dərk edib öz-özü ilə həsb-halda olanda qadınlığın gözgörəti bir tor, bir şeytan əməli olduğunu düşünməmiş də deyildi. Qadın şəhvəti elə dəli şeytan deyilənin üzə vurmasıdır, bəlkə? Dəli şeytanın bu təlqininə beyninin içindən ağıl deyilən zəhrimarı isə deyirdi ki, "hissin ölümü uzağı üç-dörd dəqiqə çəkəcək, ondan sonra isə kişiliyin ölümü başlayacaq, unutma! Bir anlıq həzz bəzən bir ömrün zəhərinə çevrilir". Bunları düşünə-düşünə ağlı hissinə qalib gəlmiş, qalib gələn kimi də səsinin qalın yerinə salıb, Gülsənəmə təpinmişdi:

– Gözünün qorasını sıxıb eləmə, əlimi qana bulaşdırmamış düzünü söylə, onsuz da mən türməyə öyrəncəliyəm.

Murad alacağı cavabın həqiqət olmayacağına özünə inanan kimi inanırdı. Amma yenə də düşünürdü ki, nə olaydı, Gülsənəm yalanını həqiqət kimi deyə, onu inandıra, düşdüyü burulğandan çıxara biləydi. Məqsədi həqiqəti öyrənməkdi. Amma hansı həqiqəti, onun içinə hüzur gətirəcək yalan həqiqətimi, yoxsa həqiqət deyilənin özünümü? Qağası demirdimi, həyatda bir yox, bir neçə həqiqət var. Adamları həqiqətin özü yox, onlara

sərf eləyəni maraqlandırır. Murad onu da bilməmiş deyildi ki, hər qadın yalanı göz yaşlarına büküb istədiyi erkəyə həqiqət kimi sırımağı bacarır. Və ən dəhşətlisi budur ki, erkəyin də şəhvət gözünü elə tutur ki, ona göz yaşı içində söylənən yalanı həqiqət kimi qəbul edir.

Gülsənəm xısın-xısın ağlayırdı, içindən isə ürəyi dolusu hönkürmək keçirdi. Gəlinlik eşqilə analıq hissi arasında üç ildən çox sıxışıb qalan məhəbbət vərdişlərini də ortalığa tökmək istəyirdi, amma abrı buna yol vermirdi. Bu vüsal gecəsində Muradın içindən nə keçib, nə keçmədiyi Gülsənəmi bu an, bu saat bir elə də narahat etmirdi. Elə ha deyildi ki, Gülsənəm Muradın kim olduğunu, əlinin nəyə bulaşdığını bilməyəydi. Bilirdi. Amma qadın fəhmilə onu da bilirdi ki, həm hər günü bir ay qədər uzanan üç ilin həsrəti döşü uşaqlı qadın ola-ola onu əsim-əsim əsdirirdisə, Muradı hayhayla əsdirərdi. Gülsənəm onu da bilirdi ki, Murada yalvarıb eləməmişdi, Əsrik dərəsinin bu qaradinməz oğlu özü yüz qızın içindən onu seçib bəyənmişdi. Bəyənməsə, gəlib-getməkdən yolları yağır etməzdi ki?

Fikrinin bu yerinə gələndə özü də öz düşüncələrindən eyməndi, sanki içindən keçənlərdən ərinin xəbər tutacağından qorxub başqa şeylər düşünməyə çalışdı. Qəni bir gecədə iki dəfə onun ayağını tapdamışdı. Kim bilməsə də, Gülsənəm bunun bir işarət olduğunu qadın fəhmilə anlamışdı. Amma özünü yuxuluğa vurmuşdu. Qəni onu bayıra çağırırdı. Niyə, hansı ərklə çağırırdı, nə deyəcəkdi? Gülsənəm onun bu çağırışına cavab verərdimi? Çıxa bilərdimi bayıra? Bu nə qələtdi qarışdırırdı? Yoxsa, gözlərini qan örtmüşdü? Qəni işin ağını çıxarmasaydı, bəlkə bu işdən heç Xatın da duyuq düşməzdi. Sabahısı günü olanları xəlvətə çəkib Xatına danışmaqdan başqa çarəsi qalmamışdı. Danışmaya bilməzdi, danışmasaydı da, Xatın bildiyini bilmişdi, danışırdı ki, suçunu bölüşüb yüngülləşsin. Amma düşündüyünün tərsi olmuşdu. Xatın bu xəbəri kimlərəsə ucundan-qulağından söyləmişdi, o da gedib-gedib, dünyanın o başında Muradın qulağına çatmışdı. Açıq qaba it də girər. Mən neyləyim ki, Qəni köpəkoğlu dostuna xəyanət eləmək istəyib. Gedib bunun səbəbini niyə Qənidən soruşmurlar, mən ala-bağır oluram? Niyə?

Gülsənəm abrına bürünüb, canını dişinə tutub fısıltı ilə danışırdı, elə bil ilan dil çıxardırdı, özü öz səsindən eymənirdi.

Murad Gülsənəmin sözləri ilə Xatının dediklərini müqayisə etmişdi, sözlər bir-birini tuturdu. "Bəlkə qadın tayfasıdır, heç bir-birilərinin təsivini vermirlər, onun-bunun yanında sirri var, bunun onun yanında", deyə düşündü. Dost belə çıxanda düşmən axtarmağa dəyərdimi? Qağasından başqa məsləhətləşəcək kimi vardı ki? Nə üzlə, hansı haqla məsləhətləşəydi, üzdə deməsə də, içərisində deməzdimi özünə dost, yoldaş seçəndə, canın qədər sevdiyin atını ona bağışlayanda mənimləmi məsləhətləşmişdin? Belə deməyə də haqqı vardı. Gülsənəmi atası evinə göndərsəydi, Gülyazın – bu körpə tifilin axır günü necə olacaqdı? Seçim qarşısında qalmışdı. Tələ isə insanın seçimi ilə başlayır: "Dəmiri isti-isti döymək lazımdır, isti-isti. Çox da deyirlər, hirsli başda ağıl olmaz, amma sən bu deyilənə baxma, bu, hirs yox, namus məsələsidir... Gözə görünmədiyinə baxma, namus yaman şeydi. Qəni kimi dərənin axmağı sənin namusun, adın-sanınla oynadı. İçində qurdlar oynamayan bir köpəkoğlu belə bir alçaqlığı edərdimi?"

Hər ikisi səhəri diri gözlə açmışdılar. Son söz söylənmiş, hər şey bitmişdi:

– Bu söz-söhbətdən sonra bizimki tutmaz. Kəbinin ayrı, başın salamat, get, yolun açıq olsun. Bu günə qədər həyat yoldaşımdın, bundan sonra oldun bacım.

Gülsənəm ərini yaxşı tanıyırdı, dediyi dedikdi, dedimi, bitdi, sözünün üstə söz olmazdı, ona görə də inad edib əl-ayağına düşmədi...

İki yaş yarımlıq Gülyaza bundan sonra Xatın bibisi analıq edəcəkdi...

## “FİTNƏ QATİLDƏN DAHA BÖYÜKDÜR”

*“Bəzən xoşlamadığınız bir şey sizin üçün xeyirli, bəzən də xoşladığınız bir şey sizin üçün zərərli ola bilər”.*

Quranın Bəqərə surəsi, 216-cı ayə

Muradın ürəyi də o qaralan bülbül yuvası kimi bomboşdu. Birdən öskürək səsi eşitdi bu, boğazdanyuxarı bir öskürəkdi, sanki kimsə gəldiyini hiss etdirmək üçün öskürürdü. Başını səs gələn tərəfə çevirməmiş öskürəyindən gələnin Öloğlu olduğunu hiss etdi. Başqası ola bilməzdi, tanımışdı; bu onun öskürəyi idi. Öskürüb, gəldiyini xəbər vermək Öloğlunun adəti idi. Kimə ki gözünün dəyməsini istəmirdi, yalandan öskürməyə başlayırdı: “Baax, məəndən xaavar veerməkdi, gəələn məənəm, eehtiyatlı olun, yaanınızı qaaşıyın, yooxsa çıxmış göözümün dəyməyindən quurtarmazsınız”.

Yolunun üstünə çıxanın pəltək Musa olduğunu görənlər özünü yığışdırır, yanlarını qaşıyırdılar. Kənd adamları arada zarafata salıb, – deyəsən, Öloğlu qocaldıqca yavaş-yavaş adamoğlu olmağa başlayıb, ayıbını qara yer örtmüş, öləndə lap çımxır adam olacaq. Yoxsa, bu gözlə torpaq beləsini götürməz, gedib orda da gözü o dünyaya dəyəcək zəlzələ törədib, bu dünyanı o dünyalıq edəcək, – deyirdilər.

Murad bu qəfil gəlişdən diksinən kimi oldu: “Xeyirliyə gəlmir bu it oğlu, beynimin qurdunu oynadacaq, vurub gözünü çıxaracam. Zalım uşağı, qoymazlar ki, beş gün rahat yaşayım, sanki hamısı ağız-ağıza verib mənə azadlıqda yaşamağı haram edir, indi bu nəyvəndə görə durduğum yerdə gənə türməlikmi olum?” Qəni adıbatmışla Qara meşədən odun gətirərkən başlarına gələn hadisə yadına düşdü. Öküz arabasıyla Qara meşədən odun gətirirdilər. Pöhrə göyrüş ağaclarının arasıyla qıvrıla-qıvrıla şütüyüb gedən dar dağ yolu bir azdan geniş talaya çıxacaqdı…

Talaya çathaçatda əlibaltalı Öloğlu onlarla qabaq-qənşər gəlmişdi. Kənddə gözü gömgöy, saqqalı sapsarı, dişləri seyrək, üzü çil-çil olan Aloğlunu bəduğurluğuna görə "Öloğlu" deyə çağırırdılar. Murad Qəniyə:

– Əyə, – dedi, – batdıq, möhkəm dur, indicə araba aşacaq.

Qəni bu sözlərdən bir şey başa düşmədi, ürəyindən keçənlər dilinə də gəldi:

– Ə, noluf, düz yolun ortasında da araba aşarmı?

Murad:

– Sənə deyirəm, yanını qaşı, pir mənimdisə, kəramətinə bələdəm.

Öloğlu arabanın iki addımlığındaydı. Elə bil araba da buna bənddi, bir göz qırpımında hansısa görünməz bir əlin təsiri ilə öküzlərqarışıq arxası üstə aşdı. Boyunduruğun altında boynuburuq qalan qoca öküzlərin gözləri bərəlir, boğuq xırıltıları eşidilirdi. Qəni Muradın nə edəcəyinə baxmadan özünü öküzlərin yanına verib onları boyunduruğun altından qurtarmağa çalışdı. Murad isə araba aşarkən odunların üstündən kolluğa fırlanan baltanı qapıb Öloğlunun üstünə cummuşdu:

– Ə, a qurumsaq köpəkoğlu, neçə dəfə sənə demişəm, yolumuzun üstünə çıxma, ilanın başı ağrıyanda yol üstə çıxar, di indi başını ilan başı kimi əzimmi? Ə, qurumsaq, nə günümüz var, nə günümüzə gözün dəyir, hay?!

Günəşdə ovxarı parlayan balta dəliqanlı əlində xata çıxarmağa fürsət gəzirdi. Öloğlu əllərini göyə qaldırmışdı, bilmək olmurdu Allaha and içmək istəyir, ya özünü qorumaq üçün əlini baltanın qabağına verir. Yaşıl ilan gözləri səyriyirdi:

– Zaad, şeey ...vuur məən kööpəkoğlunun baaşını, zaaddı, eelə bileersən beelə yaaşamaq maa xooşdu, vaallah, biillah göötükösöylü oolmuşam, xəəcalətimdən kəənd iiçinə də çıxammeram, aatam-aanamı da goorda raahat yaatmağa qooymurlar. Neeyniyim, çıxmışlarımla öözüm də baacara biilmeerəm, dii duurma, ööldür məən kööpəkoğlunu.

Öloğlunun qorxudan səyriyən yaşıl ilan gözlərinə, ya da ona tərəf uzanan, istidə, soyuqda işləməkdən cadar-cadar olmuş əllərinə yazığı gəldiyindənmi, ya nədənsə, Muradın qolları boşalıb yanına düşmüşdü.

Könlünə rəhm salan heç Öloğlunun yalvarışları da deyildi, əynindən iluzunu çıxartmadığı, pambığı didik-didik olmuş sırıxlısı da haray qoparırdı. Bəlkə də heç kol-kosun tikanları deyildi sırıqlını dəlmə-deşik edən, dəyməl gözündən qopan qığılcımlar sırıqlını urvatsız günə qoymuşdu. Murad fikrindən keçənlərə qımışmaq istədi, amma özü-özünə gözağartması verdi: "Heç qımışmağın yeridi?"

O zamandan bəri yeni görüşdən hər ikisi də qaçmışdı – biri gözünə, o biri özünə görə. Öloğlu Muraddan daha ehtiyatlı davranmışdı: "Başı qan çanağıdır, yolunun üstünə çıxaram, Allaha-bəndəyə baxmaz, vurub xurd-xaşıl eləyər, bu qoca vaxtımda beysufat olaram" deyib, bacardıqca Muradın gözünə görünməmişdi. Amma indi Murad əsgərlikdən təzəcə qayıtmışdı, hamı gözaydınlığına gedirdi, aradakı qanqaraçılığı götürmək, barışmaq üçün əlinə fürsət düşmüşdü. Öloğlu da bu kəndin adamı idi, gözləri dəyməl olsa da, bu kəndin xeyirində, şərində o da hamı kimi iştirak etmək istəyirdi. Amma Öloğlu Muradla həyətdə qarşılaşa biləcəyini heç ağlına gətirməmişdi, ona elə gəlmişdi ki, gələn-gedən əlindən Muradın başı hələ ayılmaz. Öloğlu da içəri girəndə qonaqların və ev adamlarının yanında yəqin ki, Murad ona güldən ağır söz deməyəcəkdi. O da Muradın boynunu qucaqlayıb o üzündən bu üzündən öpəcək, hələ desən, sevincindən hönkür-hönkür ağlayacaqdı da. Özünü buna hazırlamışdı, bəlkə göz yaşları Muradın içində yığılıb qalan kini bir az yumşaldardı da. Amma gözlədiyinin tərsi olmuşdu, Murad təkbaşına ağcaqayın ağacının dibində başını aşağı salıb oturmuşdu, əlindəki çöplə qarşısındakı yeri qurcalayır, itiyi itmiş kimi nəyisə axtarırdı. Əvvəlcə qayıtmaq istədi, sonra fikirləşdi ki, birdən Murad başını qaldırıb onunla görüşməmiş geri döndüyünü görsə, daha pis olar. Yaxşısı budur, üstünə gedim. Ona görə də boğazına güc verdi: "Hazır ol, gələn mənəm". Düşündüyündə haqlı çıxmış, öskürəyi işə yaramışdı.

Murad gələnin kim olduğunu görəndə içindən qarışıq fikirlər keçdi: "Eşşəyin sevmədiyi ot burnunun dibində bitər. Bu itoğlu hardan çıxdı belə? Lənət şeytana, adam qapına səninlə görüşməyə gəlir, sən də onu qovmaq istəyirsən, səbrini bas".

Günah vaxtında yuyulmursa, qalıb nəsildən-nəsilə keçir. Yenə Qəni, yenə odun məsələsi, bir də bu hadisənin Öloğlusu çatışmırdı, o da öz ayağıynan gəldi. Murad Öloğlunu tanıyandan elə eyni sırıqlıda görmüşdü. Qışı, yazı yağışdan, gündən rəngi bomboz bozarmış sırıqlısını əynindən çıxarmazdı. Dəlmə-deşiklərindən pambıqları çıxmış sırıqlısı yenə də əynində idi:

– Niiyə yaalnız ooturufsan, aa dərdin üürəyimə?! Bıy aatam-aanam saa aalxışçı oolsun, a qaardaşoğlu, səən gəələn yoollara quurban olum, xoş gəlifsən, – deməyi ilə Muradı qucaqlamağı bir oldu. Murad kürəklərində bir tappıltı eşitdi. Səsindən ceviz torbası olduğunu anladı. Öloğlu bağındakı köynəkçək cevizdən kimsəyə pay verməzdi. Murada pay gətirmişdisə, deməli, burada nəsə bir iş vardı. Bir də, məsələ payda deyildi, məsələ onda idi ki, adamlar Öloğlunun verdiyi cevizləri yesələrdi nə vardı ki, yerlərinə əkəcəkdilər və beləcə, bir neçə ilin içində qonşu bağlarda da köynəkcək cevizlər böyüyüb bar gətirəcəkdi, ondan sonra bazarda ceviz bolluğundan Öloğlunun köynəkcək cevizinin üzünə baxan da olmayacaqdı...

Birinci dəfə idi ki, Murad uzaqdan iyrənc görünən bu qoca kişi ilə belə yaxından – üz-üzə, göz-gözə gəlirdi. Öloğlunun ağ saqqalının cod tükləri Muradın yenicə qırxılmış üzünə tapan çəkdi. Boyun-boğazından gələn tərqarışıq peyin iyi burnunu daladı. Qolları arasında canlı vücud yox, çürüməkdə olan qoca söyüd kötüyü idi. Amma bu söyüd kötüyünün, başqalarından fərqli olaraq, dili də çıxmışdı, çürük dişləri ilə sözləri yavan çörək kimi gəvələyirdi:

– Səən gəələn yoollara quurban olum, ayy Muurad, nə yaxşı sağ-saalamat qayıtdın, yooxsa sahibsiz qaalan sooyumuzun-soopumuzun axırı nəə olardı? Şeey, zaadı deyirdim dana, doostdan çoox düşmanımız var, bilmerəm biizim nəslin daaşı niiyə belə ağır oluf, onun-buunun baaşına zaad eliyer?.

Öloğlunun bir adı da “Zad Musa” idi. Bir cümlədə beş dəfə “şey”, “zad” deməyi, kəlmələri uzatmağı vardı. Öloğlu qəddini düzəltdi, səksəkəli baxışlarla ətrafa göz gəzdirib döyükdü, gözlədiyinin əksinə, həyət bomboşdu, fürsət bu fürsətdi deyib, dilini yenidən işə saldı:

– Zaadı daeyəcəkdim dana, yaanını yerə qoyy, çooxdan səənə deeyiləsi söözüm vaar.

Ağcaqayın ağacına söykədilmiş tut kötüklərinin üstündə yanaşı oturdular. Murad dişi bağırsağını kəssə də, susub işin sonunu gözləyirdi: "Öloğludan gələcək xeyir Allahdan gəlsin!" Onu qapıdan qovmaq çətin iş deyildi. Amma belə etsə, qağası ətəyini əlinə bükərdi. İçindən gələn səsi aydınca eşidirdi: "Hələlik bu qapı mənim adıma çağırılır, nə vaxt başım daldeylanar, onda kəmfürsət olub bildiyini edərsən, indilik isə…"

Başqa vaxt onu ikidə-bir evə çağırardılar, amma tərs kimi evdəkilər elə bil qırılıb batmışdılar, çölə çıxanları yoxdu ki, canını Öloğludan xoşluqla qurtara.

Öloğlu gözucu Muradı süzüb qırımından bir şey anlamaq istədi, vaxt qazanmaq üçün öskürüb içini yenidən arıtladı, deməyə tərəddüd etdiyi sözlərin çiləkənləmiş su kimi yolunu açırdı:

– Zaadı deeyirdim daana, bəəlkə yaaxşı bilmeersən, beelə biiz yaaxınca qoohumuq, a dəərdin maa gəəgəlsin. Zaddı daana, rəhmətlik aatalarımız doostdoğmaca əmiiuşağıydı, kəəssən kəəsilməz, yoonsan yoonulmaz. Bilerəm haamı kimi səənin də məəndən zəəhlən geedir. Aamma o gööydəki Aallah haaqqı, məən səənin təəsivini biir it ooğlu itə veerməərəm, qaanım buuna yol veerməz. Gəənə Miikayılın, səənin caanın üüçü (Öloğlunun tək oğlu Mikaylı keçişdirib inandırmaq üçün qarşısındakı adamın adına and içməyi vardı...). Şeey, şeey oyirəli də bir iiş idi ooldu. Güünah məənim bu kor oolmuş göözlərimdədir. Zaddı dana, istədiyimə də dəəyer, istəmədiyimə də, neeylem öözüm öz göözümlə baacarmeerəm. Söözüm oonda döy, olan oolub, keeçən keeçib. Zaadı deeyəcəkdim, biizə dəəyən öz iiçimizin daaşıdır. O səənin doostun varıydı ha, aadı nə iidi, baatmışın aadı da yaadımdan çııxıb, huuşum baaşımda qaalıf ki?! Səənnən oodun gəətirən. Şey, Güvəndikdən oolan dostun, həə, Qəəni, bileerəm quulağına çooxdan çaatdırıflar, buurda bu ağcaaqayın aağacının diibində buu payızın yeelində də oona göörə ooturfsan, beelə hər iişdə oonun baarmağı var.

Murad istədi Öloğlunun ağzından vursun, amma Öloğlu sözünə ara vermədi:

– Söözümün caanı var, zaadı deyirdim dəərdin üürəyimə, söözümü kəəsmə, gör saa nə deyirəm. Toyunu vaaya dööndərmək iistəyən, oğurluğu eedən, heeyvanları sizin çəpərin baaşına doolandıran da o Qəəni köpəyoğludur. Səəndən Gülsənəmin qisasını aaler, niiyəsini məən deyim, sən də eeşit.

Öloğlu bu arada burnunu çəkib öskürməyə başladı. Bilmək olmurdu doğrudanmı öskürəyi tutub, yoxsa deyəcəyi sözləri fikirləşib dənəvərləmək üçün vaxt qazanırdı:

– Zaddı dana, beelə biizim gəəlin baatmışı – Güülsənəmi səndən əvvəl oo da isteyirmiş, səənin qırımını göördükdən sonra dəərdi üürəyində daaş baağlayıf, Gülsənəmdən əli çıxdığını göörüf, “maa qismət oolmadı, oolmadı, qoy Murada daa qiismət oolmasın” deeyif, bu quurğunu quurubmuş. İnanmersan?

Öloğlu səyriyən civə gözləri ilə dönüb yan-yörəsinə baxdı. Eşidibeləyən yoxdur ki?! Sonra yenə kəsik-kəsik sözünə davam etdi:

– Məən səənə işin oolurunu diyeerəm, haardan eeşitmişəm, kiim deeyib, sooruşma, booğazıma diiri iilan saalsan daa deeyən döyləm. Zaaddı daana, yaalan daanışıb, yaaşımın bu vaaxtında imanımıı yaandıra bilmərəm. “İnanmeeram”, deeyəcəksən. Nəyə inanmeersan? Caanın qəədər seevdiyin aatını oona baağışladın, niiyə baağışladın? Nəədən öötrü baağışladın səən biləcəyin iiş, buuna qaarışmaq məənim həəddimə dööy, amma göör oo nə eetdi, səənin baaşın daldeylanan kiimi Gülüzəni qooşqu atına dööndərdi. Buunadamı iinanmersan? İinanmersan, buu güün öz göözünlə göörəcəksən. Səhər teezdən meeşələrə oodun gəətirməyə geetdiyni bu çıxmış göözlərimlə göörmüşəm, şeey, qooy güünün quulağı əəyilsin, oodun arabaları geeri döönsün, baax, o zaman Gülüzənin nə hala düşdüyünü görəcəksən...

# HƏR ŞEYİN BİR TƏKRARI VAR

*"Bəlkə elə dünya bu təkrarlar üzərində dönüb dolanır?! Nə olubsa yenə olacaq, nə edilibsə, yenidən ediləcək". Bir dəfə olmur ki, bir dəfə olan, qayıdıb bir daha olmaq istəyir…*

Öloğlu işini bilən adamdı, duruşundan-oturuşundan Muradın burulğan içində buruldluğunu görmüş, söndürmək əvəzinə, yanan ocağın üstünə nöyüt atıb əkilmişdi: "Qoy öz alovu özünü yandırsın". Öloğlu qeybətini nə zaman qırıb qurtarmışdı, Muradın yanından nə zaman əkilmişdi, bunun bir elə də fərqi yoxdu. Özü aradan çıxsa da, sözü Muradın içində qəfil burulğana dönüb burulurdu. Belə baxanda, Öloğlu Muradın bildiklərindən fərqli bir şey deməmişdi, amma demişdi. Ağcaqayın ağacının dibində içi ceviz dolu torba qalmasaydı, deyərdin Öloğlu adlı adam heç yerli-dibli burada olmayıb. Muradın qulağını deşən, bağrını dağıdan isə Öloğlunun dediklərindən daha çox, elə öz içinin şübhələriydi… Öloğlu bütün bunları bilirdisə, kənd camaatı da hay hayla eşitmiş olmalıydı. İt daşatan dura-dura, atılan daşın ardınca qaçar. Əslinə baxsan, elə insan da belədir. Murad da qeybət qıranı deyil, qeybəti qırılanı arayıb tapacaq, tərkini qılacaqdı: "Deyirəm axı, səhər tezdən qulağıma dəyən, canımı üzən o nə səsdi, sən demə Gülüzənin kişnərtisi imiş". İçini qəfil bir hüzn çulğadı, az qala hönkür-hönkür ağlayacaqdı. Nədənsə, Gülüzənin gül üzən, su kimi süzən vaxtları gəldi gözünün önünə. Hərdən Gülüzəni ilxıya qatmağı da vardı. Axşamadoğru işdən qayıdanda bircə muşqurması ilə Gülüzənin ilxıdan qopub ona tərəf süzməyi bir olardı. Sanki qabaq ayaqları ilə çəmənliyi alıb arxa ayaqlarına ötürür, arxa ayaqları isə məsafələri havaya uçururdu. Boynundakı və dikinə qalxan quyruğundakı tükləri ruzigarda yelim-yelim yellənərdi. Özünü sahibinə yetirər-yetirməz başını əyib üst-başını imsiləyərdi. Murad da hər dəfə önündə əyilən atın qaşqasındakı bəyaz xaldan öpərdi. Sanki başını əyməsi də

qaşqasından öpülməsi üçünmüş. Elə atı belə bir namərdə bağışlamaq olardımı?! Gülüzəni Qəniyə bağışladığı günü geri qaytara bilmək üçün ömrünün neçə ilini verərdi. Amma ağızdan çıxan sözü, əldən çıxan fürsəti bir də kim geriyə qaytara bilərdi ki, o da biləydi.

Səhər tezdən iliyinə işləyən, ruhunu titrədən o səsi yuxuda eşitdiyini zənn etmişdi, deməli, yuxu-filan deyilmiş, kəndin yuxarı başındakı meşələrə odun daşımağa gedən Gülüzənin səsi imiş. Tanış evin yanından keçəndə hər dəfə olduğu kimi bu dəfə də kişnərtisi ilə göyə zəncir salmışdı Gülüzə: "Nə fil qulağında yatmısan, bilirəm ki, qayıdıb gəlmisən, yoxsa canımı sızladan bu qoxu hardan gələ bilərdi ki, bir dur yola çıx, bax gör, qoyub getdiyin Gülüzəndən geriyə nə qalıb?"

– Neynək, – deyirdi, Murad, – neynək Burun Qəni, gedişin olsun, qayıdışın olmasın, olmayacaq da. Gedişini görə bilmədik, neynək, qayıdışını görərik.

Durub yolyuxarı – meşəyə doğru gedib Qəninin işini oradaca – gözdən-könüldən uzaqda bitirmək istədi əvvəl-əvvəl. Sonra bu fikrindən vaz keçdi. Yaxşısı budur, elə buradaca oturub gözləsin, necə olsa, örkən gəlib doğanaqdan keçəcəkdi, yol birdi. Həm də bəlkə Qəni qayıdanbaş gəlib hal-əhval tutdu. O zaman adam kimi oturub məsələni aydınlaşdırarıq. Bəlkə and-aman edəcək, deyilənlərin yalan olduğunu söyləyəcək?! Lap yalandan and-aman etsə, o da bir işdir. Murad söz-söhbətin, dedi-qodunun yalana çıxmasını elə istərdi ki! Bir tərəfdən, necə olsa, Qəni ilə özü ağırlığında duz-çörək kəsmişdi, o biri yandan da gözünü açıb-açmamışdı, başı qeylü-qaldan ayılmamışdı. Həm də ortada tifili vardı axı? Özü öz düşüncələrinə heyrət etdi. Gülyaz doğulmamışdan əvvəl dünya vecinə deyildi, gözünə oğul-uşaqmı görünürdü? Oğul-uşaq vardımı, görünəydi də. Nə qədər özünü tox tutsa da, Gülyazın üzünü ilk gördüyündən sonra hərdən içində qarşısıalınmaz bir atalıq hissinin baş qaldırdığının da fərqindəydi.

"Qəni ilə üzbəsurət gəlsək, məndən heç nə gizləməz, gizləyə bilməz, dabbaqda gönünə də bələdəm". Toydan sonrakı qalmaqal, çək-çevirlər, gözlənilmədən əsgərə çağırılması, əsgərlikdə çürüyüb gedən

üçillik zaman gəlib gözlərinin qabağından keçdikcə tüstüsü təpəsindən çıxdı: "Günahımız olsa, dərd yarı idi, günahsız yerə bu zülmləri bizə çəkdirən kimdi axı? Bunun adı qəsddir, burada baxtın-yığvalın nə işi? Yəni, doğrudanmı, bütün bu işlərdə Qəninin barmağı var? Od yanmasa, tüstü çıxmaz, mütləq burada bir iş var, mütləq".

Ürəyi qəfəsə salınmış quş kimi parpılayırdı, sanki indicə sinəsini yarıb, "pırr" eləyib uçacaqdı. Səbəbini anşıra bilmədiyi bir qaramat basaratını bağlayanda mütləq pis bir şeyin olacağına çoxdan vərdiş eləmişdi. İlk dəfə tüfəng tuşlayıb adam öldürəndə bir belə təlaşa düşməmişdi. O zaman nə yaşı vardı ki, nəyisə oturub götür-qoy edəydi, qanı başına vurmuş, adama əl qaldırmışdı. Əvvəlki qanı düşünə-düşünə qarşısına yeni bir qanmı çıxacaqdı? Bir dəfə sözarası qağası baltanı kökündən vurmuşdu: "Bir dəfə olanlar, mütləq bir də təkrarlanacaq".

* * *

Əl-ayaq çəkilir, kəndə qərib bir axşam enirdi. Muradın belə axşamlardan xoşu gələrdi. Kəmərin sərt qayalarının rəngi onsuz da ilin hər zamanında qızılı rəngə çalır, indi Qızıl qayanın yamaclarındakı çörəyi də daşdan çıxan ağacları da xəzan rəngi bürümüşdü. Yamaclara qoyun sürüsü kimi pəsələng olmuş daşların üzərində hələ uşaqlıq çağlarından tay-tuşları ilə az atılıb düşməmiş, canlarına isti yığmamışlardı. Hətta kənddə toy oldumu, gəlinlərin əlinə xına qoyuldumu, onlar da qızlı-oğlanlı arxa yamacdakı qoyun sürüləri kimi ətrafa səpələnən qayaların üzərini isladıb bülöv daşları ilə xına çıxarıb barmaqlarına çəkərdilər. "Get, əlinə xına qoy" deyimi də bəlkə buradan yaranmışdı. Ömrün necə qayğısız günləri varmış, Allahım, gör neçə ildi bütün bunları büsbütün unutmuşdum, gör bizdən xəbərsiz içimizdə nələr yaşayır? Amma bu xına o xınadan deyildi... Əsməyə başlayan payız yeli dağlara, daşlara əl gəzdirir, ağcaqayının islaq beşbarmaq yarpaqları boşalıb saplağından üzülür, fırlana-fırlana Muradın üst-başına qonurdu. Özgə vaxt olsaydı, o bundan ləzzət alardı, amma indi bayırda tüğyan edən burulğan onun içinə də girmişdi. Yollara baxsa da sanki heç nə gözünə görünmürdü, eləcə qulağına dəyən cırıltılardan arxa yoldan yüklü

arabaların keçdiyini anlaya bilirdi. Obaşdandan yuxarı meşələrə odun gətirməyə gedən arabalar arana dönməyə başlamışdı. Yəqin bir azdan Qəni də qayıdacaqdı. Bunları fikirləşirdi ki, yuxarı tərəfdən at kişnərtisi duydu, necə də Gülüzənin səsinə bənzəyirdi. Fərqi yoxdu, çoxdan eşitməsə də, lap milyon at səsi içində də olsa, bu səsi tanıyasıydı. Amma fikri qarışıq olduğundanmı, ya nədənsə, bu dəfə yanılmışdı, gələn başqa bir at arabası idi. Cilovun arxasında əmin-arxayın fit çala-çala gedən də Qəni yox, bir başqasıydı. Muradın içindən əsən burulğandan xəbərsiz olan ev adamları özünə dalmağına alışıq olduqlarından, onun ov gözləyən ovçu kimi marığa yatdığını ağıllarına gətirmədiklərindən, bir-iki dəfə içəri evə dəvət etsələr də, təkid etməmişdilər. Hava qaralmağa başlamışdı. Ala-toran yoldan iki öküz arabası xəyal kimi sürünüb keçdi. Bir azdan Güllü təpənin yoxuşundan səslər gəlməyə basladı. Görünür, höyüş odun yüklənmiş arabaları yoxuşu qaldırmağa öküzlərin gücü çatmırdı. Odunçular qışqırır, öküzləri yoxuşu dırmanmağa həvəsləndirir, alınmayanda qamçılarını işə salırdılar:

– Ayə, təkərin arxasına daş qoy, öküz ha deyil, leşdi, leş köpəkoğlunun andırı, yeməkdən başqa heç nə bilmir, tərpən görüm, səni verənin zatı-pəkinə lənət.

Nəsib-usuf quşu kimi indi də o birisinin qışqırığı gəlirdi:

– Səni verənin anasını...ə, kolxoz öküzündən nə gözləyirsən, sahibi olmayan maldı da, öz insaflarına qalıb, kim necə istəyir, elə də qoşur.

Beləcə, axşam qaranlığında qamçı səsləri odunçu səslərinə qarışıb daşlarda, qayalarda yanqılanırdı. Muradın fikrindən keçdi ki bəlkə gedib onlara kömək etsin. Kənd adamlarının adətiydi, Güllü təpə yoxuşunun neçə odunçunun gününü qara etdiyini bildiklərindən yolda qalan yolçuların harayına yetirdilər. Amma səslərin yavaş-yavaş uzaqlaşdığını duyduğundan, fikrindən daşındı, arabalar, görünür, artıq yoxuşun başında idi, ordan o tərəfə eniş başlayırdı, yolları rahat olacaqdı. Ara yenicə sakitləşmişdi ki, yenə göyə zəncir salan bir at kişnərtisi eşidildi. Bu, heç şübhəsiz, onun – Gülüzənin səsiydi. Elə bil sahibinin çox uzaqlarda qalan qoxusunu yenidən almışdı, ona görə də at dililə fəryad edib, haray salırdı. Köhnə evlərinin qənşərinə çatar-çatmaz ayaqlarını yerə dirəyib

elə bərk kişnədi ki, sanki səsi ilə göyə zəncir salacaqdı. Bu səsdə izahı çətin elə gileylər vardı ki, onu yalnız Murad anlaya bilərdi. İstədi yerindən qopub özünü gözəllik taxtından araba cilovuna endirilmiş Gülüzənin yanına salsın, bir zamanlar yalmanının işığı gün şəfəqləri ilə yarışan, indi çöpüklü quzuya dönən boynundan qucaqlayıb hönkür-hönkür ağlasın, "bağışla" desin, "Gülüzə, bu günlərə qalmağının tək suçlusu varsa, o da mənəm, bağışlaya bilirsənsə, məni bağışla". Amma bunu etsəydi, edə bilsəydi, onda onun Qənidən nə fərqi olardı?!. Bu nə fikirlər idi, içindən onu göyür-göyür göynədirdi? Yoxsa o heç qaniçənin biri də deyil, qaniçəndə bu kövrəklik hardan? Çobanı da bir başqasının çoyumuş güllləsi öldürmüşdü bəlkə?! Artıq onu tərəddüdləri idarə edirdi. "Sevin tərəddüdlərinizi, bir gün onlar sizi doğru yola çıxaracaq" deyənlər necə də haqlıdırlar. Bu düşüncələrdən onu güclü bir taqqıltı səsi ayırdı. Gülüzə qarşısıalınmaz bir güclə arabanı Qəniqarışıq doğma həyətə endirmək istəyirdi. At etibarı iğid etibarını üstələmişdi.

Qəni nə qədər cilovu sağa-sola çəksə də, Gülüzənin şahə qalxmış inadı qarşısında bir şey edə bilmirdi. Gücü yenə qamçısına çatdı. Havada sahibinin kini kimi şaqqıldayan qamçı Gülüzənin belində zol qaldırırdı. Birdən hardansa Qəninin yadına kölgəsini güllələdiyi gecə düşdü, bu yer elə həmin yerdi. Qanı azacıq üşürgələnsə də, elə bil yadına düşən o hadisənin acığına atı daha bərk qamçılamağa başladı, evdən alacağı qisası atdan alırdı. At aşağıdan – həyətdən bir qımıldanma, bir hərəkət görmədiyindən, ya da qamçının təsirindən, gücə boyun əymək məcburiyyətində qaldı və qabaq dırnaqlarını yerə dirənc edib faytonu yavaş-yavaş çəkib aparmağa üz qoydu. Əvvəlki Gülüzədən Gülüzəlik qalmışdımı. Əgər zənni Gülüzəni yanıltmırdısa və həyətdəki o qaraltı illər uzunu həsrətini çəkdiyi adamdırsa və o adam da yerindən homzunub onun dərdinə şərik olmursa, o zaman o həyətə can atmağın nə yeri vardı ki?!

Toran əlləşdiyindən Murad Gülüzənin nə toy yarışlarında qalib gələndə öpdüyü alnındakı bəyaz kəkilini, nə də yağotu kimi yel vuranda yellənən qızıl yalını görə bildi. O zamanlar Gülüzə özü-öz uğurunun fərqindəydi. Elə ki yarışı udur, mənzilə birinci çatırdı, Tahirin çaldığı

qara zurnanın ahəngi altında qabaq ayaqlarını cütləyərək göyə qaldırıb dikəlir, qumral qıçları nağaraçının əlindəki şumşad nağara ağacları kimi enib-qalxır və adama elə gəlirdi ki, heç nağaranı çalan Törə Məmili deyil, Gülüzənin özüdür, özü çalıb, özü oynayır. Çalınan havalar sümüyünə elə düşmüşdü ki, Tahirin zurnası olmasa da, özü bir koma musiqi nəvasına dönüb oyur-oyur oynayır, qayır-qayır qaynayırdı. Dəfçi dəf çubuqlarını hansı ritmlə vururdusa Gülüzə də ayaqlarını elə endirib-qaldırırdı. İlhamı haqdan gələn bir ilahi varlıq idi Gülüzə... Heç bir atda Gülüzənin kəkilinə bənzər kəkil yoxdu, şabalıdı tüklərlə çevrələnmiş, qar kimi bəmbəyaz bir dairə. Bir dəfə qağası ağzından qaçırmışdı: – Batmamışın alnındakı kəkil deyil ki, mələklərin öpüş yeridi. – Murad da yarışda qalib gəlməyin qüruru ilə önündə baş endirən Gülüzənin yalını oxşamamışdan öncə alnındakı "mələklərin öpüş yeri"ndən öpərdi.

Qəni ötüb keçərkən bir zaman başının tükü sanı gedib-gəldiyi həyətə heç gözünün ucuyla da baxmadı. Elə fikri-zikri Gülüzəni qamçılayıb, ordan bir an əvvəl uzaqlaşmaqda idi. Gülüzə cilov gəmirirdi. Amma nə etsin ki, yüyəni namərd əlindəydi. Başı öz əlində olsaydı, bəlkə də çoxdan özünü doğma həyətə salmışdı.

Amma yüyən tutan əlin də neçə illik təcrübəsi vardı, işini elə əvvəldən bərk tutmuşdu. Eşşək eşşəkdi ki, bir yıxıldığı yerə ikinci dəfə yıxılmaz. Qəni birinci dəfə deyildi ki, bu yolları keçirdi, Gülüzə birinci dəfə deyildi ki, tanış yerlərə çatar-çatmaz göyə zəncir salıb dəlilik eləyirdi. At, , əslində, çoxdan taleyinə boyun əymiş, öyrəncəli olmuşdu. Çox zaman tanıdığı evin arxasından keçərkən heç tükü də tərpənmirdi: "At mıxı qopardıb bir yerə vuranda, bir də özünə vurar" misalını təkrar-təkrar yaşadığından, boşuna inad edib qamçılanmağın mənası olmadığını anlamışdı. Amma bu dəfə vəziyyət başqa idi, burnuna elə tanış və məstedici bir qoxu dəymişdi ki, yeri-göyü gəmirmək istəyirdi. Bu qoxu heç nəyə bənzəməzdi. İllərdən bəri bu qoxu üçün dəli olmamışdımı? Əvvəl-əvvəl bu qoxunun birdən-birə yox olmasına bir məna verə bilməmişdi. Sahibi onu yad birisinə bağışlayanda da kişnərtisi göyə çıxmışdı. Amma onda vəziyyət başqaydı. Hərdən başıburaxma olanda qaçıb özünü əvvəlki sa-

hibinin həyətinə salmağı, onun qoxusunu ağcaqayın ağacından, çəpərin qırağı boyu cərgələnən arı daqqalarından, bir az o tərəfdə hətta payızı, qışı da yamyaşıl olan kiçik bağçadan alırdı, at fəhmi ilə bilirdi ki, sahibi həyətdə yoxdursa, hardasa yaxındadır və belədirsə, yeni sahibi ona pis bir şey edə bilməz. Bir at mənim altımda büdrəməsin misalını at qulağı ilə az eşitməmişdi, amma indi tərsinə olmuşdu, at yox, ata minən atın üstündə büdrəyirdi. Gülüzə də at fəhmi ilə bunun fərqində idi, əgər üstündəki nanə yarpağı kimi əsim-əsim əsirsə, o atda atlıq qalmaz: "At sahibinə görə kişnər!" Qəniyə bağışlanalı Gülüzə heç bir ata bənzəməyən əvvəlki kişnəltisindən də qalmışdı, heç elə bil Muradla yarışlarda qalib gəlib, yeri-göyü kişnərtisi ilə inlədən o Gülüzə deyildi. Qəni arvadının xəyanət etdiyini bilə-bilə dözüb duran kişi vəziyyətində idi, Gülüzənin ondan xoşlanmadığını yaxşı bilirdi, amma nə yardan doyurdu, nə əldən qoyurdu. Nə yolla olursa-olsun, özünü Gülüzəyə sevdirməyə çalışacaqdı: "Sevər sevər, sevməz, mən bilərəm onunla necə davranmağı". Əlinə fürsət düşən kimi dediyini edəcəkdi...

Nə zamandan bəri at ilk dəfə idi ki, bu axşam yaddaşının harasındasa ilişib qalmış ilhamlı günlərinin verdiyi şövqlə kişnəmişdi. Bəlkə onun bu kişnərtisi keçmiş sahibini hərəkətə gətirər və onu düşdüyü bu zülmdən qurtara bilərdi. Amma atın gözlədiyi kimi olmamışdı. Sanki o tanış həyətdə oturan illər boyu yarış və qürur yoldaşı əvvəlki igid deyildi, bir qara daşdı. Yoxsa zənni onu yanıltmışdı, bəlkə, həyətdə oturan heç onun sahibi deyildi? Elə isə, burnunu dağıdan, ruhunu uçuran, onu illər boyu dəli edən o qoxu kimindi bəs? Cəhdinin bu dəfə də yersiz olduğunu, yükünü çəkib aparmaqdan başqa çarəsinin qalmadığını hiss edib, arxasındakı arabanı çəkilməz dərdi kimi dartıb aparmağa üz qoymuşdu.

Murad uzaq məhbəs illərində də, yaxın əsgərlik vaxtlarında da bundan betər sınağa düşməmişdi. Deməli, belə, Burun nəinki düşüb onunla görüşmədi, heç onu adam yerinə də qoymadı. Gülüzəni qoşqu atına çevirməyi yetmirmiş kimi, onu gözünün qabağında qamçının altına da saldı. Atın belində zol açan o qamçılar Gülüzəyə yox, ona – Murada vurulmuşdu. Yenə içinə düşən bir iz gəlib-gəlib bir təsəllidə dayanırdı:

“Ətrafa qaranlıq çöküb, göz gözü görmür, bəlkə heç Qəni sənin həyətdə olduğunu görməyib. Görsə idi, görüşməsə də, heç olmazsa, zalımoğlu atı qansızcasına çırpmazdı axı?” Öz səbrinə məəttəl qalmışdı: “Çobandan qisas almağa gedəndə bu qədər tərəddüd eləməmişdin, indi nə oldu? Yoxsa, o zaman beynin qandı, indi başın daşdan-daşa dəydiyindən, saman çöpündən yapışmaq istəyirsən?! Bəlkə atı qəsdlə döyürdü ki, deyilənlər doğrudur, arvadına da sataşmışam, atını da qoşqu atına döndərmişəm, bacarırsan əlindən gələni beş qaba çək”.

Bir azdan araba Güllü təpənin yoxuşuna çatacaqdı. Muradın qulağı səsdə idi. Gülüzə o boyda yoxuşu bu ağırlıqda arabanı təkbaşına necə qaldıracaq, Qəninin qamçılarına necə dözəcəkdi? Dözəcəkdimi? Sahibi ruhdan düşəndə atı topuq çalar! Deyək ki, Gülüzə dözdü, Muradın necə, dözməyə halı vardımı? Qəni onun gəldiyini bilə-bilə, enib hal-əhval tutmağı bir yana dursun, hayıfını Gülüzədən almışdı. Buna meydan oxumaqdan başqa nə ad vermək olar? Murad, ilk barış addımını Qəninin atmasını istəyirdi, amma Qəni bildiyini dədəsinə də verməmişdi. Özündə-sözündə deyildi, Muradın edəcəyi hərəkətə cavab verəcək halı qalmamışdı. Qağası demirdimi ki, böyüklük gələn bədbəxtliyi adam kimi yola verməyi bacarmaqdır. O indiyə qədər az bədbəxtliklər görməmişdi Bu da olsun növbəti bədbəxtlik.

Araba Güllü təpənin yoxuşuna çatmışdı. Gülüzə bəlkə, ayrı zamanlarda olduğu kimi, yoxuşu ölüm-zülm birtəhər çıxardı. Amma bu dəfə çıxmadı, çıxa bilmədi. Bəlkə fikri arxada – tanış həyətdə, ağcaqayın ağacının altında oturub siqaretini tüstülədən köhnə sahibinin yanında qalmışdı, ona görə? Ayaqları dartınıb irəli getmək istəsə də fikri aman vermir, onu geriyə çəkirdi. Çəkirdi ki, arabanı yoxuşdan çıxara bilmədiyinə görə vurub öldürsünlər, canı bütün bu əzablardan qurtarsın. Neçə illərdi ki, özünü bir möcüzəyə inandırmışdı. İnandırmışdı ki, onu məclislər yaraşığı edən adam günün birində böyürdən çıxıb gələcək, düşdüyü bu bəlalardan qurtarıb qisasını alacaq. Günlərin birində “dünya” deyilən bu cəhənnəmdə o tanış qoxu yox olub getdi, elə o zamandan da Gülüzənin qara günləri başladı. Burun pərələri deşilənə qədər sağı-solu, havanı

imsiləməkdən bezmədi, bəlkə onu dəli eləyən qoxunu yenidən duya bilsin, amma bir şey alınmırdı, alınmadıqca da günləri bir-birindən qaranlıq keçdi. İndi budur, bax, o tanış qoxunu yenidən duymuş, özünə gəlmişdi ki, at fəhmi ilə onun da boşa çıxdığını hiss elədi. Bəlkə o ağcaqayın ağacının dibində oturub siqaretini tüstülədən heç onun illərdən bəri aradığı adam deyildi. Elə isə, canına gizilti salan qoxu hardan gəlirdi bəs? Kim idi, nə idi onu aldadan. O qoxunun sahibi onun bu günə salınmasına imkan verərdimi? Verərdisə, deməli, bundan sonra yaşamağın da bir mənası qalmır, gücü yetsə də bu yoxuşu qalxmayacaqdı, "Qəni" deyilən bu tanrıtanımaz onu öldürəcəksə, elə burada – bir zamanlar ən xoş günlərini yaşadığı yerlərin yaxınında öldürsün...

# TALE İLƏ ÜZ-ÜZƏ

*"Əgər bütün can atmalarınıza rəğmən, uğursuzluğa düçar olursunuzsa, o zaman bu uğursuzluğu Allahın iradəsi kimi qəbul etməlisiniz. Bəlkə də bu sizin xeyrinizədir".*

Özünü öldürmək düşüncəsi bəzən insanın özündən asılı olmayaraq, fikirdən həyata keçir. Ölüm insanın öz düşüncəsindən çıxıb gəlir. Ölümü çağırmaq, ruhları çağırmaq onunla iç-içə yaşamaq kimi bir şeydir, ölüm onsuz da gələcəkdi, içində düşünməklə onun gəlişini sürətləndirmək olurmuş. Yəni bu, irinləmiş, burnu dəlinməmiş çibanın üzərinə bişmiş soğan qoyub, yetişməsini tezləşdirmək kimi bir şeydir. Muradı xəyaldan Gülüzənin fəryadı və Qəninin söyüşləri ayırdı:

– Köpəkoğlunun verdiyi alaşa, həmeşə çıxdığın yoxuş döyülmü, nə dirənib durufsan, səni verənin var-yoxunu...

Qamçı şallağı yağlı söyüşlərə qarışıb daha sərt səs çıxarırdı. Gülüzənin yoxuşun ayağında dirənib qaldığı elə Qəninin Muradın qulağına çatan söyüşlərindən, atın kişnərtisindən də bəlli idi: "Gedim kömək eləyim, vicdansız mənim acığımı da Gülüzədən çıxacaq".

Murad özünü Güllü təpənin yoxuşuna atdı. Bura onun qəlbinə daman, yuxusunu qaçıran, taleyini bəlirləyən yer olmalıydı. Deyəsən, bu an həmin andı – içini bulandıran, onu qarabaqara izləyən an! O, burda, bu yoxuşun ayağında başına gələnləri yuxudamı, aşkardamı, hardasa görmüşdü. Bir də görürdün heç nəyin heçindən içinə bir hadisə dolur və dolmağı ilə də bu hadisə gözünün önündə də cərəyan eləməyə başlayır. Bu dəfə də belə olurdu. Azca aralıqlarla iki güllə açıldığını görürdü, halbuki güllə səsi-filan eşidilmirdi. Güllənin birincisi boşa çıxırdı. Bu, ona atılan güllə idi. Amma bu güllə də boşuna getməyəcək havada qızılı bir iz çizəcək, indi ikiaddımlığında ola-ola ona toxunmayacaq, eləcə hava boşluğunda uçub zamanını gözləyəcəkdi. Vaxtından əvvəl atılan bu qur-

şunun hədəfə çatmasına hələ çox qalırdı. Amma onu atan bu güllənin hədəfə çatacağını heç vaxt bilməyəcəkdi. Bu, Qəninin yox, taleyin biləcəyi bir işdi.

Muradın gəldiyini Qəni Gülüzənin geriyə qanrılıb imrənməsindən anladı. Anladığı kimi də qorxulu-qorxulu qaranlığa bağırdı:

– Yaxın gəlmə, gəlsən, beyninin qatığını dağıdacam, əclaf.

Və qarşı tərəfdən cavab gözləmədən qoşalüləni arabanın üstündən götürməsi ilə çaxmağı çəkməsi bir oldu. Qaranlıqda doğru-düzgün nişan ala bilmədiyindən kölgəsinə güllə atan Qəninin bu darmacalda da gülləsi boşa çıxacaqdı, çünki ölüm növbəsi Muradın yox, özünündü. Murad Qəniyə ikinci gülləni atmağa imkan vermədi, qoşalüləni dartıb əlindən alması ilə nişan alıb atması bir oldu. Güllə hədəfə dəydiyindən boğuq bir səs çıxartdı. Qəninin öz tüfəngindən atılan güllə özünə dəymişdi. Təsadüfdü, ya nəydi, güllə Qəninin başqa bir yerini yox hər yerə soxduğu burnunu parçalayıb beynini göyə sovurmuşdu... Kəsik baş danışmaz olur, amma bu danışırdı:

– Yaxına gəlmə, yaxına gəlsən, beyninin qatığını dağıdacam...

Bu hayqırış hardasa Çobanın oxuduğu mahnının son misralarını xatırlatdı: “Odu keçən, gəl sinəmdən od apar...”

Hadisələr elə ildırım sürəti ilə baş vermişdi ki, Murad öz etdiyinə özü çaşıb qalmışdı. Yerdə qıvrılan Qəninin arxa tərəfində Gülüzə də parpılayırdı. Murada elə gəldi ki, Gülüzənin cilovu dolaşıb, o boğulur, tez özünü atın üstünə atdı. Boynu yerə düşən atın ayaqlarının dördü də havada enib-qalxır, çapalayırdı. Gördüyünə inanmadı. Qəninin beynini dağıdan güllə çovuyub Gülüzənin başqa bir yerinə yox, düz qaşqasına, Muradın ən çox sevdiyi, öpüb oxşadığı bəyaz kəkilinə dəyib hirsini soyutmuş, kəkil yerini ölüm yerinə çevirmişdi. Arxası üstə yıxılmış Gülüzənin hələ canı çıxmamışdı, caydaq ayaqları ilə Tanrıya çapırcasına, havanı eşim-eşim eşirdi. Bu darmacalda qağasının haçansa dediyi “xeyir atların alınlarına işlənir” sözlərini xatırladı: “Bu idimi atların alnına işlənən xeyir? İndi o “xeyir” Gülüzənin ağkəkilli alnında ölüm möhürünə dönmüşdü.

Gülüzə ilə Qəni yan-yana uzanmışdılar. Buna təsadüf demək olardımı? Murad bir zamanlar bu iki varlığın ikisini də sevmişdi, birisini az, birisini çox, amma sevmişdi. Və tale deyilən nədirsə, elə onun öz əlləri ilə də bu iki sevginin ikisinə də son verdirmişdi. Fikrindən keçənlər şimşək kimi çaxdı: "Ən çox sevdiyin şeyi başqasına verirsənsə, əvəzində ondan bir umacağın da olmalıdır".

Görünür, qağası bir zamanlar qardaşının başına gələcəkləri əvvəlcədən bildiyindən, onu bu sözlərlə duyuq salmaq istəmişdi.

Gecəni diksindirən güllə səsləri qara damların qulağına da çatmışdı. Açılan qapılardan bayıra vuran sönük çıraq işığı ölüm xəbərçisi idi:

– Qoymayın, ay camaat, bir-birini qırdılar.

Adamlar Güllü təpəyə çatana qədər iş işdən keçmişdi. Nə bu haraylar, nə ətrafına yığışan adamlar Muradın eyninə idi. Heç nə gözünə görünmürdü. O, artıq qatil idi, həm də ona ən yaxın olan iki varlığın qatili. Çobanı öldürəndə bu hisslərin birini də keçirməmişdi. Özündə-sözündə deyildi:

– Ayə, a kəmfürsət, niyə mənə əl qaldırdın, üstümə tüfəng çəkdin, bundan ötrümü duz-çörək kəsmişdik, əhdi-peyman bağlamışdıq?

Sanki bu mənzərəni görməmək üçün göylərin harasındansa buludlar arasında gizlənən Ayın batıb-çıxan işartısı Gülüzənin açıq gözlərində donub qalmışdı. Kənd adamları gözünü açıb yumana qədər Murad çoxdan yolda idi. Handan-hana xəbəri eşidib, Şəmşəd kişi özünü Güllü təpənin yoxuşuna çatdırmışdı. Tənəli baxışlar onun onsuz da qoca və əyik olan belini bir az da bükmüşdü. Tarix təkrar olunur deyirlər. İbrət alınsaydı heç təkrar olunardımı? Deyək ki, Çoban məsələsində başı öz əlində deyildi, bəs indi necə, sabahdan axşama qədər həyətdə ağcaqayın ağacının altında dodaq-dodağa oturanda bilməliydin bu işin sonunun belə olacağını, bildinmi? Vaxtında ayıq olsaydı, bəlkə də bu bəlanın qarşısını ala bilərdi. Ayıq olmuşdumu, ala bilmişdimi? Neçə qanların qarşısını alan, qanı qanla yox, suyla yudurdan kişi indi növbəti bir qanın qonşuluğunda çar-naçar, əlacsız qalmışdı. Elə bil hardansa qulağına gələn səsdən bir az da olsa özünə gəlib toxtadı: "Olacağa çarə yoxdur!" İçinin içindənmi, ya

hardansa gələn bu səsdən qırışığı açılıb ətrafına göz gəzdirdi, bu alatoranda çaxnaşan adamların arasında tanrıtanımaz qardaşını aradı.

Hara qaçacaqdı Murad, qaçmağa yerimi vardı? Bir zamanlar qoyub gəldiyi məhbəs yolunu gözləmirdimi? Birbaşa rayon mərkəzinə, polis idarəsinə gedəcək, adam öldürdüyünü deyəcəkdi. Yaşının onaltısında belə etmişdi, indi yaşının iyirmialtısında qorxası ha deyildi. Xəbərindən əvvəl özü milis idarəsinə çatmaq istəyirdi. İstəyirdi ki, bir də onu tutmaq üçün milislər tökülüşüb qapılarına gəlməsinlər, gəlib evdəki arvad-uşağı alabağır etməsinlər. Hələ qağası! Qağası bu məsələyə necə baxacaqdı? Axı, bu neçənci dəfə idi, ona görə kişi çək-çevirə düşürdü? İndi bu xəbəri eşidib nə deyəcək, Allah bilir... Ayağı yol gedir, dilində isə dualar qanadlanırdı: "Allahım, haqsız olduğumu özüm də bilirəm, hər şeylə bacarsam da, günahımla bacarmır, ona məğlub oluram, hara gedirəm, dərdim məndən bir addım öndə gedir. Günah işlədimsə, özüm-özümə pislik etdim, sənə ki bir yamanlığım keçmədi. Niyə özümü öz bəlama çevirdin? İndiyə qədər etdiyim qələtləri birdi-birliyinə, minbir adına bağışla, Allahım, məni yalnız buraxma!"

Canini cinayət yerinə çəkən qüvvə bir dəfə məhbəsə düşəni yenidən özünə çəkir. Belə adamlar bayırda – azadlıqda yaşaya bilmir, dənizdən çıxarılmış balığa dönür, yağ sudan ayrılan kimi, hər hərəkəti ilə hamıdan ayrılır. Ona görə də çox zaman vaxtlarının qurtarıb azadlığa çıxdıqlarına sevinmirlər, yenidən bir cinayət törədib çıxdıqları cəza evinə qayıdırlar. Murad belə olmaq fikrində deyildi, belə bir fikri olsaydı nə Gülüzə kimi bir at saxlayar, nə də Gülsənəmlə evlənib başına iş açardı. Amma "tale" deyilən bir şey varmış ki, özü istəməsə də Murada belə bir ömür yolu çizmişdi. Murad dəhnədən ayrılan arx suyu deyildi, gedib hayandasa bir dəmyə torpağında itib-bataydı. Boynuna biçilən tale yoluna bacara bildiyi qədər müqavimət göstərəcək, yenidən çay yatağına – əslinə qayıdacaqdı. Axına qarşı üzmək onun damarlarında axan qanda mövcuddu. İnsan qanının tökülməsinə səbəb olan insan məzara qədər qaçacaq, qaçacaq ki, kimsə onu yaxalaya bilməsin. Hətta tökdüyü qandan kimsənin xəbəri olmasa belə...

Bütün yollar ölümə çıxır. Bəzən ürəkdən güldüyün zaman ürəyin ağrıyır. Sevincin sonu kədərmiş. Elədiyin niyyətlərin hamısı bu dünyada həyata keçməz ki... Heç buna ömrü də çatmaz. Görünür, elə diləklər var ki, başa varması o dünyaya qalır. İnsanın gözündə bütün yollar təmizdir, amma ruhun macəra səmti Allahın əlindədir. Etdiyi yanlışlıqlar ortadaydı, yoxsa Allah bir insanı bu qədər sınağa çəkərdimi? Hərdən rayon mərkəzində qarşılaşdığı qaraçı qız da yadına düşürdü. Etdiyi yanlışlıqlardan ən böyüyü elə o qaraçı qızını axıra qədər dinləməməsi idi. Bəlkə Allah elə o dilənçi qızın ağzıyla ona xəbər göndərmişdi?! Səbri çatıb o qaraçı qızı dinləsəydi, dinləyə bilsəydi, bəlkə elə o qız ona bu gün başına gələnləri deyəcəkdi. Deyəcəkdi ki, yanında duran, kölgən olub səndən ayrılmayan Qəni deyilən bu uğursuzdan uzaq dur, durmasan, başına oyunlar gələcək. Bəlkə o zaman Murad o qaraçı qızına inanmazdı, amma ən azından, içinə bir şübhə toxumu düşərdi. İnsan bilinməyən yerlərdəki yolları, gözlənilməyən təsadüfləri, hələ sirri anlaşılmamış uşaqlıq illərini, ürəkaçan, ya da yol göstərdikləri zaman dinləmədiyi böyükləri də, qaranlıq daxmalarda keçən, xəyalın ulduzlara uçuşan yolçuluq gecələrini də düşünməli, düşünə bilməlidir. Bəzən bütün bunları düşünmək də yetərli olmur. Murad, hərdən qağasının dizinin dibində ola-ola onun dilindən çıxan nəsihətamiz sözləri bu qulağından alıb o qulağına verdiyinə görə özünü danlayırdı. Boş-boşuna "çıraq öz dibinə işıq salmaz "sözlərini xatırlamağın da xeyri yoxdur, atalar sözü yerinə düşəndə güclü olur. Yollar boyu qağasının yeri gələndə təkrarladığı sözlər düşürdü yadına, səni sağ olasan, ay qağa, bunları dildə deməyə nə var, oğul odur bunları həyata keçirməyi başarsın. Yox elə bir şey, ay qağa, söz başqa, həyat başqadır.

Məhkəmədə bütün başına gələnləri danışıb günahını boynuna aldığına görə ona çox iş verilməyəcəkdi, cəmi səkkiz il. Yenə Rusiyanın ucqarlarına yol görünəcək, rus dilini yaxşı bilməsi bu məhbəs illərində işinə yarayacaqdı. Səkkiz ilin dördünü çəkəcək, sonra azad olacaqdı.

Kəndə xəbərsiz-ətərsiz dönüşü hamını çaşbaş salmışdı, bu tezliklə kimsə onun yolunu gözləmirdi – düşmənləri deyil, hətta ən yaxın adamları da. "Nə qədər gec gəlsə, bir o qədər yaxşıdır", amma yaralar hələ köz

tutmamış bir də görmüşdülər gəldi. Bu vaxtsız gəlişi yüz yerə yozuldu. "Bəlkə məhbəsdən qaçıb? Belədirsə, heç nə, yəqin, bir planı var, yenə nəsə eşidib qələt qarışdıracaq". Amma cəsarət edib kimsə ondan bu vaxtsız gəlişinin səbəbini soruşmamışdı. Qonum-qonşudan başqa gözaydınlığına gələn də yoxdu, nəyin gözaydınlığına gələcəkdilər ki? Kim bilir sıradakı qurbanı kimdir, yaxşısı budur heç yanına üzükməyək. Şəmşəd kişi gecələrin birində ağzını aramışdı:

– Ə, a bala, olmaya qaçıf eliyifsən? Bax, belədirsə məndən gizləyib eləmə. Bütün bədbəxtliklər qocalığın başına toplaşır. Bu qoca vaxtımda məni el-oba içində başıaşağı eləmə. Məndən bir şey gizləmə ki, hazırlığımı əvvəlcədən görüm..

Murad adəti üzərə qağası ilə danışarkən başını aşağı salardı. Bu dəfə başını aşağı salıb eləmədi:

– Ay qağa, qaçıb-eləməmişəm, haraya qaçasıydım ki? Sən dedi-qodulara inanma, mənə inanmersan, bax, bu da mənim Moskvada aldığım pasport. Heç türmədən qaçan adama pasport verərlərmi?

Şəmşəd kişi Muradın cibindən çıxarıb göstərdiyi sənədə gözünün ucuyla da baxmadı:

– Canlı insan dura-dura, başburt deyirsən, nə deyirsən, bilmerəm, durub bir parça kağızamı inanejam?!

Şəmşəd kişi qarşısındakının Murad olduğunu, qoynuna diri ilan salsan da yalan danışmayacağını bilirdi. Soruşduğunu da ürəyi bir daha əmin olsun deyə soruşmuşdu. Cavabına şübhəsi qalmamışdı. Amma ağzı deyəni qulağı eşitməyən kənd necə, buna inanacaqdımı?

# YA İNDİ, YA HEÇ VAXT...

*"Əgər siz kimisə ürəyinizdə qoruyub saxlıyırsınızsa, bilin ki, siz də o adamın ürəyində yaşayacaqsınız".*

Muradın kəndə dönüşünü hamıdan öncə İbrahim kişiyə çatdırmışdılar. Qorxunun anası ölsün, İbrahim kişi də çarığının dabanını bərkidib özünü rayon milis idarəsinə çatdırmışdı:

– Xəbəriniz olsun, başıma bir iş gəlsə, bilin ki, vay qanlım Muraddı.

İbrahim kişinin yerli-yataqlı söylədiklərini yazıya tökmüş, imza yerinə baş barmağını basdırmışdılar. İçində qorxu qalsa da, bundan sonra elə bil üstündən dağ götürülmüşdü: "Anası ölməsin sovet hökumətinin, dovşanı arabayla tutur, Murada bir qulaqburması versinlər ki, adı da yadından çıxsın".

Çox keçməmiş sahə müvəkkili Muradın başının üstünü kəsdirmişdi: "Əskinin tüstülü olduğunu bilersən, bax, farağat otur-dur ha, atalar üçəcən deyib, bu dəfə əlindən bir xata çıxsa, səninki edamlıq olajaq!"

Muradın qorxduğu başına gəlmişdi, çox da ki, özünə qəzadan, qovğadan qaçmağa söz vermişdi, amma nə edəydi ki, it əl çəksə də, motal əl çəkmir, qovğa hara gedirdisə süysünün üstündə idi...

...Murad İbrahim kişinin evinə çatdığında gecə gecədən keçirdi. Yollardan, izlərdən əl-ayaq çoxdan çəkilmişdi. Gör Güvəndiyə gəlməyəli neçə il olmuşdu. Bir zamanlar Gülüzənin belində belədən-belə səyirtdiyi Güvəndiyə indi gecə xəlvəti gəlmək məcburiyyətində idi...

Üç daxmanın qapıları bir-birinin üzünə açılırdı. Sanki baş-başa verib nə haqdasa xosunlaşırdılar. Aran tərəfdən qalxan ruzigar, buxarıların hələ soyumamış hənirini pəyədən qalxan peyin qoxusuna qatıb üzü dağlara tərəf axıtmağındaydı. Bəyaz buludların arxasından boylanan ay saralan çeviz yarpaqlarının rəngini bir az da saraltmışdı.

Murad bu həyəti yaxşı tanıyırdı, dəfələrlə önündən keçib Qənigilə getmişdi.

Əvvəlcə qapını yavaş-yavaş tıqqıldatmağa başladı. Hay verən olmadı. Qapıdan qoymasalar bacadan girəcəkdi. Qapını bu dəfə bir az da sərt şəkildə yenidən tıqqıldatdı. Bir azdan içəridən xosuntular duyuldu. Axırda:

– Kimdi? – Deyə quyu dibindən bir səs çıxdı.

Murad bunun İbrahim kişinin səsi olduğunu düşündü.

– Mənəm, – dedi, Murad.

– Sən kimsən? Kimsənsə, çıx işiyin-gücüyün dalınca get, gecənin bu vədəsində mənim qapımda nə azarın var, elə etmə ki beşaçılanın beş gülləsini də...

Öz dediyinə özü inanmayan bir adamın səsiydi bu. Allah adamı olan İbrahim kişi də beşaçılan deyirsə, heç oyuncaq tüfəng də olmazdı:

İbrahim kişi, mənəm – Muradam! Qapını aç, sənə deyiləcək üç-beş kəlmə sözüm var.

İçəridə səslər kəsildi. Dil-dodağı təpiyən İbrahim kişi çəkinə-çəkinə səsləndi:

– Qapı-filan açan deyiləm, a Murad, xoşluqla həyətimdən çıxıb get, yoxsa...

Murad:

– İbrahim kişi, mən sənin həyətinə düşmən kimi yox, dost kimi gəlmişəm, aç qapını, yaxşı deyil, indi səsə qonum-qonşu duyuq düşəcək, ayıfdı. Deyiləcək beş kəlmə sözüm var deyim, çıxım gedim, aç qapını.

İbrahim gişi dediyini deyirdi:

– Onsuz da milisə şikayətimi yazıb vermişəm, başıma bir iş gəlsə, vayqanlım sən olajaqsan, yaxşısı budu xatanı məndən xali elə...

Bu zaman içəridən Muradın çoxdan eşitmədiyi amma can yaddaşının harasındasa unutmaq istəsə də unuda bilmədiyi bir səs gəldi, kəsik-kəsik:

– Sən onu tanımersan, açmasan onsuz da zorla girəjək, yaxşısı budu, xoşluqla aç.

Bu, Gülsənəmin səsi idi.

Handan-hana qapının arxasındakı ağac ling tappıltı ilə yerə düşdü və qapı cırıltıyla aralandı. Arxasından üz-gözünü tük basmış, yosmaboylu bir adam dikəldi. İçəridə onluq lampanın piltəsini qaldırdılar. Lampanın içindəki alov dilləri də olub-bitənlərdən qorxmuş kimi titrəyə-titrəyə şölələnirdi. Çırağın şoxu daxmanın ala-toranını aydınlatdı. Gülsənəm gözə görünmürdü. Qorxusundan İbrahim kişinin dodaqları iki yerindən partlamışdı, çatlaq dodaqlarından axan qan çıraq işığında çallaşmış saqqalını sarımtıl rəngə boyayırdı. İçinə qorxu düşən kişi lampanın alov dilləri kimi əsim-əsim əsirdi. Murad qorxudan adamların dodağının çatladığını eşitmişdi, indi ilk dəfə idi ki, bunu öz gözlərilə də görürdü. Sanki bu evə yüzüncü dəfə idi gəlirdi. Təklif-filan gözləmədən keçib buxarının yanındakı uzun taxtın üstündə oturdu. Bayırdan içəri dolan soyuq hava içəridəki tərli boğanağı təmizləyə bilməmişdi. Tər, qurumqarışıq bir qoxu baş çatladırdı. Buxarıdakı ocaq yenicə öləziməyə başlamışdı. Sükutu İbrahim kişininmi, Gülsənəminmi ayağı altda qalan mürgülü pişiyin qəfil fəryadı pozdu: “Myaoooo!” Sanki qışqıran ayağı tapdalanan pişik deyildi, başına gələnlərdən başı çatlayan gecənin özü idi. İbrahim kişi nə edəcəyini bilmirdi. Elə qorxmuşdu ki, saqqalını boyayıb, çənəsindən boğazına axmaqda olan qandan da xəbər tutmamışdı. Pişiyin qəfil bağırtısı Muradı da hərəkətə gətirdi:

– İbrahim kişi, bir yanını yerə qoy, bayaq da dedim, qapına düşman kimi yox, dost kimi gəlmişəm. Çöllərə düşməkdən yoruldum, yeni bir duşman qazanmaq da istəmerəm. Gülsənəmin heç bir suçu yoxdur, haqlımı, haqsızmı, onu mən boşadım, istədiyi adamla evlənə biləcəyini söylədim. Gəl, onun-bunun sözünə baxma, onsuz da əskim tüstülüdür, nə çoxdur məni istəməyən. Biri sənə, ailənə sataşar, sonra mən vayqanlı olaram. Bundan qorxmoram, öyrəncəliyəm, amma gəlişimin məqsədi başqadır. Bil ki, mənim səninlə bir alıb-verəcəyim yoxdu. Milisə də nahaq gedifsən, çünki mən milisdən-filandan da qorxmuram. Buraya gündüzün günortası da gələ bilərdim. Amma belə düşündüm ki, bu gəlişim yeni dedi-qodulara səbəb olar, nə göz görsün, nə könül bulansın. Gecənin

gecə vaxtı, xəbərsiz-ətərsiz gəlməyim də bundandır. Gəldim biləsən ki, bundan sonra sənin namusun mənim namusumdur. Bu evindəki qadın kı var, bir zaman əyalımdı, indi bajım. Mən dostumun, bajımın evinə gəlmişəm. Dur, Allah verəndən bir şey hazırlat, oturub bir tikə çörək kəsib, əhdi-peyman bağlayaq.

İbrahim kişi bu sözlərdən sonra yavaş-yavaş özünə gəldi. Gülsənəm aftaba-ləyən götürüb əvvəlcə ərinin əlinə su tökdü, ərinin qorxudan dodağının çatlaması qadının gözündən yayınmamışdı. Sonra sıra Murada gəldi. Su tökən əllər, yuyulan əllər eyni əllər idi, amma indi bu əllər bir-birinə elə yad, elə uzaq idilər ki?! Murad istər-istəməz bir addımında dayanan bu qadının ilk gördüyü günü xatırladı. Onu ilk dəfə elə bir yaz günündə görmüşdü ki, tənək zoğlarından gilənar, çinar pöhrələrinə qədər hər şey qızılı günəş rəngində, sevgi rəngində idi. Günəşin çəpəki şəfəqləri qızılı yarpaqlar arasından hardan macal tapsa, ordan Gülsənəmin önünü kəsir, boynunda, boğazında yanqılanır, əsmər yanaqlarını minbir rəngə bürüyüb Murada qıjıt verirdi. Gülsənəm əynindəki cimciməli donu ilə bu görüntüsündə alov-alov yanan hazırca sevgi tonqalı idi. İlk gəncliyi hara, indiki çıxılmaz halı hara? Yaz ömrü uralanıb xəzan ömrünə dönmüşdü. Talesiz bir halda sevdiyinin yox, başqa bir kişinin yanında durmaq məcburiyyətində idi. Sevən qadın sevilən kişidən daha üstündür, çünki həyat taledən daha böyükdür. Bəs Gülsənəm? İlk sevgisindən nə yarıdı ki, özündən yaşlı bir adamın sevgisindən də (buna sevgi demək mümkünsə) nə yarıya? İnsanın taleyi ilə barışmasıdır bu. Qadının sonsuz acısı hər zaman təslimiyyətçilikdən doğur…

İbrahim kişi iki daşın arasında quzu kəsmişdi... Dan yeri sökülənə qədər söhbət etmiş, yeyib-içmiş, duz-çörək kəsmişdilər. Murad da rahatlamışdı, İbrahim kişi də. Bəs Gülsənəm? Bu amansız sualın cavabını ondan başqa kim bilə bilər ki? Bir zamanlar sevdiyin qızın sonralar nəyini sevdiyini səndən soruşsalar, özün də çaşıb qalar, sualı cavabsız buraxarsan. İndi o ilahi sevdalı günlərdən xatırlaya biləcəyin bir nöqtə varmı, varsa, onu da bir Allah bilir...

# QIZIN DÖNƏCƏYİ ATA OCAĞI, OĞLANIN ÜNVANI BÖYÜK VƏTƏNDİ

*"Sevgi çay üstündəki körpü kimi bir şeydir, gərək onu keçəsən..."*

Gülsüm anasızlığın, övladsızılığın əlinin suyunu hər kəsdən yaxşı bilir. Çünki süddən yanıqdı, qədəmi daş olub – doğuşdan ana üzünə həsrət qalıb, analıq yanında böyüyüb. On beş yaşına çatanda işinə-gücünə, bişmişinə-düşmüşünə görə kəndin ən seçilən qızı olmuşdu, on barmağında on mərifət vardı.

Elçilər ata ocağının kandarını yağır eləməyə başlayanda atası onu aran kəndlərinin birində yaşayan dostunun oğluna vermişdi. Heç Gülsümdən soruşan da olmamışdı bu adamı bəyənirsən, ya yox. Ona həm ana, həm ata olan atasının sözündən çıxa bilərdimi? Amma görünür, alın yazısı beləydi, gözəlliyi ilə çox gəncin sinəsini dağlayan, iş-gücü ilə qız-gəlinlərin həsəd yeri olan bu yığvalsız nə özünü, nə də təzə gəldiyi ər evini sevindirə biləcəkdi. Bir il keçmişdi, iki il adlamışdı, barsız ağaclar bar gətirmişdi, amma Gülsümün qoynu övlad nəfəsilə sevinməmişdi. Dünyaya gəldiyi gündən gətirməyən bəxti burda da daşa dönmüşdü. Analı qızın adı çıxar, anasız qızın qeybəti. Dərdini deməyə kimsəsi yoxdu. Uşaqlıqda qız xeylağının atası ilə bölüşə bilməyəcəyi çox şeyi Gülsüm özü də fərqinə varmadan atası ilə bölüşərdi. Ər evinə köçdükdən sonra bunu da edə bilməyəcəkdi. Dedi-qodular başlamışdı, üzə vurmasalar da, qısırlığı başına qaxınc olmuşdu: "Çuvalımıza tay olmağa ha gətirmədik, uşaqsız ev susuz dəyirmandır".

Gülsümü sözün ayazı soldururdu. Dərd içində öy eləyib yavaş-yavaş içindən üzünə yayılır, üz gözəlliyini də silib aparırdı. Yolunu gözləyən ögey ana olsa da, yenə ümid yeri ata ocağına qalırdı. Bu dəfə də yerini rahat eləmək üçün ögey ana yenə əl-ayağa düşüb qızlığına ər axtaracaqdı. Gülsümü bu dəfə öz kəndlərində cavan yaşında arvadı ölmüş bir

adama ərə verəcəkdilər. Gətirməyəndə gətirmir. Bədbəxtlik də üzlü qonaq kimidir, bir qapıya dadandımı kandarını yağır edər. Heç iki il keçməmiş gəldiyi evdə yenidən uşaq dedi-qoduları başlayacaqdı. Və bu dəfə də ata evinə qayıdan Gülsüm, lap öldürsələr də, bir daha evlənməyəcəyinə söz vermişdi. Yağmadı yağış, bitmədi qamış… Allah qoynunu doldurub, qucağını sevindirməmişdi – bitdi, – deyirdi, – mənimki də bura qədərdi, bir də qələt eləyərəm ərə getdiyim yerdə, qaradan artıq rəng olmaz, o da başıma gəldi, yetər! – Amma sevginin də çiçək, qızılca çıxarmaq kimi bir şey olduğunu unudurdu...

Gündüzləri kolxoz işi, axşamlar isə ev-eşik qayğısıyla başını qatmağa çalışır, söz-söhbət olmasına imkan vermirdi. Yetər ki analığı bir bəhanə tapıb gördüyü işlərə qulp qoymasın. Ev işindən başı ayazıyanda biçim-tikimlə məşğul olurdu. Kənd qızlarının cehizliyini hazırlayırdı. Təzə gəlin köçənlərin möhüb düzəni olmuşdu – gəlinlik paltarı tikir, döşək salır, yorğan sırıyırdı. Qəmini, dərdini iş-gücün arasında azdırmağa başlamışdı. İçinin içində başqa bir hiss boy göstərdimi anında “başını” əzməyə çalışırdı. Balaca uşaq görəndə qəlbi göyür-göyür göynəsə də, özünü görməzliyə vururdu. Bəzən gecələr sabahlara qədər ahıyla göylərə zəncir salırdı: “Allahım, yanında nə günahım var, kim bilmirsə də, sən yaxşı bilirsən mən kiməm və içim-çölüm nədir. A sənə fəda olum, bir parça ət nə olan şeydi ki, onu da mənə qıymadın... Anamı əlimdən aldın, min zülm-zillətlə böyüdüm, yenə də ətəyindən yapışdım, sənə sığındım. Yanında nə günahım vardı ki, qədəmimi daş, başımı aşağı elədin, hə? Heç olmazsa, bir övlad verəydin, lap kar olaydı, kor olaydı, amma olaydı, mən də hamı kimi ana olaydım, adımın üstünə ad gəlməyəydi”.

İçində burulğanlar burulsa da, elüzəri özünü tox tutar, başını işlə-güclə qatardı. Amma sən saydığını say, gör fələk nə sayır. Bir dəfə yayın əvvəlində – ot çalımı zamanı Vəkilli ocağının gəlini Xatın xəlvətə salıb ona üçkünc qatlanmış bir kağız uzatmışdı. Əvvəlcə almaq istəməmişdi:

– Bu nə kağızdı, Xatın bajı, belə?

– Oxuya bilerəmmi, oxuyuf biləm nə kağızdı, ay Gülsüm, sən oxu, mən də bilem.

Bunları deyə-deyə də Xatın yanını qaçaraq qoyub, ehmalca gülmüşdü.

Gülsüm içinə bir şey dammış kimi tez də cavab vermişdi:

– Yox, yox, oxuyan döyüləm, onu kim yazıfsa, qaytar ver özünə.

Xatın Gülsümün sözünün dalını gətirməyə imkan verməyib, o biri kolxozçuların içinə qarışmışdı.

Oxumağı-yazmağı vardı, atası Gülsümü dördüncü sinifə qədər Cabbar müəllimin sinfində oxutmuşdu, bunu Xatın və yəqin ki, məktub yazan da bilirdi.

Gülsüm sağına-soluna baxıb kağızı qoynuna soxmuşdu: "İndi qızlar görüf, yox yerdən şöz eliyif, şunduruq qoşarlar".

Xəlvətə salıb məktubu açacaqdı. Xatının qaynı Muraddan gəlmişdi məktub. Bu, o Murad idi ki, iki dəfə adam öldürmüş, türmədə yatmış, taleyi Gülsümünkü kimi tərs gətirmişdi. Gülsüm əvvəlcə məktubu cırıb atmaq istədi. Sonra maraq üstün gəldi: "Xatın düz deyir, kağız parçası əlimi yandırası ha deyil, oxuyum görüm nə yazılıb".

Hələ məktubu oxumamışdan əvvəl içində bir hiss də baş qaldırmışdı: "Taylı tayını tapmasa, günü ah-vayla keçər". Əyrü-üyrü xətlə yazılmış məktub tək bir cümlədən ibarətdi: "Əgər razı qalsan, elçi göndərərdim". Günümə, saatıma bax, ay Allah, ay sənə qurban olum, başına adammı qəhətdi, niyə elə bütün sınağına məni çəkirsən? Bu Murad deyilənə kənddə qızmı, qadınmı yoxdu, gərək elə gəlib mənimi tapaydı? Bilmermi ki, mən barsız söyüd ağacıyam. Zalımoğlu, sanki ikicə xoş söz yazsa, dünya dağılardı. Ay qız, öz-özünə nə suyuylursan, yoxsa ürəyin xoş söz eşitmək istəyir, guya xoş söz yazsaydı, təklifinə "hə"mi deyəjəkdin?

Gülsüm məktuba cavab yazmamış, Xatına da üz göstərməmişdi....

# BARSIZ SÖYÜD AĞACI

*Qısır qadından uşaq gözləmək Allahın ürəyinə damdırması ilə olur.*

Hər iki yamacındakı təzə biçilmiş ot laylarından buxarlanan nəmqarışıq gül-çiçək ətri dərəni ağzına götürmüşdü. Adəti idi, Gülsüm ot çalımı zamanlarında hər dəfə iş gününün sonunda Moruqlu bulağında üz-gözünə su vurub aynıyar, sonra meşə cığırı ilə dikdiri qalxıb təpənin başındakı evlərinə yollanardı. Bu dəfə də belə edəcəkdi. İş yoldaşları qadın və qızların evləri çayın o biri tərəfində olduğundan, enib aşağı çayda yuyunardılar, ona görə də Gülsüm Moruqlu bulağa təkbaşına endi. Əl-üzünü yuyub sərinlədikdən sonra geri qayıtmaq istəyirdi ki, birdən az irəlidə, dar cığırda qabağını kiminsə kəsdiyini gördü. Qabağını kəsənin Murad olduğunu heç ağlına da gətirməzdi. Qantökən Murad qız-qadın qabağı kəsəndimi? Murad bir yana qalsın, kənd oğlanlarının heç biri bu qələti qarışdırmazdı. Əsrik çayı daşdımı, çay kənarında bir bulağı batıranda sel suları beş yeni bulağın gözünü açırdı. Dərəboyu sıralanan bu bulaqbaşıları təzə cavanların hazırca qız seçmək yeri olardı. Ata-analardan əvvəl qızgördünü, arabuluculuğu, elçiliyi bu seldən sonra ilhama gəlib qaynayan bulaqlar eləyərdi. Oğlanlar bulaq başında gözaltı etdiyi qızdan "hə" cavabı almağa çalışar, sonra iş ata-analara düşərdi. O bulaqlar qala-qala bu dərə bükrümündə qadın qabağını kəsmək kimin ağlına gələrdi ki? Olsa-olsa bu, Murad olacaq.

Gülsüm darmacalda belə düşündü. Başqa cür düşünsəydi, düşünə bilsəydi, heç bulağa təkbaşına enməz, qadın və qızlardan ayrılan kimi evlərinin yolunu tutardı. Biçənəkdən evlərinə gedən yol açıqlıqdı və bu açıqlıqda Murad onun qabağına çıxmazdı. Geriyə qayıdıb qaçmaq istəsə də, gecdi. Az irəlidə çənəsini tiyəsi cığırı tutan kərəntinin sapına söykəyən yosma boyu ilə Murad dayanmışdı. Gülsüm bu qəfil qabaqkəsmədən diksindi, hətta qorxdu da. Necə olsa, qabağındakı əli qana bat-

mışın biriydi, tərs kimi əlində də kərənti var. Canından xəfif bir gizilti keçdi. Bu gizilti bütün varlığına yayıldı. Özünü toxtaq aparmağa çalışsa da, bacarmadı.

– Məktubuma niyə cavab vermədin?

Muradın ötkəm, zəhmli səsi eşidildi..

– ...

– Sənnənəm, eşitmersən?

Gülsüm ötüb keçmək istədi, amma hara, necə? Bir cığır vardı, onu da Murad kəsmişdi. İstədi çığırdan sapıb ağacların arasıyla qaçsın, amma çığırı kəsən adam fızıllığın içində onu hayhayla tutacaqdı, əlindən gəlməyən işdimi? Yaxşısı budur, bir yolunu bulub, bu dar boğazdan xoşluqla çıxım, deyə düşündü...

– A Rustamlı qızı, özün bil, istəsən də, istəməsən də, mən deyən olacaq. Amma mənim istəyim Allah əmrilə olmasıdır, yan dəmirinə qalanda onun yolunu mən hər kəsdən yaxşı bilerəm...

Murad dediyini eləyəndi, ona görə də Gülsüm utanıb çəkinməyin mənasız olduğunu düşündü. Baltanı birdəfəlik kökündən vurmaq lazımdı:

– Ay qardaş, Allah işini avand eləsin, çəkil yolumdan, qoy çıxım işimin-güjümün dalınca gedim. Bəlkə bilmersən, mən barsız söyüd ağacıyam. Barsız söyüd ağacı sənin nəyinə lazımdır? Allah mənə baxt versəydi, elə əvvəldən verərdi. Özümə nəyəm ki, sənə də nə olam, çəkil yolumdan, kənardan baxan nə deyər?

Gülsümün gözlənilməz sərt cavabı Muradı çaşdırmadı:

– Nə deyəcəklər, desinlər. Mənim bəxtli olduğumu sənə kim söylədi. Allah istəsə, barsız söyüd ağajı da bar verər, yetər ki, O istəsin. Əgər məktubuma cavab versəydin, heç yolunu da kəsməzdim, məni özün məjbur elədin. Elçi göndərəjəyəm, mənə “yox” cavabı lazım deyil. Yoxsa…

Çevrə ağaclarının hansındansa bilibittan quşlarının səsi yanqılandı, onlara başqa meşə quşları da qoşuldu, quşların qəfil xoru, ediləşməsi başladı, sonra hardansa qaya koğuşlarından xəfifcə bir yel qalxdı, getgedə gücləndi, quşların səsini də ağuşuna alıb, dərəaşağı çaya tərəf əs-

dikcə əsib hansısa gələcək müjdənin xəbərçisi kimi kəndə doğru tələsdi... Bunun nə Gülsüm fərqindəydi, nə də Murad!

“Yoxsa... nə olacaq?” Gülsüm içindən keçənləri dilinə gətirə bilmədi. Gətirsə, nə dəyişəcəkdi? “Yoxsa”nın mənasını bilməyə nə vardı ki?

Murad Gülsümə sözün dalını gətirməyə qoymamış, birdən qarşısına dikildiyi kimi, birdən də meşə fızıllığında yox olub getmişdi. Nə edəcəyini bilmirdi. Elə hey bir fikir beyninə düşüb güyüldəyirdi: “Allah istəsə, barsız söyüd ağajı da bar verər”. Nejə arxayınca söylənmişdi bu sözlər?! Kimsənin qabağında qorxub çəkinməyən, indi durub səninmi qabağında söz üstündə aciz qalajaqdı, ay qız? Sözdü dedi də, bəyəm onun deməyinnəndi, çox da deyir. Allahın nə istədiyini hardan bilir, falabaxandı, nədi? Qurban olduğum Allah istəsəydi, elə birinci, olmasa, ikinci qədəmimdə qoynumu söyündürmezdim?

Başqa yolu yoxdu, gedib dərdini analığına açacaqdı. Analıq olsa da, ondan başqa sirrini deməyə kimi vardı ki? Analığının ağzında sözmü qalardı. Hadisəni əlüstü ərinin ovcuna qoymuşdu. Gülsüm bunu atası onu yanına çağıranda başa düşdü:

– Bu deyilənlər doğrudurmu, a qızım?

Cavab yerinə başını tərpətdi. Nə deyəydi, nə cavab verəydi atasına. İkinci dəfə ərə gedəndə də eyni halları yaşamışdı. Bu da üçüncü cəhd...

– Qızım, bilirəm, baxtını lənətliyif durorsan, lənətləmə, Allah bilən məsləhətdir. Anan sağ olsoydu, nə dərdim vardı? Neylim, şükür kərəminə olmuş, ananı sana da çox gördü, mana da. Muradı yolunun üstünə mənmi çıxartdım, mən də əncam çəkəm. Onu sənin yolunun üstünə çıxaran elə-belə çıxarmıyıf ki? İstəmədiyin bir başqası elçi düşsəydi, başımdan elərdim. Amma Şəmşəd kişi kimi bir el ağsaqqalı qapıma gələcək olsa, mən ona “yox” cavabı verə bilmərəm.

Bu sözlərdən sonra Gülsümün cavab qaytarmağa haqqımı qalmışdı. İstəyib-istəmədiyinə baxmadan, Gülsümü toysuz-nağarasız üçüncü dəfə ər evinə göndərdilər. Atalar üçəcən deyib. Gülsüm, ən azından, bu atalar misalının gerçək və ya yalan olduğunu ömrü bahasına da olsa, sınaqdan keçirəcəkdi...

## ATALAR ÜÇƏCƏN DEYİB YAXUD OĞUL ATANIN SİRRİDİR

*"Uzun zaman ananın yuxusunda bir röya idin və sonra o səni doğmaq üçün oyandı".*

Hamının olmasa da, sən demə, seçilmişlərin həyatında bəzən möcüzələr də baş verir. Allah insanları həyata bağlamaq üçün onlara iynənin ucunda da olsa, möcüzə göstərir. Muradla Gülsümün birləşən həyatında olduğu kimi. Bəlkə elə Şəmşəd kişi düz deyirmiş: "Xoşbəxtlik bədbəxtliyin bətnindən doğur". Oğulları ilk vüsal gecəsinin yadigarı olacaqdı. Və onlar hələ neçə aydan sonra dünyaya gələcək övladlarının sorağında, intizar və həyəcanında bütün ağrı və acılarını unudacaqdılar. Evləndiklərinin doqquzuncu ayında möcüzə öz əlləri ilə qapılarını döyəcək, "barsız söyüd ağacı" bar verib, buz baltası kimi bir oğlan doğacaqdı.

Gülsüm Muradı dünyalar qədər istəməyə başlamışdı. Murad ona kimsənin verə bilmədiyi analıq duyğusunu bəxş etmişdi. Hər şeyin başının Allah olduğunu hamıdan yaxşı bilirdi Gülsüm. Allah ona illər boyu bəslədiyi qarşısıalınmaz ana olmaq arzusunu həyata keçirməkdə Muradı seçmişdi. Deməli, Allah ondan çox Muradı sevmiş, onun çiləli səsini eşitmişdi. Belə olmasaydı, heç onun dililə "Allah istəsə, barsız söyüd ağajı da bar verər, yetər ki, o, istəsin "sözlərini dedirtdirərdimi? Görünür hər çəkilən çilənin bir əvəzi var. İllər boyu hər adamın keçə bilmədiyi sınaqdan keçmişdilər və dərk etmişdilər ki, Allah insanın hər istəyini yerinə yetirir, bir şərtlə ki, gərək istədiyini lap çox, həm də sidqi-ürəklə istəyəsən...

Gələcək oğlunun adını doğum sancıları çəkdiyi saatlarda qulağına pıçıldamışdılar! Güzar! Kəndlərində indiyə qədər kimsə övladına belə ad qoymamışdı. Kim pıçıldadı, niyə pıçıldadı bu adı? Bəlkə Muradla ilk

qarşılaşdıqları yerə bəxtin güzarı düşmüşdü, ona görə qulağına "Güzar" adı fısıldanmışdı.

Hələ Güzar dünyanın ilk havasını ciyərlərinə çəkməyə başlayanda mamaça qadın onu duzlu suyla yuyub dünyanın ilk acılığı ilə tanışdıranda təkcə xoş sözləri yox, həm də bədnəzəri də görüb hiss etmişdi: "Sən bunun qaş-gözünə, uzun kirpiklərinə bax! Sən Allah, yeni doğulan körpədə də belə qara qaş-göz olarmı? Allah verməyə-verməyə, verəndə də adama belə bir oğul verə".

Bu sözləri eşitdiyi anda Gülsüm dünyanın ən xoşbəxt adamı idi. Bundan sonra nə bədbəxtlik olsa dözəcəkdi. Amma o, indi heç bədbəxtlik haqqında düşünmək belə istəmirdi. İki tərs taleyin ilk uğurlu nübarı – Güzarı dünyaya gəlmişdi. Və gözlənilməz gəlişi ilə də bütün olub keçən müsibətləri unutdurmuşdu. Xoş güzarın övladı! Bütün bu hadisələrdən körpənin xəbəri yoxdu, beşiyində mışıl-mışıl uyumağındaydı. Hələ bağlarda, bağatlarda yaz mövsümüydü, qara yarpaqların davadan gələn qara kağızlar kimi tökülməyinə çox qalırdı. Torpağa dikilən fidan, ağac olmağa doğru böyüdüyü kimi, Güzar da şüuraltı bir ömrün dərkinə doğru yol gedirdi. Uşaqlar hər dəfə adına görə ona sataşırdılar: "Güzar, Güzar, mərdiməzar, yox bir – bazar".

Kim qoymuşdu ona bu qəribə adı? Bir parça uşaq ona ad qoyanın kim olduğunu hardan biləydi, o ki qaldı adın mənası ola. Özündən xəbərsiz verilən adın insan həyatındakı yerini o, hələ çox sonra biləcəkdi.

# BAŞINI TOP APARSIN

*Arxasında sirr yatır hər bağlı pəncərənin...*

Başını top aparsın, başını top aparsın! Bombardman zamanı yer-göy cəhənnəmə dönəndə, adamlar parça-tikə olub baş bir yana, leş bir yana düşəndə Kaftarın yadına kəndlərindəki bu qarğışqarışıq sözlər düşürdü: "Başını top aparsın!" Halbuki, kənddə nə top vardı, nə də onun baş aparması. Elə isə bu qarğış adamların dilinə hardan yol tapmışdı? Yazağzı otçəkən duman mənbəyi, qaynağı bilinməyən bir yuvadan havalanıb dərə-dərə, dağ-dağ hər yana yayıldığı kimi, qarğış və alqışların da belə bir yayılma qüdrəti var yəqin ki?! İndi odun-alovun içində Kaftara elə gəlirdi ki, bu darmacalda o amansız qarğışın yadına düşməyinin nəsə bir çıxacağı var. Kəndləri, şəhərləri viran, adamları evsiz-eşiksiz, uşaqları atasız qoyan müharibə niyə başlayır, zəlzələ niyə baş verir? Səbəbini kimsə bilmir. Bəhanə və səbəblər iş-işdən keçəndən sonra uydurulur. Kaftar bu düşüncələr arasıyla gedib-gedib kəndlərinə çıxmışdı...

Haprapol Məhəmmədin faytonu yastı-yapalaq kənd evlərinin arxasında dayanır, bir-bir müharibəyə gedənləri toplayırdı. Kəndə ilk çağırış vərəqlərinin biri də ona – Kamışa gəlmişdi. Murad da müharibəyə ilk çağrılanlar arasındaydı. Sovet sədrinin əlinə girəvə düşmüşdü. Nə qədər ki, Murad kənddə qalacaqdı, onun əlindən Zığlı Nəsibin günü olmayacaq, vəzifəsinin keyini çıxara bilməyəcəkdi. Dağ meşələrində müharibədən yayınan qaçaq-quldur çoxalıb, Zığlının işini bitirib qaçaqlara qoşulmaq Murad üçün su içimi kimi bir şeydi. Ona görə ilk öncə Muradın başını əkmək lazımdır, sonrası asandı. Qalsa, qalsa, kənddə şikəstlər, ölüvaylar qalacaqdı, onlardan da Zığlıya nə rəqib?

Gələn müharibənin qara xəbəri idi, ağrısı, acısı, itkisi, qara kağızları kəndə doğru hələ xeyli sonra yola çıxacaqdı. Ona görə də kənd camaatı bir-birinin təsəllisinə sığınaraq, oğullarının ilk dəstəsini hələ

yassız, ağlaşmasız yola salırdı. Amma fayton kəndin ayağına – Muradgilin evlərinə çatanda vəziyyət dəyişmişdi. Murad da bunu bilmiş kimi, elə Kaftarın yanındaca Zığlının ayıbını açmışdı:

– Ə Zığlı, nə qırsaqqız olub yaxama yapışmısan, qorxub eləmə, heç yana qaçan deyiləm.

Nəsib zəhləsi gedən "zığlı" ləqəbini candərdi qulaqardına vururdu:

– Boy, ay Murad, sən Allah, elə demə, özün bilersən ki, mən sənin xətrini dünyalar qədər istəyirəm. Qoy bu təzə cavanlar fikir çəksin, sənə nooluf, berkdən-boşdan çıxmış adamsan, inşallah günlərin birində sağ-salamat qayıdıf gələssən.

Zığlı "bəkdən-boşdan" deyəndə bir yönü ilə Murada başına gələnləri xatırlatmış olurdu. Kaftar kənddə heç kimin Nəsibin üzünə "Zığlı" dediyini eşitməmişdi, indi Murad çəkinib-eləmədən deyirdi, Nəsib də heç nə olmamış kimi şiniyirdi.

Murad səfər çantasını almaq üçün evə gedəndə arxa təpədən bir fəryad aləmi başına götürmüşdü:

– Getmə, ay ata, məni də apar, ay ata, getmə, ay ata.

Bu, Gülyazın səsi idi. Batmışın səsi qarşı qayalarda yanğılanıb əks-səda verdikcə, sanki yer-göy də eyni cümləni təkrar edirdi:

– Qurban olom ay ata, nolar, ya heç getmə, ya da məni də özünnən apar. Ay ata, bə məni kimə qoyuf gedersən, ay ata?!

Yalnızca Gülyaz deyildi fəryad qoparan. Qızın fəraydı otardığı quzuları da halından çıxarmışdı. Onlar da qıza qoşulub mələşirdi. Hər birində ölüm, ayrılıq, həsrət yanğılanan bu mələrtilər yola toplaşanları da haldan çıxarmışdı. Kaftar içində Allaha min şükür edirdi ki, evlənib eləməyib. Evlənsə, onun da çiyərparasının fəryadı beləcə göylərə bülənd olardı. Oğulsan, onda gəl tab elə görüm, nejə edirsən. Amma Murad edirdi. Üstəlik, onun bir yox, iki övladı vardı. Biri Gülyaz, o biri isə anasının qoynunda olub-bitənlərdən xəbərsiz uyuyan yaşyarımlıq oğlu Güzar. Murad sanki bu ağlaşmaya günahkarmış kimi, arvadı Gülsümə gözağartması verdi:

– Mən ki saa demişdim, xavarsız hazırlaş, elə elə ki, qız duyuq düşməsin.

Gülsüm dodaq dodağın üstdə üzünü turşutmasıyla vermişdi cavabını: “Neyleim, əlimdən nə gəlir ki?”

Bu zaman aşağı məhlə yerindən üzüyuxarı Şəmşəd kişinin gəldiyini gördülər. Bu hay-həşirin arasında hamıdan əvvəl qazdan ayıq Zığlı özünü yığışdırdı. İşləməkdə olduğu suç onu ələ verə bilərdi. Zığlı özü öz çaşqınlığına məəttəl qalmışdı: “Durduğum yerdə yenə nə oldu mana? Bu Allah öyünü yıxmış kişilə harda üz-üzə gəlsəm, az qaleram şalvarımı batram, vallah bunda nəsə var”.

Zığlının özü kimi, alaşasının da gözü zığlı olardı. Bu xəstəlik zəhrimar hansından hansına keçmişdi, bilən yoxdu. Şəmşəd kişini görər-görməz Nəsibin gözləri yenidən sulanıb zığlanmağa başladı.

Zığlıya elə gəldi ki, Şəmşəd kişi onun qurduğu tordan bu dəfə də xəbərdardır. Muradı güdaza verməsi kişinin ürəyinə dammışdı, yoxsa aşağıdan yuxarı süzüb üzünə belə mənalı-mənalı baxmazdı ki? Zığlını qorxudan da kişinin bu baxışlarıydı. Gözü yaşarmasın deyə, tezcə də üzünü yana çevirdi. Çevirdi ki, yaşının axdığını görən olmasın.

Şəmşəd kişi ortalığa dediyi sözü elə bil Zığlıya eşitdirdi:

– Bunun da öhdəsindən gələjəyik, pislik elə pislik eləyənin özünə qalajaq. Ağzı yansın Hitlerin, yanajaq da inşallah, işimizin, güjümüzün bu vaxtında başındakı bir çanaq qanı üstümüzə tökdü.

Kişi qabarlı sağ əlini qırışmış alnına apardı. Bilmək olmurdu tərini silir, yoxsa gördüyü mənzərədən yaşarmış gözlərini gizləmək istəyir. Bir-birinin ardınca həyətdən el yoluna çıxdılar. Ən sonda Muraddı gələn. Anasız olan Gülyaz elə bil atasız qalacağını da hiss etmişdi. Murad bəlkə ona görə də son dəfə çarəsiz yavrusuna çox zaman bəlli etmədiyi sevgisini vermək üçün ayağını ləngitmişdi.

Qucağında Güzarı uyuyan Gülsümə faytona minməkdə kömək etdilər. Dərdin bölüşəndə azalıb təsəlliyə dönən zamanı gəlmişdi. Şəmşəd kişi əvvəlcədən arvadı Xatına him eləmişdi, Gülyazla birlikdə qozbel damın içində qalmışdılar. Amma yenə də bir səs iliyə işləyirdi. Bilmək olmurdu bu, Gülyazın fəryadıdı, yoxsa elə igidini itirəcəyi “qəlbinə daman” qozbel damın səsidi?

Haprapol Məhəmməd atları dəhmərlədi, faytonun cırıldayan təkərləri əyri-üyrü iz sala-sala irəlilədi. Ayrılıq zamanı çatmışdı. Yola düşənlər və yola salanlar iki qəm buludu kimi bir-biri ilə toqquşdu, göz yaşları yağış olub yağmağa başladı. Murad əyilib qağasının qabarlı, halal əllərini öpmək istədi, amma Şəmşəd kişi buna imkan vermədi, bəlkə ömürlərində ilk dəfə idi ki, qucaqlaşırdılar. Bu hərəkətlərinə ikisi də məəttəl qaldı, amma ağızlarından bircə kəlmə də çıxmadı, sanki bədənləri bir-birlərinə nəsə deyirdi, bu, doğma damarlardakı qanın ediləşməsi, səsləşməsi idi bəlkə?! Sonra Şəmşəd kişi elə qucaqlaşdıqları andaca kənardakılar eşitməsinlər deyə qardaşının qulağına son sözlərini pıçıldadı: "Güjünə güvənib hər yerdə özünü qavağa vermə, güjlülər güjsüzlərdən daha tez qurşuna hədəf olor".

Bu sözlərdən Muradın tükləri ürpəşdi: "Qağam niyə belə dedi?" Çox olmayan yaşında neçə dəfə odun-alovun içinə getmiş, qağasıyla vidalaşmalı olmuşdu, amma bir dəfə də olsun ondan belə sözlər eşitməmişdi. "Yoxsa bu sözlərin arxasıda nəsə var?"

Ağzından qəfil çıxan bu sözlərdən Şəmşəd kişi özü də çaşbaş qalmışdı: "Bu nəydi ağzımdan çıxdı, yox, yox, Allah eləməsin!"

Acı təcrübəsi vardı, ürəyinə daman başına gəlirdi. Sonra iki qardaş dinməz-söyləməz baxışdılar və Murad Kamışgillə birlikdə faytonun arxasından çatmaq üçün dabanını qaldırıb addımını yeyinlətdi...

Kəndin aran çıxacağıydı. Tərs kimi, ayrılıq da buradan başlayırdı. Qoca-qarı, çoluq-çocuq qəm topası kimi yolun ortasına kümələnmişdi. Yolayrıcı təkcə insanların yox, yolların da büdrəyən yeriydi. Kimi ümidlə, kimi ümidləri qırılaraq, fayton Güllü təpənin arxasında gözdən itənəcən baxdılar, baxdılar. Hərənin qəlbindən bir şey keçirdi. Güllü təpədən ötərkən əlindən çıxan xatayla Qənini və Gülüzəni o dünyaya göndərən Muradın içindən nə keçdiyini bilməyə nə vardı ki?! Onu qarabaqara izləyən qurşun elə bu yoxuşdan yol almamışdımı?

Sonra yavaş-yavaş dağılan qəm topası öz dərdini öz daxmasının altında ovutmağa çəkildi. Yolun ortasında yağışdan, gündən bomboz bozarmış sırıqlısı ilə bostan oyuğu kimi Şəmşəd kişinin tənha, yazıq görkə-

mi qaldı. Bir az əvvəl qardaşına dediyi sözlərdən içi burxula-burxula, yavaş-yavaş özünə gələndə qardaşının tozlu cığırda qalan izləri gözünə dəydi. Cığırla yox, otbasmış yamacla aşağı endi, ağac yabanı alıb qaratikan çəpərini cığırın sağ yanından sol yanına keçirdi. Keçirdi ki, bir müddət də olsa, qardaşının son izləri itməsin. Küləklər sovurub, qarlar yağanacan da, Allah qoysa, qardaşının özü sağ-salamat geri qayıdacaqdı, heç olmasa o zamana qədər bu izlərin itməsinə imkan verməyəcəkdi. Bu kəndin adətiydi. Uzun səfərə çıxan adamın izini tapdalayıb itirməzdilər, itirməzdilər ki, sahibi ilə izi arasında gizli bağ qırılmasın, iz sahibini tez də geri qaytarsın.

Kişinin "Dünənkindən pis, sabahkından yaxşı" günləri başlamışdı... Özünü tox tutub, içindəki burulğanları ev əhlindən gizləməyə çalışsa da, bu gedişin heç də yaxşı gediş olmadığının fərqindəydi. Yaddaşının harasındansa anlaşılmaz xatirələr baş qaldırırdı. Hərdən bu qəfil oyanışlara özü də bir məna verə bilmirdi. Ümidini qardaşının sağ-salamat geri qayıtması üçün hamıdan gizlin etdiyi nəzirlərə bağlamışdı. Hərdən öz niyyətinə özü də məəttəl qalırdı. Niyə qardaşı on altı yaşında türməyə düşəndə, iyirmi altı yaşında əsgər gedəndə bu nəzirləri deməmişdi? Niyə indi? Pismi, yaxşımı, nə vardı bunda?

# ŞAH BEÇƏ, TƏPƏL QOYUN
# YANIL ALMA

*"Sevgi qurban verməyi də bilir. Nəşə axtarma, çünki zamanın məhsulu qəmdir. Bütün əməllər və uzun ömrün bütün məhsulları, bir röya, bir xəyal, bir aldanma və bir andır".*

Kənd belə havalara öyrəncəlidi. Əvvəlcə payız yağışları başlayır, sonra islanmış, saplağı boşalmış, ağzı aralanmış qərzəklərin şıldır yağışı, sonra da şələqulaq yarpaqların sarı yağışı. Günün bozumtul şəfəqləri bağlara tuşlanır, qızılaçalan sarılıq göz qamaşdırır.

Arvad-uşağın oyanmasını gözləmədən Şəmşəd kişi səhərlər hamıdan erkən durur, buxarıda külə basdırılmış közü eşələyir, çuqun aftafanı işaran közün üstə qoyur, içinə də ya heyva, ya da qızılgül çubuğu atır, ayağıucunda bayıra çıxırdı. Bu dəfə də örüşə ötürəcəyi üç-beş qoyun-keçinin içində Qara qoçu qürurla izləyəcək, sonra da ağcaqayın ağacının altında sıralanan arı daqqaları arasından çəpərin altında gizlətdiyi Şah beçənin (o Şah beçə ki, onu Murad öz əllərilə Qızıl qayanın yalçın dəliklərində qurduğu hourlardan tutub gətirmişdi) səhər nəğməsini dinləyəcək, daha sonra da sıra aşağı bağdakı Yanıl almaya gələcəkdi…

Gəlin qoyun bir payız günü el yolu ilə yaylaqdan arana gedən köç sürülərindən azıb qalanda çöpüklücə bir quzuydu. Axşamların birində Murad onu evlərinin üst tərəfindəki qayalardan birinin dibinə sığınıb yatdığını görmüş və qucağına götürüb evə gətirmişdi. Quzu da öz qəribə taleyi ilə hardasa Gülüzəyə bənzəyirdi. Kəndə xəbər saldırmışdı Şəmşəd kişi, – quzunun yiyəsini tapın, – demişdi, amma "mənimdi" deyən olmamışdı. Bundan sonra quzunun da Gülüzə kimi yaylaqdan arana gedən köçlərin birindən azıb qaldığını düşünmüşdülər. Yavaş-yavaş dirçələn, ətə-qana dolan quzunun qoyunluq zamanı da gələcəkdi. Və bundan sonra Şəmşəd kişinin düşündüyü möcüzə baş verəcək, çöpüklü quzu gəlin qo-

yuna dönəcək və ildə iki dəfə – hər dəfəsində də biri erkək, biri dişi əkiz quzular doğmağa başlayacaqdı. Qara qoç da Gəlin qoyunun balasıydı. Qapılarındakı beş-on qoyunun içində ən gözəgəlimlisi də Qara qoçdu. Belə olmasaydı, Şəmşəd kişi heç onu qardaşına qurban deyərdimi? Qardaşını müharibəyə uğurlayandan, izi düşmüş cığırı çəpərə salandan sonra ilk işi bu nəzir və qurbanları niyyət eləmək olmuşdu.

Şəmşəd kişigilin dədə-babadanqalma bağları Əsrik dərəsində adnan söylənirdi. Caladığı bir alma vardı ki, Murad onun üstündə əsərdi: – Ay qağa, – deyirdi, – heç bilersən bu, nejə almadı, bir dənəsi bir kilo gəler, qoy böyüsün, bar gətirsin, onda özün görəjəksən. – Amma bu almanın meyvəsini görmək Murada qismət olmayacaqdı. Niyyət eləmişdi Şəmşəd kişi. Murad döyüşlərdən sağ-salamat qayıdana kimi hər payız almanın nə meyvəsi olsa, hamısını ehsan kimi Allah yolunda yetim-yesirə paylayacaqdı. Alması-qatması yoxdu, üç ehsanın üçü də Muradın öz halal zəhmətinin bəhrəsi idi. Nə qədər ki çəpərin altında gizlətdiyi Şah beçə şirə dalınca qarşı yamaclara güy-güy güyüldəyərək uçurdu; nə qədər ki Qara qoç Yanıl alma qoyunların arasında qoçuluq edib sağa-sola buynuz atırdı və nə qədər ki qonşu ağaclarla yarışda bir az da uzanırdı Murada zaval gəlməyəcəkdi. Allah sirrini özünə oxşatdıqlarına verir, bilən söyləməz, söyləyən bilməz: “Ya Əhəd, ya Səməd, ya Mədəd!” Bu zikir gecəli-gündüzlü hər fürsətdə dilindən düşməzdi, Şəmşəd kişinin. Zikr anında ona elə gəlirdi ki, dünyada gözə görünən və görünməyən nə varsa, böyük kainatın rabitə dənizi içindəki qapalı dodaqlarıdı... Kənddə, bazarda, evdə, tarlada, hər kəs nə işlə məşğul olursa-olsun, bəlkə heç özləri də hiss etmədən gizli zikr içindədirlər. Hər kəs və hər şey bilinməyən, hiss edilməyən bir zikrdə. Şah beçə güyül-güyül ötəndə, Qara qoç buynuzuyla yer eşib kükrəyəndə, alma yazağzı xışıl-xışıl yarpaqlayanda zikrə dururdu. Allah dünyanı özünə zikr üçün yaratmış bəlkə!

# KAMIŞIN YUXULARI, NOVRUZ GÜNLƏRİ VƏ ALABAŞ

*"Özün öz əllərinlə öz yoluna bir zamanlar tikdiyin tikanların hamısını süpürüb ata bilməzsən, bəlkə bir çəkmə geyib özünü onlardan qoruya bildin".*

Gülyazı necə aldatdılar? Aldada bildilərmi? O batmışın "ay qağa" səsi dağlardan, daşlardan çəkildimi? Çətin! Bu odun-alovun içində Kaftar olub-bitənləri indiki kimi xatırlayırdısa, o qızın səsi, deməli, nəinki səngimişdi, əksinə, o dağlardan başqa dağlara, başqa dağlardan da başqa dağlara əks-səda verib düz Kaftarın qulaqlarına qədər gəlib çatırdısa, deməli, bu tanrısız dünya bəlkə elə fəryaddan ibarətdi. Arabir sussa, fasilə versə də, zamanı gəldikdə sönmüş vulkanlar kimi yenidən körüklənir. Kamışa nə vardı, subay-salıq adamdı, dərd Muradın dərdi idi. Haprapol Məhəmmədin faytonu vağzal meydanındakı hovuzun ətrafından dövrə vurub dayanandan sonra faytondakılar qarışqa kimi qaynaşan vağzal qarğaşasının içinə dalmışdılar. Yola düşənlərlə yola salanlar ayrılıq dərdinin başına komalaşmışdılar. Qatarın gəlməsinə hələ çox vardı. Bu ağrılı ayrılıq mənzərəsini görməsin deyə, Günəş çoxdan dağ dalında gizlənmişdi, doğan Ay sevinirdi ki, göydə bulud var. Hələ qışın gəlməsinə çox qalsa da, o bulud qar gətirirdi. Muradla Gülsüm baş-başa qalmışdı. Güzar anasının qucağında yatmağındaydı. Murad ciyərparasına baxıb, gizli-gizli köks ötürürdü. Bu zaman hardansa uzaqlardan tövşüyə-tövşüyə gələn qatarın fit səsi yola düşənlərin də, yola salanların da əsəbində səslənib əks-səda verdi. Adamları ayırmağa gəldiyini bildiyindən, fısıldaya-fısıldaya vağzala çatan parovoz buxar nəfəsilə köksünü ötürməyə başladı. Muradın sümükləri sızıldadı, bu onun vağzal səkilərindən gedər-gəlməzə üçüncü çıxışı idi. İkisində tale üzünə gülmüşdü, üçüncü dəfə də güləcəkdimi? Qatar ayağında, ayrılıq anında Muradın xanımı

Gülsümə dediyi son sözləri də xatırlayırdı Kaftar: “Gülyazı sənə, səni də Allaha tapşırıram. Məni üç ay gözləyərsən, gəldim gəldim, gəlmədim, yolun açıq olsun”.

Gülsüm bu sözlərin qarşısında gözlərini yumub-yumub tökmüşdü. Murad anasının qucağında mışıl-mışıl yatan oğlunun adını belə çəkməmişdi. Niyə çəkəydi ki? Heç anaya öz övladını tapşırarlarmı? Gülyaz isə, necə olsa, Gülsüm üçün ögey övladdı, tapşırığın səbəbini də Kaftar buraya yozmuşdu. Murad gözünü Gülsümın gözündən yayındırmağa çalışırdı, qadınının göz yaşlarından ürəyi yumşalacağından qorxub, araya söz salmaq üçün üzünü bircə balasına çevirdi. Hər şeydən xəbərsiz Güzar anasının qucağında mışıl-mışıl yatmağındaydı. Murad oğlunu silkələyib oyatmaq istədi, amma ürəyi gəlmədi. Eləcə – ə, köpəkoğlu, gözlərini aç, bəlkə bu ayrılıq son ayrılıqdır?! – dedi. Amma Güzar oyanmadı. Qatar yavaş-yavaş hərəkət etməkdə, aranı açmaqda, üzünə anasının ılıq göz yaşları damcılayan Güzar isə, hələ də yatmağındaydı... Gözünü açıb ona baxmayan oğlunun gələcəyindən nigaran gedirdi ata. Və o atanın heç vaxt xəbəri olmayacaqdı ki, ayrılıq çağında qayğısızca anasının qucağında uyuyan o oğul yetim qalacaq, böyüyüb üzünü görmədiyi atasının baxıb göz yaşı tökməyə bircə şəklinin qalmadığını və anasının söhbətlərindən vağzaldakı ayrılıq anınında olanları bilәndən sonra

“O qatar gedirdi dərd çəkə-çəkə,
Yatan körpənin də yuxusu qardı.
Açsaydı kor olmuş gözünü bəlkə,
İçində bir ata şəkli qalardı...”

misralarını dua kimi min dəfə zikr edəcəkdi. Bunlar çox sonralar olacaqdı!..

Biləcəridə Muradla Kamışın yolları ayrılmışdı, Allah bilir, hansı cəbhəyə düşmüşdü Murad. Yəqin ön cəbhəyə göndərmişdilər. Murada, Zığlı demişkən, zaval yoxdu, o, davaya gələnəcən neçə davadan çıxmışdı, islanmışın sudan nə pakı?! Vay onun halına, tüfəng tutub nişan

almağı da düz-əməlli bacarmır. On-on beş gün tələm-tələsik təlim keçdikdən sonra onları da ön cəbhəyə – odun-alovun içinə göndərmişdilər. Bəlkə bu top məsələsi də qorxudan içinə dolmuşdu?! “Gündüz gördüyü işlərin fərqinə varmayan gecə yuxuda başına gələnlərin dərdini çəkər”, deməmişdimi haçansa Şəmşəd kişi?! Bombardman zamanı yer-göy cəhənnəmə dönəndə, adamlar parça-tikə olub baş bir yana, leş bir yana düşəndə Kaftarın yadına kəndlərindəki “başını top aparsın!” qarğışı boşuna düşmür, ya da çimirarası Alabaş canıyanmış boşuna kəsmirdi süysünün üstünü:

Ver mənim balalarımı, ver, hart, hart, hart.

Və onsuz da quş yuxusu olan çimirindən diksinib oyanırdı: “Allah, sən özün saxla...”

Alabaşın adam kimi dil açıb danışması, tükürpədən səsi lap elə günün günorta çağında da qulağında idi. Hətta bu amansız top-tüfəng səsi, qara-qorxu da bu səsi onun yaddaşından silə bilmirdi. Alabaşın da boynu sınsın, göz açıb yummamış kütə gəlməyi və hər dəfəsində də beş-altı bala doğmağı vardı. Alabşın doğduğu beş-altı küçük Kamışın nəyinə lazımdı axı? İçində təskinliyi də bu idi. Bu qədər küçüyə nə Alabaş süd çatdıra bilərdi, nə də Kamışgil yer-yemək. Ona görə də hər dəfə hələ gözləri açılmamış küçükləri yalaq qazıb, diri-diri içi buxarlanan peyinlikdə basdırmağı vardı. Bu işləklərin xəbəri kəndə yayıldığından onun gül kimi Kamandar adını döndərib “Kaftar” etmişdilər. Bu yeni adı pıtırğan kimi üstünə yapışıb qalmış, qoparmaq istəsə də qopara bilməmişdi:

– Kaftar yeddi arxa dolananınızdır, beləşeləş oğulları, adımı qoyub, göbəyimi kəsifsiz? Gül kimi adım dura-dura, maa “Kaftar” deyirsiniz?! Zalım uşağı elə bil bir-birinin ağzına tüpürüb, o alıb buna ötürör, bu alıb ona. Ad qoyan, atana lənət..

Diri-diri torpağa basdırdığı küçüklərin zingiltisini qulaqları kar edən top səsləri də batıra bilmirdi: “Allah, özün saxla”.

Kaftarı yandıran o idi ki, müharibədən əvvəl Alabaş bir dəfə də olsun onun yuxusuna girməmişdi. Yəqin girməzdi də. Girsəydi, çox-

dan bel sapını süysünündə sındırmışdı. Amma burada Kaftar Alabaşa ürəyində yüz dəfə lənət oxusa da, kənddə təkbaşına qalan anasına qara-qura yazdığı məktublarda mütləq ala qancığı da soruşurdu. Onu və küçüklərini anasına bərk-bərk tapşırırdı. Daha durub Alabaşın və diri-diri torpağa gömdüyü küçüklərinin yuxusuna girdiyini yazası ha deyildi. Yuxularmı bizi seçir, bizmi yuxuları seçirik? Bu sirri açsa-açsa, Şəmşəd kişi aça bilərdi. Bu, Kamandar kimilərinin açacağı sirr deyil ki?! Kaftar bilirdi ki, anası özünü güclə dolandırır, o ki qalsın Alabaş və küçükləri ola, amma yenə ürəyi təskinlik tapsın deyə yazırdı. Bəlkə onun bu gecikmiş peşmanlığı Alabaşa və küçüklərinə əyan ola, ondan əl çəkələr. O küçüklərin yer altından gələn zingiltilərini gör necə işdir ki, it oğlu Hitlerin top-tüfəng səsləri də susdura bilmir. Kənd itləri insanlardan sığal, oxşama görməmişdilər ki, qorxmayaydılar da. Yerə əyilmək o demək idi ki, bir ayağını qaçaraq qoymalısan, yoxsa baldırından olarsan. Halbuki, itlər oxşanmağı, sığallanmağı insandan daha artıq sevir. Bircə sığal gördümü, sən onun şırvanıb quyruğunu bulamağına bax. Alabaşı Kamış küçük vaxtlarında az sığallamamışdı, çünki onun başqa itlərdən fərqi vardı. Kimə hürüb, kimə hürməməyi yaxşı bilirdi. Qapılarına bircə bəd niyyətlə gələydin, onda gününü görərdin. Bir dəfə Muradgillə bəhsə də girmişdi. Kim bilməsə də, Kamış bilirdi ki, Alabaşın kənddə Qaroy İsrafildən xoşu gəlmir. İsrafilin gözü gecələr yaxşı görmədiyindən, üzünə deməsələr də, arxasınca ona da bir "Qaroy" adını yapışdırmışdılar.

Kamış Qaroy İsrafil axşama doğru zoğal çomağı ilə taqqıldada-taqqıldada yolun yuxusunu qaçırdığını, qonşu Dəlləkli kəndinə getdiyini görmüşdü, harda olsa, bir azdan geri dönəcəkdi. Uzun-uzadı domino daşlarını şaqqıldatsalar da, tərs kimi Qaroy geri dönmək bilmirdi. Gecənin bir aləmində bayaqdan qapıda qarqara boyu sülənən Alabaş birdən yola tərəf dartınmağa, özünü yeyib-tökməyə başladı. Payız sisində gözə barmaq soxsan görünməyən bir gecə Kəmər qayasından üzüaşağı sürünə-sürünə kəndə enmişdi. Kamış çardağın altında dışarı çıxmağı ilə qaranlığa səslənməsi bir oldu:

– Ayə, a Qaroy, ayə, a tufanan dağılsın, gecənin bu vaxtında bu yollarda nə sümsünürsən?

Qaranlıqdan gələn cavab gecikmədi:

– Ayə, ağzını dağıtma, belə canına azardan gələrəm, sümsük özünsən, sənə nə var hardan gələrəm, sən, yaxşısı budur, qancığını baldırına bağla, bildin?

Qaroyun bu cavabı həyətdəkiləri heyrət içində buraxdı:

– Bıy sənin qancıq ağzına lənət, gör sən Həzrət Abbas, bu gecənin gecə vaxtı yoldan keçənin Qaroy olduğunu hardan bildi, ayə?..

Kənd bir torbaya bənzəyirdi, bəzən ağzının qaytanını çəkib bağlayır, sirrini kimsəyə vermir, bəzən də sirri içinə sığmır, dolub-daşır qaytan-filan tanımır, büzməsi açılır daşıb tökülürdü...

Başı batsın Alabaşın, hər şeyi yaxşı idi, bircə ikidə-bir küçükləməsi olmasaydı. Tez-tez küçükləməsəydi, Kamış da onun balalarını hələ gözləri açılmamış peyinlikdə basdırmaz, onlar da yer altından zingir-zingir zingildəməz, səsləri aləmi götürməzdi. Bu səsləri eşidən Alabaşın məlul gözlərinin dərinliyində elə bir kədər görünərdi ki, Kamışın əlləri boşalıb yanına düşərdi.

Kənddə nə eləmişdi, kənddə qalmışdı. Amma fikrin, xəyalın qorxusu-ürküsü yoxdur ki, topdan-tüfəngdən, tankdan, topdan, ölümdən, qandan qorxub yanına üzükməsin. Gör harda, hansı haymacalda nələr gəlib ağlından keçir. "Ay səfeh, beş dəqiqə sonra nə olacağını bir göydəki Allah bilir", deyə düşündü.

Hardasa çayın o biri sahilinin üfüqlərə dirəndiyi yerdə atılan mərmilərin şimşək çaxımı gözlərini qamaşdırsa da, bu, Kamışı düşüncələrdən ayırmadı…

İlin ən azı yeddi ayını kolxoz işində burnu ilə yer eşən kənd adamlarının ancaq qar qapını kəsəndə ayaqları altına yığılırdı. Qalın qar altından qabarmış kiçik təpələr kimi ağaran kənd daxmalarından gün işığına çıxılası əyləncə-xoş-beşlik yer (Buna "əyləncə" demək də min günah olsa da) kəndin ortasında kolxoz idarəsi binasının yanında taxtadan çaxılı, ətrafı sarıtorpaqdan suvanmış, hisli-paslı kənd çayxa-

nasıydı. Getməyə başqa yer olmadığından, çayxanaya əylənməyə yox, göz görə-görə vaxt öldürməyə gəlirdilər. Payızın yağmurunda, qışın qarında palçıq ayaqlaya-ayaqlaya yol ölçmək, cibindəki "yaman gün" üçün saxladığın beş qəpik quruşu Həmidin bacası tüstüçəkməz, qurum bağlamış hisli-paslı çayxanasında çay adına ılıq suya verib, ac olan qarnına töküb, bir az da acıxmaq əyləncə sayıla bilirsə, kənd cavanları beləcə əylənirdi. "Göy başımdan sıxır, yer ayağımdan" sözləri bu kənd üçün deyilmişdi, yəqin.

# BOĞAZ BOYDAN UCADIR...

*“Adam düşmənin də olsa, yıxıldığına sevinmə, çünki bu sənin yox, Allahın işidir. Onu bil ki, kinin gələcəyi yoxdur, haramın şamı bir gün mütləq sönəcək. Haqdan yanan şamlar bəd ilə sönməz”.*

Çayçı Həmidlə Qaroy İsrafilin söhbəti də kəndin ağzında saqqız kimi çeynənirdi. Payız başlayandan yaz gələnə qədər göylər qara buludlarıyla sanki yerə enir, bu kəndin içinə düşməyən işığını qapadır, insanların canını sıxırdı. Günəşin qara buludları çərtib üz göstərməsi cavanların sevdalı qəlbinin təsəllisi olardı. Günün günortası donqarbel daxmalarda yandırılan çırağın işığı da boz-bulanıqdı. Bu səbəbdən də kənd adamlarının qar, palçıq ayaqlaya-ayaqlaya Həmidin çayxanasına can atması başa düşüləndi. Qış kəndin ölü mövsümüdür. Cavanların çoxu ikigündənbir Həmidin çayxanasına əl boyda çörək, bir dilim pendir, bir stəkan şirin çayla acı ağızlarını şirinlətməyə qaçır. Yerlə göyün birləşdiyi qısa qış günlərində qardan qaroy gözləri qamaşan İsrafil də gününü Həmidin çayxanasında öldürür. Bu gün başqa bir gündür. Həmid rayondan balıq konservi gətirib. İçəri ayaq basanların hər birinə bu xəbəri bir başqa şəkildə verir. Qaroy İsrafilin gözündən şikayətçi olduğunu yaxşı bildiyindən yenə dilini işə salıb:

– İsrafil, başın haqqı, kefindi. Bu gün sənə balıq konservi verəcəm, gözlərinə işıq gəlsin. Özün bilersən də, balıq əti göz işığının dərmanıdı.

Qaroy İsrafil Həmidin bu yağlı dillərinin altında xoşagəlməz bir şeyin olduğunu hiss etmiş kimi, cavabı gecikdirmir:

– Yox, dərdin alem, sən mənim pendir-çörəyimi, şirin çayımı gətir, balıq konservi özünə qalsın. Bu da dünənki döy ha, çayı isti elə.

Çayxanadakılar Həmidlə Qaroy İsrafilin söhbətinə qulaq kəsilib işin sonunu gözləyirdilər. Elə ki söz dünənki hadisənin üstünə gəldi, yer-yerdən şaqqanaq çəkdilər. Dünən Həmid Qaroy İsrafilə nazik stəkanda

çay vermişdi, çay da ki həmişə olduğu kimi, ılıqdı. Qaroy İsrafil çayın nazik stəkanda olduğunun fərqinə varmadan, stəkanın içindəki daş kimi qəndi əritməyə çalışırdı. Kəllə qənd ola, ılıq su ola – ərit görüm, necə əridirsən?! Qaroy İsrafil də əridə bilməmişdi. Güc verib qaşıqla qarışdırdıqda qaşığın ucu stəkanı qırıb çölə çıxmış, stəkanın qırıntıları suqarışıq nəlbəkiyə tökülmüşdü. Hirslənən Qaroy İsrafil:

– Allah işini kəssin, a Həmid, ayə, a zalım oğlu, nolur bu çayı isidəndə, – deyib, cibindəki 20 qəpikliyi sulu nəlbəkinin içinə fırlatmışdı. – Di ha, bu da sənin mana verdiyin yemək, götür bunu burdan.

Həmid də cavabsız qalmamışdı:

– Ə, a öyü yıxılmışın oğlu, sənin bayırdakı şaxtadan xavarın varmı, hay, "tu" deyirsən göydə donur. Bir pəncərəyə bax, gör nə gündədir.

İsrafil qaroy gözlərini tutqun pəncərənin hisli şüşəsinə zillədi. Güclə seçsə də, pəncərə şüşəsinin şaxtadan buz tutub naxış bağladığını gördü. Onu çəpəki izləyən Həmid:

– Gördünmü, hə, gördünmü, şüşə buz bağlayanda, gör, su nə günə düşər, burdan bir zorla tıs-pıs qaynaderam, ordan soyuyub buza dönür, sən də Allah evini tiksin, çayı düz-əməlli qarışdır dana. Düz-əməlli, yavaş-yavaş qarışdırsaydın, qənddi, əriyejəkdi, daş döyül ha ərimiyeydi. İyirmi qəpik çayın, pendir-çörəyin puludu, bəs sındırdığın stəkanın pulunu kim ödüyöjək?

Qaraoy İsrafil təmkinini pozmadan əllərini salıb ağızlığı çoxdan dirsilmiş şalvar ciblərinin ikisinin də astarını üzünə çevirdi, astarına çevrilmiş şalvar cibləri İsrafilin nimdaş sırıqlısının altından kəsilmiş tula qulaqları kimi sallanmağa başladı:

– Allah işini kəssin, di budu ha, yaxşı bax, civimdə siçanlar oynaşer, yaman da çay-çörək verdin, olanım bu bir abbasıdır, alersan al, almersen, özün bilərsən.

Sonra Həmidə çaş-çaş baxıb, evinin yolunu tutmuşdu... İndi "Bu da dünənki döyül ha, çayı isti elə", deməsində məqsədi hadisənin bu gün də eynən təkrarlanacağından ehtiyatlanması idi. Amma Həmid tutduğunu buraxan deyildi, sonunda Qaroy İsrafili balıq konservi yeməyə razı saldı.

– Bir dişini dəyiş, gör nə görörsən, dədəmin gözləri haqqı, yeyəndən sonra atama rəhmət oxuyajaqsan.

İsfəndiyar balıq konservini yedikcə qaroy gözlərini sağa-sola çevirir, sanki yediyi balığın o işıqsız gözlərinə elə əlüstü nur gətirib-gətirmədiyini yoxlamaq istəyirdi. Amma yenə olsun, gözlərinə işıq gəlməsə də, hər halda, bir dəfəliyə də olsa dişini dəyişmişdi, bir dilim pendirə, bir tikə çörəyə, bir stəkan çaya vərdişkar damağı balıq konservindən sonra azacıq dada gəlmişdi. O da bu dadı çayxana kəsafətində qoyub getmək istəmirdi. Evinə üşüyə-üşüyə yox, buğlana-buğlana getmək, özünü daxmasının altına salmaq, burda qalıb onun bunun boş-boş laqqırtılarına qulaq asmaqdan min qat yaxşı idi. Bəlkə buna görə də hesabını çürüdüb bayıra çıxmaq istədi:

– A Həmid, dərdin alem, bir mənim hesabımı kəs.

Sanki Həmid də bu anı gözləyirdi. Cücə gözləri bic-bic qıyılaraq, dənələri işlənməkdən sürtülüb bozarmış taxta sayğacı işə saldı:

– Bu bunun burası, bu da şunun şurası, hesab deyəndə nə tutacaq ki, vur-tut, cəmi-cümlətanı onca manat.

Qaroy İsrafil qulaqlarına inanmadı:

– Nə dedin, nə dedin, nə qədar?

Həmid heç nə olmamış kimi:

– Belə sənin canıyın sağlığı, on manat, – dedim.

Qaroy İsrafil eşitdiklərindən dəli olmuş kimi, birdən ikiəlli gözlərini qapayıb bağırmağa başladı:

– Vay gözlərim, vay gözlərim. Allah, gözüm çıxdı, Allah, gözüm çıxdı. Ayə, qoymayın gözüm çıxdı.

Həmid nə olduğunu anlamayıb çaşqın-çaşqın Qaroy İsrafilə baxdı:

– Ayə, ay camaat, bu tufanası dağılmışa nə oldu birdən-birə?

İçəridəkilər gözlərinin önündə baş verənləri görüb uğunub gedirdi. Həmid:

– Ə, şoğəribə qalmışın uşağı, nə var, noluf, nəyə gülörsünüz, burda ayımı oynadıram, ə? Kişinin gözü çıxer, siz isə hayasız-hayasız irişersiniz. Dəli uşağı, dəli..

İçəridəkilərə də elə Həmidin bu sözləri lazımdı, yenidən şaqqanaq çəkdilər. Gülüşlərindən çayxananın tək gözlü hisli, buz bağlamış pəncərəsi az qala yerindən qopub düşəcəkdi. Həmid yenə heyrətini gizlətmədi:

– Dəli qırılmış, bunnar nəyə gülür, ə, ağıllarını itirifler, nədi?

Deyib çaşqın-çaşqın çayxanadakıları süzdü. Qaroy İsrafil isə bağırmağındaydı:

– Vay, gözlərim, Allah, gözüm çıxdı. Ayə, qoymayın gözüm çıxdı.

Qaroy İsrafilin vay-şivəninin, içəridəkilərin gülüşməsinin səbəbinin özcə sözləri olduğu çayçı Həmidə indi-indi çatırdı:

– İsfəndiyar, başın haqqı, aldığım balıq konservi gözə işıq verir, ye gör nə görürsən.

İsfəndiyara elə bir hesab kəsmişdi ki, nəinki gözünə işıq gəlmiş, olan-qalan işığı da qaralmışdı...

Bu hadisə kəndin ağzına düşüb illər boyu danışılacaqdı.

* * *

...Tay-tuşları arasında yenə Kınkıya daha çox Kamış sahib çıxırdı. Niyə beləydi, səbəbini heç özü də bilmirdi. Bəlkə yaşıddılar ona görə. Ya da yaşıdları içində Kınkı ən çox ona sığınırdı. Uşaq marağı ac olar, Kamış uşaq ağlıyla Camal qarının və oğlu Kınkının başına gələnlərin səbəbini ucundan-qulağından öyrənməyə çalışmışdı. Və yavaş-yavaş kəndin kilidli ağzına açar düşmüş, Camal qarı və oğlu haqqında çox şey öyrənmşdi. Hətta öyrənmədiyi gümanlar da indi hardasa, ağlının harasınasa yığışıb ona ağırlıq edir, bu odun-alovun içində bir-bir özünü Kamışın yadına salırdı:

...Sabah oldumu, balağının ətəyini əlinə dəstələyən Camalın bir-bir qonşuları gəzməyi vardı. Yenə yazda, yayda, payızda gününü gün edərdi, Camalın ölümü qara qışdı. Odun sobasını yandırmaq istəsə də, bağdan-bağatdan yığıb gətirdiyi höyüş, nəmli odunlar tıs-pıs edib alışmazdı. Amma odunlar alışıb çatıltı ilə yanmasa da, bayırda əsib borulara təpilən sərt ruzigardan, ya da elə yanmayan sobadan səs gəlirdi. Camal üçün bunun bir elə də fərqi yoxdu. Onun təsəvvüründə soba yanırdı, yanma-

sa, səsi çıxmazdı ki?! Amma ocaq yanırdısa, canı niyə qızınmırdı, bax, buna məəttəl qalırdı. Elə qonşu arvadlara da bunu söyləyirdi. Səhərin gözü açıldımı, bir-bir qonşuları sayırdı. Daha çox getdiyi isə, Şəmşəd kişilərlə Kamışgil olardı. "Midan" deyə səslədiyi ala-bula pişiyi də balağına dolaşa-dolaşa, kölgəsi olub dalınca sürünərdi. Ürəyini açdığı, qulaq həyanı, can sirdaşı da Midandı. Kənd evləri bir-birinə yaxın olsa nə vardı ki?! Hərəsinin arasında da bir aləm yol vardı, birisi ala dağda, o birisi qara dağda. Camal arvadla Midanın bu evlər arasında öz cığırları vardı. Kənardan fikir verdikdə adama elə gəlirdi ki, Camal qarı öz-özü ilə danışır, çünki kol-kosun, ot-alafın arasından keçən cığırda uzaqdan Midanı görmək olmurdu:

– A Midan, – deyirdi, – gördün də, a ciyərin yansın, Seyran qancıq, mən cəhənnəmə, heç sənin də üzünə baxmadı, bir qıxma çörək versəydi sənə, tavağımı boş qalardı?! Qazın toyuxnan yatmağı, onun da şıllağ atmağı! Minnəti olsun ki, onun dağılmışının qapısnı döyürük! A Midan, a tavanın dağılsın, başımızı hara götürüb qaçaq daha bu kənddə üzümüzə baxan da qalmadı. Baxtımızdan bu gün də qar ayazımadı, bu qarın altında indi halımız-günümüz necolacaq, hay?! Atıcı atıf, kürd oynuyuf, kefinə düşüf, bir də oynuyuf. Özün görörsən də mən küməsi dağılmış odun daşıyıb ocaq qalamqdan canım çıxıb, di gəl həniri çıxmer, kanardan baxan da elə biler, qapı-qapı gəzib dolanmaq xoşumuza geder. Neylem mən beləşeləş qızı, dağılmışımda ardoylar saz çaler, ojaq başından yaner, be mən də qapı-qapı düşməyim, kim düşsün, hay?! Az, niyə dillənmersən, a Midan, sən dəmi məndən üz döndərdin, a boynun sınsın, hay?!

Camal qarı gedirdi, arxasınca da Midan yun yumağı kimi diyirlənir, arvadın qılçalarının arasından keçib ayaqlarına dolaşırdı. Şər qarışana kimi bu yumaq evlərarası çığırlarda elədən-belə, belədən-elə çözələnirdi. Midan elə bil Camal qarını başa düşür, suallarını cavabsız qoymur, mıyıldayırdı. Başa düşməsəydi, çoxdan erkək pişiklərə qoşulub zinalıq etməyə gedərdi. Qonşular Camalın bu gəliş-gedişlərinə çoxdan alışmışdı, nə vaxt gələcəyini, gəlib, nələr danışacağını da bilirdilər. Biməsəydilər, qapı qorxaq tıqqıldandımı: "Yəqin gələn Camaldı", deməzdilər… Yaşı-

na görə Camala “qarı” demək insafdan deyildi. 45-50 yaşı ancaq olardı, amma yaşadığı çilələrin üzünə çəkdiyi tapan izi onu səksən yaşında göstərirdi. Qarıyan, vücudundan çox, baxtı-yığvalı idi. Kir-pasaq içində iy verib ilənirdi. İçəri girdimi, təklif-falan gözləmədən – uvuvu, uvuvu – deyə-deyə, özünü sobanın qabağına verərdi:

– Ay qız, mənim xaravamda ardoylar saz çaler, ojaq başından Yaner, soyuqdan donoram, gəldik ki, (Midanı unutmurdu) sümüyümüz bir az qızışsın.

Sobanın qapağını açmağı ilə tumanının önünü qaldırıb az qala özünü yanan alovun içinə soxmağı bir olardı. Böyükdən-kiçikdən utanmaz, tumanının altından qıllı ayıb yerinin görünməsi də eyninə deyildi. Kamışın ən bağışlanılmaz hərəkəti də Camalın bu tövrü ilə bağlıdır. Savat arvadın Camala yazığı gələrdi, elə Kamışın da. Amma Kamışın anasını ağlar qoyan Camaldan gələn o başçatdadan, dözülməz pis qoxu, bir də onu – yepyekə uşağı adam yerinə qoymamağı idi. Adam yerinə qoysaydı, uvuvu, uvuvu deyə-deyə sobanın qapağını açıb, tumanının qabağını qaldırıb, ayıb yerini ortalığa qoyardımı? Özünə söz vermişdi, Camalın başına bir oyun açacaqdı ki, bir də belə qələt eləməsin.

Göydən lopa-lopa qar tökülür, yerlə göy birləşirdi, dünya bəyaza bürünmüşdü, yağan qardan göz-gözü görmürdü. Kamış əvvəlcədən nə edəcəyini qərarlaşdırmışdı. Camal harda olsa, indilərdə gəlib çıxacaqdı...

Bayırdakı tappıltı gələnin Camal qarı olduğunu deyirdi. Qaloşlu ayağının qarını çırpır ki, içərini yaş eləməsin. İçəri girməyi ilə təklif gözləmədən – uvuvu, uvuvu – deyə-deyə, çathaçat yanan sobanın qapağını açıb, tumanının qabağını qaldırıb, ayıb yerini oda verməyi bir oldu. Kamış bu dəfə utanıb eləmirdi. Gözünü qapağıaçıq sobanın ağzından görünən nar kimi qızarmış közlərə zilləmişdi, amma istədiyi alınmırdı ki alınmırdı. Axı əvvəllər dəfələrlə sınaqdan keçirmişdi, bu iş olmalıydı, indi niyə olmurdu, başa düşə bilmirdi. Elə bunu fikirləşirdi ki, sobanın içində partıltı qopmağa və qırma kimi közlər bir-bir Camalın ayıb yerinə tərəf uçmağa başladı. Bu qəfil partlamanın nə olduğunu, ayıb yerinin niyə yandığını anlamayan Camal:

– Vay Allah, öldüm, ay qoymayın, yandım, – deyib, arxası üstə evin içinə sərilib bağırmağa başladı.

Savat qarı bu ani hadisədən çaşıb nə edəcəyini bilmir, sağa-sola vurnuxurdu. Özünə gələndə bir Camal arvada, bir də dönüb ağlamaq yerinə qımışan oğluna baxdı. Sanki işin nə yerdə olduğunu indicə başa düşdü. Anasının qırımını görən Kamış bir ayağını qaçaraq qoymuşdu. Savad arvad sobanın önündəki yarmaçalardan birinə yönələndə özünü qapıdan qarlı bayıra atdı.

Uzun müddət Muradgil tərəfə yön çevirməmişdi Kamış. Bu kənddə hamı kimi o da Şəmşəd kişinin təhnizindən qorxurdu, hətta nə deyəcəyini də bilirdi: "Allah vurmuşu bir də sənmi vurdun?"

O isə gördüyü işi bir qəhrəmanlıq sanmışdı, elə düşünmüşdü ki, tutduğu işdən sonra bütün kənd Kamışın çoxbilmişliyindən danışıb güləcək. Sonun belə bitəcəyini bilsəydi, nə Camal qarının gəlişini gözləyər, nə də yananda qırma kimi partlayan dağdağan toxumlarını közün içinə basdırardı. Başı havalı, dilsiz-ağızsızın birinə, həm də nə də olsa, uşaqlıq dostunun anasına qarşı belə axmaqlıq edilərdimi? Vaxtında yuyulmayan günahlar, sən demə, yaddan çıxıb eləmir, dava-şavaya baxmadan, sahibini harda istədi orda yaxalayarmış.

O hadisədən sonra anası Savad arvad Kamışın yeddi arxa dolananını belinə şəlləmiş və Camal arvadla bağlı Kamışın əvvəllər eşitmədiyi o hadisəni danışmışdı: "Yazıq arvadın başı ağ gününəmi havalanıb, Allah onun başına gələnləri heç düşmənimin də başına gətirməsin. Niyə Kınkı o günə düşdü, Kınkı da kəndin o biri uşaqları kimi sağ-salamat böyüyə bilməzdimi? Nəydi Camalın başına gələnlər? Bütün bunların olmasının səbəbi nəydi?" Bu sualların cavabını Kamış anasının ona danışdıqlarından sonra öyrənə bilmişdi. "Yetim yarımaz, yarısa da qarımaz". Anasının çəkdiyi atalar misalı Quran ayəsi kimi doğru çıxırdı. Kınkı da yarımamışdı, anası və hardasa atası ola-ola yetim qalmışdı...

# DODAĞININ DÖRD YERİNDƏN AXIR ŞOŞAĞI KINKININ

*Yetim yarımaz, yarısa da qarımaz!*

Kınkı ilə Kamış bir ilin uşağı idilər. Aralarında dostluqları vardı, desən, yalan olardı. Amma Kamış, nə olursa olsun, Kınkıya qahmar çıxardı. O qapıda, bu qapıda yaşayan Kınkı altı-yeddi yaşlarından bir qarın çörəyə qoyun, quzu otarmağa başlamışdı. Kənd adamları bəlkə şikəstliyinə və anasının başının havalandığına görə, Kınkıya bicə baxan kimi baxmazdılar: “Anasının onsuz da başı havalanıb. Allah cəzasını verib, bu tifilin nə günahı?!”

Kənd uşaqları içində arası bir tək Kamışla sazdı Kınkının. Payız vaxtları Aşvazlının azman ceviz ağaclarının islaq pələş yarpaqları altından yığdığı cevizləri hər gün siçovul kimi Qaradaşın koğuşuna xəlvətcə yığdığını da əllərinin işarəti ilə yalnızca ona – Kamışa söyləmiş, şanapipik əyri iki barmağını göstərmişdi: “Heç kimə demə ha. Yerdə sən bilirsən, göydə Allah”. Bəs Kamış nə etmişdi? Kamış da əvvəlcə xəlvətə salıb Qaradaşın koğuşundakı cevizin yerini bələdləmiş, sonra da çırpışdırmışdı. Kınkı səhəri gün cin atına minib, şanapipik barmaqlarını Qaradaşa tərəf uzadıb, öz dilində söyür, söyür söylənirdi: – Ayə, a qa, abbeqe. Yəni, “Sən vurmadın, mən yıxılmadın, bəs mənə nə oldu?” Kınkının şikəst vücudu bir az da sual işarəsinə dönmüşdü. Yenə də Kaftar Kınkının qılığına girməyə, könlünü almağa çalışmışdı. Almışdımı? “Almamışdı”, demək çətindi. Çünki Kınkı adi halda ürəyindən keçənləri dilinə gətirə bilmirdi, o ki qalsın belə acıqlı vaxtları ola?

Göyündən bombalar yağan, yerindən minalar partlayan bu dava dağılmışda neçə əsgər yoldaşının başının bir yana, leşinin bir yana düşdüyünü dəfələrlə görmüşdü. Əslində, Kamış da o cəhənnəmdən sağ çıxmamalı idi, amma Allah adamı saxlayanda saxlayır. Bu vurçatlasında,

can bazarında kəndləri, Alabaş, onun yanar peyinliyə diri-diri basdırdığı küçükləri, o küçüklərin yer altdan gələn zingiltiləri, havalanan Camal arvad, başına oyun açdığı şikəst Kınkı odun-alovun, qadanın, qorxunun içindən hardan yol tapıb onun beynini qurcalayır, yaddaşını ələk-vələk eləyir? Kəndləri hara, bu qan-qada ilə burun-buruna gəldiyi Mozdok meşələri hara? Alabaşın diri-diri basdırdığı gözü açılmamış küçükləri kimi Camal qarıya və oğlu şikəst Kinkıya etdiyi pisliklər gecə səksəkəli yuxusunu, gündüz xəyalını qarışdırırdı... Fikir, xəyal da günəş, ay işığı kimidir, sədd-sərhəd tanımır ki?

## SƏNİN ALLAHIN GƏLMƏDİMİ?

*“Bədənin bir üzvü əziyyət çəkirsə, o biri üzvləri də rahat olmaz. Ölməyi öyrənin ki, yaşaya biləsiniz”.*

Burda, bu odun-alovun içində xatırladıqlarının heç biri kənddə yadına düşməzdi. Kamış bu izi keçmişi ilə onu bağlayan bağı qoparmaq istəsə də, bacarmır, bacara bilmir... Dərdini deməyə, içini tökməyə dilini bildiyi bir adam da yoxdu, desin. “Vstavay”dan, “beqom”dan başqa anladığı bir şey yoxdu. Təlimlərdə sağındakıların, solundakıların etdiyi hərəkətləri təkrar edib, başını girləyir. Muradla eyni hissəyə düşsəydilər nə vardı. Muradın nə vecinə, o da mənim kimi çətinlik çəkəsi ha deyil, urusun dilini, sirrini bilir...

Yerlərini tez-tez dəyişirlər, gəlib-gedən məktublar da poçtalyonların insafına qalıb. Kamışın ağlına da gəlməzdi ki, ona da poçtalyonluq eləmək nəsib olacaq və bu işin cəbhələrdə döyüşməkdən daha çətin olduğunu görəcək... Hələ ki sağ-salamat döyüşür, ölümün, qorxunun qonşuluğunda, fikrində “Başını top aparsın” qarğışı, yuxusunda Alabaşın diri-diri basdırdığı küçüklərinin zingiltisi, havalanmış Camal qarı, bir də uşaqlıq dostu, aradabir başına oyunlar gətirdiyi Kınkı: ”Tutsa, məni onların qarğışı tutacaq!” Qalmışsa, kənddə başıpapaqlı adına Kınkı qalmışdı. Dili lal olanların qulağı da kar olur, Kınkınınkı açıq idi. Kefini soruşsan, baş barmağını yuxarı qaldırıb, halını bəyan edərdi. Ağlına gələndə kiminsə ona bağışladığı qırıq cürəsini bağrına basıb, şanapipik barmaqları ilə onsuz da qırıq olan simlərə bir toy tutardı, gəl görəsən. İndi yəqin əlinə keçən qəzeti tərsinə tutub, özözünə nəsə oxuyur və ərsiz, oğulsuz qalan ana və bacılara müharibədən xəbərlər verir. Kınkının tərsinə tutub oxuduğu qəzetlərdən gələn bir tək xəbər vardı: “Müharibə tezliklə qurtaracaq və bizimkilər sağ-salamat geri dönəcək!”

Növbəti döyüşlərin birində yaxınına düşən top mərmisindən huşunu itirəcəkdi Kamış. Bir də gözlərini xəstəxanada açacaqdı. Huşu özünə gəldikdə tələsik əlini başına çəkəcəkdi. İçindən bir şimşək çaxımı ümid qığılcımı keçəcəkdi: "Ağlı üstündə, başı yerindədir, yerdə qalanı nə olur-olsun".

Mərmi Kaftarın başını yox, ayağını zədələmişdi, həkimlər sağalmasının mümkün olmayacağını görüb sol ayağını kəsmişdilər. Narkozun təsiri keçən bədəni sızım-sızım sızıldayırdı. Hərdən azacıq çimir alıb oyananda salamat sağ ayağından daha çox sol ayağının qəlpə qoparmış yeri ağrıyırdı. Ümidlənib əlini sol ayağına atırdı, bəlkə heç sol qılçı kəsilib atılmayıb, yoxsa olmayan şeyin nəyi ağrıyır? Amma zənni yanıldırdı onu. Sol qılçının yerində bir boşluq vardı, artıq nə sol ayağı vardı, nə də sol ayağının ağrıya biləcək bir yeri. Özü sağ ola-ola, sol ayağı Allah bilir hansı zibillikdə qurda-quşa yem olacaqdı? Versəydilər, gücü çatsaydı sol ayağına qəbir qazar, göz yaşı tökə-tökə hardasa basdırardı.

# ÖLÜM CIĞIRLARI QÜRBƏTDƏN KEÇƏR, AYRILIQ YOLLARI DÖNƏR KƏNDLƏRƏ...

*Suyun həyatı axmasında, şimşəyinki çaxmasında, yelinki əsməsində, ömürünkü yaşanmasındadır.*

Xəstəxanalar özünə dalmaq, keçmişini ələk-vələk edib sorğu-suala çəkmək üçün ən münasib yerdi?! Bilirsən ki, qaçacağın yer yoxdu, qaçmaq istəsən də, qaça bilməzsən. “Tale” deyilən bir şey var ki, ağrıyan, yaralanan, şikəst olan yerindən çəkib səni bu adına “xəstəxana” deyilən binaya bağlayıb. Bağlayıb ki, keçmişini saf-çürük edib, bişirəcəyini düyü kimi arıtlayasan. Arıtladıqca da, heç əvvəllər yatsan yuxuna da gəlməyən hadisələr beyninin o “yaddaş” deyilən şeyin harasındansa çıxıb gəlir, gəldikcə də gəlişilə səni heyrətlərə salıb mat-məəttəl buraxır. Top qəlpələri ayağını şikəst etsə də, şükürlər olsun ki, Kamış minlərin, milyonların ölüm cərgəsinə qoşulmamışdı. Ayağını top aparandan sonra içində Allahına şükürlər etmişdi. Alabaşa, Camal qarıya, Kınkıya etdiyi pisliklər gəlib burada onun ölümünə də səbəb olar, “başını top aparsın” qarğışı başına da gələ bilərdi. İndi heç olmazsa, başı üstündəydi, başı üstündəydisə, özünü ayaqsız da bir yana çıxarardı. Sol ayağı bombanın güdazına getsə də, qələm və tüfəng tutan əlləri yerində idi. Yenə məktub-zad yazıb, halını – gününü kəndə-kəsəyə çatdıra biləcəkdi.

Bu ağır cəbhə illərində Kamış yaşamağa yox, ölümə vərdiş etmişdi. Bəlkə şikəst qalmaqdansa, ölməsi daha məsləhətdi? Kəndə qayıtmaq gözünə durmuşdu, həm də bu şikəst ayaqla. Bəlkə də anası başı üstündə döndüyünə sevinəcəkdi. Bəs hələlik ürək eləyib könlünü açmadığı, fikrini balabanda qandırdığı Kifayət onun axsaq ayağına necə baxacaqdı?

Rayon mərkəzinə qədər qatarla gedəcəkdi, oraya qədər elə bir dərdi olmayacaqdı, dərd ondan sonrayaydı. Kəndə taytaq ayağı ilə pay-

piyada necə gedəcəkdi? Keşkə Haprapolun faytonu rayona gəlmiş olaydı. Belə olsaydı, nə vardı ki?! Bəlkə Haprapol Məhəmmədin qoşqu atlarını da əlindən alıb cəbhəyə göndəriblər?! Kaftar hardan biləydi ki, onun qoyub gəldiyi yol artıq arzu yolundan çıxıb, həsrət, göz yaşı yoluna dönüb. Cəbhələrdə vuruşan atalarının öldüsündən-qaldısından xəbərləri olmayan kənd uşaqları daha Kəmərin başına, yalqızların sirr yoldaşı Tək dağdağanın yanına çıxıb xəyallara dalmaq istəməzlər. Buna nə həvəsləri, nə də vaxtları var. İndi onların həsrət heykəlinə dönüb Qəbiristan yoxuşunun başında bəlkə atalarından bir xəbər-ətər gətirər deyə, arandan gələn kənd yoluna boylanıb-baxmaqdan gözlərinin kökü saralır. Və boylana-boylana özləri də hiss etmədən boyları uzanır. Həsrət yollarına baxa-baxa uzanan təkcə uşaqların boyları deyil ki, təfərinc eləsəniz kəndin daşının, torpağının, ağacının da boylarının uzanıb, arana tərəf əyildiyini görərsiniz. Yüzləri, minləri yedəyinə alıb gedər-gəlməzə aparan el yolunun ayəndə-sayəndə gedənlərdən kimisə geriyə gətirməsi də var: "Başına döndüyüm ağ suyun yolu gedəndə boş gedər, qayıdanda dolu..." Eh, bulağa suya gedən qızlara mahnı qoşan kəndin şivərək oğlanlarının hamısını su yolu yox, savaş yolu udub apardı, indi qayıdanda əliboş qayıdır.

Kaftar kəndə döndüyündə nə anasını, nə də cəbhədə yuxusunu tar-mar edən Alabaşı tapacaqdı. Anası Savat arvad acı günlərin ağırlığına dözməmiş, xəbərsiz-ətərsiz dünyadan qırağını qatlamışdı. Qara xəbərlər qara qarğalar kimi cəbhədən ellərə, obalara vay-şivən gətirirdi. Kənd-kəsəkdən cəbhəyə üz tutan məktublarda dərdə yer yoxdu, el-oba qara gününü qara daxmaların altında çəkirdi. Savat qarının ölüm xəbərini Kamışa kim xəbər verəsiydi? Alabaşı isə bu həyətə Savat qarının mehri-ülfəti bağlamışdı. Gözləri açılmamış küçüklərini diri-diri torpağa basdırmasından başqa Kaftardan nə görmüşdü ki, bir durub onun yolunu da gözləyəydi. Bir dəfə Alabaş, nə az, nə azacıq – yeddi küçük küçükləmişdi. Küçükləyən kimi də nə ağıl eləmişdisə, balasının birini dişinə alıb tövlənin arxasındakı ot tayasının içində gizləmişdi. Amma o küçük də Kaftarın əlindən canını qurtara bilməmişdi. Səsi başına

bəla olmuş, qardaşlarının torpağın altından gələn zingiltisinə tayanın altında dözməmiş, özü-özünü ələ vermiş və Kaftar onu da qardaşlarının yolu yollamışdı. Alabaş hər şeyi bağışlasa da, bu amansızlığını Kaftara bağışlamamışdı, bağışlamazdı da, başını götürüb harayasa genimişdi. Ayağının şikəstliyinə, Alabaşın baş götürüb geniməyinə, bəlkə lap gününü görüb, dövranını sürmüş anasının ölümünə də tab edərdi, amma qadınların, xüsusi ilə də uşaqların "Atamı gördünmü?" suallarına dözə bilmirdi Kaftar. Müharibəyə getdikləri gün:

– Ay qağa, ay qağa, bə məni kimə qoyub gedirsən, – deyə-deyə göyə zəncir salan Gülyazın gözünə görünmək Kamış üçün dünyanın ən ağır cəzası idi.

# QARA XƏBƏR ATLI OLUR...

*"Dünənimizin borclarını qaytarmaq üçün sabahımızdan borc alırıq. Diqqətiniz haraya yönəlibsə o da olacaq..."*

Kaftar kənddə bacardığı hər işin qulpundan yapışırdı, əlsizlərə əl tutur, köməksizlərə yardım edir ki, təki başıpapaqsız qalan bu ucqar dağ kəndinin dərdi az da olsa yüngülləşsin. Kənddə kəndlikmi vardı? Bağ-bağatlardan, tarla və zəmilərdən anbarlara, xırman yerlərinə uzanan araba yolları bom-boşdu. Nə dərzləri xırmana daşıyan öküz arabaları, nə o arabaların üstündə oturub aradabir – yeri, atam-anam sənə alxışçı olsun – deyib, öküzlərin boyunu sevib, sonra da fışqırıqda sevgi mahnıları yanğılandıran telli-toqqalı oğlanlar; nə də dərz dolu arabaların arxasınca yemimizi hara aparırsınız, – deyə, qatar-qatar uçuşan Allahın günahsız quşları olan bildirçinlər, sığırçınlar, sərçələr vardı. Xırman yerlərində yel vurub yengələr oynayırdı. Var oğlu var, yox oğlu yox olmuşdu. Nəyə baxıb təsəlli tapaydı, könlünü ovunduraydı Kaftar?! Dağıyla, daşıyla, otuyla, suyuyla, üzüsuyuyla qalan kənd oğul-uşağıyla tanınmaz olmuş, gözəgörünməz bir əl sevincini, nəşəsini çəkib çıxarmışdı. Kənddə qalan oğul-uşaq, qoca-qaltağın burnu yernən sürünürdü. Başıaşağı getməkdən adamların yox ey, ağacın-daşın, lap elə kəndin də beli donqarlaşmışdı. Kaftar zalımoğlu nəyə baxıb dərdini yüngülləşdirəydi?! Tanrıtanımaz bu dərd elə dərd idimi ki, yüngülləşəydi də? Suallı, ümidsiz baxışları gördükcə Kaftar sağ qalmağına min peşman olurdu. Sanki cəbhədən gələn qara xəbərlərin tək bir baisi vardı, o da bu topal Kaftardı. Cəbhədə ölən (Adamın dili də gəlmir "ölən" deməyə) igidlər bir dəfə şəhid olub canlarını qurtarmışdılar, burada bu əlləri qoynunda qalan Kaftar köpəkoğlu hər gün bir dəfə yox, min dəfə ölüb-dirilir. Ərsiz qadınlar, oğulsuz analar, atasız uşaqlar ona, onun sağ qalmasına paxıllıqmı edirdilər, Allah? Nəyinə paxıllıq edəsiydilər ki? Şikəst qalan ayağınamı, viran olan yurdunamı, hələ Kifayətə vaxtında aça bilmədiyi, indi də heç

açmayacağı nakam eşqinəmi, nəyinə? Bütün bu içində özünü yeyib-tökdükləri az imiş kimi, bir yandan da onu poçtalyon olmağa məcbur etdilər: "Səndən başqa kənddə kim var ki, poçtalyon olsun". Qədirin oğlu poçtalyon Kazım 17 yaşına çatmamış, ərizə verib könüllü cəbhəyə yollanmışdı. Kazım niyə belə etmişdi görəsən? Ağlı başında olan hansı axmaq yaşı çatmaya-çatmaya könüllü odun-alovun içinə gedərdi ki? Burda başqa nəsə var, bəlkə?!

Söhbət məktub daşımaqdan getmirdi, həm də gələn məktubları oxumalıydı! Elə poçtalyonluğunun ilk günlərində cəbhədən gələn ilk qara kağızları ünvanına çatdırmaq məqamı çatanda Kaftar Kazımın niyə vaxtından əvvəl odun-alovun içinə getdiyinin səbəbini anlamışdı. Cəbhədən gələn bəd xəbərləri, qara kağızları sahiblərinə çatdırmaq, çatdırmaqla da qalmayıb, onları yazı-pozu bilməyən anaların, qız-gəlinlərin üzünə oxumaq, oxuyanacan da yüz dəfə ölüb dirilməkdənsə, gedib cəbhədə yaralanmaq, ölmək min dəfə yaxşıdır. Oxuyursan olmur, oxumursan yenə olmur. Cəbhədə döyüşən kənd igidlərinin ölüm xəbərlərini gətirən qara kağızların "əlində" girinc olmuşdu. Əvvəllər naşılıq eləyib, bir-iki dəfə bu kağızları sahiblərinə çatdırmışdı. Bir ev bu xəbərin birinə dözmürdü, Kaftar köpəkoğlu təkbaşına kənd boyda müsibətə necə dözəydi? Verirdi, evlərdə şivən qopurdu; vermirdi, özü yanıb külə dönürdü. Axı ölənlərin çoxusu onun uşaqlıq yoldaşları, tay-tuşlarıydı: "Bu müharibə deyilən iyirmi il əvvəl, ya da iyirmi il sonra başlaya bilməzdimi? Bizim cavanlığımızı gözləyirdi bu ağzıyanmış?"

"Qara kağız"ların bir çoxunu evlərə verməməyinin başqa bir səbəbi də vardı. Bəzən özü hansısa xəstəxanada yatan əsgərin qara xəbəri arxa cəbhədə qapısını döyürdü. Belə halları gözüylə dəfələrlə gördüyü üçün cəbhədən gələn qara xəbərləri çox zaman vermir, işin sonunu gözləyirdi. Bu xəbərlərdən biri də Muraddan gəlmişdi. Kim-kim – Murad. Hələ müharibədən əvvəl gözüylə od-alov götürmüş, kəndin ortasında namus üstündə adam öldürmüşün biri indi gedib faşist gülləsindənmi öləcək? Öz-özünü bu təsəlli ilə ovudurdu. Kimdən-kimdən – Şəmşəd kişi kimi bir dünyagörmüşdən sirmi gizlətmək olardı?! Zalımoğlu adamın için-

dən keçənləri üzündən oxuyur. Buna görə də Şəmşəd kişini yolda-izdə görəndə bir yanını qaçaraq qoyur, taytaya-taytaya səmtini dəyişir, hansısa hərəkəti ilə sirrini ələ verəcəyindən qorxurdu. Ətdən olan dili lovğalanıb yalan söyləyəsi olsa, gözləri suyunu axıdıb onu ələ verə bilərdi. Amma içinə bir şey dammasaydı, Şəmşəd kişi də Şəmşəd kişi olmazdı. Kaftarın onunla hər qarşılaşanda bir ayağını qaçaq qoyduğunu görüb şübhələnmiş, səbəbini yüz yerə yozmuşdu. Bir dəfəsində isə uzaqdan Kamışı görüb özü ona tərəf gəlmişdi:

– Ə Kamış, a bala, hər dəfə gəldiyin həyət döyülmü, niyə biz tərəflərə gələndə bir yanını qaçaraq qoyursan, bizim gədələrdən (qardaşlarını nəzərdə tuturdu) bir xəvər-ətər yoxdumu, son vaxtlarda canım yaman sıxılır, axı məktublarının arası bir belə uzanmazdı...

Şəmşəd kişi bunları deməklə yetinsə nə vardı ki?! Sonra yuxarıdan aşağı sınayıcı nəzərlərlə düz Kamışın gözlərinin içinə baxmışdı. Kamış başını qaldırıb baxsa, gözlərinin onu ələ verəcəyindən qorxub, dodaqaltı mızıldanmışdı: – Ay qağa, hələlik bir şey yoxdu, vallah, olsa bə gətirmərəmmi, olan kimi gətirəjəm.

Özü öz dediyi yalana necə inanmaq istəyirdi, kaş o görünməz Allah bir möcüzə göstərəydi, Muradın “sağdı” xəbəri gələydi. Kəndarası yoldakı son görüşlərindən sonra Şəmşəd kişinin ümidsiz gözləri Kaftarı dəli eləmişdi.

Muraddan gələn “qara kağız” nə birinci, nə də axırıncı idi. Amma başqaları bu qara xəbərlərdən duyuq düşməz, hətta oğlunun, ərinin, qardaşının xoş xəbərini almasalar da, bəd xəbərini almadıqlarına görə sevinirdilər də. Kaftarı dəli edən də başqalarından fərqli olaraq, Şəmşəd kişinin onun sözünə inanmamağı idi. Fərqinə varmışdı: “Nə qədər ki Muradın qara xəbəri gəlməmişdi, Şəmşəd kişinin irzi-rəngi yerində idi. Nə oldu da Muradın qara xəbəri gələn gündən kişinin ruhu uçundu, gözləri sönüb quyunun dibinə düşdü, özünü-sözünü bilmədi?” Kişiyə Muradın qara xəbərini çatdıracaq olsa, Kamış çatdırmalı idi. O isə bu xəbəri az qala özündən də gizlətmişdi. Elə isə, Şəmşəd kişi bu xəbəri hardan bilə bilərdi?

# ATANIN SON MƏKTUBU

*“Ömür sahibindən ömürlü məktub...”*

İkinci sinifdə oxuyurdu Güzar. Balaca boyu ilə kəndin ayağından məktəbəqədərki üçkilometrlik yolu qışın oğlan çağında qarı yara-yara gedirdi. Daxmaları kəndin qurtaracağında olduğundan, sabahın ertəsində yolda qar üstündə ilk izi də Güzardı salan. Oxumağa elə həvəsi vardı ki! Anası – balama qurban olum, məktəb vaxtı gəldi, dur – dedimi, yerindən tələsik qalxıb, nimdaş paltarlarını əyninə geyinib, məktəbin yolunu tutardı. Amma məktəbdən geriyə – evlərinə dönərkən bir elə də tələsməzdi, tay-tuşları ilə yolda vaxt keçirərdi.

Bir dəfə yenə məktəbdən qayıdanda Qarasuyun üstündəki daş körpünün kənarında sinif yoldaşları ilə “kim kimi” öcünə düşüb güləşməyə başlamışdılar. Güzarı tək görən eyni səmtin uşaqlarından biri – Bəri gəl göröm, çox özündən deyirsən, baxaq görək dilin qədər dilçəyin də varmı? – deyib, Güzarın yaxasından qamarlayıb yıxmağa çalışdı. Güzar özünü itirib-eləmədi. Aşırma kitab çantasını çıxarıb yerə atmağı ilə qarşısındakının yaxasından yapışıb badalaq vurmağı bir oldu. Şeşələnən uşaq gözünü açıb yumana qədər özünü yerdə gördü. – Yox ey, bu hesafdan döy, bu hesafdan döy, mən hazır döyüldüm, oğulsan, gəl bir də güləşək! – deyib, yenidən Güzarın üstünə cumdu.

Ətrafdakı uşaqlar hay-küy salır, rəqibini Güzarın üstünə qısqırdırdılar:

– Di ha, gözünə dönüm, basmarlayıb ayağının altına al! Canı civindənin biridir, bir homzunsan, arxasını yerə vurajaqsan!

Güzar bu deyilənləri qulaqardına vurub yenidən qarşısındakının üstünə cumdu, cummağı ilə də yenə qaldırıb yerə vurmağı bir oldu.

Yenilən uşaq üst-başının tozunu çırpa-çırpa yenildiyi Güzara yox, onu qızışdıran tay-tuşlarına qanlı-qanlı baxdı: “Mən bacarmadım”.

Güzarın gözünü qan örtmüşdü, isti-isti hayıfını bayaqdan kənardan baxıb, rəqibinə "qorxma-qorxma" deyən uşaqlardan çıxmaq istəyirdi. İstəyirdi ki, elə indicə onların hamısını qaldırıb bircə-bircə yerə vursun. Hamıdan çox hay-küy salan, uzun boyuna görə elə sinifdə də özünü yekəxana aparan Nurəddini gözü kəsdirmişdi. Onu qaldırıb yerə vursa, ətrafındakı uşaqların hamısının gözünü qorxudacaq və bundan sonra sinfin qoçusu özü olacaqdı. Yaxınlaşıb, Nurəddinin yaxasından yapışmaq istəyirdi ki, heç kimin gözləmədiyi halda Nurəddin sakit-sakit dilləndi:

– Get, özünün tayını tap, bala, xəstənin birisən, qaldırıb vuraram yerə, qolun, qılçın şil-küt olar, sonra ananın əlində qalaram, yeri, yeri, xəstənin biri.

Güzar bu sakit deyilən sözlərin təsirindən çaşsa da özünü itirib-eləmədi:

– Xəstə sən özünsən, mən niyə xəstə oloram. Oğulsan, gəl güləşək, onda görərsən xəstə mənəm, yoxsa sən?!

Güzara yaşından böyük bu sözləri söylədən içinin səsindən çox, anasının yeri gəldi-gəlmədi, – bilirsən sən kimin oğlusan, bax, bu qapıya döyülüb gəlmə ha, gəlsən, özündən küs – sözləri idi. Güzarı Güzar edən yalnız anasının dedikləri deyildi ki... Qonum-qonşular da uşaqlarını onunla oynamağa qoymurdular, oğullarına – Atası yolu yollanmış qızıl ilan balasıdır, onnuq işiniz olmasın, – deməzləri də elə anasının dediklərinin eyni idi.

Adına Nurəddin yerinə "Nuruş" deyilən söz altda qalmadı:

– Xəstə olsam, mənim də döşümdə dua olardı, bir bax, gör səndən başqa kimin yaxasında dua var, hə, ay yazıq, xəstəsən ki, döşündə dua gəzdirersən.

Tay-tuşlarını gözaltı süzdü, Nuruş yalan demirdi, ondan başqa kimsənin yaxasında dua-filan yoxdu. Xəstə deyildisə, anası yaxasına niyə o duanı tikmişdi?

Güzar cavab qaytarmağa fərli-başlı bir şey tapmayacağını görüb, pisikə-pisikə evlərinin yolunu tutdu. Elə yarı yolda yaxasına tikilmiş duanı qoparıb atmaq istədi. Bərk dartsa köynəyinin cırılacağını görüb,

qoparmadı. "Axşam anam işdən qayıtsın, hələ bir görüm, xəstə döyüləmsə, bu duanı niyə yaxama tikib? Xəstəyəmsə?!.. Hamısını bircə-bircə özündən soruşajam". Axşam anası kolxoz işindən yorğun-arğın qayıdanda Güzar anasının nəfəs dərməsinə imkan vermədi:

– Niyə indiyə qədər mənə xəstə olduğumu deməmisən, hay?!

– A anan o qara qaşlarına, qara gözlərinə qurban, belə səni istəməyənlər xəstə olsun. Xəstə niyə olorsan, a gözümün işığı, onu sənə hansı dili qurumuş dedi?!

– Xəstə deyiləmsə, bə bu yaxama tikdiyin nədir, uşaqlar baxıb maa lağ eliyer, tez ol, çıxar bunu, tez ol, çıxar, sən çıxarmasan indijə qoparıb hara gəldi fələzliyəjəm, bax, özün bil!

Ərinin cəbhədən gələn son məktubunu üçkünc büküb dua kimi oğlunun yaxasına tikəndə Gülsümın arzusu vardı: "Hələlik atasının məktubu balasını qorusun və günün birində Murad qayıdıb gələndə birlikdə o məktubu yenicə oxumağı-yazmağı öyrənən oğullarına oxutdursunlar..." Aradan nə qədər vaxt keçmişdi, arzusu gözündə qalmış, onu "Ana" edən igidindən bir xəbər-ətər çıxmamışdı...

– Kimi gözdüyürsən?

Güzar anasının gözü qabağında "dua"nı dartışdırmağa başladı.

– Yaxşı, yaxşı, dartışdırma, yaxın gəl görüm.

Gülsüm əlacsız-əlacsız qayçını əlinə aldı, dodağının altında nəsə oxuya-oxuya üçkünc duanın rəngini itirmiş örtüyünü kəsib, içindən yağışdan, tərdən islanıb, hərfləri bir-birinə qarışmış kağızı əlləri titrəyə-titrəyə balasına uzatdı:

– Al, oxu!

– Mən o hərfləri oxuya bilerəm ki, oxuyam da?!

– Oxuya bilərsən, oxu?

– Bizə molla hərfləri öyrətmerlər ki, nejə oxuyum?

– Sənin oxuya biləcəyin yazıdı, a dərdin ürəyimə, al oxu, atanın məktubudur, gör sənə nə yazıb?!

Güzar əvvəlcə nə deyəcəyini bilmədi, sonra məktubu alıb oxumaq istədi, gözünə yaxın tutub hecaladı, amma yağışdan, qardan nəm çəkmiş,

hərfləri pozulub bir-birinə qarışmış məktubu oxuya bilmədi, gözlərini döyüb anasına baxdı...

Bu çaşqınlıq içində yadına nələr düşmədi Gülsümün? İşdən evə dönərkən meşə cığırında Muradın qabağını kəsdiyini xatırladı və Muradın "Allah istəsə, barsız söyüd ağacı da bar verər" sözləri qulaqlarında səslənib içini göynətdi... Hər şey Muradın dediyi kimi olmuşdu, barsız söyüd ağacının barı – Güzarı artıq məktəbə gedir, oxuyub-yazmağı bilir. Nə deyəydi bircə ciyərparasına, dünyalar qədər sevdiyi ər yadigarına? Ürəyindən keçənlərin çoxusunu deyə bilməzdi ki?! Deyəydimi ki, belə o məktub atanın sənə son nişanəsi, son yadigarıdır. O məktub gələndə sən balaca idin, çox balaca. Allahdan atanın geri dönüşünü, sənin tez böyüməni istədiyimdən dua kimi yaxana tikmişdim atanın son məktubunu. Niyyətim o idi ki, heç olmazsa, sən məktəbə gedib oxuyub-yazmağı öyrənəndən sonra açım. Açım ki, atanın son məktubunu özün oxuyasan və mənim dediklərimdən yox, elə atanın öz məktubundan necə mərd bir kişinin oğlu olduğunu öyrənib biləsən!

Bunları ürəyində fikirləşdi ana, amma demədi, deyə bilmədi, dilində isə:

– Heç bilersənmi sən neylədin, a yaradanın yanılmasın? Duaydı, məktubdu qalmışdı yaxanda, sənə ağırlıqmı eləyirdi, açdırıb dərdimi təzələdin, – deyib, özünü tuta bilmədi, umub-umub tökdü. İçindən qara qanlar axan Gülsüm bütün bunların xeyirlik əlamət olmadığını qadın fəhmi ilə hiss etmişdi: "Mən ki o məktubun üstünə dəri örtük tikmişdim, bu necə olan işdir ki, yağış-qar o dəri örtükdən keçib o kağızı bu sufata saldı?!"

Gülsüm hardan biləydi ki, didilib parçalanan quru kağız deyil, onu ana edən igidinin ömür yoludur. Dərd didilən məktub dərdi olsa nə vardı ki? Gülsüm Muradın olub-qalan son şəklini də medalyon edib Gülyazın yaxasına taxmışdı. Gülyaz, – istəyirəm qağamın şəkli ürəyimin başında olsun! – deyib inad etməsə, Gülsüm heç belə iş tutardımı?! Bir də, Gülyazı da qınamaq olmazdı, kənddə dəb düşmüşdü, atası, əmisi, dayısı, qardaşı müharibədə olan kənd qızları onların yadigar şəkillərini medal-

yon edib sinələrində gəzdirirdilər. Buna görə də Gülsüm Gülyazın ürəyini qırmamışdı. "Qoy anasız böyüdüyünü hiss etməsin, gərək heç Güzarın yaxasına o məktubu dua kimi tikməyəydim. Tikməsəydim, qız da onu görüb, – atamın şəklini də mənim yaxamdan as, – deməzdi. O, uşaqdı qanmır, bəs sənə nə olub, əl boyda uşağın sözüylə elə iş tutarlarmı? Tutdun, hə, bu da nəticəsi?!" Tərs kimi o axşam Gülyaz da evə göz yaşı içində gəlmişdi. – Bilmirəm atamın şəklini harda salıb itirmişəm, – deyib hönkürmüşdü. Səsə Şəmşəd kişi həyətə çıxmışdı:

– Nə olub, nə var, a gəlin, bu qız niyə ağlayır?

Şəmşəd kişi Gülsümün Gülyaza göz bəbəyi kimi baxdığını bilirdi, indi birdən-birə qızın hönkürməsi kişini çaşdırmışdı:

– Heç... ay qağa, vallah, onun gül üzünə "püf" də deməmişəm, demərəm də. Belə qağasının medalyon eləyib döşünə taxdırdığı şəklini salıb itirif, ona görə ağlıyer.

Güzarın yaxasından açılan dua-məktubdan xəbər tutmayan dünyalar yorub yola salmış Şəmşəd kişi nədənsə isti-isti bu medalyon itməsinə bir elə də əhəmiyyət verməmiş, qardaşı qızını yanına çağırıb, alnına tökülən qıvırcıq saçlarını sığallamışdı (özü öz dediklərinə tərəddüd etsə də!): – Ömrüm-günüm gör nədən ötrü ağlayer, şəkildi, itif, itif, canın sağ olsun. Allah qoysa, atan sağ-salamat qayıdıb gələr, bir yox, yüz şəkil çəkdirər, onda hansını istərsən, yaxana taxarsan, ağlama...

# HİSLİ LAMPALARINDAN YOXSULLUQ YAĞAN EVLƏR...

*Lampa o zamana qədər işıq verər ki, içində yağ olsun.*

Uzun payız, qış gecələrində evin təpəgöz, dəmir torlu pəncərəsindən hisli nöyüt çırağının işığı gəlir. Payızın sıx dumanında, qışın çat ayazında boğulan bu işıq uzaqdan baxanda yuxusuzluqdan qıpqırmızı qızarmış tək gözə bənzəyir. Bilən yoxdu, doğrudanmı Şəmşəd kişi səhəri diri gözlə açır, yoxsa elə uzaqdan belə bilinsin deyə, çırağı yana-yana qoyur. Kişinin nə vaxt yatıb, nə vaxt oyandığını qonşular yox, heç evdəkilər də düz-əməlli bilmir. Onluq lampanın piltəsindən qalxan alov dilimləri çəkilən qardaş dərdi kimi çoxalıb-azalır, enib-qalxır, kənardan baxanlara – İçinizdəki bəd fikirlər dağlara-daşlara. Gözünüzü çəkin, bilin ki, bu daxmada mən yanıramsa, hamı sərvaxtdır, – deyir. Neftin qəhətə çəkildiyi o qaranlıq illərdə Şəmşəd kişi hər şeydən çox bu onluq çırağın dərdinə qalır, onu “ac qalmağa” qoymur: “Çırağın həyatı yanmağındadır”. Axşamın gözü qaraldımı, onluq çıraq qaranlığa göz açıb meydan oxuyur, bilir ki, bu evin sahibi boğazının çörəyini kəssə də, onun ruzisini kəsməz. Dodağının altında arabir ötdüyü ikicə misrası da vardı dua kimi öz-özünə gümüldənəndə Şəmşəd kişinin:

Gəncliyim şam idi, bədənim şamdan,
Nə varsa, əriyib içimə getdi!

İşıq olmayan yerdə qaranlıq var, bunu kim bilməsə də, Şəmşəd kişi yaxşı bilirdi. Evdəkilər Şəmşəd kişini sözsüz də başa düşürdülər. Bir vaxt Muradın qorxusundan bu evin həndəvərinə oğru-quldur yox, heç qurd-quş da yaxın düşməzdi. İndi isə... indi isə... Allah eləməmiş,

Muradın arvad-uşağının başından bir tük əksik olsa, ölüm ondan fərz olar: "Bu da keçəndəfəki deyil ha, gönü suya axıdasan". "Qəni" deyilən zatıqırığı o zamanlar evinin içinə buraxmasaydı, heç ozamankı söz-söhbət də aləmə yayılmaz, sonu da belə olmazdı... Lap yüz il yüz ilə getsə də, düşmən yenə düşməndi, təkcə ayaqda olanları deyil, hətta beşikdəki körpələrin də sayını biler. Söz sözü çəkdiyi kimi iz də izi çəkir. Pərvanə işığa gəldiyi kimi, görünməz bəla da hər zaman insanın peşindədir. Yatmamışdan əvvəl arxası üstdə uzanıb Allahla üz-üzə qalmağı, oxuduğu dualarla içini təmizləməyi var Şəmşəd kişinin: "Ya Əhəd, ya Səməd, ya Mədəd... Səndən başqa sığınacaq bir yerim yoxdu. İlk ümidim, son pənahım sənsən. İmansızlardan niyə qisas aldığını bilerəm, a sənə fəda olum, bə mənim günahım nədir? Kimə agah döyülsə, sənə agahdı ki, hələ indiyə qədər dilimə yalan, əlimə haram dəymiyif. Səndən hər zaman ömür yox, möhlət istəmişəm. Canımı havaxt istəyirsən al, amma mənə qardaşlarımın dönəcəyi günə qədər imkan ver, sonrası sənin bildiyin işdir. Məni kimsəyə möhtac eləmə, hətta öz övladlarıma da! Bilmədən işlədiyim günahlarımı birsən, birliyinə, minbir adına bağışla. Gücüm özümə çatır, qonum-qonşunun, qohum-qardaşın günahını mənim ayağıma yazma, ya Rəbbim".

Muradın adını heç özü də fərqinə varmadan daha çox çəkərdi dualarında, bəlkə Allah yanında suçlu olduğuna, əli qana batdığına görə. Axı Muraddan başqa dörd qardaşı da vardı. Niyə onu atın qabağına qatıb milisə aparanda arxasınca təkcə Murad gəlmişdi, yaşının o vaxtında gözünü qırpmadan dost-doğmaca satqın dayısına Murad əl qaldırmamışdı? Murad, Murad deyil, od parçasıydı. Bu, ruh işi deyildisə, bəs nəydi? Allahın göstərməli işləri nə çox. Hər kəsin bədəni bir evdir, bir bədəndə gör bir neçə adam yaşayır. Birində oğru var, o birində doğru. Birində yoxsul oturub, o birində padişah. Birində nur, o birində atəş. Birində söyüş, o birində iman. Taleyin gözlənilməz şapalaqları çoxlarını yerlə-yeksan edərkən bir başqasına ağlagəlməyən güc verir, bir ağacdan bel sapı da olur, balta sapı da. Bir belə daban-dabana zidd olan qardaşlara harda rast gəlinib? Birinin ətəyində namaz qıl, o birisi

qan çanağı. Görə bilən gözlər üçün qəhrəmanlıq izləri ilahi tərəfindən pay verilmiş kimsələrin alnında doğuşdan var olur. İnsan damarlarının hərəsi bir yoldur və bu damarlarda çağlayan qan da bir izdir – Allahdan insana uzanan bir iz! Elə, ya belə, Şəmşəd kişi Muradı çox sevirdi, sevdiyinə görə də yolunu səbirsizliklə gözləyirdi. Namərd gülləsi Murada yaxın düşə bilməzdi, düşsəydi burda namərdmi yoxdu?!

# SEÇİLƏN BƏNDƏDİR, SEÇƏN ALLAHDIR

*“Keçmiş zaman həm indiki, həm də hələ gəlməmiş, amma mövcudluğuna şübhə edilməyən gələcək zamandır”.*

Nə yaxşı ki keçmiş var, keçmişin acılı-şirinli xatirələri var, yoxsa insan bu günün çıxılmazlığı qarşısında haraya sığınar, nədən mədəd umar, təsəlli tapar? Görünür, keçmiş ağrı-acısı, dərdi-əzabı ilə yenidən təkrarlana bilməyəcəyi, tərəfsiz bölgə olduğu üçün bir bu qədər xatırlanandır. Keçmiş də eynilə nağıllar və dastanlar kimidir, zamanının əbədi axarına qarışdıqdan sonra, görünür, ona gözəgörünməz güclər də müdaxilə edir, bəzəyib-düzəyir, əyər-əskiyini tamamlayır, indinin və gələcəyin sığınacaq yerinə çevirir. Əslində, dünyanın keçmişi gedib-gedib Allaha, onun yaradılış lütfünə dayandığı kimi, elə hər insanın keçmişi də Allahda dayanır. İnsan Allahın əzəldən əbədə, keçmişdən gələcəyə saldığı izdir. Hər insan Adəmin Allah tərəfindən salınan izini təkrarlayır, onu öz taleyi ilə bir az da genişləndirir, zaman adlı məchulun gözəgörünən işlək yoluna çevirir. Bəlkə buna görə də keçmiş bütün yadda qalan və ya qalmayan sıxıntıları ilə şirin olur. Şəmşəd kişinin də beləcə dərdli çağlarının qəlyan tüstülərinin dumanlığından vaxt-bivaxt keçmişinə dalmağı vardı: “Bu, bir tale işidir, nəyə baxsan, indiyə, gələcəyə yox, keçmişə baxırsan”. Şükür, keçmişində elə günah çatısı qoyub gəlməmişdi ki, arxasınca sürünsün, dilinə yalan, ağzına haram dəyməmişdi. Şübhələndiyi bir şey olanda və gücü yalnız özünə çatanda damın altında əsib-coşurdu: “O oxuduğum otuz cüz “Quran” haqqı indicə damın üstünə çıxıf bağırajam ki, ay camaat, qoymayın gözüm baxa-baxa bu haramzadalar maa haram tikə yedirdib murdarlayırlar”. Neçə dəfə belə etmək istəmişdi də. Amma hər dəfə də el yolunu azanda mollanın yanına gəlir, “molla ağlını qaçırsa necə olsun”, misalı

köpünü yatırtmışdı. Yeri gələndə evdəkiləri tənbeh edirdi: – Ə, a bala, sizə yüz dəfə demişəm, evə haram gətirməyin, bizə haram düşmör. Elə bilirsiniz xavarım olmur, başımıza gələn hər uğursuz iş sizin haramınızın ucbatından deyilsə, bəs nədəndir?

Əlacı hər şeydən kəsiləndə üzünü göylərə tutub, Allaha əl açıb dua edir: "A sənə fəda olum, sənin hikmətinlə el-obada yoldan azanları yoluna qaytaran mənəm, amma öz damımın altındakılara sözüm keçmer, bu nədir başıma gətirersən? Bu nə ailədir mənə vermisən, ətrafımda hər şey yalanla nəfəs aler? Yaratdığın quş quşluğuyla göydə uçmağın zamanını biler, bəs mənimkilər nejə, bilermi?"

Bunları zikr edə-edə içindən başqa bir fikir də baş qaldırır: "Küləyin necə əsdiyini, uşağın ana bətnində süddən sümüyə necə döndüyünü bilmersənsə, hər şeyi yaradan Allahın işlərindən də baş açmazsan, səbr et".

Allah Şəmşəd kişini də belə yaratmışdı, arzu və düşüncələrində nə pul vardı, nə var, nə şeytani aldatmacalar. Damarını dağıdan gözəgörünməz ilahi gücdən və bu gücə xidmətdən başqa onu fani dünyaya bağlayacaq heç nə yoxdu... İsa peyğəmbəri var edən Allah yanında İudanı da yaratmışdı… Xamdım, yandım, bişdim, qurtuldum" sözlərini tez-tez xatırlayırdı, xatırlaya-xatırlaya da fikirləşirdi ki, inşallah, bir gün Muradın də başı əhləd daşına dəyib günahlarından sıyrılar, Allah yoluna gələr. Bircə o gözəgörünməz Tanrı bu dəfə onu mənim dualarıma, gözü yolda qalan arvad-uşağına bağışlasın, qayıdıb çoluqçocuğunun içinə gəlsin, ondan sonra adına fəda olduğumun özü bilən məsləhətdi... Dualarının çox zaman müstəcəb olduğunu bilirdi, bu dəfə də olmağını gecə-gündüz bir olan Allahdan istəyirdi. Öz-özünə bir zamanlar ona-buna verdiyi məsləhəti zikr edirdi: "Söylədiyiniz hər sözə diqqət edin, dua qapısı hər zaman açıqdır..." Qardaşının müharibədən sağ-salamat dönəcəyinə möhkəm inanırdı, niyə də inanmayaydı, hələ ki Murad yola düşən günü kimsəyə söyləmədən olan-qopanından ürəyində fikirləşib qurban və ehsan dediyi, göz bəbəyi kimi baxdığı Qara qoç, Şah beçə, Yanıl alma üzüsuyu ilə dururdu. Bu nəzir-niyazlar onun

sirri idi, müqəddəs sirri! Qardaşı yola düşən günü tapdanmasın deyə, izini çəpərin içinə salmış, sonra gecə səhərə qədər yatmamış, Allahla üz-üzə dayanmış, ona dualar etmiş və ürəyində tutduğunu tutmuşdu. Murad cəbhəyə qapılarında on yeddi arı daqqası qoyub getmişdi. Bu arıların hamısı Muradın halal zəhmətinin bəhrəsi idi. Halalı haramdan ağzının tamından əvvəl fəhmi ilə seçən Şəmşəd kişi Muradın nəyə haram qatsa da, arılara haram qatmadığını bilirdi. Qatmaq istəsə də, qata bilməzdi. Allahın bu mübarək varlıqları haram götürmür ki?

Son zamanlar Muradın məktublarının arası kəsilsə də, şükür Allaha ki, başqa qapıları döyən "qara kağızı" da gəlməmişdi. Neçə dəfə Kaftarı sıxma-boğmaya salmışdı, o da hər dəfəsində – ay qağa, Muraddan bir xəvər olsa, özüm qaça-qaça gətirmərəmmi – cavabını vermişdi.

Kişini şübhələndirən onu görəndə Kamışın bir ayağını qaçaq qoyması idi. İçində bu düşüncəsinə görə öz-özünü danlamışdı da. "Yazıq olmamışın iki ayağımı var, birini qaçaq qoya?" Bir Kaftara, bir də onun çolaq ayağına baxmışdı. "Allah evini yıxsın Hitlerin, yazıq Kamış müharibəyə getməmişdən əvvəl kəndin tanınıf sayılan, ağzıyla quş tutan oğullarındandı, indi gör nə gündədir, Allah bu boyda günahı götürərmi? "Qaça-qaça gətirərəm" deyir, bədbaxtın qaçmağa ayağımı var?" Bəlkə hər dəfə içindən bu hisslər keçdiyinə görə də Kamışla uvuxlu davranırdı.

Kişi yata bilirdisə, gecələri quş yuxusuna gedir, səhər dan sökülməmişdən oyanır, üzü Allaha: "Ya Əhəd, ya Səməd, ya Mədəd", deyə dualarına başlayırdı. Dan yerinin yaratdığı dünyaların hamısına sıra gəlsin deyə, hər sabah tanrıdan yeni bir dünya dilərkən özünü Allaha bağlanmış hiss edirdi. Bu arzularla da dan üzü Allahına əl açırdı, çünki onun eşqi hər şeyə yetişəndi:

"Ötüb keçdi səhər yeli, şərqilər yarıda qaldı.
Bütün bağçalar kilidli, açarı Tanrıda qaldı.
Gəlib çatdı ən son ölmək, nə bir yarpaq, nə bir çiçək?!
Alışır günəşdə pətək, balları arıda qaldı..."

Arıları hər gördükcə dilinə gələn adı kimi doğma olan bu misralar hardan ağlında qalmışdı, kimin misraları idi, bilmirdi. Hətta hərdən ona elə gəlirdi ki, bu mahnı kimi şirin misralar dünyaya onunla bərabər doğulub. Axı bu misralarda elə sözlər vardı ki, niyə elə söyləndiyini yüz yol ölçüb-biçsə də, bir yana çıxara bilmirdi. Bəlkə arılarla, haram götürməyən bu müqəddəs varlıqlarla Allah arasında insanların bilmədiyi elə gözəgörünməz bir bağ var ki, bu haram dünyada halalı haramdan seçir və bu yönüylə də hətta haramı halala qarışan Murada da halallıq dərsi öyrədirdi. Muradın Qızıl qayadan tutduğu arı beçələri ilbəil çoxalıb on yeddiyə çatmışdı. Bu arılar Murad müharibəyə getdikdən sonra da nizamını pozmamışdı, gürül-gürül qarşı dağlara uçub min bir çiçəkdən şirə çəkməyində idi. Onlardan Şah beçəni Şəmşəd kişi ehsanlıq üçün o biri arılardan ayırıb evdəkiləri yuxuya verdikdən sonra aylı gecələrin birində qaratikan çəpərinin altında gizlətmişdi: “Qurdun, quşun gözündən iraq olsun”. Qara qoç yağ içində böyrək kimi yemləndiyindən, hüröyün böyüyürdü, yetənə yetir, yetməyənə də kəllə atırdı. O ki qaldı Yanıl almaya, sanki o da barının ehsan deyildiyini bildiyindən, özündən böyük ağaclarla yarışa girmişdi, fışqırıb qalxır, böyüyüb qol-budaq atırdı…

Şəmşəd kişini xəyallardan qoz ağaclarının başından gələn qara qarğaların qarıltısı ayıltdı:

– Ağzıyanmışlar qara xəbər gətiriblər, nədir?

– Fikrində bu qara qarğalarla, əli ilə tutub gözü ilə görməsə də, cəbhələrdən gələn qara kağızların bir bənzərliyi olduğunu düşündü. Və kişiyə elə gəldi ki, qoz ağacının başında bayquş-bayquş qarıldaşan qara qarğalar-filan deyil, səmum yelinin qanadlarında göyə sovrulan, cəbhələrdən geriyə qayıdan qara xəbərlərdir...

# ŞAH BEÇƏ, QARA QOÇ, YANIL ALMA

*"Dua bir ox kimidir, müridlərin "amin" səsləri o oxun qanadlarıdır.*
*Torpağın altına girmək istəmirsən, nurun üçün çalış,*
*çünki istəsən də nur torpağa girməz..."*

Şəmşəd kişi üçün evdəki bir çətən külfət bir yana idi, ehsanlıqlar bir yana. Mehrini onlara salıb, gününü onlarla axşam edir. Elə ki payız dumanı kimi dərd süysününün üstünü kəsdirir, çəmini tapmıyıb, bu dumanı qovmaq üçün özünü ehsanlıqların yanına verir. Qara qoç qoyun-keçinin arasındadırsa, Şah beçənin qaratikan çəpərinin altından güyültüsü gəlirsə, Yanıl alma yerdən göyə bahar nəğmələrini daşıyırsa, Şəmşəd kişinin də kefinə dəyəcək olmur. Hərdən xəlvətə salıb ehsanlıqların boyunu sevməyi də var: "Gözünə dönüm, ay Qara qoç, qardaşım gələndə səni Allah yolunda kəsib, yetimə-yesirə paylayajam, ətindən bir tikə də dilimə vurmuyajam. Üç gün ağzı oruca saz çalıb oxuyajam, böyü görək".

Müharibənin ölümü, qanı şeytani əyriliyi, oğurluğu da özüylə bərabər gətirdiyini Şəmşəd kişi yaxşı bilir. Bildiyinə görə də, Şah beçəni çəpərin altında gizləyib: "İşdi, dərənin axmağı qapısına oğurluğa gəlsə, o biri arılar gözə görükəndə dura-dura daha çəpərin altından Şah beçəni çalıb aparası ha döyül". Beləcə, öz ehtimalı özünə təskinlik olur.

Hər səhər unamaza-bilməzə çəpərin başına dolanıb qaratikan kollarının arasından qarşı Qızıl qayaya doğru gül-çiçək – şirə arxasınca uçan arılara baxır, onların gümrah vıyıltısına qulaq kəsilir. Günəşin səhər şəfəqləri altında çəpərdən qarşı yamaclara parlaq, qızılı bir iz uzanır: "Uçun, qadanızı alem, uçun, ağzı zəhər olsun Hitlerin, şirin balımızı ağıya döndərdi, uçun, elə onun ajığına uçun".

Elə bil arılar da bu nisgilli qardaşın sözünü başa düşür, bir anlıq da olsa, havada qanad saxlayır, həzin vızıltıları ilə arı dilində ona cavab verir və sonra da yenidən qarşı yamaclara üz tuturlar.

Hərdən kişinin içində elə arıya dönmək istəyi baş qaldırır ki?! Beləcə, istiyə-soyuğa baxmadan qanadlanar, düz qardaşlarının yelinə uçardı...

Müharibənin ac ağzı vara-yoxa, həyətə-bacaya süpürgə çəkib. On yeddi arı ailəsindən cəmi üç-dördü qalıb. Yerdə qalanları ehtiyaca qurban gedib, satılıb una-çörəyə verilib, bəziləri də xəstəlikdənmi, nədənmi tələf olub. Muraddan sonra onlara düz-əməlli baxa bilmir, Şəmşəd kişi, "yəqin qırılanlar Muradın xiffətindən qırıldı", deyir öz-özünə.

Ehtiyac qapı-bacaya süpürgə çəksə də, əsas olan odur ki, qaratikan çəpərinin altındakı ehsanlıq Şah beçə sağ-salamatdı. Arılar günləri həftələrə, həftələri aylara, ayları illərə calayır, uçduqca uçur, qızılı izləri ilə ayrılıq köynəyini toxuyur, zamanı bala çevirir. Nə olsun ki qardaşının məktublarının arası kəsilib gəlmir, Şah beçə ötüm-ötüm ötür, gur-gur guruldayırsa, deməli, şükür, Murad sağ-salamatdı, Allahın köməyi ilə günlərin birində getdiyi kimi də qayıdıb gələcək.

Gündüzlər cəhənnəm, yenə iş-güc var, gecələr heç cür ovuna bilmir. Divardan qara köynəyindən asılan sazının da bağrı çatlamaq üzrədir. Necə köynəyindən çıxarsın? Çıxarsa, bilir ki, simlər də əllərinə qoşulub, dil deyib hönkürəcək, özü də ağlayacaq, evdəkiləri də mələdəcək, yaxşısı budur, Murad gələnə qədər qara köynəyində yatıb qalsın. Heç olmazsa, gecələr ürəyini boşaltmaq istəyir, amma boşalda bilmir, necə boşaltsın? Heç yorğanın altında da cıqqırını çıxara bilmir, damın altında bir çətən külfət var. Təkcə öz arvad-uşağı olsa nə vardı? Muradın qızılgözlü ciyərparaları arvad-uşağı ilə eyni damın altında ola-ola necə dərdini saza-sözə tökəydi? Müharibədən əvvəl də kənd adamı vergilərin altında boğulurdu. Müharibə də qansızların əlinə bir fürsət kimi keçmişdi. Vergiləri birə-beş artırmışdılar – tüstü pulu, torpaq, ağac pulu, könüllü vergi, istiqraz vergisi, orduya yardım vergisi... Bir də bunların üzərinə evdəki arvad-uşağın sayına görə də vergi ödən-

məlidir. Yalnız əsgər ailələrindən vergi alınmır. Ayrı əlac yox, vergini yüngülləşdirmək üçün ailəni iki yerə ayırmaq lazımdı. Şəmşəd kişi istəməsə də, bunu etməliydi. Evə bitişik arı damının üstündən işıqlıq açıb üzərini də qalın bir şüşə ilə örtdü. Ocaq üçün buxarı hördü, canından artıq sevdiyi qardaşının ailəsini – Gülsümü, Gülyazı, Güzarı qonşu dama köçürdü. – Dərdiniz alem, yalnız axşamlar o evdə yatarsınız, aj olsaq aj, tox olsaq tox, birlikdə olacağıq, heç olmazsa, vergimiz bir az azalar, – dedi.

Vergi məsələsi bəlkə də bir bahanə idi – Şəmşəd kişi sazıyla-sözüylə baş-başa qalıb hönkürmək, içini boşaltmaq istəyirdi. Gülsümün, Gülyazın, elə Güzarın da yanında bunu etməmişdi, edə bilməmişdi. O ayrılıq günündən sonra hər gecə divarın o tərəfindən qaya dibindəki tənha bulaqtək saz səsi gümüldənirdi. Divarın bu bir tərəfində isə gecələr Gülsümün gözünə uzun zaman yuxu getməzdi. Bəlkə Güzar olub-bitəndən xəbərsizdi, amma Gülyaz da bacısı (Gülyaz analığını bacı deyə çağırırdı) kimi özünü yuxuculuğa vursa da, qonşu divardan süzülən saz səsi bacadan düşən Ay işığına qarışıb, ürəyini pilə kimi əyirdikcə əyirər, incəltdikcə incəldərdi. Bacadan düşən Ay işığı Güzarın könlüncə deyildi, o istəyirdi ki, inəyin döşündən baydalara bəmbəyaz süd sağıldığı kimi, o da gündüzlər günəşin işığını bol-bol vedrələrə yığsın, yığsın ki, gecələr o işığı zinirik odalarına boşaldıb çıraqban etsin, canını qorxduğu qaranlıqdan qurtarsın, ana və bacısını çaşbaş salsın...

Zamanın gözlərinin yolda qalan vaxtıydı. Kənd bir adama dönüb kimisə gözləyirdi – kimsə gəlirdi, gəlirdi, amma yenə də gəlib çıxa bilmirdi. Hər kənd daxmasının bir gözlədiyi vardı. Döyüşə yollanan ərlərindən sonra hamilə analar övladlarını qılınc kimi bətn qınından sıyırıb analıq hissi ilə qadınlıq hissinin arasına qoymuşdular. Müharibə illərinin qadınları bir də bəlkə buna görə daha etibarlı idilər. Ürəyi ata yelinə nanə yarpağı kimi əsən körpələrin gözündə ataları şirin bir xəyaldı və onlar bu xəyali görkəmləri ilə dünyanın bütün yaxşı adamlarına oxşayırdılar. Atalar görünməz bir qüvvə kimi kölgəsini

övladlarının üstündən heç zaman əsirgəməzdilər. Anaların gözləri qarlı bacaya dikilib qalar, qulaqları qeybdən gələcək səslərə açıq olar, dodaqları dua pıçıldar kimi, nəsə pıçıldardı. Yuxularında əsgər ərlərinin yeri boş qalan cavan gəlinlərə hərdən elə gələrdi ki, kimsə qapını döyür. Bilməzdilər, doğrudanmı qapı döyülür, yoxsa qulaqlarımı səsə düşür, bu xəyali döyüntülər ürək döyüntülərinə qarışıb onları sabaha qədər çimir almağa qoymazdı. Sabah erkən durub həyətə gələn qarlı cığırlara baxıb iz-filan olmadığını görəndə qulaqlarının səsə düşdüyünü anlardılar və bu hal bir dəfə yox, yüz dəfə təkrarlanardı... Güzar anası, bacısı kimi deyildi, saz səsi və Ay işığı onunçün hələ uzun gecələrin yuxu dərmanı idi.

# ATALAR ÜÇƏCƏN DEYİB...

*"Dünya körpüsü ancaq keçib getmək üçün qurulmuşdur. Körpü üstündə ev tikib yaşanılmaz ki?!"*

Şəmşəd kişi arvaddan-uşaqdan daha çox gecələr meylini saza, gündüzləri isə Şah beçəyə, Yanıl almaya, Qara qoça salmışdı. Yaxşı ki onlar vardı, Allah eləməmiş, onlar da olmasaydı, indi çoxdan sümükləri Güllü təpənin altında çürümüşdü. Səhərin gözü açılmamış əvvəl çəpərin altındakı Şah beçəyə "sabahın xeyir" deyərdi, elə ki Şah beçənin gümrah güyültüsünü duyar, ürəyi əminlik tapar, qəlyanına tütün qoyub odlayar, yenə tənbəki zəhərinə hazır içini öskürək tutar və tüstüsü təpəsindən çıxa-çıxa bağa tərəf enərdi. Şah beçənin arıları onun bu qəlyan tüstüsünə elə alışmışdılar ki, hətta kişi daqqanın qapağını açıb, Şah beçənin vəziyyətini öyrənmək istəyəndə də onu sancıb-eləməzdilər və kişi bağçaya tərəf enəndə papağının çevrəsində, qarağul dərisinin qıvrımlarını arı xızanı bilib vızıldaşa-vızıldaşa onu Yanıl almanın yanına qədər ötürərdilər. Yanıl almanı sağ-salamat görüb toxtadıqdan sonra arxayın olub, işlərinin arxasınca qarşı yamaclardakı çəmənlərdən şirə çəkməyə uçardılar.

Murad müharibəyə gedəndən sonra sanki ruzi-bərəkət də onunla getmişdi. Yazağzı arıların beçə verən vaxtı gələndə Şəmşəd kişi qəsdlənib neçə dəfə Muradın Qızıl qayada qurduğu hourlara baxmağa getmişdi, bəlkə beçədən-zaddan düşər. Amma hourlar Muradın qoyub getdiyi kimi qalırdı. Qaya dəliyinin önünə mal peyininə duz qarışdırıb suvadığı daş qapağın çevrəsində qardaşının barmaq izlərinin olduğu kimi qaldığını, pozulub-eləmədiyini görüb: "Şükür kəraminə, Allah, izi buradadı qardaşımın, bə özü hardadı?", deyib tasalanardı. "Quruca palçığın da insandan ömürlüdür!" Sonra da özünü danlayıb, "Nə qarmat-qarmat düşünürsən, ağzını xeyirliyə aç, görmörsənmi bu tanrıtanımaz dava həyətə-bacaya, kəndə-kəsəyə süpürgə çəkib. Nəyi qoyub, nəyi axtarersan? Nə qədər ki

Şah beçə gümüldənir, deməli, işlər yolundadır. Fəda olduğum bizə açmadığı sirri onlara açer, dilim-ağzım qurusun, Muradın başında bir iş olsaydı, onlar beləcə qayır-qayır qaynaşardımı?!"

Şah beçədən arxayın olduqdan sonra kişini aşağı bağda Yanıl alma gözləyərdi. O Yanıl alma ki haçansa calaq çubuğunu aran bağlarından Murad özü kəsib gətirmiş, cır almaya calamışdı. Yolu yaxın olmuşun əlindən hər iş gəlirdi. Bircə etdiyi o iki qələt olmasaydı nə dərdim olardı, heç indi içimi yeyib tökməzdim də. Amma yazıq olmamış o xataları özümü seçdi, ölümü gələndə çobanın çomağına sürtünən keçinin özü ölmək istəyirsə, çomaq neyləsin?

Barmaq uzunluğunda çubuq calandığı günün yaz yaddaşından bir neçə ilə dönüb qollu-budaqlı ağac olmuşdu. Hələ siz onu qonur çiçəklər açanda görəydiniz. Şah beçə elə bil o calaq almanın da Muradın yadigarı olduğunu bilirdi. Alma çiçək açdımı, əlüstü onun qonur çiçəklərinə daraşıb, ətrini alma çiçəyindən alırdılar. Şəmşəd kişi baxır, baxır, ürəyində onlara hətta həsəd də aparardı. "Baxtavar başınıza, gör bir-birinizin dilini nejə də anlayırsınız, kaş yerinizə mən olaydım!"

Arılar qızılı güllələr kimi arı daqqasından qanadlananda: "Doğru demirdin, arxanca düşən qızıl güllə deyil, bunlardır, arı gülləridir, ay qardaş!" deyərdi öz-özünə. Hərdən Şəmşəd kişiyə elə gələrdi ki, arılar təkcə Qızılın yamaclarına şirə çəkməyə getmir, bəlkə lap o dava deyilən zəhrimarın olduğu yerə qədər də uçur, Muradı tapır və onun sağ-salamat olduğunu gördükdən sonra əmin-arxayın pətəklərinə qayıdır. Yoxsa belə gümrah olardılarmı? Yanıl almanın da dünya vecinə deyil, kökü yerdən xəbər tutur, budaqları göydən. Torpaqmı əmici tellərinə bir şeylər söyləyir, yoxsa yarpaqlarmı uzaq əsən yellərdən bir şey öyrənir? Belə olmasaydı, maşallah, heç üstündən qış ötməmiş kimi, başqa ağaclardan daha gümrah olardımı?!

Müharibəyə gedərkən o ayrılıq anlarında Murad arı kimi Yanıl almanı da qağasına tapşırmağı unutmamışdı: – Ay qağa, Yanıl alma əmanəti, sən Allah, ondan muğayat ol. Qoy bir bara dolsun, hər biri bir kilo olajaq, görərsən.

Hələ Murad kənddə ikən Yanıl alma ilk nübarını vermişdi. Üstü çil-çil, yanaqları Yanıl alma böyüklüyü ilə nağıllardan çıxıb gələn qızıl almaya bənzəyirdi. Demə-görmə, Məlikməmmədin divlərdən qoruduğu almanın eynisi! Birinci qar düşüb yerdə qalmadığı kimi, Yanıl almanın ilk barı da yetişənə qədər budağında qalmamış, küləkdənmi-nədənmi, gecələrin birində yerə düşmüşdü. Muradın arzusu gözündə qalmışdı, elə istəyirdi ki, Yanıl almanın birinci nübarı yetişəndə dərib qağasına verib, öyünsün. Amma çox işdə olduğu kimi, burada da bəxti gətirməmişdi. Hətta öz-özünə fikirləşmişdi ki, belə də iş olar, başqa yerdə ağzımla quş tutsam da, bu kişinin yanında mənimki gətirmir ki, gətirmir. Murad, əlbəttə, içindən keçənləri keçdiyi kimi qağasına açıb söyləməmişdi, söyləməzdi də. Amma yerə düşüb bir tərəfi əzilmiş kal almanı bağdan evə qayıdarkən qardaşına göstərmişdi: – Bax, ay qağa, mən bu almanı deyirdim, heyf, dəyməmiş yerə düşüf, kalı bu boydadır, gör bir yetişsə nə boyda olar. Biri bir kilo gələcək yetişəndə.

Şəmşəd kişi qardaşının əlindən Yanıl almanı alıb sambamış və yenə adəti üzrə hikmətini dilə gətirmişdi. Ağac da övladını boya-başa çatdıran ana-ata kimidir, çiçək açması, bar gətirməsi şərt deyil, əsas olan barını yetişdirməsidir. Qızıl yerə düşməklə pul olmaz ki?! Yerə düşüb əzilsə də, cinsinin qızıl alma olduğu elə kallığından da bəllidir.

Şəmşəd kişi hər dəfə Yanıl almanı gördükcə Muradla aralarında keçən o söhbəti, Yanıl almanın ilk meyvəsini xatırlayırdı. Murad özü də bir zamanlar kaldı, kallığından da əlindən xata çıxdı, yoxsa taleyi də dəymişi dura-dura kalı tökülən caladığı Yanıl almaya bənzəyəcək?! Allah eləməsin! Lənət şeytana!

Bəzən adama elə gəlir ki, içindəki bəd hissi öldürüb, əslində isə o hiss ölüb-eləmir, vücudunun harasındasa ilişib qalır, yenidən baş qaldırmağa girəvə gəzir. Yaxşı ki içimizdən keçənlər gözə görünüb, dilə gəlmir, yoxsa gündə neçə dəfə ölüm-qan olar. Bunları içindən keçirə-keçirə, ovsunçu ovunu ovsunlayan kimi, o da bu hissləri ovsunlayıb unutdurmağa çalışırdı. Ayağının altından qulağına çatan xışıltı fikrini yarıya böldü. Toyuqlar təzə əkilmiş şumdan soxulcan axtarışında qarğalara macal ver-

mir, qır-qır qırıldaşırdılar. Kəltənlərin höyüş üzünə düşən yaz şəfəqləri çörəyin üzünə çəkilən nehrə yağı kimi sapsarı saralıb göz qamaşdırırdı. Yanıl almanı çiçəyə dolan görəndə hərdəfəki təmənnasını təkrarladı:

– Hə, qadan alem, bir çiçəyini tök, bara dol göröm, səni verən Allaha qurban olum, sən Allahıma bizdən daha yaxınsan, yarpaq dillərinlə göylərə əl açıb yalvar. Yalvar ki, sən barını yetişdirənəcən sahibin də sağ-salamat qayıdıb gəlsin.

Bu zaman hardansa qalxan külək üzünü yalayıb keçdi, sonra Yanıl almanın yaşıl yarpaqlarını qarışdırmağa başladı, bir-birinə dəyən yarpaqların xışıltısı ruhunu oxşadı. Küləkmi Yanıl almaya bir şey deyirdi, yoxsa Yanıl almamı çoxdan bəri içində saxladığı sirləri küləyə açırdı? Ayırd etmək çətindi. Kişi küləklə Yanıl almanın pıçıldaşmasına dalmışdı ki, elə bil bu pıçıltılardan ilhama gəlib çarpaz budaqların bükrümündən bir bülbül havalandı. Diksinən kimi oldu, içini qəfil bir fikir dalayıb keçdi: “Vallah, bu, bizim bülbüllərdəndir!” Təfərinc elədi, çarpaz budaqların arasındakı bülbül yuvası indi-indi gözünə sataşdı: “Şükür kəreminə, Ulu Yaradan, bülbüllər qapımızdakı ağcaqayın ağacına mehrini salmışdı, indi bu bülbül niyə gəlib burda yuva qurub? Bizə əyan olmayanlar Allahın quşuna əyandır bəlkə, Yanıl almanın kimin nəziri olduğunu bildiyinə görə gəlib haçasında yuva qurub...”

Bu zaman bir az öncə xəfif əsən ruzigar daha da gücləndi, yarpaqlar vurulmuş quş qanadları kimi əsməyə, titrəməyə başladı. Bunu görən Şəmşəd kişi Yanıl almanın onu dinlədiyinə şübhə etmədi: “Vallah, ölü bizik, onlar dipdiridi, bizim ayağımız var, istədiyimiz vaxt istədiyimiz yerə gedirik, istidən, soyuqdan qorunuruq, onlar ən etibarlı varlıqlardır, dünyanın bir yerində bitdilərmi, ömrü boyu ayağından o yerə pərçimlənib qalır, eləcə, üzü Allaha durduqca durur, böyüdükcə böyüyür, öləndə də ayaq üstdə quruyub ölür. Bütün bunları bilə-bilə səhər-axşam yarpaq dilləri ilə Allaha həmdi-sənalar oxuyan da yenə onlardır!”

Yanıl alma da az aşın duzu deyildi, hər yönü ilə Şah beçədən geri qalmırdı. Ətrafındakı ağaclara qıjıt verərcəsinə boyu bir az da ucalır, yarpaqları bir az da uzanır, çiçəkləri bir az da əlvan olurdu. Şah beçənin

işlək arıları qızılı qanadlarında Yanıl almanın ürəyinin içindəki sevgisini çiçəklərin tacından qonşu almalara bəlkə də lap uzaq cəbhə xəttinə daşıyırdılar. Yarpaqları buludlardan, kökləri torpağın dərin qatlarından nəm çəkən Yanıl alma Şəmşəd kişinin nəzərində yerlə göy arasında körpü idi, Muradın sağ-salamat olduğunu o da bilməyib kim biləcəkdi?! Kişi bu dilsiz-ağızsız ağaclar arasında heç yanda bulmadığı hüzuru bulurdu. Bağ-bağatın sükut dili ona səssiz-səssiz nəsə pıçıldayır, ruhunu oxşayırdı. Ağacda, kolda yox, hətta cücərən otda belə kainatın dərinliklərindən gələn bir enerji və güc var, zərrədən kainata qədər hər şeyə hakim olan ilahi güc! Hər ağacı, otu, çiçəyi duymaq üçün onların ruhuna dalmaq, onlarda gizli olan əbədiyyət dilini öyrənmək lazımdır. Şəmşəd kişi hərdənbir özünün nə zamansa, hansı ömründəsə bir dağ yamacında bir otmu, ağacmı olduğunu düşünmüşdü, yoxsa niyə adamlar içində özünə yer tapmayan kişi təskinliyini, hüzuru ağaclardan gələn bu gizli enerjidə tapır? Əsən yellərdən, çağlayan sulardan xəbər almasaydılar, ilin-günün bu qaranlıq vaxtında Şah beçədə, Yanıl almada bu qarşısıalınmaz şövq hardan olardı? Təki belə olsun, təki belə olsun! Amin! Bunun belə olduğunu bilməyə nə vardı ki? Fərqinə varmışdı Elə ki Yanıl almanın yanına gəlib onunla söhbətə başlayırdı, yarpaq qulaqlarını şəkləyib, haqqında deyilən tərifli sözləri ciyərlərinə çəkirdi...

Müharibəyə getdiyi ilk aylardan başlayaraq, təkəmseyrək gələn məktublarında Muradın Şah beçəni, Yanıl almanı soruşması kişini lap məəttəl qoymuşdu. Bəlkə edilən nəzirlərdən, deyilən qurbanlardan xəbər tutmuşdu. Amma bu xəbəri Murada kim verə bilərdi?!

# QURBANLARDAN – QARA QOÇ…

*“Gənclikdən qocalığa bir şey götürəcək olsan, hikmət götür, çünki ondan etibarlı sərvət yoxdur”.*

Kolxoz qurulduqdan, varlı-hallı adamların Kürü bulandıran mal-qarası əllərindən alındıqdan, həyətlərdə üç-beş qoyun, keçi qaldıqdan sonra kənd adamları davarı növbə ilə otarırlar. Səhər obaşdanının dan ayazında daxmaların çardağı altından “hırrı çü”, “oo ha” səsləri qanadlanır, qoyun-keçi el yoluna çıxarılır. Gecə sərinliyi tülküdurmazdan oyanmağa məcbur olan kənd adamlarının qoynuna-qoltuğuna dolub diksindirir, yarıyorğun vücudlarına xoş bir sərinlik yayır, azacıq şeh, ya da qırov düşmüş tozlu cığırlara davar ayaqlarının izləri naxış vurub, bir kəndin günlük həyatının tarixçəsini yazır. Çaya suları qarışan bulaqlar kimi, qoyun-keçilər həyətlərdən çıxıb kənd sürüsünə döndükdən və sürü dağ yamaclarındakı otlaqlara üz tutduqdan sonra, kəndə yenidən sakitlik çökür…

Ongündənbir Şəmşəd kişinin növbəsi çatanda Qara qoçun da kefi kökəlir, sürünün gah önünə, gah arxasına keçib şıllaq atıb qoçuluq edir. Hərdən buynuzlarını Şəmşəd kişinin çomağına sürtməyi, üstünü-başını imsiləməyi də var. Kiminsə qoxusunu ondan almaq istəyirmiş kimi. Şəmşəd kişi Qara qoçun bu hərəkətlərini içində öz istədiyi yerə yozur: “Vallah, ölməmiş kimin yolunda qurban gedəcəyini bilir. Muradın qoxusunu məndən alır, yoxsa ikidənbir niyə gəlib buynuzunu çomağıma sürtür, üstümü-başımı imsiləyir...”

Qara qoçun Şəmşəd kişi ilə bərabər sürüyə çobanlıq eləməyi də var. Günün günortasında göydən od ələnəndə, günəşin şəfəqləri adamın başını deşəndə, Şəmşəd kişi daldalanmağa yer axtarıb özünü də, sürünü də kölgəliyə verəndə, “kor kişi” başının üstünü kəsdirəndə gözləri birdən yumulur, bax onda sürünün çobanlığı Qara qoça qalır. Gün günortadan əyildimi, sürü kölgəlikdən yellənib, otlaqlara yayıl-

mağa başladımı, bir də görürdün Qara qoçun dümsüyü Şəmşəd kişini diksindirdi: “Dur, nə yatmısan, sürü yelləndi!” ...Söyüdlü dərənin çəkdiyi nəmli nəfəs üzünə toxundumu, Şəmşəd kişi əvvəl dizinin birini qatlayıb novlu bulaqda içini sərinlədər, bulağın kənarındakı qumsaldan ovuclarında qalan qum dənələrini sürtüb tökər, sonra meylinə qəlyan sümürmək düşər. Qəlyanını odlayar, yavaş-yavaş içini isidən tüstü burnundan, dodaqlarından çallaşmış bığlarını tənbəki sarısına boyaya-boyaya yuxarı qalxar, qaragül dərisindən olan papağının pırpız yunu arasında qıvrılıb əriyər və bu əriməyi ilə də kişinin fikrini uzaqlara – dünyanın qarış-quruş olduğu savaş bölgələrinə aparar. Burdan – Kəmərin yamacından qardaşlarını davaya, ölümün, qanın içinə aparan el yolu yaz günəşi altında ağım-ağım ağarar, ovuc içi kimi görünər. Əlini gözünün üstünə qoyub uzandıqca uzanan, özüylə bərabər kişinin fikir-xəyalını da uzaqlara, lap uzaqlara aparan bu tozlu arzu yoluna baxdıqca baxar... Bu yollar təkcə yüklü arabaların təkərlərindən, çeşid-çeşid insan ayaqlarından cadar-cadar olmayıb ki? Üstüylə arandan dağa, dağdan arana daşınan acılı-şirinli xəbərlərin ağırlığı da onu bir bu qədər tozlandırıb, el dərdi çəkməkdən el yoluna çevirib. Neçə vaxtdı poçtalyonun çantasından, müfəttişin portfelindən adını eşidib üzünü görmədiyi diyarlarda kimlərinsə titrək, ya da cod əllərilə qarmaqarışıq yazılan ölüb-qalıb xəbərləri kəndə bu ölüb-itməz el yoluyla ulaşdı, hələ Allah bilir, neçələri də yoldadır, kəndə çatar-çatmaz vay-şivəni də bərabərində gətirəcək. Kiş-kiş, qulaqlara qurğuşun, Allah eləməsin, Allah eləməsin! Yatıb yuxuda da elə bu yolları görür. Bu zaman üzündə-gözündə ya bir nəfəs hiss edir, ya da böyrünə dəyən buynuz dürtməsindən diksinib oyanır. Baxır ki, Qara qoçdu, yenə yanında dayanıb bir ona, bir də sürünün getdiyi səmtə dönüb baxır. Bu, o deməkdi ki, sürü çoxdan yellənib, başqa otlaqlara doğru üz tutub. Qarşı Qızıl qayanın dərədən-çaydan qalxan kölgəsi hardasa Kəmərin zirvəsinə çatmaqdadır. Sanki kəndi ikiyə bölən, dağların arasından qıvrılıb gedən Əsrik çayı ipli tərəzi qoludur, bir tərəfindən Qızıl, o biri tərəfindən Kəmər qayası asılıb. Beləcə, dünya

dünya olandan o tayı bu tayla ölçür, bu tayı o tayla; gecəni gündüzə, gündüzü gecəyə qatır. Görünür, dünyada ilk dəfə elə bu Kəmərlə Qızıl ədalət ölçüsünə baxıb, tərəzini kəşf ediblər... Səhər Qızılın başından çərtən gün şəfəqləri qarşı Kəmərin gecəköynəyini başından aşağı – yavaş-yavaş dərədəki çaya qədər soyundurur, sonra gün günorta yerinə qalxdıqca Qızılın kölgəsi sanki öz içinə çəkilib yox olur. Günəşin işığı çayın təpəsindən vuranda, Qızıl və Kəmər qayaları şəfəqlər içində çiməndə saatsız-filansız bilmək olur ki, gün günortadır. Sonra günəş yavaş-yavaş qüruba – Kəmərə doğru əyildikcə, bu dəfə də Qızıl qaya qızılı şəfəqlərə büründükcə Kəmərin öz kölgəsi özünə gərdək olmağa başlayır. Günəş, beləcə, bu iki qayanın səhər birinin, axşam o birisinin könlünü alır. Şəmşəd kişi mürgülü gözlərini ovuşdurub təfərinc edib görəndə ki, günəş çoxdan Kəmər qayanın arxasına əyilib, tənbəllik etmir, Qara qoçu boynundan qucaqlayıb özünə tərəf çəkib səkilli qaşqasından öpür. Qara qoç da qaçıb-eləmir, hətta bəzən özünü öpürmüş kimi göstərib kişinin üst-başını imsiləyir. Qara qoçun otqarışıq təmiz nəfəsi kişinin üz-gözünə yayıldıqca – gözünə dönüm, ay qardaş qurbanı, yaxşı ki sən varsan, yoxsa bu qoja tənbəldən çoban-filan çıxmazdı, – deyir. Sonra Qara qoç qabaqda, kişi arxada sürünün arxasınca gedirlər. Oynadığı oyunun dəyərini bilən uşaq kimi, Qara qoç Şəmşəd kişinin önündə atılıb-düşür, min oyundan çıxır: "Oyna, gözünə dönöm, oyna, səni verən Allaha qurvan olom, deyəsən, qurvanlıq olduğun ürəyinə damıb, hə?!"

Bunları düşünə-düşünə də, İbrahim peyğəmbəri və onun oğlu, ilk qurban – İsmayılı yada salır. "Yaradana almağa can deyil, candan, könüldən gələn bu şükran borcu gərəkdi. İbrahim peyğəmbər də, oğlu İsmayıl da Tanrı sınağından belə çıxdılar". İndi Qara qoçun şıllaq atmasını Şəmşəd kişi bu ilahi ürəyədammaya yozur. Qoy atılıb-düşsün, oynasın, ürəyinə damıbsa, atılıb-düşürsə, deməli, kimin yolunda qurvan gedəcəyini də biler. Qardaşım sağdır, sağ olduğuna görə də qurvanlığı beləjə atılıf düşör, qurvan olduğuna sevinir..." Hər qoyun otarmaq növbəsinə getdiyi gün kişinin işi-gücü beləcə – düşüncələrə dalmaqla keçir...

Gündüz yorğunluqdanmı, ya nədənsə, qəribə yuxular görür. Bu qatmaqarışıq yuxuların harasındasa Murad da olur. Amma belə yuxular yozulmaq üçün elə də əlverişli olmur. Yuxusunu hər dəfə arvad-uşağa yox, axar suya danışır. Axar suya nə var ki?.. Onsuz da gözünün yaşı ovcundadır. Su yuxu yozandımı, sənin də yuxunu yoza. Onun başı əzəli əbədə daşımağa qarışıb, dünyanın əvvəlindən sonuna tələsir, axdıqca axır, amma sona çıxa bilmir – son dönüb yenə əzəl olur. Şəmşəd kişi bu şırhaşırla axan suların dalınca baxır və eyni duanı azı min dəfə təkrarlayır: “Hamının gedəni gəlsin, içində də bizimki...”

Amma ay keçir, il adlayır, çay eləcə, əvvəlki kimi axmağında olsa da, gedənlərdən xəbər-ətər çıxmır ki, çıxmır. Axan su bir daha geri dönmür, yoxsa gedənlər də geri dönməyəcək? Şah beçə ilk dəfə bal, Yanıl alma bar verdi, qara toğlu qoç oldu, gedən qardaş gəlmədi ki, gəlmədi. Amma çiyninə yüklənən dərdin ağırlığından ayağı-ayağına dolaşan Şəmşəd kişi məktub gəlməsə də, xəbər alınmasa da, Muradın sağ-salamat geri dönəcəyinə inanır: “Şah beçə çəpərin altında, Qara qoç qoyunların arasında, Yanıl alma bağçada böyüməyindədir...”

# ÇOX HİKMƏTİN ÇOX DA HÜZNÜ VAR...

*Bir müdrikdən – Qızılın rəngi niyə xəstə kimi sarıdır? – deyə soruşmuşlar. – Çünki hər şeydən çox onun canında oğurlanmaq qorxusu var, – cavabını almışlar...*

...Şəmşəd kişi nəyi bilmirdisə də, çox hikmətin çox da hüznü olduğunu bilirdi. Axşam yatanda da, səhər duranda da dilinin duası əksik olmurdu:

– Ya Əhəd, ya Səməd, ya Mədəd! Allahım, səndən başqa heç nə istəmirəm – nə var, nə dövlət – məni bir parça halal çörəyinə möhtaj eləmə. Kimə əyan olmasa da, sənə əyandır ki, bədir-əl-qüvvə, kimsənin yatar oğlağına daş atmadım; elin gəlininə, qızına gözümün ucuyla da baxmadım; ayağımı yorğanıma görə uzatdım; yalanım, yanlışım olmadımı? Oldu, amma oldusa da, bilə-bilə olmadı. A şükür kəramınə, təqdir sənindir, verirsənsə, özünün xoşuna gələn bir ölüm ver, heç kimə məni möhtaj eləmə! Gedənlərin yolunu yaxın elə, hamının gedəni gəlsin, içində də bizimkilər! Elədiyim günahları, birdi birliyinə, min bir adına bağışla, Allahım! Sən rəhmdilsən, bağışlayansan.

Ömrü elə duaların ömrü idi, dualarla yatıb, dualarla qalxırdı. Dualar ürəyinə güc, gözünə işıq, dizinə taqət verirdi: "Çox şükür ki, dilimizin zikri dualar var, yoxsa, bu dərdin-azarın içində halımız-günümüz necə olardı?!" Həmişəki kimi, bu gecə də eyni duaları pıçıldayan Şəmşəd kişi yenicə çimir alırdı ki, bayırda itlərin xoru başladı. Hardasa uzaq həyətlərdə başlayan it hürüşməsi yavaş-yavaş yaxın həyətlərə də yayıldı, sonra bu səsə Bozdar da qoşuldu. Gələn təhlükəni itlər bir-birinə ötürürdü:

– Ham, ham! Yatmısanmı?

– Yox! Ham, ham!

– Mən də yatmamışam? Ham, ham!

– Kənddə oğru var, xəbərin olsun…

– Elə mən də onu sənə xəbər verəcəkdim.

İtlərin ediləşməsinin xeyirliyə olmadığını fikirləşən Şəmşəd kişi sırıqlısını çiyninə atıb tələsik bayıra çıxdı: “Vallah, üzülmüşlər boşuna hürmör, adam qaralayıf, gejənin gejə vaxtı bu nə hürüşmədi belə?”

Yazbaşı olsa da, havada ayaz vardı. Qaranlıq gecənin rəngini qaçırmışdı. Kəmərin başından əyilib, olub-bitənlərə qulaq verən Ay buludlar arasında gah batır, gah da bədirlənirdi. Təpimiş el yolu bomboşdu. Mürgülü dərələri göyün tabaq-tabaq ulduzlarının sisqarışıq nuru doldurmuşdu. Milyon gözlə diqqət kəsildikləri yerdə işlərin qaydasında olmadığını bilən ulduzlar bir-birilərinə göz qırpırdı. Bozdar aşağı – bağa doğru dartınıb zəncir gəmirir, boşuna yal içmədiyini, ayıq-sayıq olduğunu sahibinə inandırmaq üçün özünü yeyib-tökürdü. Şəmşəd kişi içindəki şübhələri dağıtmaq üçün bir az da ucadan səsləndi:

– Nə var, ay üzülmüş, noluf yenə, nə zincir gəmirersən?

Fikirləşdi ki, oğru-filan varsa da, oyaq olduğumuzu eşidib, xatasını bizdən xali etsin. Yazlıq alçanın safra qarışdıran zamanı gəlmişdi. Bəlkə bağ-bağata uşaq-muşaq dadanıb? Yox, gecənin bu vədəsində bağda uşaq-muşağın nə işi var?! Qonşuların camışı, bəlkə yenə qarğıdalılığa təpilif?

Bir şey ayırd edə bilmədi, “nə olar, nə olmaz” düşüncəsilə Bozdarın zəncirini boşaltdı. Bağdan açılan it evin aran tərəfindəki kolxoz bağlarına tərəf götürüldü. Orda bağın qon1u Dəlləkli kəndinə dirənən tərəfində hədəfinə çatdı. Əvvəl sanki bir boğuşma, süpürüləşmə oldu, sonra Bozdarın sinsimiş zingiltisi eşidildi. Bozdar kimi və nəyi yaxalamışdı? Bəlkə qara camışın çatal buynuzunun hədəfi olmuşdu, ya da qarğıdalılığa dadanan porsuqlarla süpürüləşirdi, ayırd edə bilmədi. Sonra Bozdarın məğlub səsi hardansa bir az bəridən – kolxoz bağlarından gəldi, it geriyə, həyətə qayıdırdı. Dan yerinin yeli başlamışdı. Külək Şəmşəd kişinin sinəsinin ağarmış tüklərini qarışdırdıqca, fikri də qarışırdı. Bədəninə səbəbini anlamadığı bir üşütmə düşdü: “Murad olsaydı, indi çoxdan haraya qoşmuşdu. Mən isə... Eh, Muradın qorxusundan bu həyətə yaxın düşən olardımı ki, Bozdarın harayına da qoşaydı?”

Kişi bu düşüncələrdə ikən Bozdar da taytıya-taytıya həyətə qayıtmışdı... Bu, heç xeyirə yozulacaq əlamət deyildi. Bozdar taytıyırdı, vurub qılçını zədələmişdilər, yox, bu, nə qara camışın, nə də porsuqların işi idi. Bozdar zingildəyə-zingildəyə kişinin qənşərində şöngüyüb, suçlu-suçlu sahibinə baxdı. Ayın işığında parlayan gözlərində dərdli bir ürəyin boz-bulanıq kədəri vardı: "Neyləyim, mən əlimdən gələni etdim, amma bacarmadım, bağışla".

Şəmşəd kişi, "a qızım, sənə deyirəm, a gəlnim, sən eşit" misalı çımxırdı. – Nə var, a qancıx, nə hay-küy salmısan, səni vuranın görüm qolları qurusun.

Üzünü Bozdara tutsa da, əslində, səsini aşağıda oğru, quldur vardısa, onlara eşitdirirdi. – Bax, görürsünüz, oyağam, çıxın cəhənnəm olub gedin, yoxsa?! – Nə? "Yoxsa", "yoxsa" deyəcək halınmı var? Yox, Allah eləməsin ki, bu qapıya oğru gəlsin.

Ətrafda sakitlikdi, mal damının qapısındakı qıfıl yerindəydi. İstədi qaratikan çəpərinin altında gizlətdiyi Şah beçəyə əyilib baxsın, amma baxmadı, həyətin o başında – bir az aralıda Ay altında arı daqqaları ağarırdı: "Oğru köpəkoğlu aparsaydı, bu arı daqqalarından birini aparardı, daha əllərini tikənə dəldirə-dəldirə çəpərin içindəki Şah beçəni aparası ha deyildi" təskinlik ruzigarı keçdi fikrindən. Şah beçənin yerini Allahdan, bir də məndən başqa kim bilirdi ki, kim də ona haram gözlə baxaydı?!

Bozdar yenidən aşağı – kolxoz bağlarına tərəf hürməyə başladı, amma onun bu hürüşü hürüşdən daha çox xəstə bir adamın zarıltısına bənzədi. Bayaqdan susqun qalan itlərin yeni bir xoru başladı, Bozdarın səsinə səs verdilər. İt sahibini görüb ürəklənmişdi. Şırvanır, quyruğunu bulayır, sonra da üzünü aşağı – kolxoz bağlarına tutub zingildəyirdi. Şəmşəd kişi sisqarışıq nura bürünən Əsrik dərəsini yuxarıdan aşağıya – dağdan arana doğru süzdü, süzdü, dünyanın ağılalmaz gedişatı qarşısında çarəsiz qalıb yenidən qozbel damın altına döndü. Öskürəkdən atılıb-düşən soyuq bədənini isti yorğanın altına saldı və bu ılıq isti içində də xumarlanıb yuxuya daldı. Bayırda yenə aylı, ayazlı ilk bahar gecəsinin nigarançılığı ilə baş-başa Bozdar qalacaqdı. Səhər yatağından səksəkəli

oyandı, Şəmşəd kişi adəti xilafına yatıb yuxuya qalmışdı. Yaşam vərdişi idi. Lap xəstə vaxtlarında da yuxudan durdumu, bayır çardağının hisli dirəyindən asılmış çuqun əlüzyuyandan üzünə bur ovuc su vurar, gecənin qarmaqarışıq yuxularını canından qovar, sonra mal damına baş çəkər, bayıra çıxıb kimsə duyuq düşməsin deyə, qaratikan kollarının arasından keçib çəpərin altındakı Şah beçəyə, sonra o biri arılara göz qoyar, hər şey yerli-yerindədirsə, aşağı – bağa enər, çala-çəpərə baş çəkər, dodağının altında nəsə pıçıldayıb, ağaclar içində seçilən Yanıl almanın boyunu sevərdi. Kənardan baxan olsa, kişinin başına hava gəldiyini düşünərdi, adam da öz-özü ilə bu qədər danışarmı? Amma Şəmşəd kişi danışırdı, çünki Qara qoçla, Şah beçəylə, Yanıl alma ilə dərd paylaşmağın ləzzətini insanlardan ala bilmirdi. İnsanların hamısı dərdli idi, bir-birlərinə dərd yükləyə-yükləyə dərd şamdanına dönmüşdülər, atalarımız: “Dindirməyin dərdlini, dərd özü dilləndirər”, demirlərmi?! Öz dərdi bir yana, arvad-uşağın dərdi kişini haldan çıxartsa da, özünü o yerə qoymazdı. Dünyanın başdan-başa Tanrı işarəti olduğuna özünə inanan kimi inanırdı. İntəhası, bu işarətləri vaxtlı-vaxtında, yerli-yerində oxuya bilən tapılmırdı. Şah beçədə, Qara qoçda, Yanıl almada arıdan, qoçdan, almadan başqa da nəsə vardı. “Nəsə” deyəndə, bu canlı varlıqlarda insana hüzur verən ilahi gücün mehri-məhəbbəti idi bəlkə? Başqalarına təsəlli verən kişi özü bu üç varlığa möhtacdı. Yeri oldu-olmadı onlara sığınır, onlardan təsəlli alırdı. “Allah eləməmiş, onlar olmazsa, başıma hava gələr”, deyirdi. Bu üç varlıq səssiz pıçıltılarıyla onun içinə elə dərkiçətin duyğular sindirirdi ki?! Bəlkə buna görə də kişi səhərin gözü açılmamış, adamlarla xoş-beş etməmiş onların görüşünə tələsirdi: “Nə varsa, onlarda var!” Ən azından onların varlığı canı qədər sevdiyi qardaşının hələ sağ-salamat olduğunun xəbərçisiydi. “Allaha yaxın olduqlarından da, sirlər bizə yox, onlara açılır. İndi durub içilə çölünün nə olduğu bilinməyən, gündə yüz oyundan çıxıb, yüz günaha bulaşan insanla, içi, çölü bir olanları müqayisəmi edəcəksən?” Şəmşəd kişi bunları bilirdi: “Mənə göründüyüm kimi olmağı nəsib elə, ya Rəbb!” Gizli-aşkar Allahından ən çox istədiyi də bu idi. Elə göründüyü kimi olduğuna, əlinə, belinə, dilinə sahib çıxdığına görə də

başına and içirdilər. Çaylar üzərindən salınan körpülər onun çəkicinin işiydi, aşıqlıq etməsə də çaldığı saz, adamlar bir yana, bülbülləri də dilə gətirirdi, Allahın bu mübarək quşları başqa bir ağaca yox, içəridən gələn saz səsini yaxından eşidə bilmək üçün onun həyətindəki ağcaqayın ağacını özlərinə məskən seçmişdilər. Qanı qanla yox, qanı suyla yuduğundan, hamının başbiləni olmuşdu. Çıraq öz dibinə işıq salmaz axı, bircə günahı vaxtında dizinin dibindəki qardaşına böyüklük eləyə bilməməsi idi. Böyüklük eləyə bilsəydi Muradın əlindən o qanlı xatalar çıxardımı? Şəmşəd kişi nə edəydi ki, Murad ona oxşamamışdı, düzünəquluydu, ürəyindən keçən ovcunda idi, yeri gəldimi, sözünün dalına-qabağına baxmaz, söyləyərdi. Başından keçən xatalar da elə bu düzünəqululuğundan olmadımı? Onun başından bir tük əskik olsa… fikrinin dalını gətirmək istəmirdi. Çünki fikrin, sadəcə, fikir olmadığını, ağıla gələnlərin başa da gəldiyini dəfələrlə sınamışdı.

# BAL İZİ-SUÇ KƏNDİRİ...

*"Günah" deyə bir şey varsa əgər, bəzilərimiz onu atalarımızın ayaq izlərini təqib edərkən geriyə doğru, bəzilərimiz də hökm edərkən irəliyə doğru uzadarıq".*

Gecəki it hürüşməsindən sonra "Allah eləməsin", "Allah eləməsin" desə də, içində bir səksəkə vardı. Hətta qaranlıq olsa da, gərək elə o anda tövləyə girib, Qara qoçun yerində olub-olmadığını yoxlayaydı. Tövlədə tövləlikmi qalmışdı? Aclıq, ehtiyac olan-qalan üç-beş qoyunu da çoxdan dəyər-dəyməzinə satdırmışdı. Bircə qurbanlıq qoç qalmışdı, bir də bir-iki aşqal, boşu-boşundan keçən qotur keçi.

Şəmşəd kişi bu fikirlərin ayazdöyənində özünü əldamına saldı. Qapının qıfılı açılmamışdısa, deməli, hər şey yerində idi. İçəri boğanaq və qaranlıq olsa da, Qara qoç Şəmşəd kişini görən kimi buynuzlu qaşqasını sambaya-sambaya əlini imsiləməyə başladı: "Ağzıyanmışın müharibəsi əlimizdə-ovcumuzda nəyimiz vardısa, silib-süpürüb axırına çıxdı, ay üzülməmiş, nə verim mən sənə?!"

İstədi qapını açıb, Qara qoçu, keçiləri çölə çıxartsın, "hələ tezdi", deyib, fikrindən vaz keçdi: "Yaxşısı budur, gedim görüm Şah beçə yerindədirmi?" Şübhəsinin dalınca içərinin boğanağından pəyədən bayıra çıxanda Bozdarla göz-gözə gəldi. Bir az aralıda – ağcaqayın ağacının altında çənəsini qabaq ayaqlarının üstünə qoyub uzanmışdı. Adətinin xilafına, yaxınlaşıb, şırvana-şırvana əl-ayağına dolaşmadı Bozdar. Bozbulanıq gözlərində dünyanın çəkilməyən qəmi, bəd xəbərin "neyləyim", "necə eləyim"i ilə didilən bir ürəyin təlaşı vardı. Kişini görən kimi günahkar-günahkar yerindən homzunub üzünü bağa tərəf çevirdi. Nəsə olmuşdu, Bozdar əvvəlki Bozdar deyildi. İtin bu halı kişinin gözündən qaçmadı, içinə dolan bəd fikirləri milçək qovan kimi qovmaq istədi. Ağlına gələnləri azdırmaq, həqiqət olmasına imkan verməmək üçün başından

eləməyə, qovmağa, heç olmazsa, onsuz da görəcəyi bədbəxtliyin görmə zamanını bir az da uzatmağa çalışdığı az olmamışdı. Bu dəfə də belə etmək istədi. Amma içinə nəsə damdı, tezcə də çəpərin altında gizlətdiyi Şah beçəni bir an öncə görmək üçün addımlarını yeyinlətdi. Səhərin gözü açılmamış arıların iş günü başlayır, vızıltıları aləmə yayılırdı. Nədənsə, bu dəfə qulağına səs-küy dəymədi. Gəlib çəpərin qənşərinə çatdı. Gördüyü mənzərədən tükləri ürpəşib biz-biz oldu, qan beyninə vurdu, dağılmış çəpərin altı bomboşdu, arı daqqasının boş qalan yeri açılmış məzar ağzı kimi qaralırdı. Şah beçə sanki heç əvvəldən yoxmuş. Dizləri qırıldı, başı hərləndi, birtəhər yerə çömbəldi: "Səbirli ol, səbirli ol! Allahım, gördüklərim gerçək olmasın!"

Özünə təskinlik verə-verə gözlərini ovuşdurub açdı. Bozdarın hürə-hürə getdiyi səmtə boylandı, gördüyü mənzərədən qanı dondu. Kolxoz bağlarına enən cığıra qızılı bir iz düşmüşdü. Qızıl qayanın başından yenicə doğmağa başlayan günəşin çəpəki şəfəqləri rəngini axıb-tökülən beçə balının rənginə qatıb, cığırı qıvrılıb açılan qızıl ilana döndərirdi. Şah beçə daqqadan süzülən balıyla sanki oğruların onu hara götürdüklərini bildirmək üçün iz buraxmışdı. Çömbəldiyi yerindən homzunub qalxmaq istədi, qalxa bilməyib səndirlədi, elə bil beli sınıb ikiqat oldu. Ölüm-zülm dikəldi, sonra Şah beçənin bal izini tutub ümidsiz-ümidsiz kolxoz bağlarına tərəf irəlilədi. İz günah kəndiri kimi oğruların qarasınca uzanıb gedirdi. Zalım uşağı, buraxacaqları izdən də, çəkinib-eləməmişdilər: "Nəyindən çəkinəcəklər, ay rəhmətliyin oğlu, sən də Qasım ha döyülsən, çəhlimi tutub izi axırına çıxarasan, lap deyək ki, axırına çıxdın, işin də axırına çıxa biləcəksənmi?"

Gedib-gedib kolxoz bağının çəpərinə dirənən iz sonra yoxa çıxırdı. Ya oğrular Şah beçənin daqqasından bal süzülüb iz buraxdığını burada fərq etmişdilər, ya da Şah beçənin balı süzülüb qurtarmışdı. Bir daqqanın balı nə olan şeydi ki... Süzülə bildiyi qədər süzülmüş, heç olmazsa, oğurlandığı səmti xəbər vermişdi. Bir də süzülüb qurtaran bal deyildi ki... Şəmşəd kişinin qardaş ümidləri idi tükənən. Şah beçənin oğurlandığını görüb isti-isti o biri arıların yerində olub-olmadığına təfərinc eləməmiş-

di, bəlkə onları da oğurlayıflar insafsızlar. Kaş elə onları da oğurlamış olaydılar, onda heç olmazsa, oğurluğa gələnlərin məqsədlərinin oğurluq olduğunu bilərdim. Allah eləməmiş, oğurlanan təkcə Şah beçədirsə, onda heç nə!

Geri qayıdanda gördüyü mənzərə içinə qurd salmışdı, o biri arı daqqalarına əl vurulmamışdı, ağcaqayın ağacının altında böyür-böyürə, günəşin səhər şəfəqləri altındaca bozarırdılar. İşi belə görüb, çaşıb qaldı: "Bu, necə oğurluqdu, a sənə fəda olum? Oğurluğa gələn zatıqırıqlara nə düşmüşdü ki, göz qabağındakı bu arı daqqaları dura-dura əllərini qara tikanlara diddirə-diddirə çəpər söküb Şah beçəni aparırdılar? Bəlkə bu tanrıtanımaz köpəkuşağı Şah beçəyə əl vurmadığımı, balının çox olduğunu bilif? Oğru zalımoğluna bal lazım idisə, niyə hazırca göz qabağında olan daqqalara əl vurmamışdı?" Beynindən qorxunc bir fikir keçdi: "Bu, bir işarədir, yoxsa dilim-ağzım qurusun, Muradın başında bir işmi var?" Fikrindən keçənlərdən qorxsa da, qəbullanmaq istəmədi, milçək kimi başından qovub çıxarmağa çalışdı. Bu darmacalda Murada bir zamanlar çəkdiyi "atını padişaha verməyən kəndli" haqqındaki hədis yadına düşdü. İçi az da olsa rahatladı: "Oğurlanan Şah beçə idi, şükür, hələ Qara qoç dururdu, Yanıl alma çiçəyini tökməyə başlamışdı.

Bir qab sınmasın, sındımı, yamamaqla su saxlamaz! Şah beçə oğurlandısa, bu biri arılar da qalmayacaqdı. Axı arılar haram götürmür!

# QURDLA QOYUN OLMAZ, CİYƏRLƏ OYUN

*Bir qurd bir qoyuna dedi: “Ziyarətinlə evimi şərəfləndirərsənmi?”*
*Qoyun cavab verdi: “Mədənizin içində olmasaydı, evinizi ziyarət etmək bizə şərəf verərdi...”*

Yenə Şəmşəd kişinin növbəsi gəlmişdi. Bu dəfə sürünü Kəmərin yamaclarına yox, qarşı Qızılın sağ əlindəki Tor təpəyə yaymışdı. Adı üstündə idi: “Tor təpə!” Yazdan-payıza qədər hörümçəklər təpənin tuvulğa kollarında tor bağlayar və elə ki payızın sisli havaları başladı, səhər şehindən, ya da çəndən-çisəkdən hörümçək torları nəmişləyib ağırlaşır, bomboz bozarır, ağappaq ağarır. Kənardan baxanda Güllü təpə başına tor keçirilmiş adama bənzəyir. Elə bu halına görə də kənddə hamı ona “Tor təpə” deyir. Şəmşəd kişi bəlkə min dəfə “Tor təpə” adını çəksə də, birinci dəfə idi ki, təpəyə niyə belə ad verildiyinin fərqinə varırdı. Tor təpəni birinci dəfə deyildi ha gördüyü, uşaqlığı, gəncliyi bu yalda-yamacda keçməmişdimi? Yoxsa, sözlər də vəhşi heyvan kimidir, onlara da uzun əhlilləşdirmə zamanı gərəkdi. Sən demə, yüz dəfə mənasının fərqinə varmadan, yeri oldu-olmadı işlətdiyimiz bir kəlmə mənasını yalnız özü istəyəndə bizə açır. Hər sirrin bir açılmaq zamanı var yəqin. Tor təpə də bu zamanını gözləmişdi, indi mənasını açırdı. Tuvulğa kollarında azmı zoğal çomağının ucuyla hörümçək toru dağıtmışdı. Gör, sən Allah, bu darmacalda nələr gəlib ağlımdan keçir. Başından keçənlərlə indi onun özü də fikir torunun içində idi. Sanki təpəni tora salan güc nə idisə, indi də onunçün tor qururdu. Ağlından “başına corab hörmə” fikri keçdi. Qızılın ətrafında o qədər belə təpə var ki?! Niyə hörümçəklər yalnız bu təpənin başına tor hörürdü, sirr hardadır? Aça bilirsənsə aç, görüm necə açırsan? Elə həmin sirr onu da tora sala bilməzdimi? Sala bilməzdisə, elə indi – günün, saatın bu vaxtı bu fikir onun ağlına hardan gəlmişdi?

Bu sualın cavabını tapmaq elə Allahın sirrinə toxunmaq kimi bir şeydi. Əstəğfürullah! Sənin Allahla nə işin var? Allah hər şeyi görür, hər şeyi eşidir və hər şeyi də bilir. Əgər buna şəkk edənə vaxtında görk eləmirsə, bu, onun seçənəyidir.

Gözünəmi tor gəlirdi, yoxsa, doğrudanmı, tor təpəni birdən-birəcə bir sis bürüməyə başladı: "Gör, sən Allah, təpənin toru azıydı, bu sis də böyürdən çıxdı".

Tor təpənin ala-toranına yayılan sürü bu sisli havada bəyaz tordan seçilməz olmuşdu. Sanki kişinin gözünə də tor gəlmişdi, hər şey ikiləşmişdi. Hər qoyun gözünə tor basmış tuvulğa kolu kimi görünürdü. Bu torlu təpə bu sisli payız günü elə bil Qara qoçu da boyayıb bəmbəyaz eləmişdi. Təfərinc eləsə də, Qara qoçu bəmbəyaz olmuş sürünün içindən seçə bilmirdi: "Canavar gəldi, vay birli!" Lənət sənə kor şeytan! Bu atalar sözü hardan gəldi ağlıma?

Elə bil içinə düşən qasırğa çölə vurdu, birdən-birə sanki tordan başqa bir tor ayrıldı. Sürü hürkdü, Tor təpənin yamacı boyu səpələndi. Yoxsa ürəyinə daman başınamı gəlirdi, sürüyə yalquzaqmı təpilmişdi?! Bu gözlənilməz hadisədən donub qaldı, qaçmaq istədi, ayaqları taqətdən kəsildi, çığır-bağır salmaq istədi, nitqi tutuldu. "Aman, Allahım, başıma gətirdiyin nə işdi belə? Yaşımın günə əyilən çağında niyə məni lal-kar, şil-topal, el içində gözükölgəli eləyirsən?"

Gözləri görürdü, amma yuxudakı kimi; boz-bulanıq, anlaşılmaz, dalğalı suya düşən kölgə kimi ləngər vurur, bir-birinə qarışırdı. Ümidsiz-ümidsiz kəndə tərəf boylandı, ins-cins yoxdu, təkcə qara damlardan tənbəl-tənbəl qalxan tüstülər göyə kəndir salmaqdaydı... Kənddən əli üzülüb ətrafına baxdı. Yerdə – otların üstündəki tüfəng gözünə sataşdı, götürmək istədi, gücü iradəsinə yetmədi. Bütöv kəndin tüfəng əvəzinə nikolaydanqalma bir təkatanı qalmışdı, yerdə qalan tüfənglərin hamısını müharibə başlamamışdan ev-ev gəzib toplamışdılar, bu səlvəri isə işlərini yaramadığından özlərinə yük eləməmişdilər. Quru qaraltı da olsa, qoyun növbəsi çatanlar təkaçılanı da özləri ilə götürürdülər – yenə adı tüfəngdi. Əl-ayağı tutsa nə vardı, götürüb barıtını tüstülədər, gurultu sa-

lıb, ağzıyanmış canavarı qorxudar, sürüyə təpilməsinə imkan verməzdi. Amma hansı əl-ayaqla edəcəkdi bunu? Qorxudanmı, nədənmi, əl-ayağı quruyub ağaca dönmüşdü. Gözünə başqa şey görünmür, ağlından başqa şey keçmirdi. Bircə ağzıyanmış, Qara qoça dəyməyəydi. Yerdə qalanı nə olacaqdı, olaydı. Gözümü alacalandı, yoxsa gördükləri gerçəkdi? Tor təmənin altında göy yeləli, boz tüklü yalquzaq Qara qoçu arxasına salıb aparırdı. Belə də yalquzaq olar? Yalquzaq bir sürüyə təpildimi, biri ilə kifayətlənmir ki, beşini birdən boğub murdar edir. Allahın nə bəlasıdı, bilinməz. Amma bu yalquzaq o yalquzaqlardan deyildi. Qoyuna, quzuya toxunmamışdı, eləcə Qara qoçu arxasına salıb aparırdı. İşin amansız tərəfi o idi ki, yetənə yetib, yetməyənə bir buynuz atan Qara qoç da taleyinə boyun əyib, qorxub-elədən yalquzağın arxasına düşüb qaçırdı. Şəmşəd kişi çığırmaq, bağırmaq istədi, yenə səs yerinə boğazından ilan fısıltısı çıxdı. Heç olmazsa, tərpənə, bağırıb-çığıra bilsəydi, ağzıyanmış canavarı qorxuda, Qara qoçu onun vahiməsindən qurtarardı bəlkə. Amma günah yalquzaqdan daha çox, göz görə-görə özünü ölümə verən Qara qoçda idi. Vallah, burada nəsə var. Oğru ağzıyanmışlar məni yuxuya verib, Şah beçəni gecənin gecə vaxtı oğurladılar. Bəs bu qurd qanadönmüş niyə gözüm baxa-baxa gündüzün günortasında qardaşımın nişanəsini alıb apardı?! Qurd Allahın xəbərçisidir, gətirdiyi qara xəbər olmazsa, Qara qoç öz ayağı ilə ağzıyanmışın arxasınca düşüb gedərdimi?

Yalquzaq, arxasınca da Qara qoç Tor təpənin torlu sisində yenicə görünməz olmuşdu ki, hayandasa tüfəng açıldı, görünür, qonşu kəndin çobanıydı canavara atırdı. Gələn tüfəng səsindən diksinib ayılan kimi oldu. Qəfil açılan, qayalara səda salıb dağları qovuşduran güllə səsi təkcə fikrini oyandırmadı, nitqi də açıldı. Çığırıb-bağırmaq istədi, amma gücü dilindən çox ayaqlarına çatdı. Qara qoçun qarasına var gücü ilə qaçmağa başladı. Tor təpənin arxa yamacına çatanda gördüyü mənzərədən yenidən dabanları titrədi. Qəfil başlayan külək bəyaz sisi qabağına qatıb harayasa aparır, sirr pərdəsi aralanırdı. Qara qoç saralmağa başlayan payız otlarının üstündə hərəkətsiz düşüb qalmışdı. Ayaqları qaçış halında idi. Ağzıyanmış yalquzaq Qara qoçun boğazından yapışıb yerə çırpmışdı.

Qara qoçun axan qanı saralmış payız otlarını qızılı rəngə boyamışdı. Burnunun deşiklərindən qanqarışıq selik daşlanırdı. Qəfil üstünü alan qorxudan ağzında qırpıdıb yeməyə macal tapmadığı bir çəngə ot gözə dəyirdi, ayaqları qabağa-arxaya gərili halda da son nəfəsini vermişdi: "Murdar olmasaydı nə edəcəkdin ki? Guya canı üstündə, yaralı olsaydı durub qardaş qurbanına öz əllərinlə bıçaqmı çəkəcəkdin?!" Bədbəxtlik gələndə tufantək gəlir. Qara qoçun gözləri açıla qalmışdı, göylərə baxan, göyün boz-bulanıq buludlarının əks olunduğu bu bulanıq gözlərdə elə bir çəkilməz qəm vardı ki!.. Kişinin dizləri yenidən taqətdən düşdü, Qara qoçun yanında yerə çömbəldi, açıq qalan qonur gözlərinə baxdı və yaşına yaraşmayan bir kövrəkliklə hönkürdü. Göz yaşları Qara qoçun üzünə, gözünə tökülür, o gözlərdə əks olunan boz-bulanıq səmanı bir az da buludlandırırdı. Elə bil heç ağlayan Şəmşəd kişi deyil, Qara qoçun özü idi, talesiz sahibinə baxıb, göz yaşı tökürdü. Ağzıyanmış o boyda sürünün içində qoyun-quzumu tapmamışdı boğub öldürməyə, Əzrail yalquzaq donunda gəlmişdi yoxsa?! Birinci dəfə idimi sürüyə canavar təpilirdi. Buna nə ad verəydi? Bədbəxtlikmi, təsadüfmü? Canavarla Qara qoçun arasında onun bilmədiyi gözəgörünməz bir əlaqəmi vardı? Bu dünyada ölümün arxasına düşüb getməyən elə bir varlıq varmı? Qoçu canavarın arxasınca qaçmağa məcbur edən hansı gücdür ki, gözlərini qırpmadan onu ölümə getməyə məcbur edir? Təki bütün sürünü canavar qıraydı, yalnız Qara qoça dəyməyəydi. Tasını-misini satıb, beş iləmi, on iləmi, elin borcunu ödəyərdi, amma Qara qoç ölməyəydi, Qara qoç onunçün ümid, inam yeri idi...

Qara qoç qara xəbər kimi Tor təpənin ağ dumanında qaralmağındaydı. Qara xəbər atlı olur, sürüyə qurd təpildiyi xəbəri kəndə çatmışdı, arvad-uşaq tökülüşüb gəlmişdi. Gələnlər pərən-pərən düşmüş sürünün içində öz qoyun-keçisini axtarır, tapınca da ürəyi yerinə gəlirdi. Şəmşəd kişi belinin qırıldığını içinə çökən qaranlıqdan hiss etdi. Amma içindən keçənləri arvad-uşağa söyləyib sızlasaydı, onda Şəmşəd kişi, Şəmşəd kişi olmazdı. Kənd onun varlığına küsənirdi, o, kimə küsənəydi? Yanında boynunu büküb duran oğluna döndü:

– Ə, a Qaroğul, a bala, yeri maa bir bel tap gətir.

Adamlar çaşıb qalmışdılar, burda – bu Tor təpənin yamacında, bel kişinin nəyinə lazımdır? Amma kimsə içindən keçənləri dilinə gətirmədi, elə oğlu da. Başını sallayıb, yamacaşağı götürüldü. Hamı matdım-matdım bir yamacda saralmış otlar üstə qaralan, murdar olmuş Qara qoça, bir də dönüb Şəmşəd kişiyə baxır, işin sonunu gözləyirdi: "Mal onun, məsləhət onun, nə eləyər özü bilər…"

Çox keçmədi, Qaroğul, əlində sapı boyundan böyük bir bellə ləhləyə-ləhləyə yoxuşyuxarı qalxmağa başladı. Şəmşəd kişi beli oğlunun əlindən alıb, Qara qoçun yanına getdi, ovuclarına tüpürüb bel sapından yapışdı. Çox keçmədi, Tor təpənin sisli yamacında bir qəbir yeri qaralmağa başladı – Qara qoçun qəbri! "Heç insafdımı, Allahın qurbanı murdar olub çölün ortasında qalsın? Onu qurd-quşa yem olmaq üçünmü böyütdüm?"

Qara qoçu qazdığı quyunun içinə qoyub üstünü torpaqladı, sonra kimsənin üzünə baxmadan – a Qaroğul, onsuz da toran əlləşməyə başlıyıf, sürünün əl-ayağını dəstələ, kəndə endir, – deyib, belin sapını çiyninə aşırdı, yamacaşağı – evinin yolunu tutdu.

Qara qoçun ölümü ilə içində hər şey alt-üst olmuşdu. Elə bil əziz qardaşını gözünün qabağında güllələmişdilər, o da heç nə edə bilməyib, matdım-matdım baxmışdı. İçində amansız bir hiss də baş qaldırmışdı: "Heyvan olanda nə olar. Qara qoçu dəfn eləməsə, hardasa "müharibə" deyilən ağzıyanmışın getdiyi yerlərdə minlərlə şəhid kimi, qardaşının cəsədi də dəfn olunmamış qalar, qurda-quşa yem olar. "Nə axmaq fikirlərdi ağlıma gələn? Allah eləməsin! Allah eləməsin!"

# ALMA ALMAYA BƏNZƏMƏZ...

*"Bir ağac öz həyatını danışa bilsə, bir nəslin tarixindən fərqli olmaz..."*

Şah beçə oğruların (oğrularınmı?), Qara qoç yalquzağın (yalquzağınmı?) badına getdi, amma suda boğulan saman çöpündən yapışar! Atalar üçəcən deməyibmi? Nə qədər ki bağda Yanıl alma Allahın üzüsuyu hörmətinə dimdik ayaqdaydı, meylini ona salıb, ümidini ona bağlayıb yaşayacaqdı Şəmşəd kişi, çıxmayan cana ümid çoxdu. Şah beçəni oğrular aparıb, Qara qoçu gözünün önündə ağzıyanmış yalquzaq boğub murdar eləyəndən sonra tutub-tutunacağı, sonuncu ümid yeri Yanıl alma qalmışdı, onunla da dərdini bölüşməyib, kiminlə bölüşəydi? Cəbhələrdən bir-birinin arxasınca pis xəbərlər gəlirdi. Qardaşının uzun zamandı öldüsündən, qaldısından da xəbər yoxdu. Şəmşəd kişi Kaftarın bir ayağını qaçaraq qoyduğundan, onu görəndə sıpıxıb suçlu-suçlu aradan çıxmağa çalışmağından çoxdan – Şah beçə oğurlanandan şübhələnməyə başlamışdı: "Bəlkə, dilim-ağzım qurusun, Muraddan bəd xəbər var, Kaftar qəsdən mənə söyləmir? Kaftar belə iş tutarmı? Bu günün sabahı da var axı. Bir gün bu işin sonu olmayacaqmı, onda mənə nə cavab verəjək? Yox, Kaftara nə düşüb ki, məndən qardaşımın məktubunu ("qara xəbərini" demirdi, "demək" bir tərəfə, fikrindən belə keçirmək istəmirdi) gizlətsin. Gizlətsə, obirilərininkini də gizlətməzdimi? Şəmşəd kişi bilmirdi, bilə də bilməzdi ki, Kaftar gələn qara kağızları niyə birisinə verir, o birisinə yox. Kaftarın da bir biləcəyi vardı. Bu qara kağızların altından kimlərin qalxıb, kimlərin qalxa bilməyəcəyini Kaftar öz aləmində ölçüb-biçir, bəd xəbərləri də ona görə bölüşdürürdü.

* * *

Bu payız Yanıl almanın ili deyildi, başında meyvəsi azdı. Şəmşəd kişi meyvələr yetişər-yetişməz onları bir-bir dərib Qərib Seyidin üstünə aparıb, gəlib-gedənə payladı. Yanıl alma gələn il daha çox məhsul verəcəkdi. Onacan da, Allah eləyəcək, Murad qayıdıb gələjək və öz əlilə ca-

ladığı almanın meyvəsini özü dərib yetimə-yesirə, əlsiz-ayaqsıza paylayacaq: "Bu diləyimi ağzımdan eşit, Allahım!"

O il unudulduğu yerdən çıxıb gələn qış elə bil unudulduğunun acığına daha da sərt gəlmişdi. Bağda qar dizə çıxsa da, Şəmşəd kişi köhnə sırıqlısını əyninə keçirib, bürünüb-bükünüb, soyuğa, sazağa fikir vermədən, ikidənbir qari yara-yara bağa enir, Yanıl almanın dibinə qar topası yığır, onunla dərdləşirdi. Belə qarlı günlərdə çılpaq ağacların arasında olmaq, onlarla baş-başa, nəfəs-nəfəsə qalmaq kişinin canına sarı yağ kimi yayılırdı, qış qarı, soyuqluğu ilə birlikdə insanın düşünüb dərk edə bilmədiyi elə sirli şeylər gətirir ki, onları yalnız içinə hopdurub könül gözü ilə anlaya, görə, dərk edə bilərsən. Bu təmiz yönü ilə bir əli payızın, o biri baharın ətəyində olan qışın fəsillər qatarında ayrıca bir yeri var. Özü ilə bərabər kasıba aclıq, səfalət, dərd-bəla da gətirən qış gəldimi, Şəmşəd kişi bütün bu ehtiyac tərsliklərinə baxmayaraq, düşüncələr axınına dalardı. Və bu düşüncələrində keçmişlə gələcəklərin qarşı-qarşıya gəlməsi, qardaş yadigarı Yanıl alma və o Yanıl alma ilə bağlı arzuları, gözləntiləri də vardı... Hər dəfə buluddan günəş çərtdimi, Yanıl almanın budaqlarının kölgəsi qar üstündə qaraldımı, elə bil Yanıl alma nəsə sirli bir şeylər pıçıldamaq istəyir, deyilənləri deyildiyi kimi başa düşür. Düşməsəydi, qışda qar üstə düşən kölgəsi, yazda yarpaq dilləri kişinin qarşısında dil-dil ötməzdi ki?! Şəmşəd kişi bütün bunları bildiyinə görə də, hər dəfə dostuyla söhbət edərcəsinə, üzünü Yanıl almaya tutub danışırdı:

– Boyuna qurban olum, qalxıb-qabarıb böyük ağac olmusan, hələ qoy bir yaz gəlsin, yarpaqların açsın, kölgən dəyirmilənsin, tamaşana yüz göz durajaq, böyü gözünə dönüm, ay qardaş yadigarı, böyü görüm. Torpaqla göyün sirrini bilən insanın sirrini bilməzmi? Hələ yaz da gəlmiyif ki, deyəm yarpaq qulaqlarını açıb, söylədiklərimi içinə çəkir. Bəs qışın qış vaxtı bu yaradanına qurban olduğum hardan məni dinləyir, harasındadır bunun qulaqları? Bə dinləmirsə, matdım-matdım durub üzümə baxmağı nədir?

Qışda Yanıl almanın dibinə yığılan qar ərimiş, köklərinə çökmüş, iliyinə-qanına işləmişdi. Ağacın bu toxluğu Şəmşəd kişinin içini rahat-

ladırdı, düşünürdü ki, Yanıl almanın bu gümrahlığı səbəbsiz deyil, yerdə yernən, göydə göynən əlaqəsi var, bilir ki, Murad sağ-salamatdır, bunu bildiyindən də, beləcə dimdik ayaqdadır.

* * *

Yaz yeni hiss kimi, duyğu kimi bir zamanlar çəkilib getdiyi, unudulduğu yerlərdə yada düşməyə, geriyə dönməyə başladı. Yamac boyu əriyən qarlar çözülən corab ilməsi kimi saçaqlandı, cığır açıb çaya doğru üz tutdu. Əsrik çayı da buz gərdəyini yırtıb açdı, sonra çayın o üzündə Qızılın yamaclarında havadakı şaxtaya, sazağa meydan oxuyan çağalalar çiçəkləyib ağ dona büründü: "Mən yazam, xəbəriniz olsun, gəlirəm!" Uzaqlarda gedən davanın soyuq ruzigarları kənd-kəsəyi köməşitsə, adamların ağ gününü qara etsə də, yaxşı ki, təbiət vardı, onun pozulmayan əbədi nizamı vardı, qışı zamanında bitir, baharı bircə an gecikmədən vaxtında gəlirdi. Yaz günəşindən yerin canına isti keçir, yaş torpaqdan sud buğu qalxırdı. Qışın qarı Yanıl almanın da vecinə olmamışdı, o da torpağa "oyan" deyən ilahi gücün çağırışına vaxtında hay vermişdi. İslaq, nəmli köklərindən qalxan gözəgörünməz bir güc gövdəsinin, qol-budağının rəngini dəyişir, "qanı" damarlarında coşur, gur-gur guruldayırdı. Qol-budağına əl vursan, bir ilahi gücün, enerjinin necə axdığını əlinin altındaca hiss edərsən. Ağaclar arasında elə sevgi paylaşımı var ki?! Hamısının budaq damarlardan yerin-göyün sevgisi, nə tez, nə gec – eyni zamanda axır, çiçəkləri bal arılarının sevgi vızıltılarını eyni zamanda paylaşır.

İlk gəncliyində – bu yerin göyə, göyün yerə olan ilahi gücünün təlqini ilə çağlaş-bulğaş olduğu zamanlarda Şəmşəd kişi dəli çaylar kimi yatağına sığmaz, səbəbi naməlum arzuların qanadlarında uçum-uçum uçunar, titim-titim titrəyərdi. Çox zaman bu uçunmanın, titrəyişin mənasını özü də bilməzdi. Aradan keçən bir bu qədər zaman, çəkilən bir bu qədər həyat çilələri də onun iç həyəcanlarını bir zərrə belə azalda bilməmişdi. Bu yönünü bildiyindən hətta hərdən özünü saqqallı uşağa bənzədərdi. Bildiyi bir həqiqət də vardı. Yalnız yerüstü nemətlərə – vara, dövlətə bağlı olanların gələcək ölümlərindən xəbərləri olmur. Düşüncə sahibləri

isə hardasa ölümü özləri sifariş veir, ölüm, onlara öz istəklərincə gəlir, nə bir az tez, nə bir az gec. Şəmşəd kişi hər zaman bu istəklə yaşadığından, ölümü ürəyinə dammamışdı və dammamışdısa, deməli, kərəm sahibi hələ onun bu dünyada qalmasını istəyir.

Yenə bəyaz-narıncı çiçəyi ilə Yanıl alma təzə gəlin kimi süslənir. Səbrin, vaxtın olub izləsən çiçək açımının bir möcüzə əsəri olduğunu öz gözlərinlə görə bilərsən. Bu duruşuyla təsəlli yeri, güvən məskənidi. Oğurlanan Şah beçənin də, yalquzağın güdazına gedən Qara qoçun da, qardaşın da qoxusunu ondan almaq olar... Bu zaman Yanıl almanın qonur çiçəklərinə bir arının qonduğunu, gürül-gürül gümüldədiyini eşitdi. Təfərinc elədi, uzunca beli ilə heç buralar arısına bənzəmirdi. Pəsinib eləmədən Yanıl almanın qayır-qayır qaynaşan qönçələrinə qonur, çiçəklərin qulağına nəsə pıçıldayırdı. Yanıl alma da çiçəklərinə qonub vızvız vızıldayan bal arılarının bahar nəğmələrindən məst olurdu. Ağacın anbaan böyüyən yarpaqları uzanıb sıxlanmış, kölgəsi dəyirmilənməyə başlamışdı.

# AĞACIN KEFİNİ KÖLGƏSİ BİLƏR...

*Gününü günəşə borcludu kölgə,*
*Kölgəlik bəxtdisə, bəxtdən qaçılmaz...*

Yayın orta ayının əlvan səhərlərinin birində Şəmşəd kişi bağa – Yanıl almanın yanına enəndə gözlərinə inanmadı. Yanıl alma palıdıya çalan yarpaqlarıyla çatır-çatır yanan ocaqdan qalxan alova bənzəyirdi. Nə oldu buna, vurğunmu vurdu? Bir gecənin içində yamyaşıl yarpaqlar alov dillərinə necə döndü, ay başına dönüm, bu nə işdi başımıza gəldi?! Yavaş-yavaş fikrini toplamağa çalışdı: "Bəlkə, qurusun deyə, hansı ağzıyanmışsa gətirib ağacın dibinə nöyüt töküb?" Dırnaqları ilə torpağı qazmağa çalışdı, yeri nəmiş görüb, şübhəsi bir az da artdı, qazdıqca dırnaqları qupquru torpağa çıxdı. "Yox, kimin nə işi vardı Yanıl almada? Çəpərin kənarında da bitməyib, deyəm, "qonşu bağa kölgə salır, ona görə qurumasını istiyiflər". Bəla gəlsə, xəstəlik düşsəydi, o biri ağaclar da qurumazdımı? Şimşək çaxıb, göy gurlamadı ki, deyəm, "ildırım vurdu". Durduğu yerdə bəs buna nə oldu?"

Gözlərinə qaranlıq çökdü, düzlərinin bükülməyi ilə yerə çökməyi bir oldu. Hələ dünənə qədər Yanıl almanın dibi Şəmşəd kişinin həvə yeri idi, bağa endimi, nəfəsini burada alar, yerə çömbəlib arxasını Yanıl almanın cavanca gövdəsinə verib oturar, xəyallara dalar, bəzən səsli, bəzən də eləcə, dodaqlarının altındaca Yanıl alma ilə dərdləşər, qəm-kədərlərini onunla bölüşər, kürəyinə hərarət keçər, ağacın köklərindən budaqlarına doğru bir istiliyin axdığını hiss edərdi.

Gözlərini ovuşdurub bir də təfərinclə baxdı. Amma dəyişən bir şey olmadı, ətrafdakı qayır-qayır qaynayan yay yaşıllığında bircə Yanıl almaydı solub-saralan. Gözləri alacalanıb, dili topuq çaldı: "Nə sınaqdı məni çəkirsən, ay şükür kəraminə? Fırtına qopmadı, ildırım düşmədi, bəs yaxşı, bu ağaca nə oldu?"

Ümidsizlikdən, çarəsizlikdən daşlanıb gələn göz yaşları selə dönüb axdı. Tanrı kəlamının var olduğu hər yerdə müqəddəs ruhların olduğunu kim bilməsə də, Şəmşəd kişi yaxşı bilirdi. Bildiyinə görə də, göz yaşları içərisində göylərə üz tutdu:

– Ey qüdrətilə yeri-göyü nurladan Kişi, Sənin hökmün qarşısında olmayacaq heç nə yoxdur! Ey könülləri aydınladan, ey inananları nemət yurdu cənnətə; kafirləri cəhənnəmə salan, ey suçları örtən Allah, özümüzdən keçib sənə tapındıq, çünki Sən bizə bizdən yaxınsan. Oxuduğumuz bu dua da Sənin lütfündəndir, yoxsa küllükdə güllər nə deyib bitər?! Nədir bu başıma gətirilənlər, məndən lütfini niyə əsirgədin, kərəmli sultanım?!

Gözündə yaş, dilində dua, solmaqda olan Yanıl almaya baxır və yadına Məhəmməd peyğəmbərlə dirək arasında keçən bir əhvalat düşürdü. O dirək ki, peyğəmbər əleyhissalam qayğılı zamanlarda çiynini ona söykəyib gəlmişlərin, getmişlərin seyrinə dalırdı. Günlərin birində peyğəmbər o dirəkdən ayrılmalı, uzaq yerlərə getməli olanda dirək bu ayrılığa dözməyəcəyini bilib, peyğəmbərə, – məni həsrətinlə sızlatma, sultanım, – demişdi, – ayrılığına necə dözəcəyəm? Peyğəmbər qurumuş dirəyin fəryadını duyunca ürəyi acımış, – istəyirsən, səni yenidən yamyaşıl bir ağaca döndərim, qiyamətə qədər səndən meyvə dərsinlər; ya da imanlı biri kimi səni torpağa gömüm, qiyamətə qədər tərtəmiz qal, seçim sənindir, hansını istərsən seç – cavabını verir. Birbaşa imanlı kimi torpağa gömülməyi seçir.
– Bunu istəyirəm, çünki bu, ölümsüz yaşayış, lütfün özüdür, – deyir.

Ağlına gələn bu hədis Şəmşəd kişiyə bir az da olsa, toxdaqlıq gətirdi: “Yoxsa Yanıl alma da seçim qarşısında qalıb, mən bilməmişəm!” Kişini bu düşüncələrdən ağacların başında səslənən ruzigar ayırdı. Başını qaldırıb Yanıl almanı altdan-yuxarı süzdükcə süzdü, qəfil ruzigar almanın palıdıyaçalan yarpaqlarını quş lələkləri kimi qarışdırmağa başladı. Yarpaqların bükümündə çarpaz budaqların arasındakı quş yuvası gözünə sataşdı. Yayın orta ayı olsa da, ruzigarın qarışdırdığı şabalıdıyaçalan yarpaqlar payız xəzəli kimi aşağı ələnməyə başladı. Sirri açılan bülbül yuvasından bir pırıltı eşidildi, uçanın nə olduğunu ayırd eləyə bilmədi Şəmşəd kişi: “Bülbül idimi? Bülbül balalarını çoxdan uçurub. Onun boş yuvada nə işi var ?! Yoxsa Yanıl almanın ruhuydu uçub gedən?..”

## QURBAN HƏR ZAMAN QƏBUL OLMUR Kİ...

*"Min il öncə qonşum mənə dedi ki, həyata nifrət edirəm,
çünki acıdan başqa bir şey vermir. O gün bir məzarlıqdan keçərkən
həyatın onun məzarının üstündə rəqs etdiyini gördüm".*

Dağ yamacındakı daşı yerindən tərpətmək çətin olur, tərpətdinmi, dığırlanmağa başladımı, getdikcə sürəti artır və yalnız dərənin dibində dayana bilir. Yamacaşağı fırladılan qar topası da fərqli deyil, fırladıldımı keçdiyi yollar boyu qalınlaşa-qalınlaşa duracağı yerə qədər enər. Dərd zəhrimar da beləcə, bir qapını tanıdımı, alacağını almasa, əl çəkən deyil, qarşısını almaq istədikcə daha da güclənir. Şəmşəd kişi dönəlgələrin döndüyünü hələ Şah beçə oğurlanmadan, Qara qoçu canavar parçalamadan, Yanıl alma qurumadan, Gülyazın döşündən qardaşının son şəkli itən gündən hiss etmişdi. İtən şəkil deyildi, qardaşının el yolundan həyətə enən cığırdakı son izlərini də yazın yağışı, qışın qarı, ruzigarı çoxdan silmişdi. "O şəkilin, o izlərin itməsi də bir işarət idi. Görünür, elə o zamandan qardaşımın başında bir iş varmış, mən vaxtında fərq etməmişəm. Allahın barmaqlarımı var, basıb gözünü çıxartsın, başına gələcəkləri sənə balabanla qandırırdı, sən qabırğasıqalın anlamadın bunları, anlaya bilmədin. Bir-birinin ardınca Şah beçə, qurbanlıq Qara qoç, indi də Yanıl alma itən izin arxasınca getdilər..." "Qardaşımın başında nəsə var", "Qardaşımın başında nəsə var" sözləri beyninin içində fır-fır fırlanır, cing-cing cingildəyirdi...

Dərd kişini yorğan-döşəklik etmişdi. Çölə-bayıra çıxmağa həvəsi də qalmamışdı. Xəstələndimi, dədə-baba taxtının üstündə yorğan-döşəyin içində arxası üstdə uzanıb, qışdan yaza qədər tüstülənən odun sobasının yaratdığı  qapqara quruma, his bağlayan kərən-pərdiyə baxa-baxa düşüncələrə dalmağı vardı. Şah beçə oğurlanandan, Qara qoç yalquzağın güdazına gedəndən, Yanıl alma quruyandan dönəlgəsi dön-

müşdü. O son hadisəni xatırladıqca kişinin tüstüsü təpəsindən çıxırdı. Yayda yarpaqları solmağa, meyvələri bürüşməyə başlayan Yanıl alma payızın orta ayına qədər dözüb durmuşdu. Buna "dözüb durmaq" yox, "ayaq üstdə can vermək" də demək olar. Yarpaqları kimi meyvələri də alov rəngindəydi. Bu görkəmi ilə onu yaşıllıq içində çatılmış, alovları göylərə builənd olmuş ocağa bənzətmək olardı. Bu ocağın alov dilləri arasından masmavi, parça-parça, ala-tala səma gözə dəyirdi. Meyvələri əvvəlki illərdəki kimi böyük olmasa da, yenə də vardı. Çil-çil yaşıla çalan almaların yerini qırmızımtıl şabalıdı bürüşmüş meyvələr almışdı: "Nə gəldi bu almanın başına? İldırım vursaydı, səsini eşidərdik, yanğın olsaydı, bu boyda bağda ağac adına bir tək almamı vardı, deyəm ki, alov onu bu hala saldı. Quruyan ağacın yarpağı saralar, bununku niyə qırmızıya çalırdı bəs?"

Payızın orta ayında qaranlıq gecələrin birindəcə bir qasırğa, bir fırtına başlamışdı ki, gəl görəsən: "Allah, sən özün saxla. Bu nə tufandı, başladı birdən-birə? Heç xeyirə bənzəmir". İstədi elə gecənin ziniriyində özünü bağa atsın; atsın ki, ürəyinə damanların yalan olduğunu gözləri ilə görsün; görsün ki, fırtına Yanıl almaya heç nə edə bilməyib, meyvələrini töksə də, özü dimdik ayaqdadır. Sırıqlısını çiyninə atıb həyətə çıxsa da, dəli ruzigarın həyətdəki ağcaqayın ağacını az qala kökündən çıxaracağını görüb, aşağı – bağa enməkdən vaz keçdi. Belə ruzigarda istəsə də, aşağı – bağa enə bilməzdi. Başını qaldırıb, qara buludları qayır-qayır qaynaşan tutqun göylərə baxdı, ulduzlar görünmürdü. Əllərini qaldırıb, Allaha yalvarmağa başladı:

– Allahım, sən dünyanı pəriskərində saxla, Allahım, sən Yanıl almanı, Muradımı, cəmi məxluqatı qoru! Bilirəm, günahımız böyükdü, bağışlaya bilirsən, bizi birsən birliyinə, minbir adına bağışla! Bağışla bu günahkar qullarını. Sən bağışlayansan. Bir dəfə də mənə görə bağışla bu günahlı dünyanı!

Elə bil içinin dərinliklərindən dilinə gələn bu sözlər özünü riqqətə gətirdi, içi gözəgörünməz işıqla doldu, sonra sanki dəli ruzigarın bir azca qanadı sındı...

Gecəni dirigözlü açdı, səhərin ilk işıqlarında özünü bağçaya atdı. Fırtına dinsə də, izləri hər tərəfdə aydın görünürdü. Komalanmış qarğıdalı şaxları yerlə birdi. Başqa ağaclar bir tərəfə, yarpaqlarını ən sonda tökən tut və əncir ağaclarının da dibləri xəzəllə dolmuşdu. Bunların heç biri kişinin gözünə görünmədi. Fikrində tək bircə şey vardı: "Allah eləsin, Yanıl almaya bir şey olmasın". Ağacların arasından irəli – Yanıl alma səmtinə baxanda gözləri alacalandı. Ağacın yerində ölü bir boşluq qalmışdı. Yanıl alma başındakı meyvələri ilə birlikdə yerlə bir olmuşdu... Ətraf sarı bir dənizə dönmüşdü. Yanıl alma da bu sarı dənizin içində sahilə atılmış qırmızımtıl sınıq bir qayıq kimi yerdə uzanmağındaydı. Şəmşəd kişi dünyanın bu xəstə sarılığında sonunun yaxınlaşdığını hiss elədiyindənmi, ya nədənsə, canına bir titrətmə düşdü: "Bu, sondu, sondu, sondu!"

O ilin qışı əvvəlkindən sərt gəlmişdi. Adamları ocağa soxan bir qış. Sobaların ac gözü "ver, yeyim" deyirdi. Amma sobaların ac qarnını doyuracaq odun tapmaq müşkül məsələydi. Arvad-uşaq ehtiyatsızlıq edib, bir-iki dəfə "sobaya atmağa odun qalmayıb, onsuz da yıxılıb, bəlkə Yanıl almanı doğrayıb gətirək", demək istəmişdilər. Amma cəsarət etməmişdilər. Yorğan-döşəyə düşən Şəmşəd kişi üçün yıxılan Yanıl alma deyildi ki, ümidinin beli qırılmışdı... Sonra yavaş-yavaş yaz gəlmişdi və yazla birlikdə sanki kişinin də bir az qırışığı açılmışdı. Amma sonra görünəcəkdi ki, bu, çobanaldadan ümiddir.

Özündə-sözündə deyildi... Yazbaşı canını dişinə tutub, əlinə bir bel alıb, bağa enmişdi. Arvad-uşaq onun bu gedişində pis bir şey axtarmamışdı: "Qoy bağa-bağata ensin, bəlkə bağda-bağatda eyni bir az açılar..." Amma Şəmşəd kişi eyninin açılmasına görə enmirdi bağa. Allahdan yaza qədər möhlət istəmişdi: "Bircə yaz gəlsəydi, Yanıl almanı da Qara qoç kimi basdıra bilsəydim... Səndən ömür yox, möhlət istəyirəm, Allahım, sonra göndər mələyini, canımı alsın…"

Yanıl alma elə fırtınadan sonra olduğu kimi, üzüqoylu qalmışdı. Qızılı meyvə və yarpaqları çoxdan çürüyüb torpağa qarışmışdı. Qardan, sazaqdanmı, yoxsa yerdə qalıb çürüdüyündənmi ağacın qabıqları çatlaq-

çatlaq olmuşdu. Əl vurmasan, bəlkə elə oduncağı da yarpaqları kimi çürüyüb torpağa qarışacaqdı. Amma Şəmşəd kişi Yanıl almanı öz əlləri ilə torpağa gömmək istəyirdi (onsuz da, bu gün-sabah mənim də yerim oradı)! Torpağın altında ruhları bir-birini tapar, bəlkə o zaman Yanıl almanın ruhundan vaxtsız quruduğunun səbəbini də öyrənə bilərdi. Kişinin xəstə canına sanki yeni bir güc-qüvvət gəlmişdi. Ovuclarına tüpürüb belin sapından yapışdı. Yeri qazıb Yanıl almanı özü boyda bir qəbirə dəfn elədi. Əllərinin toprağını silib baxdı, önündə dünyanın ən uzun ağac qəbri uzanırdı.

Şəmşəd kişi bağdan qayıdan kimi yenidən yatağına uzanacaqdı və bir daha o yataqdan qalxmayacaqdı. Kim bilməsə də, Şəmşəd kişi yaxşı bilirdi ki, insan yaşadığı bədəndən ibarət deyil. Ölüm mələyi tərtəmiz bir aynadır, hərə onda öz üzünü görür. Şeytandırsa, şeytan görünür ona, mələkdirsə mələk: "Necə yaşayırsansa, elə də öləcəksən". Eşitmişdi ki, insan bədənini tərk edərkən nə düşünür, ya da düşünə bilirsə, o dünyada da qarşısına eyni şeylər çıxır. Meşədə yanğın çox zaman adamların iradəsindən asılı olmayaraq, öz-özünə baş verir. "Ölüm" deyilən şey də o qəfil meşə yanğını kimi bir şeydir, hardan gəldiyi bilinməz. Burada – bu hisli kərənindən ilanlar sallanan qara damla və damın altındakı bu fağır adamlarla onun nə əlaqəsi var?! Ölümöncəsi dodaqları zikr edəcəkdi: "Ey mənə bədən əmanətini verən Uca Tanrı, gəl verdiyin əmanəti məndən al, bədir-əl-qüvvə, onu bu günə qədər mən təmiz saxladım, bundan beləsi sənə qalır Bu dadsız dünya bezdirdi məni. Nə vaxtacan bu günəşin altında, dərdli-ahlı torpağın üstündə başımı girləyəjəm, ölməkdən başqa çarəm qalmadı. Ruh olmaq istəyirəm, xəstələnib öz ağırlığını özü çəkə bilməyən bu bədəni boş-boşuna daşımaqdan yoruldum. Ruhumun göylərə uçacağını hər kəsdən yaxşı bilirəm".

# TABUT QAPAĞINDAN QEYRİ, BÜTÜN QAPILAR QAPALI...

*“Göz qapdırdığım rəngdən,*
*Qulaq verdiyim səsdən.*
*Əfv et səndən xəbərsiz*
*Aldığım hər nəfəsdən...”*

*“...İnsanlar arasındakı bir cənazə törəni, bəlkə də mələklər arasında bir düyün törənidir”.*

“Bircə ölümümü bilmirəm” deyirdi, amma o, öldüyü vaxtı ilinə, ayına, gününə, hətta saatına qədər bilirmiş. Şəmşəd kişi həyatını ətrafındakı işarətləri oxuya-oxuya keçirmişdi. Və dünyada nə varsa – göy qurşağının da, dördqanadlı yoncanın da – hər şeyin nəyinsə xəbərçisi olduğunu bilirdi. Bildiyindən də, Şah beçənin oğurlanma, Qara qoçun boğulma, Yanıl almanın quruma dərdini bacardıqca içində çəkməyə çalışmışdı, amma çəkə bilməmişdi. Sakit gölə atılan daş göl sularını sahilə daşırdığı kimi, başına gələn, ürəyini dağıdan bu itkilərin dərdi də içindən çölünə daşmış, üz-gözünü tanınmaz hala salmış, belini bükmüş, onu yorğan-döşəklik etmişdi. Ölümü özü çağırmışdı, yolunu səbirsizliklə gözləyirdi, bir azdan gələcəkdi. Şah beçəni oğurladıb, Qara qoçu boğdurub, Yanıl almanı qurudan güc söyləmişdi ona ölümün yaxında olduğunu.

Bayırın qar, içərinin dar olan zamanı gəlmişdi. Kənddə başıpapaqlı qalmadığından, pərvanələr şamın başına yığılan kimi, xəstənin ətrafını qadın və uşaqlar çevrələmişdi. Hər daşını, ağacını, yuva quran qaranquş misalı, dimdiyində daşıdığı evi indi Şəmşəd kişinin məzarına çevrilirdi; barama qurdu misalı, özü öz ölüm qəfəsini toxuyub qurtarırdı: “İki gün yataqda, üçüncü gün torpaqda!” Məşum misalın gerçəkləşən zamanıydı.

Ana dirəklərin, yorğan-döşək taxçalarının arxasına sığınıb gözünün qorasını sıxan qadınlardan və mənasını anlamadıqları bu ölü sükutun içində boğulub qalan uşaqlardan başqa daxmanın altında kişi adına kimsə yoxdu. Qadınların xısın-xısın ağlaşması qulağına çatsa da, özünü o yerə qoymur, eşitməzliyə vururdu. Olub-bitənləri ağsaqqal fəhmi ilə bu xısın-xısın ağlaşmalardan çox əvvəl hiss etmişdi. Başının üstündəki hisli kərən də, buxarıda yanıb-yanıb öləziyən ocaq da sonun çatdığından xəbər verirdi...

Başını qaldırıb xısın-xısın göz yaşı tökən qadınlara, matdım-matdım ona baxan, bütün bu başverənlərin nə olduğunu hələ anlamayan uşaqlara baxdı, amma içindən keçənləri adamlara demək istəsə də, deməyəcəkdi: "Qar altında titim-titim titrəyən zavallı torpaq isinmək üçün yağlı bir loxma istəyir. Mən gedəcəm, onun da gözü doyacaq, hava da müvaxlaşacaq[1]. Səbirli olun, özünüzü itirməyin".

Bunlar Şəmşəd kişinin dilinə gəlməyə fürsət tapmayan fikirləri idi. Bəlkə sonun çatdığını bildiyindən də əvvəlcə oğlunu səslədi:

– Dur, yanıma gəl görüm, ay qaroğul, gəl halallaşaq.

Qaroğul qaradinməzin biri idi. Elə qaradinməzliyini bu dəfə də göstərəcəkdi. Dirəyin arxasındakı yükə söykənib durduğu yerdən əvvəlcə donuq gözləri ilə atasına tərəf boylandı, sonra da nə ağıl elədisə, atasının yanına yaxınlaşmaq yerinə, taxtın yanından sapıxıb bayıra qaçdı.

Şəmşəd kişi bu dəfə də üzünü qızına tutdu:

– Şövkətim, ayrılıq vədəsi çatdı, gəl halallaşaq.

Şövkət sanki atasının bu xırıltılı səsinə bənd idi, o da əlini üzünə tutub hönkürə-hönkürə bayıra üz tutdu, elə bil ilk dəfə qarşılaşdığı "ölüm" deyilən nəydisə, qaçıb əlindən qurtarmaq istəyirdi...

Şəmşəd kişi boynunun dönə biləcəyi qədər çevrilib qızının dalınca baxdı, nəsə demək istədi, səsi boğazında ilişib qaldı, çeçəyib uzun-uzun öskürdü, nəsə boğazında düyünlənmişdi elə bil çalışıb o düyünü açmaq istəyirdi. İçəridəki qadınlar kişinin öskürməsindən istifadə edib daha bərkdən ağlaşmağa başladılar. Şəmşəd kişi bir dəfə də homzunub başını yastıqdan qaldırmağa çalışdı, ətrafına baxındı. Gözü qardaş yadigarı Güzara sataşanda elə bil üzünə işıq gəldi:

---

[1] düzələcək

– Yaxın gəl görüm, ay qardaş, gəl halallaşaq.

Güzar evin ən kiçiyi idi. Kimsənin gözləmədiyi halda, çəkinib-eləmədən özünü əmisinin üstünə atdı. Kişinin nə vaxtdan bəri qırxılma-yan saqqalı üz-gözünü dalasa da, nəfəsindən gələn qəlyan qoxusu başını çatlatsa da, əmisinin boynuna sarıldı. Kimsə Güzardan bunu gözləmirdi, bəlkə Şəmşəd kişi də. Onluq lampa işığında kişinin göz yaşlarının cod, ağarmış saqqalı boyu işıldıya-işıldıya axdığını görmək çətin deyildi. Bil-mək olmurdu nədən ağlayır, sevincdən, yoxsa, son ayrılığın çəkilməz qəhrindən. Yeri oldu-olmadı, təkrarladığı bir fikir keçdi içindən: "Qar-şına çıxana xoş söz deməyə çalış, bəlkə bir daha onunla görüşəsi olma-dın!" Son gücünü toplayıb qardaş yadigarını öpdü.

– Məni bağışla, ay qardaş, – dedi (xəstələnib, yatağa düşdüyü vaxt-lardan əvvəl – kefinin duru vaxtlarında Güzarı "qardaş" deyə çağırmağı vardı). Nə öz övladlarıma atalıq eləyə bildim, nə də sənə. Allah Hitlerin evini yıxsın, yıxdı da. Atan müharibəyə getməsəydi, ya da onun əvəzinə mən getsəydim, o, kənddə qalsaydı, sənə də atalıq edərdi, mənim tifillə-rimə də... Neyləyim ki, mən bunu bajarmadım.

Damın altında bir-birinə sığınıb boyun büküb duran, dişlərini dişlə-rinə sıxıb dil deyib ağlamaqdan özlərini zorla saxlayan qadınların bu can-yaxan sözlərdən sonra iradələri əllərindən getdi, gözlərinin yaşı sel olub axmağa başladı. Amma bu ağlaşmalar Şəmşəd kişinin tövrünü dəyişib-eləmədi. Kim bilməsə də, Şəmşəd kişi bilirdi ki, ölməyi öyrənməyən adam insan kimi yaşamağı da bilmir, ölüb yaşamağı o hələ sağlığında öyrənmişdi. Son gücünü toplayıb, homzunub, ətrafda ağlaşan qadınlara gözucu bir də baxdı. Sonun gəldiyini hiss etdiyindən, ya nədənsə qardaşı oğlunun çaşqın gözlərinə təfərinc elədi və dodaqlarından heç özünün də gözləmədiyi kəlmələr yorğan-döşəyə töküldü:

– Bunları sənə tapşırıram, səni də Allaha!

Xısın-xısın ağlaşanların başını Gülsümdü çəkən. Bunun səbə-bi də vardı. İndiyə qədər qaynı onları korluq çəkməyə qoymamışdı, qədir-əl-qüvvə bacardığı qədər əl uzatmışdı. Güzar əmisinə atasına isinə-cək qədər isnismişdi. Bundan sonra halları-günləri nə olacaqdı? İndi son

nəfəsində qaynının dediyi son sözlər onu sevindirsə də, çaşdırıb-eləmədi, hələ sağlığında xəlvətə salıb gözünün qorasını tökmək istəyəndə qaynı neçə dəfə ona təsəlli vermiş, ümidləri ilə ovundurmuş, dərd çəkməyə qoymamışdı. Kişi qardaşı oğlunu dizlərinin arasına alıb, dəlləklərin ülgücünü yomuran cod-sərt saçlarını sığallayıb:

– Heç fikir-zad eləmə, a qızım, Allahın köməyi ilə, mən ölü, sən qalı, Güzar böyüyüb elə böyük kişi olajaq ki! Görərsən. Çürü, bunun üstündə çürüməyə dəyər. Peyğəmbərimiz yetim böyüyüb, dünyanın günəşi olmadımı, Güzar da olmaya. Allah nə istəyirsə, o da olur.

Kişi elə bil bu sözləri içinin harasınasa yazmışdı, oradan oxuyur, hər dəfə sözbəsöz, cümləbəcümlə təkrarlayırdı. İnsanın ruhu təkcə o dünyada yox, elə bu dünyada da gözəgörünməz mənəvi ruhlara bağlıdır və o ruhlar seçilmiş insanların qoruyucularıdır. Dünyasını vaxtsız dəyişənlərin demədikləri sözlərinin, yaşamadıqları ömürlərinin istədikləri adama ötürülə bildiyini bu anda anladı. Görünür, ona bu sözləri pıçıldayan vardı. Yoxsa niyə bu sözləri dost-doğma oğluna yox, ondan neçə yaş kiçik qardaşoğluna söyləyirdi. Ruh uşaq bədənindən gənclik bədəninə, gənclik bədənindən qocalıq bədəninə köçdüyü kimi, başqa bir bədənə keçə bilər. Ölüm ayağında özündən asılı olmayaraq dodaqlarından pıçıltı ilə çıxan "Allah" kəlməsi son təsəllisi olacaqdı. O lap çoxdan bilirdi ki, adam bu dünyada ölüm ayağında son dəfə nəyi düşünsə, düşünə bilsə, o dünyada ona həmin düşüncəsi yoldaşlıq edəcək. Qeyri-ixtiyari bir az öncə pıçıldadığı cümləni bir də təkrarladı:

– Bunları sənə tapşırıram, səni də Allaha!

Güzarın dünyanı dünya kimi qavramağa çatmayan ağlı bu gözlənilməz vəsiyyət qarşısında çaşıb qalmışdı: "Bunları sənə tapşırıram" nə deməkdi? Güzar əmisinin dərkiçətin son sözlərini götür-qoy etdikcə anasının hər dəfə təkrarladığı sözləri xatırladı: "Bilirsənmi, sən kimin oğlusan?"... "Bilirsənmi, sən kimin oğlusan?"

Bu, bəlkə heç damarlarından qayıdan əks-səda deyil, uşaqlığın o yeri doldurulmaz yetimlik, atasızlıq çağlarında anasının uydurduğu xəyali bir ümiddi. Bəs nə idi həsədlər, həsrətlər, atasızlıq məhrumiyyətlə-

ri içərisində keçilməsi mümkün olmayan yolları keçirən o gözəgörünməz qüvvə damarındakı ata qanı deyildisə, bəs nə idi? Neçin anaları oğullarına hər dəfə: "Onunla işiniz olmasın, o, qızıl ilan balasıdır, atası yolu yollanmış, itdi-mitdi, atasıdır, itələyib yerində durub", deyirdilər. Bəlkə bu kiçik arxları – qeyrət damarlarını oğlunun bədəninə çəkdikdən sonra atası müharibəyə beləcə, gözünü qırpmadan getmişdi. Çünki çəkdiyi qeyrət arxlarından sonsuza qədər onun ölümsüzləşən qanı axacaq, əbədiyyətin vaxt axarında sonsuza qədər yaşayacaqdı. Və beləcə, atası bədənindəki erkəklik, əbədiyyət toxumunu özündən sonrakı zamanlara ötürə bilmişdi. Atasının qanını bədəninin görünməz hücrə – vadilərinə daşıyan o küçük arxlar doğrudan da xırda-xırda ilanlar idi və yeri oldu-olmadı, hər kiçik haqsızlıq önündə əlüstü Güzarın varlığından baş qaldırırdı. Müharibədə olsa da, fərqi yoxdu, o, atasıyla çox öyünürdü, çünki atasının anasının söhbətlərindən yaranan kölgəsi üstündə idi... Bu, işıqlı dünyanın qaranlığa – torpağın altına ölüb dirilməyə gedən toxum xislətidir. Kəndli kül altda közünü, çoban sürüdə damazlıq heyvanını, bağban bağında damazlıq ağacını beləcə qoruyur. Buna, əslində, "dünyanın kişilik mayasını qorumaq" da demək olar... Çürüyə-çürüyə göyərmək, ölə-ölə dirilmək! Toxumun ölüb-dirilməsi həyatın əbədi və əzəli qanunudur! Bəs o?.. Bəs o, atası gedən yolu gedə biləcək, ömür yolçuluğunun ötürüm ağacı ola, əmisinin vəsiyyətinə əməl edib, onun tapşırıqlarını yerinə yetirə biləcəkdimi? Niyə əmisi nəsillərini öz oğluna yox, Güzara tapşırdı, bu fikri onun ağlına kim saldı? Bəlkə də anasının hər gecə çağırdığı mələklər idi, gəlib əmisinin dililə ona gələcəkdən xəbər vermişdilər: "Yaşayarıq, görərik!" Bu sualların yerdə cavabı yox idi, olsaydı, o bu cavabını çoxdan tapardı. Bu sualların cavabını tapmaq onun yaşının işi deyildi ki?! Özünü əmisinin uzun qış gecələri danışdığı nağıl qəhrəmanlarına bənzədirdi. Və bir gün onun da könül qapılarını əlində sehrli alma tutan bir dərviş döyəcək və o, damarlarından axan qanın sahibi olacaqdı.

Anasının söhbətlərindən, bir də damarındakı qandan ona dipdiri bir ata boylanırdı. Belə olmasaydı, əmisi hisli damın altında üzlərini göz

yaşlarıyla yuyan bu adamları niyə ona tapşırmalı idi ki?! Bunun səbəbini də, "barsız söyüd ağacının barı" olduğunu da Güzar biləcəkdi, amma bunlar sonralar olacaqdı, çox sonralar...

Şəmşəd kişi sözlərinin qardaşoğlunu çaşdıracağını əvvəlcədən bilən adam arxayınlığı ilə xırıltılı səslə sözünə davam etdirdi. Bilmək olmurdu bu sözləri qardaşı oğluna, gözlərinin qorasını töküb, dil deyib ağlayan qadınlara, pərdilərindən ilanlar asılan daxmanın his basmış kərənlərinəmi, ya da elə canını almağa gələn Əzrailəmi deyirdi?! Dünyadan gedən hər adam – varlı varını, yoxsul daxmasını arxada buraxır. Gedən, olsa-olsa, ancaq öz əməllərini özü ilə aparır... Bunlar Şəmşəd kişinin son sözləri oldu… Sonra gözləri tavana zilləndi; sinəsi qalxıb-enməyə, dodaqları səyriməyə başladı; kiminlə, nəyləsə danışırdı elə bil.

Bu zaman kimsənin gözləmədiyi hir hadisə baş verdi. Görünməz bir əl Şəmşəd kişinin divardakı sazına elə bir təzanə çəkdi ki, sazın qırılan simlərinin fəryadı damı başına götürdü. Sazdan qopan fəryadla Şəmşəd kişinin ağzından dəstələnən nəfəsi eyni anda çıxdı...

# ÖLÜM, HƏDƏLƏMƏ MƏNİ ÖLÜMLƏ, ÖLƏRƏM, SƏNİN DƏ SİRRİN AÇILAR...

*“Ölüm Tanrını görməkdir möminlər üçün.*
*Onlar ölümdən qaçmır, əksinə, ona doğru gedirlər...”*

Kaftar alaçalpolu o qışdan qış, yazdan yaz olan qara günün axşamı özünü yatağa güclə salmışdı. Zarafat deyil, səhərin gözü açılandan toran əlləşənə qədər şikəst ayağı ilə ayaq üstdə qalmışdı. Öz-özünə donquldanırdı: “Rəhmətlik belə bir dəfnə yaraşan adamdımı, şükür kəraminə, Allah, gərək sevdiyin adamı urvatsız eləmiyəydin. Mollasız, sidr-kafirsiz öldü, cənazəsinə girməyə bir kişi də tapılmadı. Mənim də kişiliyimi Allah kəssin, yarımcan. Yenə rəhmətliyin arvad-uşağı vardı, dilinə-ağzına çatdılar. Mən ölsəm, meyidim damların altında qalar”.

Belə fikirləşir, sonra da öz-özünü söyürdü:

– Çox matah canın var, bir də dünəndən ölsəydin, bu gün üç günün olardı. Odun-alovun içində ölüm haqqında fikirləşmirdin, indi nooluf, “ölüm” deyib durmusan. O odun-alovun içindən ki, sağ çıxdın, sana ölüm yoxdu, çibin olub duvara yapışecaqsan. Bir də, o qədər günah işlətmisən ki, Allah səndən bunun əvəzini o dünyada yox, bu dünyada çıxajaq, çıxır da, bəs bu çəkdiklərin nədir, sən ki bunu bilersən. Belə olmasaydı Allah adamı Kınkı, heç olmazsa, sən davadan gələndən sonrasa da üzünə baxardı.

Və beləcə, özü-özü ilə çeçikləşə-çeçikləşə gözləri yumulmuşdu Kamışın... Boz ayın yağışlı-günlü havasındanmı, ya gələn qara xəbərin ağırlığındanmı, bədəni uçum-uçum uçunur, əsgərlikdən gətirdiyi boz şinellinə bürünsə də, belini qayışla bərk-bərk çəksə də soyuq aşsüzənin deşiyindən axan su kimi bizə, iynəyə dönüb bədənini deşir. Bir yandan da Alabaş ayağına dolaşıb insan dili çıxarır: “Elə bildin, davadan şikəst qayıtmısan deyə, yaxandan əl çəkəcəm, ver mənim balalarımı, ver, hart-

har-hart...” Kaftar Alabaşın qəfil qayıtmağına mat-məəttəl qalıb. Yerdən daş götürüb iti vurmaq istəyir. Kəndin qorxaq itlərinin, yerə əyilməyinlə qaçmaqları bir olub, daşın dalınca qaçırlar. Amma atılan daşlar Alabaşın vecinə deyil. Qaçıb-eləmir, əksinə, Kamışı Qaroy İsrafil kimi parçalamaq istəyir. Yerdən alıb qorxa-qorxa itə atdığı daşlar havadaca yağlı tikəyə dönür, Alabaşa da sanki bu lazımdı, bu tikələri yerə düşməyə qoymur, elə göydəcə qapır. Uda-uda da: “Ver mənim balalarımı, ver, hart-hart”, deyib haray qoparır.

Daha yan-yörədə itə atmağa daş da qalmayıb. Şikəst ayağını sürüyə-sürüyə qaçmağa çalışır. Haraya qaçır, heç özü də bilmir. Bir də başını qaldırıb özünü Şəmşəd kişinin donqarbel evinin həyətində görür. Bura necə gəlib çıxdığına məəttəl qalır. Muradın qara kağızı gələndən bəri bu ağcaqayınlı həyətin həndəvərinə yaxın düşməmişdi axı?! Şəmşəd kişi ilə bu yerin altını da, üstünü də bilən kişi ilə qabaq-qənşər gələcəyindən qorxmuşdu. Bir-iki dəfə qarşılaşmışdılar, o da bu ağacaqayınlı həyətdə yox, kəndin içində, onda da Kamış bir bəhanə gətirib kişinin suallarına cavab verməkdən yayınmış, topal ayağını qaçaraq qoymuşdu. Yox, bu etdiklərini ağcaqayınlı həyətdə edə bilməzdi, nəmli gözləri onu ələ verə bilərdi. Şəmşəd kişi kimi arif adam Kamışın gözlərinə baxan kimi işin nə yerdə olduğunu biləcəkdi. Bunları bilə-bilə qurd ürəyimi yemişdi ki, bir yanını qaçaraq qoyduğu bu ağcaqayınlı həyətə gəlib çıxmışdı? Və qarşısına çıxan, tərs kimi, Şəmşəd kişinin özü idi. Çiyninə köhnə sırıqlısını atmışdı. Bilmək olmurdu sırıqlının altından bəmbəyaz ağaran tuman-köynəkdir, ya kəfən. Kamış nə edəcəyini bilmir. “Yolu yomrulaydı buraya gəlib çıxdığı yerdə”. Onu bu həyətə kim və nə gətirib çıxardı? Alabaş indi heç yadına da düşmür, sanki bir az əvvəl heç onunla qarşılaşmamışdı da.

Kişinin öskürəkli səsi düşüncələrini bölür, yenə öskürəyi başlayıb. Çəkdiyi qəlyanın təsirindənmi, ya da qardaş dağındanmı, son aylarda onu yenə göy öskürək tutmuşdu. Öskürdümü, gömgöy kəsilirdi. Əvvəllər çayın qarşı yamacındakı yarğanda yuva quran göyqarğalardan birini vurub gətirən olanda, kişi istəməsə də, ətindən dərman kimi yeyir, öskürəyi keçirdi. İndi davanın bu amansız vaxtlarında kim idi ona göyqar-

ğa vurub gətirən? Kınkımı, Kaftarmı? Bir kəndin ki başıpapaqlıları onlar ola, deməli, Allah o kəndin başını çoxdan batırıb. Şəmşəd kişi Kaftarı görəndə öskürməyinə ara verir:

– Ə, a Kaftar, ə, sən nə vaxt adam olajaqsan, ə? Bilerəm niyə gəlmisən, bəri ver, ə, daha qarınınki Qurandan keçib. Bilerəm, ürək eləmersən. Mən uşaq-zad döyüləm ha, çoxdan ürəyimə damıf, Muradın qara kağızı gəlif, niyə məndən gizlədirsən, hay? Bəri ver görüm o kağızı. A nöydərəməd oğlu, daha mənim bundan pis günümmü olajaq, hay? Son nəfəsimdə qoy ölübdüsə-öldüsünü, qalıbdısa-qaldısını bilem. Heç olmazsa, əlimdə son bir nam-nişanı olsun, ay insafsız.

Kaftarın hətta özündən belə gizlədiyi xəbəri indi Şəmşəd kişinin qızıl-qırmızı üzünə şappadan vurduğundan dili topuq çalır:

– Ay qağa, onu sənə hansı diliqurumuş xavar verdi? A kişi, özün də ağsaqqal adamsan, ikidən-birdən mən kimin məktubunu gizlətmişəm, sənnən də gizləyəm, heç elə şey olar? Vallah, məndə məktub-zad yoxdu.

Səsi sanki suyuqurumuş quyunun dibindən gəlir. Kaftar yalan danışmağı bacarmır, öz dediyinə özü inanmır, dünyagörmüş Şəmşəd kişi necə inanacaq?!

– Ə, Kaftar, vermersən, heç vermə, Murad sağ olsaydı, qurbanı qoyun olar, ağacı qurumaz, balı zəhərə dönməzdi. Ə, nəzir arını oğurladan, xeyrat almasını qurudan, qurbanlıq qoçu qurda yem edən Kişi çoxdan o qara xavarın gəldiyini mənə deyif, sən desən nə olajaq, deməsən nə?! Yaxşısı budur, kağızı maa ver. İndi verersən ver, vermesən şuğul üzündə qalajaqsan, onun hesabını səndən o dünyada soruşacağam, o dünyada, bildin?!

Şəmşəd kişinin qara sırıqlısı birdən-birə qara tabuta dönür, ağ tuman-köynəyi də ağ kəfənə, uzun qıllı barmaqlı əllərini həlqələyib Kaftarı boğmaq istəyir. Kaftar qorxusundan qışqırır və özü öz qışqırığına oyanır:

– Allah, sən özün saxla, bu nə yuxuydu mən gördüm?

O məşum gecədən sonra havalı gəzirdi Kaftar, hara çatırdı, yuxusunu danışırdı: "Ölü dirilərmi, ay camaat, vallah, bu dirilmişdi, ay başına

dönüm, əlindən canımı güclə qaçıb qurtardım. Ay kişi, sən demə, rəhmətlik sağlığında hər şeyi bilermiş, hər şeyi. Özüm-özümdən gizlədiyim xavarı ona kim çatdıra bilərdi ki?!"

Kaftar bu düşüncələr içində çaşbaş qalmışdı, bilmirdi nə etsin, qara meşin çantasında hər kəsdən gizlədiyi qara kağızları ünvanlarına çatdırsın, yoxsa yox? Çatdırsa, bütün kənd yasa boğulacaq, çatdırmasa, o dünyada yaxasından neçə əl yapışacaq!

Kaftarın bu yuxusu kənddə əfsanəyə dönüb ağız-ağız dolaşacaqdı...

* * *

Suyun həyatı axmasında, şimşəyinki çaxmasında, yelinki əsməsində, ürəyinki döyünməsindəydi... Su axıb, hayandasa qumsalda batır, bir də haçansa, hardasa yenidən üzə çıxmaq üçün; şimşək çaxıb iz buraxır, bir də haçansa, hardasa yenidən gözə görünmək üçün; yel əsir, sonra kəsir, bir də haçansa, hardasa yenidən əsmək üçün; ürək döyünür-döyünür, sonra sönür, bir də haçansa, hansı sinədəsə yenidən döyünmək üçün... Gözəgörünən, görünməyən nə vardısa, səssiz-səmirsiz, ilahi bir riqqət və nizamla oxuyurdu: "Yalnız bir din var – sevgi dini! Yalnız bir Allah var – hər yanda Var olan! Yalnız bir dil var – ruhun dili!.. Yalnız ucu-bucağı olmayan dənizlər, göylər əbədidir; yalnız Günəş, Yer və onların gözəlliyi əbədidir! Və yalnız insanların ruhunu və könlünü qərib məzarların qaranlıq ruhu ilə görünməz bağlarla bağlayan nədirsə, O, əbədidir..."

BİR DƏ BÜTÜN BUNLARI GÖRƏ VƏ DUYA BİLƏN İNSAN ƏBƏDİ!

**İz** (roman)
Məmməd İsmayıl

Korrektor: *Gülgəz Abbasova*
Dizayn: *Taleh Məlikov*
Səhifələmə: *Mahir Allahverdiyev*

Çapa imzalanmışdır: *17.04.2015*
Fiziki çap vərəqi:
Kağız formatı:
Tiraj: 1000